# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal




№ 4
2023

www.genprosecutor.gov.az



**Biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir.**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Talıb Cəfərov

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105-ci məhəllə.

**Tel. / Faks:** 361 14 02
**www.genprosecutor.gov.az**

***Elmi-praktiki jurnalın 4-cü nömrəsi***

***Oktyabr - Dekabr (2023-cü il)***

“Media haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 23.01.2024
60x84 1/8 formatda 208 səhifə həcmdədir.

© “Azərbaycan Prokurorluğu”, 2024

# MÜNDƏRİCAT

## ÖLKƏDƏ


**5** Müzəffər Ali Baş Komandan Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərləri, Əsgəran qəsəbəsi və Sərsəng su anbarının ərazisində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb

**15** İlham Əliyev Astanada Türk Dövlətləri Təşkilatının Zirvə görüşündə iştirak edib

**21** Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib

**28** İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının açılışında iştirak ediblər

**30** İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib

**33** COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib

**34** İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Rusiyanın Sankt-Peterburq şəhərinə işgüzar səfər edib

**38** Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı


## PROKURORLUQDA


**39** Baş Prokurorluqda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi hakimiyyətə gəlişinin 20-ci ildönümü qeyd edilib

**41** Baş prokuror Türkiyə Ali Məhkəməsinin sədri ilə görüşüb

**43** Baş prokuror Kamran Əliyev Pekində işgüzar səfərdə olarkən Çinin Baş prokuroru ilə görüşüb

**47** Baş prokuror Kamran Əliyev Ankarada işgüzar səfərdə olub

**51** Baş prokuror Türkiyənin Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyəti ilə görüşüb

**53** Baş Prokurorluqda "Zəfər Günü" münasibətilə tədbir keçirilib

**55** Baş prokuror Litvanın Xüsusi İstintaq Xidmətinin nümayəndə heyəti ilə görüşüb

**56** Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya qarşı Mübarizə Qurumunun Prezidentinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub

**59** Baş prokuror Tacikistanın müstəqil antikorrupsiya qurumunun rəhbəri ilə görüşüb

**63** Baş Prokurorluqda Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib

**66** Baş prokuror prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib

**68** Baş prokuror İranlı həmkarı ilə görüşüb

**69** Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclası keçirilib

**71** Prokurorluq əməkdaşları Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə və Dünya Azərbaycanlılarının Həmrəyliyi gününə həsr olunmuş tədbirdə iştirak edib

**72** Baş prokuror bölgələrdə vətəndaşları qəbul edib

**76** Hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçisi ilə Baş Prokurorluqda görüş keçirilib

**77** Baş Prokurorluqda mülki müdafiə üzrə tədbir keçirilib

**79** Baş Prokurorluğun Elm-Tədris Mərkəzi Daxili İşlər Nazirliyinin Polis Akademiyası ilə birgə elmi-praktik konfrans keçirib

**80** Elm-Tədris Mərkəzində "Təbii qazdan istifadə qaydalarının pozulması ilə əlaqədar insan ölümü və digər ağır nəticələrin qarşısının alınması sahəsində aktual problemlər" mövzusunda konfrans keçirilib

**82** "Heydər Əliyev İli" münasibətilə növbəti konfrans Göyçayda təşkil edilib

**84** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "Məhkəmə ekspertizası fəaliyyətinin nəzəri və təcrübi əsasları" mövzusunda təlim təşkil edilib

**85** Emosional-psixoloji vəziyyətə dair maarifləndirici təlim keçirilib

**86** Baş Prokurorluqda media nümayəndələri üçün interaktiv təlim keçirilib

**87** Prokurorluq əməkdaşları üçün "Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin təşkilinin aktual problemləri" mövzusunda təlim keçirilib

**88** Prokurorluqda "Maliyyə araşdırmasının forma və metodları" mövzusunda təlim keçirilib

**89** Elm-Tədris Mərkəzində istintaq və əməliyyat qurumlarının əməkdaşları üçün təlim təşkil edilib

**90** Astara şəhərində "Heydər Əliyev və müasir dövlət quruculuğu" adlı konfrans keçirilib

**92** Prokurorluq işçiləri "Natiqlik və sosial media ilə ünsiyyət" mövzusunda təlimə cəlb edilib

**93** Dövlətçiliyin qorunmasında Azərbaycan qadınının rolu mövzusunda elmi-praktik konfrans keçirilib

**94** Abşeronda "Heydər Əliyev və müasir dövlət quruculuğu" adlı konfrans keçirilib

**96** Respublika Hərbi Prokurorluğunda qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd və digər cinayətlər kollegiya iclasının gündəliyində olub

**98** Hərbi Prokurorluğunda "8 Noyabr – Zəfər Günü" qeyd olunub

**100** Hərbi Prokurorluğun təşəbbüsü ilə Sumqayıtda keçirilən tədbirdə son 20 ildə ölkəmizdə həyata keçirilmiş hərtərəfli köklü islahatlardan danışılıb

**102** Hərbi Prokurorluq Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Qəbələdə tədbir keçirib

**103** Respublika Hərbi Prokurorluğunda Ulu Öndər Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib

**106** Respublika Hərbi Prokurorluğu Dövlət Təhlükəsizliyi Xidməti ilə birlikdə Ulu Öndərin 100 illik yubileyi münasibəti ilə tədbir keçirib

**107** Ulu Öndərin 100 illik yubileyi ilə bağlı Hərbi Prokurorluğun tədbirləri Beyləqan, Xocavənd və Füzuli rayonlarında davam etdirilib

**108** Hərbi Prokurorluq Dövlət Sərhəd Xidmətinin Akademiyasında Ulu Öndərin 100 illik yubileyi ilə əlaqədar tədbir keçirib

**109** Naxçıvan hərbi prokurorluğunda "Qalib Azərbaycanın Müzəffər Ali Baş Komandanı" adlı tədbir keçirilib

**110** Hərbi Prokurorluq Qazaxda Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə birgə tədbir keçirib

**112** Hərbi Prokurorluq Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Ağcabədidə tədbir keçirib

**113** Hərbi Prokurorluq Ulu Öndərin 100 illik yubileyi ilə bağlı Lənkəran şəhərində tədbirlər keçirib

**115** Hərbi Prokurorluq Ulu Öndərin 100 illik yubileyi ilə bağlı Şuşada tədbir keçirib

**116** Hərbi Prokurorluq Ulu Öndərin 100 illik yubileyi ilə bağlı Xankəndidə tədbir keçirib

**117** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi hakimiyyətə gəlişinin 20-ci ildönümü qeyd edilib

**117** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə narkomaniyaya qarşı maarifləndirmə tədbirləri keçirilib

**119** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları internat məktəbinin şagirdlərini ziyarət ediblər

# MÜNDƏRİCAT


**119** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Naxçıvan Dövlət Universitetində maarifləndirici tədbir keçirilib

**120** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "8 Noyabr – Zəfər Günü" münasibəti ilə tədbir keçirilib

**121** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda mülki müdafiənin təşkili ilə əlaqədar tədbir keçirilib

**121** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "Məhkəmə ekspertizasının təyin olunmasının xüsusiyyətləri" mövzusunda tədbir keçirilib

**122** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi Ulu Öndər Heydər Əliyevin xatirəsini yad edib

**122** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun nümayəndəsi "ELSA Naxçıvan" təşkilatçılığı ilə keçirilən tədbirdə iştirak edib

**123** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən "Heydər Əlıyev İli" çərçivəsində Naxçıvan Dövlət Universitetinin Tibb Kollecində tədbir keçirilib


## BEYNƏLXALQ ƏLAQƏLƏR


**124** Prokurorluğun nümayəndə heyəti İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) korrupsiyaya qarşı mübarizəyə dair yüksək səviyyəli tədbirində iştirak etmişdir

**125** Baş Prokurorluğun nümayəndəsi Avropa Şurasının ekspert komitəsinin iclasında iştirak edib

**125** Prokurorluğun əməkdaşları korrupsiyaya qarşı mübarizə sahəsində Estoniya təcrübəsi ilə tanış olubla

**126** Baş Prokurorluq tərəfindən beynəlxalq əməkdaşlıq sahəsində əlaqələr uğurla inkişaf etdirilir

**127** Baş Prokurorluğun əməkdaşı Avropa Prokurorlarının Məşvərət Şurasının plenar iclasında iştirak edib

**127** Prokurorluq əməkdaşları "Tvinninq" layihəsi çərçivəsində təşkil olunmuş tədris turunda iştirak edib

**128** "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı Tvinninq layihəsi üzrə təlimlər davam etdirilir

**129** Baş Prokurorluğun nümayəndəsi Moskvada baş tutmuş beynəlxalq tədbirdə iştirak edib

**130** Prokurorluğun nümayəndə heyəti Özbəkistana səfər edib

**131** Prokurorluq əməkdaşları beynəlxalq təşkilat tərəfindən təşkil olunmuş seminarda iştirak edib

**132** Baş Prokurorluğun nümayəndə heyəti İtaliyada keçirilən təlimdə iştirak edib

**132** Baş Prokurorluğun nümayəndəsi Buxarest şəhərində keçirilmiş təlimdə iştirak edib

**133** Baş Prokurorluğun nümayəndəsi Astana şəhərində təşkil olunan seminarda iştirak edib

**134** Prokurorluq orqanları tərəfindən beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində işlər davam etdirilir

**134** Baş Prokurorluğun nümayəndəsi Minsk şəhərində keçirilmiş beynəlxalq elmi-praktik konfransda iştirak edib

**135** Baş Prokurorluğun nümayəndəsi Özbəkistanda keçirilən beynəlxalq konfransda iştirak edib

**136** Baş Prokurorluğun nümayəndəsi Strasburqda keçirilmiş beynəlxalq tədbirdə iştirak edib

**136** Azərbaycan Prokurorluğu beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı uğurla davam etdirir

**137** Baş Prokurorluğun nümayəndələri Ankara şəhərində keçirilən "Türk hüquq tarixi" mövzusunda konfransda iştirak edib

**138** Rusiya Federasiyası Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub

**139** Prokurorluq əməkdaşları Türkiyədə işgüzar səfərdə olub

**140** Baş Prokurorluğun nümayəndəsi Astanada keçirilmiş beynəlxalq tədbirdə iştirak edib

**141** Tacikistan Prokurorluğu ilə əməkdaşlıq uğurla davam etdirilir

**141** Prokurorluq işçilərinin iştirakı ilə Polis Akademiyasında beynəlxalq elmi-praktiki konfrans keçirilib


## PROKURORLUQ VƏ CƏMİYYƏT


**143** Prokurorluğun Mətbuat xidmətinin məlumatları

**149** Tovuz rayonunda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib

**151** Füzuli rayonunda "Narkomaniya ilə mübarizədə prokurorluğun rolu" mövzusunda tədbir keçirilib

**152** Şamaxıda Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib

**153** Astara rayon prokurorluğunda "Açıq qapı günü" keçirilib

**154** Abşeron rayon prokurorluğunda "Açıq qapı günü" keçirilib

**155** *Şəfahət İmranov* – Ulu Öndər Heydər Əliyev prokurorluğun da hamisi idi.

**158** *Ceyhun Qaracayev* – İnsan hüquqlarının müdafiəsi sahəsində səmərəli cinayət araşdırması prinsipinin rolu və əhəmiyyəti

**162** *Firad Əliyev* – Xalqımıza qarşı törədilmiş heç bir cinayət cəzasız qalmayacaq.

**164** *Нигяр Аскерова* – Преступления против несовершеннолетних в Азербайджанской Республике

**169** *Sevinc Şıxəliyeva* – Müasir Azərbaycan Prokurorluğunun memarı – Heydər Əliyev


## İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE


**172** *Əmir Ocaqverdiyev, Nigar Əsgərova* – Cinayət mühakiməsində blokçeyn texnologiyalarından mümkün istifadənin xüsusiyyətləri

**177** *Yasin Mikayıllı* – Mülkiyyət əleyhinə cinayətlərlə mübarizənin müasir problemləri


## HƏMKARLARIMIZLA MÜSAHİBƏ


**182** Интервью директора Агентства по государственному финансовому контролю и борьбе с коррупцией Республики Таджикистан Сулаймон Султонзода


## PROKURORLUĞUN VETERANLARI


**184** Baş prokuror tərəfindən qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçisi təltif olunub

**184** Baş prokuror Kamran Əliyev prokurorluğun veteranları ilə görüşüb

**186** Qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçisi ilə görüş keçirilib

**186** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluğun veteranları ilə görüş keçirilib

**187** Prokurorluğun veteranı Mahir Tağıyevin "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi


## HÜQUQİ AKTLAR


**195** Qanunvericiliyə dəyişikliklər

## Müzəffər Ali Baş Komandan Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərləri, Əsgəran qəsəbəsi və Sərsəng su anbarının ərazisində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Sərsəng su anbarının ərazisində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Sonra dövlətimizin başçısı su anbarının ərazisinə baxdı.

Qeyd edək ki, mühüm strateji əhəmiyyətə malik Sərsəng su anbarı Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilib. 1976-cı ildə Ümummilli Lider Heydər Əliyev su anbarının açılışında şəxsən iştirak edib.

Sərsəng su anbarı Azərbaycanın ən bolsulu çaylarından olan Tərtərçayın üzərində yerləşir. Ümumi həcmi 560 milyon kubmetr olan su anbarı Qarabağ iqtisadi rayonunun ən iri su hövzəsidir. Bəndin hündürlüyü 125, uzunluğu 555, eni isə 10,2 metrdir. Sərsəng su anbarı vasitəsilə Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Yevlax və Goranboy rayonlarında, ümumilikdə 96 min hektardan çox ərazi suvarılır. Su anbarının bəndində ümumi gücü 50 meqavat olan su elektrik stansiyası tikilib.

***




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Sonra dövlətimizin başçısı əraziyə baxdı.




Qeyd edək ki, Ağdərə şəhəri 1993-cü il iyunun 27-də işğal olunub. Bu il sentyabrın 20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Ağdərə şəhəri separatçılardan təmizlənib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Dövlətimizin başçısı burada çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

– Əziz həmvətənlər.

Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək.





İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır.

Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır.

Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror əməliyyatı bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik.

Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

Keçən ay antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki,



biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın.

Vətən müharibəsi cəmi 44 gün çəkdi. Bütün bu günlər ərzində dəfələrlə xalqa müraciət edərək, eyni zamanda, düşmənə müraciət edərək bildirmişdim ki, silahları yerə qoyun, torpaqlarımızın azad olunmasının qrafikini, tarixini verin və biz müharibəni dayandırmağa hazırıq. Biz Şuşanı - bizim müqəddəs ocağımız olan, alınmaz qala sayılan Şuşanı azad edəndən sonra artıq düşmən öz məğlubiyyətini dərk etdi, ağ bayraq qaldırdı və biz müharibəni dayandırdıq.

Xatırlayıram, o vaxt bəziləri sual verirdi: Nə üçün, nə üçün biz o vaxt - noyabrın 10-da müharibəni dayandırmağa razılıq verdik. Bu gün bax, burada durarkən bir daha bildirmək istəyirəm ki, biz hər şeyi vaxtında etməliyik və etmişik. Azərbaycan xalqının böyük əksəriyyəti o vaxt da - noyabrın 10-da və ondan sonrakı dövrdə çox yaxşı başa düşürdü ki, biz istədiyimizə nail olacağıq. İstədiyimiz isə bax, burada dalğalanan Azərbaycan Bayrağıdır.

Azərbaycan xalqı mənə 20 il bundan əvvəl böyük etimad göstərmişdir və bu illər ərzində mən bunu hər zaman hiss etmişəm, bu inam daha da artmışdır. Bu gün vaxtilə - hələ işğal dövründə dediyim sözlər və xalq tərəfindən təkrarlanan sözlər mənim üçün ən böyük mükafatdır. Mən o vaxt demişdim ki, nəyi, necə, nə vaxt etmək lazımdır, onu mən bilirəm. İkinci Qarabağ müharibəsi dayananda da Azərbaycan xalqı bilirdi ki, mən bunu bilirəm. O gündən üç il keçməmiş biz bu gün buradayıq, Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər.

Bu il "Heydər Əliyev İli"dir. Biz Heydər Əliyevin 100 illiyini il boyunca qeyd edirik. Necə qeyd edirik? Onun siyasətinə, onun tarixi irsinə hörmət göstərərək, onun siyasətini davam etdirərək qeyd edirik. Mən Ulu Öndərin ad gününü Şuşada keçirdim. Bilirəm, o vaxt bəziləri sual verirdi ki, təntənəli iclas harada keçiriləcək, təntənəli iclasda kim çıxış edəcək, hansı xarici qonaqlar gələcək? Sonra da gördülər ki, heç bir təntənəli iclas keçirilməmişdir. Nə üçün? Ona görə ki, bizim Ulu Öndərin xatirəsinə hörmətimiz əməli işlərlə ölçülməlidir. Bu, birincisi. İkincisi, Heydər Əliyev çox təvazökar insan idi, heç vaxt təmtəraqlı mərasimlər keçirmirdi. Onun 50 illiyini mən yaxşı xatırlayıram. 1973-cü ildə evdə ancaq ailə üzvləri onu qeyd etdik. Altmış illiyini də



xatırlayıram, o zaman Moskvada çalışırdı. Orada da heç bir qonaq yox idi. Yetmiş illiyini Naxçıvanda oraya gələrək atamla birlikdə qeyd etmişdim. Səksən illiyini isə,- artıq sağlamlığı o qədər də yerində deyildi, - Ankarada xəstəxanada, xəstəxananın yeməkxanasında keçirmişik. Ona görə də atamın 100 illiyini bizim üçün böyük rəmzi məna daşıyan, hər bir azərbaycanlının ürəyində yaşayan Şuşada qeyd etməli idim. Orada Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi dedim. Bu gün Ulu Öndərin, bizim bu günü görməyən bütün həyatdan gedənlərin ruhları şaddır. Onların ruhlarını şad edən biz olmuşuq, Azərbaycan xalqı olub, onların davamçıları olub.

Ulu Öndərin 100 illiyini qeyd etdiyimiz vaxtda bu gün burada olmağım, əlbəttə ki, böyük rəmzi məna daşıyır. Onu da bildirməliyəm ki, Azərbaycan torpağında heç bir tarixi, coğrafi və siyasi əsası olmayan Dağlıq Qarabağ Muxtar Vilayəti də 100 il bundan əvvəl - 1923-cü ildə yaradılmışdır. Bu, 100 ilin tarixidir. Görün, bu 100 il ərzində xalqımız nə qədər əzab çəkib, tarix bizi nə qədər sınağa çəkib. Əyilmədik, sınmadıq, o boyda böyük faciə ilə təkbaşına üz-üzə qalmışdıq, heç kim bizim yanımızda durmadı. Torpaqlarımız işğal altına düşəndə heç bir ölkə arxamızda dayanmadı, heç mənəvi dəstək də göstərmədilər. Bütün əsas güclər Ermənistanın arxasında idi və bugünkü tarix onu bir daha göstərir. Baxın görün, bu gün Azərbaycana ən çox düşmənçilik edən hansı ölkələrdir. Həmin ölkələr ki, o vaxt -1992-1993-cü illərdə Ermənistanın yanında idi, onları işğala təhrik edirdi, işğalı dəstəkləyirdi və onlara bəraət qazandırırdı. Heç nə dəyişməyib bu 30 il ərzində. Xalqımız böyük faciələrlə üz-üzə qalmışdı, 1 milyon insan evsiz-eşiksiz qalmışdır, torpaqlarımız tamamilə dağıdılmışdır. Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan öz gözləri ilə erməni vəhşiliyini görür. Bir dənə salamat bina qalmayıb. Bizə qarşı etnik təmizləmə aparılmışdır. Bizə qarşı soyqırımı törədilmişdir, Xocalı soyqırımı. Ondan çox ölkə Xocalı soyqırımını tanıyıb, “Xocalıya ədalət!” hərəkatı geniş beynəlxalq vüsət almışdır. Bax, o çətin dövrdən bu günə qədər keçdiyimiz yol şərəf və ləyaqət yoludur. Biz toparlandıq, güc yığdıq. Azərbaycan xalqı 1993-cü ildə öz müdrikliyini bir daha göstərmişdir, Ulu Öndər Heydər Əliyevə dəstək vermişdir, onu prezident vəzifəsinə seçmişdir və o vaxtdan bu günə qədər inkişaf yolu ilə gedir. Son 20 il ərzində isə bu inkişaf daha da sürətlidir və bütün sahələrdə özünü göstərir.

Bu bina keçən əsrin 60-cı illərində inşa edilmişdir, Azərbaycan büdcəsi hesabına. O vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin binası idi. Buna partkom binası deyirdilər. Bu binada bir çox şəxslər oturub. Vaxt var idi burada azərbaycanlılarla ermənilər dostluq şəraitində yaşamışdır. Vaxt var idi nəinki Xankəndidə, Qarabağda, Bakıda, Gəncədə, İrəvanda, Göyçədə, Zəngəzurda, Dərələyəzdə, Basarkeçərdə azərbaycanlılar və ermənilər dostluq şəraitində yaşamışlar. Mən o illəri xatırlayıram və xüsusilə Heydər Əliyev sovet Azərbaycanında rəhbərliyə gələndən sonra Qarabağda o vaxta qədər olmuş bəzi millətçi qüvvələr tamamilə kənara çəkilmişdi. Düz 18 il. 1969-cu ildən 1982-ci ilə qədər bir dənə də xoşagəlməz hala rast gəlinməmişdi. Mən xatırlayıram, atamla birlikdə burada olmuşam. O ab-havanı mən xatırlayıram. Burada, sözün əsl mənasında, səmimi bir ab-hava şəraitində təmaslar var idi, birgə işlər görülürdü. Bu gün Sərsəng su anbarının üzərində Azərbaycan Bayrağını qaldırdıq. Heydər Əliyevin təşəbbüsü ilə bölgənin, kənd təsərrüfatının inkişafı üçün 1976-cı ildə Sərsəng su anbarı, Suqovuşan su anbarı inşa edilmişdir. O vaxt nə qədər böyük investisiyalar qoyulmuşdu. Ağdamdan Xankəndiyə dəmir yolu çəkildi, burada ali məktəb yaradıldı və Xankəndidə gördüyünüz binaların mütləq əksəriyyəti məhz o illərdə inşa edilmişdir. Kənd təsərrüfatı inkişaf edirdi. O vaxt təkcə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti 100 min tondan çox üzüm tədarük edirdi.

Bütün bunlar o vaxt kolxozlarda, sovxozlarda işləyənlər üçün gəlir mənbəyi idi, insanlar burada yaxşı yaşayırdı. Heç bir ayrı-seçkilik, diskriminasiya olmamışdır. Bu sözlərimi təsdiq etmək üçün bir misal gətirə bilərəm, o vaxt Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya komitəsinin doqquz nəfərdən ibarət büro üzvü var



idi. Onlardan səkkizi erməni, biri azərbaycanlı idi, o da Şuşa Şəhər Partiya Komitəsinin birinci katibi. Yaxşı, əgər ayrı-seçkilik var idisə, onda bax, gətirdiyim misal nəyi göstərir? Birinci katib erməni, icraiyyə komitəsinin sədri erməni, bütün digər vəzifəli şəxslər, burada heç bir ayrı-seçkilik yox idi. Azərbaycanda erməni dilində qəzet dərc edilirdi, yəni, o illərdə olub və bilirsiniz biz o illəri də kənara qoya bilmərik. Əksinə, o illəri xatırlayanlar o xatirələri gənc nəsillə bölüşsünlər. Çünki o olub, ancaq sonra nə olub? 1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldı, Sovet İttifaqı Kommunist Partiyasının büro üzvlüyündən çıxarıldı. Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən də çıxarılmışdı. İki həftə keçməmiş erməni millətçiləri məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycandan Ermənistana verilsin. Bunu da qaldıran Moskvada oturan erməni millətçisi idi. Bu məsələ harada qaldırıldı, Fransanın bir qəzetində, yenə Fransa. Yəni, bu gün o tarixə qayıdarkən və o hadisələri təhlil edərkən bir daha görürsən ki, heç bir şey təsadüfi olmayıb. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi faktiki olaraq vəziyyəti nəzarətdən buraxdı, qorxaqlıq, acizlik, qətiyyətsizlik göstərdi. Faktiki olaraq o vaxt millətçilər buranı zəbt eləmişdilər, bax, bu meydanda nə qədər anti-Azərbaycan şüarı ilə mitinqlər keçirilmişdir və bütün bunlar millətçiləri daha da ruhlandırırdı. Ermənistandan buraya durmadan erməni millətçiləri, daşnaklar, qaniçənlər, beynəlxalq terrorçular gəlirdilər. Xalqımıza qarşı etnik təmizləmə siyasəti məhz buradan başlamışdı. Bax, o illərdə o binada oturanlar, bütün erməni və Azərbaycan xalqlarının faciələrinin səbəbkarlarıdır. Cəmi altı il Azərbaycan Heydər Əliyevsiz qalmışdır və bu altı il bizim üçün faciəvi, böhranlı, utancverici illər kimi tarixdə qaldı. Torpaqlar işğal altına düşdü, bir-birini dəyişən antimilli hökumətlər faktiki olaraq ancaq öz şəxsi maraqlarını qorumağa çalışırdılar, həm sovet dövründə, həm müstəqillik dövründə. Xüsusilə AXC-Müsavat antimilli cütlüyünün xəyanətkar və satqın fəaliyyəti nəticəsində bütün bu boyda ərazi işğal altına düşdü, sonra da qorxaqcasına öz vəzifələrini guya donduraraq kənara çəkildilər.

Yenə Heydər Əliyevin dühası, onun siması, Heydər Əliyev amili Azərbaycan xalqının yardımına yetişdi və biz haqlı olaraq Ulu Öndəri Xilaskar adlandırırıq. O vaxt Azərbaycanın dövlət müstəqilliyi əldən gedə bilərdi.

Bu binada ən ali kürsüdə oturanların bəziləri indi Bakıdadır. Onlar Bakıya gəlmək istəyirdilər, onlar bizi hədələyirdilər, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq, haqlı çıxdılar. Onların tankları Hərbi Qənimətlər Parkındadır. Onlar deyirdilər ki, Bakıya gəlib çay içəcəklər. Burada da haqlıdırlar. İndi çay içirlər, istintaq təcridxanasında. Özünü "prezident" adlandırmış üç tələxək bax, burada oturub bizə meydan oxuyurdu, bizi hədələyirdi, bizi təhqir edirdi. Biz isə təmkinlə hər şeyə yanaşdığımız kimi, bu məsələyə də təmkinlə və səbirlə yanaşırdıq. Çünki bilirdik ki, biz buraya gələcəyik. Mən bunu bilirdim. Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il. Üç il bundan əvvəl Şuşada bizim Bayrağımız qaldırıldı. Ancaq biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda, öz ləyaqətimizi bərpa etmişik.

Bax, burada oturmuş özünü "prezident" adlandıran 3 tələxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü "baş nazir" adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir. Burada özünü "xarici işlər naziri" adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar! Əgər yenə də Ermənistanda hansısa qüvvə revanş haqqında düşünürsə, bax, bu kadrlara yaxşı baxsın.

Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

***

Sonra dövlətimizin başçısı şəhərin ərazisinə baxış keçirdi.



Xankəndi şəhərinin komendantı, polis general-mayoru Sərdar Səfərov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub.

Dövlətimizin başçısı qəsəbənin ərazisinə baxış keçirib.





Qeyd edək ki, qəsəbə 1991-ci il dekabrın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Bu il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycan Ordusu Kərkicahan qəsəbəsini separatçılardan azad edib.

***





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Malıbəyli kəndində olub. Dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirdi.





Xatırladaq ki, Malıbəyli kəndi 1992-ci il fevralın 11-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Kənd 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizlənib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Sonra dövlətimizin başçısı şəhər ərazisinə baxış keçirdi.

Qeyd edək ki, Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə işğal olunub. Erməni işğalçıları Xocalıda Azərbaycan xalqına qarşı tarixin ən qanlı soyqırımlarından birini törədib. Bu soyqırımı nəticəsində 613 dinc sakin qətlə yetirilib.

Xocalı şəhəri 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda







keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib. Bu şəhərdə Azərbaycan Bayrağının dalğalanması Xocalı faciəsi qurbanlarının qanının yerdə qalmadığını bir daha nümayiş etdirir.

***







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı rayonunun Əsgəran qəsəbəsində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Sonra dövlətimizin başçısı qəsəbə ərazisinə baxış keçirdi.

Qeyd edək ki, Əsgəran qəsəbəsi 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub.

Qəsəbə 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində separatçılardan təmizlənib.

***







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Əsgəran qalasında olub.

Dövlətimizin başçısı Əsgəran qalasına və əraziyə baxış keçirdi.

Qeyd edək ki, XVIII əsrdə Qarabağ xanı Pənahəli xanın göstərişi ilə inşa olunan Əsgəran qalası Azərbaycan memarlığının parlaq nümunələrindəndir. Qala Şuşadan 24, Xocalıdan isə 5 kilometr məsafədə yerləşir. Xocalı şəhəri 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduqdan sonra qala dağıntılara məruz qalıb.

Bu il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Əsgəran qalası separatçılardan azad edilib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocavənd şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Sonra dövlətimizin başçısı şəhər ərazisinə baxış keçirdi.

Qeyd edək ki, Xocavənd şəhəri 1992-ci il oktyabrın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib.

Şəhər 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra separatçılardan təmizlənib.




# İlham Əliyev Astanada Türk Dövlətləri Təşkilatının Zirvə görüşündə iştirak edib

Noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.






Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Zirvə görüşünü açaraq qonaqları salamladı. Prezident Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi və Azərbaycan xalqını ölkəmizin ərazi bütövlüyünün bərpası münasibətilə təbrik edərək dedi: "Hörmətli İlham Heydər oğlu Əliyevi və Azərbaycan xalqını dövlətçiliyin möhkəmləndirilməsi münasibətilə təbrik edirəm. Ölkəniz ərazi bütövlüyünü bərpa edib və yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu tarixi addım Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq atılıb".

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Zirvə görüşündəki çıxışında son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlardan söz açaraq dedi: "Sizin də yaxşı bildiyiniz kimi, dost Azərbaycan xalqı Türk dünyasında layiqli yer tutur, böyük hörmətə və nüfuza malikdir. Azərbaycan xalqı son illər əziz dostum İlham Heydər oğlunun rəhbərliyi ilə möhtəşəm uğurlar əldə edir".

Prezident Şavkat Mirziyoyev, həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi genişmiqyaslı tədbirlərdən danışdı. "Tarixi ədalət zəfər çaldı. Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağın quruculuq ərazisinə çevrilməsi istiqamətində mühüm nəticələr əldə olunur. Avqust ayında Şuşa və Füzuli şəhərlərində olarkən irimiqyaslı quruculuq işlərinin, müasir infrastrukturun yaradılmasının, dağıdılmış mədəni irs obyektlərinin bərpasının şəxsən şahidi oldum. Azərbaycan xalqını böyük Zəfər – ölkənin ərazi bütövlüyünün tam bərpası münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm", – deyə Özbəkistan Prezidenti vurğuladı.

Dövlətimizin başçısı Zirvə görüşündə çıxış etdi.



## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı



– Hörmətli Kasım-Jomart Kemeleviç,
Hörmətli dövlət və hökumət başçıları,
Əziz dostlar,

İlk növbədə, qonaqpərvərliyə görə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə təşəkkür edir və qardaş Qazaxıstana Türk Dövlətləri Təşkilatına qarşıdan gələn sədrliyi dövründə müvəffəqiyyətlər arzulayıram. Türk Dövlətləri Təşkilatına bir il ərzində uğurlu sədrlik münasibətilə qardaş Özbəkistanı təbrik edirəm.

Yenidən Astana şəhərində olmağıma şadam. Bu, son 2 ildə Qazaxıstana üçüncü səfərimdir. Hər səfərimdə Qazaxıstanda uğurlu islahatların və genişmiqyaslı quruculuq işlərinin həyata keçirilməsinin şahidi oluram. Bütün əldə edilmiş uğurlar münasibətilə Qazaxıstan rəhbərliyini təbrik edirəm.

Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz münasibətlərimizin təməlini təşkil edir. 2009-cu ildə Naxçıvan Zirvə görüşündən ötən müddət ərzində müxtəlif sahələrdə əməkdaşlığımız təsisatlanıb, Türk Dövlətləri Təşkilatı uğurlu inkişaf yolu keçib. Bu gün təşkilatımız beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malikdir.

Son iki il ərzində mən Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərə 20 səfər etmişəm. Qardaş dövlətlərin rəhbərləri də həmin dövr ərzində Azərbaycana çoxsaylı səfərlər ediblər.

Oktyabr ayında Şuşa şəhərində Birinci Türk Dünyası Mədəniyyət Forumu təşkil edilmişdir. Fürsətdən istifadə edərək, Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsinə verdiyiniz dəstəyə görə minnətdarlığımı bildirirəm.

Azərbaycan Türk dövlətlərinin iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur. Bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir.

Birgə sərmayə fondlarının yaradılması prosesi başlamışdır. Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğızıstan İnkişaf Fondu yaradıldı.

2022-ci ilin müvafiq dövrü ilə müqayisədə, 2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanın Türk dövlətləri ilə ticarət dövriyyəsi 40 faiz artmışdır.

Münasibətlərimizin inkişafı kontekstində nəqliyyat və logistika sahələri mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqləyib.

Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə öz dəyərli töhfəsini verir.

Hörmətli həmkarlar,

Əfsuslar olsun ki, bu gün dünyanın müxtəlif bölgələrində beynəlxalq hüquq normaları kobudcasına pozulur. Müharibələr, qanlı münaqişələr alovlanır. Belə olan halda, ilk növbədə, ölkələrin müdafiə potensialı təhlükəsizliyin əsas zəmanətinə çevrilir. Hesab edirəm ki, üzv ölkələr arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlıq daha da artmalıdır.

Bildiyiniz kimi, 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlamış və burada qeyri-qanuni qondarma rejim yaratmışdı. Ermənistan tərəfindən həyata keçirilmiş etnik təmizləmə nəticəsində bir milyondan artıq azərbaycanlı öz dədə-baba yurdlarından qovulmuşdur. Ermənistan şəhər və kəndlərimizi yerlə-yeksan etmiş, tarixi və dini abidələrimizi dağıtmış və təhqir etmişdir.

Bütün bu illər ərzində Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin Ermənistanın məqsədi işğala əsaslanan status-kvonu möhkəmləndirmək idi.

Ermənistanın baş nazirinin 2019-cu ildə o vaxt işğal altındakı Xankəndi şəhərində "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması danışıqlara son qoydu. Ermənistan rəhbərliyi o vaxt Azərbaycanı "yeni torpaqlar uğrunda yeni müharibə" ilə hədələyirdi.

2020-ci ildə Ermənistan rəhbərliyinin təxribat xarakterli hərəkətləri və bəyanatları, o cümlədən hərbi təxribatları İkinci Qarabağ müharibəsini qaçılmaz etdi.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə edərək Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı və ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən və 27 il kağız üzərində qalmış 4 qətnaməsinin icrasını özümüz təmin etdik. Cəmi 44 gün ərzində davam edən İkinci Qarabağ müharibəsi 10 noyabr 2020-ci il tarixində Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir.

Ermənistanın ölkəmizə qarşı işğalçılıq və etnik təmizləmə siyasətinə baxmayaraq, məhz Azərbaycan Ermənistanla sülh sazişi imzalamağa hazır olduğunu bəyan etdi və beş baza prinsipini təqdim etdi.

2022-ci ildə Ermənistan Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıdığını bəyan etsə də, onun real əməlləri tamamilə məntiqsiz və təzadlı idi. Ermənistan ordusunun qalıqları Azərbaycanın suveren ərazilərində qalmaqda davam edirdi. Ermənistanın baş nazirinin bu il sentyabrın 2-də qondarma qurumun dırnaqarası "müstəqilliyi"ni təbrik etməsi və Qarabağda keçirilmiş 9 sentyabr dırnaqarası "prezident seçkiləri" ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlik və birbaşa təhdid idi.

2023-cü il sentyabrın 19-da işğaldan azad edilmiş torpaqlarımızda qanunsuz erməni silahlı birləşmələri tərəfindən qəsdən yerləşdirilmiş minaların partlaması 6 mülki şəxsin və polis əməkdaşının həyatına son qoydu. Bundan sonra Azərbaycan konstitusiya quruluşunun bərpası və qanunsuz hərbi birləşmələrin zərərsizləşdirilməsi məqsədilə lokal xarakterli antiterror tədbirləri həyata keçirdi. 23 saat ərzində bitən əməliyyat nəticəsində Azərbaycan özünün suverenliyini və konstitusiya quruluşunu tam bərpa etdi. Antiterror tədbirləri nəticəsində mülki insanlara və mülki infrastruktura heç bir ziyan dəymədi. Azərbaycan beynəlxalq humanitar hüquqa tam riayət etdi. Bölgəyə iki dəfə səfər edən BMT missiyası bu faktları təsdiq etmişdir.

Üç il əvvəl Vətən müharibəsi başa çatdıqdan dərhal sonra Azərbaycan işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Bu məqsədlə artıq Azərbaycan büdcəsindən 7 milyard ABŞ dolları həcmində vəsait sərf edilib. Növbəti il ən azı 2,4 milyard ABŞ dollarının ayrılacağı nəzərdə tutulur.

Biz Böyük Qayıdış Proqramını icra edirik. Artıq keçmiş məcburi köçkünlər - bu torpaqların əsl sahibləri Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdıb. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur.

Füzuli şəhərində inşası başa çatmış məktəbə görə Özbəkistanın Prezidenti Şavkat Mirziyoyevə bir daha minnətdarlığımı bildirirəm. Avqust ayında birgə iştirakımızla məktəbin açılış mərasimini məmnuniyyətlə xatırlayıram. Qazaxıstanın Azərbaycana hədiyyəsi olan Füzuli şəhərində inşa edilən yaradıcılıq mərkəzinə görə Prezident Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Bunlar Azərbaycan və Özbəkistan, Azərbaycan və Qazaxıstan xalqları arasında olan dostluğun və qardaşlığın təzahürüdür.

Əziz dostlar,

Biz böyük Türk dünyasının bir hissəsiyik. Əminəm ki, dostluğumuz, qardaşlığımız əbədi olacaq. Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzu daha da artacaq.

Təşəkkür edirəm.

***



Zirvə görüşündə çıxış edən Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycanın suverenliyinin bərpası istiqamətində hər zaman mühüm addımlar atdığını qeyd edərək dedi: "Bu fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, Qırğızıstan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü dəstəkləyir".

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin bütün Türk dövlətlərində qürur doğurduğunu və bunun sülh üçün geniş imkanlar açdığını vurğulayaraq dedi: "Can Azərbaycan Qarabağın otuzillik işğalına Vətən müharibəsindən sonra birdəfəlik son qoydu. Bu tarixi uğurdan son dərəcə qürur və sevinc hissi duyuruq. Bununla da bölgəmizdə davamlı sülhə bir addım da yaxınlaşdıq. Açılan fürsət pəncərəsinin dəyərləndirilməsi ən böyük arzumuzdur. Ermənistanın Azərbaycan qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməsi vacibdir. Azərbaycanın qərb bölgəsi ilə Naxçıvanı birləşdirəcək kommunikasiya xəttinin həyata keçirilməsi də böyük önəm daşıyır. Bu xəttin açılması bütün bölgə ölkələrinin rifahına ciddi töhfə verməklə yanaşı, Türkiyəni də Ata yurdumuz olan Orta Asiya ilə birləşdirəcək. Bu prosesin uğurla başa çatdırılması üçün Türk dünyası olaraq Azərbaycana dəstəyimizi davam etdirməliyik".

Türkiyə Prezidenti Naxçıvan Sazişinə dəyişikliklər edilməsinə dair Protokolla bağlı ardıcıl işlərin görüldüyünü də diqqətə çatdıraraq bildirdi: "Naxçıvan Sazişinə dəyişikliklər edilməsinə dair Protokol Məclisimiz tərəfindən Türk Dövlətləri Əməkdaşlıq Günü olan 3 oktyabr tarixində qəbul edildi. Noyabrın 1-də Protokolun təsdiqlənməsi prosesini başa çatdırdıq. Bütün üzv ölkələri Protokolun ən qısa müddətdə həyata keçirilməsi üçün lazımi addımları atmağa dəvət edirəm".

Türk dövlətləri arasında enerji sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində də ardıcıl tədbirlərin reallaşdırıldığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan qeyd etdi: "Nəhəng enerji və nəqliyyat infrastrukturu layihələri Türk dövlətləri arasında daim əsas və mühüm əməkdaşlıq sahəsi olub. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum təbii qaz boru kəmərləri və Trans-Anadolu boru kəməri bunun konkret nümunələridir. Xəzərin təbii qazının Türkiyəyə və Avropaya nəqli həm Türk dövlətlərinin rifahına, həm də Avropanın enerji təhlükəsizliyinə töhfə verəcək. Ölkələrimiz arasındakı nəqliyyat şəbəkəsini inkişaf etdirmək hədəfini də xüsusi vurğulamalıyıq. Bu düşüncə ilə Xəzərdən keçən Şərq-Qərb – Orta Dəhlizin rolunun artırılması istiqamətində səylərimizi davam etdiririk".

Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Türk dövlətləri arasında reallaşdırılan layihələrdən danışaraq dedi: "Qırğızıstan, Özbəkistan, Türkmənistan marşrutu boyunca Xəzər dənizinədək uzanacaq, sonra Azərbaycana və Türkiyəyə qədər genişləndiriləcək nəqliyyat dəhlizinin yaradılması üzərində iş gedir. Hazırda Türkmənistan qonşu və qardaş ölkələr olan Özbəkistana və Azərbaycana təbii qaz ixrac edir. Eyni zamanda, bizim Türkmənistan qazını Xəzər dənizi və Azərbaycan vasitəsilə Türkiyəyə və gələcəkdə dünya bazarına ixrac etmək imkanımız var. Yaxın gələcəkdə qardaş ölkələr olan Azərbaycana və Türkiyəyə elektrik enerjisi də nəql etmək imkanımız olacaq".

Macarıstanın Baş naziri Viktor Orban bu Zirvə görüşünün tərəflər arasında əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində xüsusi rolunu vurğuladı. Azərbaycanın uğurlarını görüş iştirakçılarının diqqətinə bir daha çatdıran Viktor Orban bildirdi: "Mən fürsətdən







istifadə edərək, regionda sabitliyə nail olunması istiqamətində göstərdiyi səylərdə və Qarabağın bərpası işlərində Prezident Əliyevə çoxlu uğurlar arzulayıram. Cənab Prezident, Sizi nailiyyətləriniz münasibətilə təbrik edirəm".

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev isə görülən işlər haqqında ətraflı məlumat verərək qeyd etdi ki, ötən dövrdə müxtəlif sahələrdə bir sıra mühüm qərarlar qəbul olunub. "İstanbulda BMT-nin Məskunlaşma Proqramının Regional nümayəndəliyinin yaradılmasına dair planlar var. Eyni zamanda, BMT-nin Məskunlaşma Proqramı ilə Azərbaycan arasında tərəfdaşlıq mövcuddur. Xüsusi vurğulamaq istəyirəm ki, sentyabrın sonunda Azərbaycanda Milli Şəhərsalma Forumu uğurla keçirildi", – deyə Kubanıçbek Ömüralıyev bildirdi.

***

Sonra Astana aktı və Astana Zirvə görüşünün Bəyannaməsi imzalandı.

Daha sonra mükafatlandırma mərasimi oldu.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə türk xalqlarının inkişafında böyük xidmətlərinə görə Türk Dünyasının Ali Ordenini təqdim etdi.

***

Noyabrın 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq və müttəfiqlik əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərinin uğurla başa çatması məmnunluqla vurğulandı.

Rəcəb Tayyib Ərdoğan dövlə-



timizin başçısını Xankəndi və Xocalı şəhərlərində Azərbaycan Bayrağını ucaltması münasibətilə təbrik etdi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşünün ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət etdiyi qeyd olundu.

Görüşdə ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib





Noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev paradda iştirak ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısı şəxsi heyəti salamladı.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Hərbi orkestr Azərbaycan Respublikasının Dövlət Himnini ifa etdi.

Dövlətimizin başçısı paradda çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Əziz hərbçilər, mən sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edirəm.

**Hərbçilər:** Sağ ol.

Prezident İlham Əliyev: Üç il bundan əvvəl Qarabağın tacı olan Şuşa şəhəri işğalçılardan azad edildi. Ondan bir gün sonra düşmən ordusu təslim oldu və ağ bayraq qaldırdı. Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə nəticələndi. Bu, tarixi hadisədir.

Azərbaycan xalqı uzun illər ərzində işğal dövründə bir nöqtəyə vururdu ki, tezliklə bizim torpaqlarımız işğalçılardan azad edilsin. Biz bu müqəddəs günü hər gün, hər saat öz əməyimizlə, işimizlə yaxınlaşdırırdıq.

Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl – 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi.

Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq. Düşmən ordusu Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin peşəkarlığını, fədakarlığını görərək daha da böyük təşvişə düşürdü və onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərari olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdir. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi.

Şuşa əməliyyatı, təbii ki, 44 günlük Vətən müharibəsi dövründə xüsusi yerə malikdir. Çünki çox çətin coğrafi vəziyyətdə yerləşən, alınmaz qala sayılan Şuşanı yüngül silahlarla, bir çox hallarda əlbəyaxa döyüşlər nəticəsində azad etmək böyük güc, peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan övladları bunu göstərmişlər.

İyirmi il bundan əvvəl Prezident kimi öz fəaliyyətimə başlayanda əziz xalqıma bildirmişdim ki, biz torpaqlarımızı müharibə yolu ilə azad etməyə hazır olmalıyıq. O vaxt hələ sülh danışıqlarına müəyyən ümidlər var idi. Ancaq illər keçdikcə bu ümidlər tükənirdi. Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmaq istəmirdi. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması ilə məşğul olmuş vasitəçilər faktiki olaraq vəziyyəti dondurmağa çalışırdılar, hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Ancaq Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmaq fikrində deyildi və mən dəfələrlə bunu müxtəlif kürsülərdən bəyan etmişdim ki, biz bu vəziyyətlə barışmayacağıq. Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəyik, danışıqlar nəticəsiz başa çatsa, güc tətbiq edərək beynəlxalq hüquq əsasında öz doğma torpaqlarımızı döyüş meydanında işğalçılardan azad edəcəyik. Əgər Ermənistan rəhbərliyi və onun arxasında o vaxt və bu gün duran bəzi xarici qüvvələr mənim sözlərimə qulaq assaydılar, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Mən dəfələrlə deyirdim, Ermənistan rəhbərliyinə müraciət edərək deyirdim ki, əgər siz bizim torpağımızdan çıxmasanız, döyüş meydanında bizimlə üz-üzə gələcəksiniz və sizin arxanızda kim istəyirsə dursun, bu, bizi haqq yolumuzdan döndərə bilməz. 44 günlük Vətən müharibəsi bunu bir daha göstərdi.

Qırx dörd gün ərzində Azərbaycana müxtəlif yerlərdən, müxtəlif paytaxtlardan təzyiqlər göstərilirdi,

təhdidlər səsləndirilirdi. Ancaq bizi haqq yolumuzdan heç kim göndərə bilməzdi və mən Vətən müharibəsi dövründə Azərbaycan xalqına müraciət edərək demişdim ki, düşmən bizə torpaqlarımızın azad olunmasının tarixini versin, o zaman biz müharibəni dayandırmağa hazırıq və belə də oldu. Şuşa Zəfərindən sonra düşmən faktiki olaraq kapitulyasiyaya hazır idi və bir gün sonra kapitulyasiya aktına imza atdı, biz də müharibəni dayandırdıq. O vaxt bizim Silahlı Qüvvələrimiz Xankəndinin bir addımlığında idi. Müharibənin o vaxt dayandırılması bizim şüurlu seçimimiz idi və bu gün bizim, bax, burada - Xankəndi şəhərinin mərkəzi meydanında hərbi paradı keçirməyimiz bir daha onu göstərir ki, nə qədər düzgün, müdrik addım idi.



O vaxt mən heç şübhə etmirdim ki, gün gələcək və burada – Xankəndi şəhərində Azərbaycan Bayrağı qaldırılacaqdır. 44 günlük müharibənin 10 noyabr 2020-ci il tarixində dayandırılması imkan verdi ki, Ağdam, Kəlbəcər və Laçın rayonları bir güllə atılmadan bizə qaytarıldı. Bu, Ermənistanın imzaladığı kapitulyasiya aktının tərkib hissəsi idi və bizim tələbimiz idi. Ermənistan bu tələbi yerinə yetirməyə məcbur olmuşdu. Çünki döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin gücünü və Azərbaycan siyasi rəhbərliyinin siyasi müstəvidə iradəsini görmüşdür. Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi.

İkinci Qarabağ müharibəsindən sonra biz bir gün dayanmadan ordu quruculuğu prosesini sürətləndirirdik və bunu gizlətmirdik. Dərhal Qarabağ bölgəsində bütün vacib olan məntəqələrə yerləşdik. Eyni zamanda, uzun illər ərzində işğal altında qalmış Azərbaycan-Ermənistan sərhədini nəzarətə götürdük. Sərhəddə mövqelərimizi tədricən yaxşılaşdırdıq və müxtəlif tədbirlər nəticəsində Azərbaycan-Ermənistan sərhədinin böyük hissəsində ən əlverişli mövqelərə malik olduq. Nə üçün biz bunu edirdik? Çünki biz bilirdik ki, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Biz bilirdik ki, Ermənistanın arxasında dayanan və onları bizə qarşı hərəkətə təhrik edən xarici qüvvələr onlara yenə də təxribatçı siqnallar verəcəklər. Ona görə biz öz sərhədimizi qorumalı idik və keçirilmiş bir neçə hərbi əməliyyat nəticəsində bu gün Azərbaycan-Ermənistan sərhədində vəziyyət bizim nəzarətimizdədir. Bununla bərabər, Qarabağ bölgəsində həyata keçirilmiş bir neçə hərbi əməliyyat bu bölgədə də əlverişli yüksəkliklərə sahib olmaq üçün bizə şərait yaratdı. Eyni zamanda, bu əməliyyatlar Ermənistan siyasi rəhbərliyinə də bir siqnal idi ki, siz kapitulyasiya aktında təsbit edilmiş bütün müddəaları icra etməlisiniz və ilk növbədə, öz silahlı qüvvələrinizi Qarabağdan çıxarmalısınız, bu, sizin öhdəliyinizdir. Amma həyatda biz bunun əksini gördük, nəinki Ermənistan silahlı qüvvələri çıxarılmadı, əksinə, daha çox qüvvə göndərilmişdi. O vaxt Laçın-Xankəndi yolu hələ bizim nəzarətimizdə deyildi, silah-sursat, minalar gətirilmişdi və Ermənistanın siyasi rəhbərliyi Qarabağdan öz silahlı qüvvələrini çıxarmaq istəmirdi.

Son üç il ərzində keçirilmiş hərbi əməliyyatlar, o cümlədən Fərrux əməliyyatı, Sarıbaba-Qırxqız əməliyyatı və digər hərbi əməliyyatlar həm bizim strateji mövqelərimizi böyük dərəcədə yaxşılaşdırmışdır. Eyni zamanda, Ermənistana göndərilmiş bir mesaj idi ki, bizi heç kim və heç nə dayandıra bilməz, Qarabağ Azərbaycan torpağıdır və burada vəziyyəti biz diktə edirik və siz dərhal silahlı qüvvələrinizi bizim torpaqlarımızdan çıxarmalısınız. Əgər o vaxt mənim sözümə baxsaydılar, sentyabr ayında keçirilmiş antiterror əməliyyatına ehtiyac qalmazdı. Onların bütün bəlalarının səbəbkarları elə onların özləridir. Onların bəlaları təkcə üç il bundan əvvəl başlamayıb, hələ 1990-cı illərin əvvəlində başlayıb. O vaxt Azərbaycanın çörəyini yemiş, Azərbaycanın suyunu içmiş nankor kütlə Azərbaycana qarşı, bax, bu meydanda ərazi iddiası qaldırmışdır. Bax, bu binada - Azərbaycan dövləti tərəfindən vaxtilə inşa edilmiş binada Azərbaycana qarşı məkrli planlar hazırlanırdı. Erməni xalqının bəlalarının səbəbkarları Ermənistana rəhbərlik etmiş bütün şəxslərdir. Onlar hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlayacaqlar. Özləri buna o qədər inanmışdılar, xarici tərəfdaşları da inandırmağa çalışırdılar ki, onların güclü orduları var, onların güclü potensialı var, güclü himayədarları var və Azərbaycan heç vaxt torpaqları hərbi yolla

azad etməyə cürət etməyəcək. Onların dəyirmanına su tökənlər, bu gün də onların arxasında dayanmış bəzi ölkələr bu məsuliyyəti onlarla 100 faiz bölüşürlər.

Biz isə deyirdik ki, heç vaxt bu vəziyyətlə barışmayacağıq və bunu gizlətmirdik. Bizə nə qədər deyilmişdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin hərbi həlli yoxdur. Mən isə deyirdim ki, sülh yolu ilə bu məsələ həll olunmasa, bizim başqa çarəmiz qalmayacaq və 44 gün ərzində göstərdiyimiz qəhrəmanlıq, peşəkarlıq, əfsuslar olsun ki, Ermənistan rəhbərliyinə dərs olmadı.



Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Bu il aprelin 23-də biz Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədini nəzarətə alaraq ərazi bütövlüyümüzü tam bərpa etdik və sentyabrın 20-də dövlət suverenliyini tam bərpa etdik. Bununla separatçıların kitabı bağlandı. Artıq Azərbaycanda separatçılığa yer olmayacaq. Azərbaycan dövləti bu gün bütün əraziyə nəzarət edir və bunun səbəbkarları bu gün, bax, bu meydanda dayanan bizim igidlərimizdir və on minlərlə Azərbaycan hərbçiləridir. Onların qanıcanı bahasına biz bu Qələbəni əldə etmişdik.

Mən bir daha demək istəyirəm ki, biz 20 il ərzində bu günə doğru gedirdik, hazırlıq işləri gedirdi, beynəlxalq hüquq müstəvisində Azərbaycan mövqeləri möhkəmləndirilirdi. Siyasi müstəvidə apardığımız uğurlu fəaliyyət nəticəsində bütün dünya artıq bilməyə başlamışdır ki, haqlı tərəf bizik. İqtisadi sahədə apardığımız islahatlar imkan verdi ki, müstəqil iqtisadiyyat quraq, heç kimdən asılı olmayaq, öz həyatımızı özümüz quraq. Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur. Dövlətimizi, milli ləyaqətimizi, həyat tərzimizi, ənənələrimizi qorumuşuq ki, heç kim bizim işlərimizə burnunu soxmasın.

Əlbəttə ki, ordu quruculuğu birinci nömrəli vəzifə idi. Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi – budur, qələbəyə aparan əsas amillər. Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah əsgərdir, zabitdir. O, sinəsini qabağa verir, o, ölümə getməyə hazırdır və biz bunu göstərmişik. Ən çətin, əlverişsiz coğrafi vəziyyətdə altı müdafiə zolağını yararaq, döşənmiş bir milyondan artıq minanın üzərindən keçərək, təpələrdə yerləşmiş düşmən mövqelərini məhv edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir. Əziz şəhidlərimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq və biz bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərmişdik. Yəni, hazırlıq işləri apararkən, bax, biz bu günü gözləyirdik. Mən bu 20 il ərzində heç vaxt şübhə etmirdim ki, bu gün gələcək və Xankəndi şəhərində Azərbaycan Bayrağı altında hərbi parad keçiriləcək.

Qırx dörd günlük müharibə zamanı çoxlu xarici media nümayəndələrinə müsahibələr verərək, təbii ki, bizim planlarımız haqqında mən danışa bilməzdim. Halbuki suallar demək olar ki, təkrarlanırdı. Bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq olacaq. Ancaq hələ o vaxt mən bilirdim ki, Xankəndisiz, Xocalısız bizim işimiz yarımçıq qalacaq. Üç il bundan əvvəl mən əmr verərək Azərbaycan Ordusunu dayandırdım və bir daha demək istəyirəm, tarix göstərdi ki, nə qədər düzgün addım idi. Ancaq o gündən, bax, bu günə qədər - sentyabr ayına qədər hər gün biz işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz – həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün.







Dörd il bundan əvvəl, bax, qarşıdakı Xankəndi şəhər stadionunda Ermənistanın baş naziri çıxış edərkən təkəbbürlə demişdi: "Qarabağ Ermənistandır və nöqtə". Biz ona, onun kimilərinə və onların arxasında duranlara döyüş meydanında qan tökərək, şəhidlər verərək göstərdik ki, o, səhv yolda idi. Biz göstərdik ki, Qarabağ Azərbaycandır, döyüşərək, vuruşaraq, heç nəyə baxmayaraq və bu gün hər kəs bilməlidir ki, bizimlə bundan sonra heç kim zarafat etməsin. Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərmə-

mişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin.

Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik. Düşmən bizim qabağımızda diz çökdü və bu gün mən burada müzəffər Silahlı Qüvvələrin qarşısında çıxış edirəm. Yəni, biz bütün vəzifələri icra etmişik, ancaq bununla bərabər, bundan sonra da ordu quruculuğu məsələləri bizim üçün prioritet məsələlərdən biri olacaq. Bunu hamı bilsin və heç kim bunu unutmasın.




Mən bir daha, əziz hərbçilər, sizi və bütün Azərbaycan xalqını Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm.

**Hərbçilər:** Sağ ol.

**Prezident İlham Əliyev:** Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Qarabağ Azərbaycandır!

**Hərbçilər:** Qarabağ Azərbaycandır!

***

Azərbaycan Prezidentinin çıxışından sonra Silahlı Qüvvələrin parad heyətlərinin hərbi orkestrin müşayiəti ilə təntənəli keçidi başlayıb.

Parada müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi, "Zəfər" və "Qarabağ" ordenli general-polkovnik Kərim Vəliyev komandanlıq edib.

Silahlı Qüvvələrin parad heyətləri Azərbaycan Respublikasının Dövlət Bayrağını və Şuşa şəhərinə sancılan – Qələbənin rəmzinə çevrilən Zəfər Bayrağı altında tribunaya doğru irəliləyiblər.

Ardınca Azərbaycan Ordusunun və qoşun növlərinin, lokal xarakterli antiterror tədbirlərində iştirak etmiş hərbi birləşmələrin döyüş bayraqları Xankəndi şəhərinin mərkəzi meydanına gətirilib.

Sonra Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin parad heyətinin keçidi oldu. Parad heyətinə Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edib.

"Azərbaycan Bayrağı" və "Rəşadət" ordenli general-mayor Bilal Çompuzovun başçılığı ilə 1-ci Ordu Korpusunun, "Qarabağ" və "Rəşadət" ordenli general-leytenant Mayis Bərxudarovun rəhbərliyi ilə 2-ci Ordu Korpusunun, "Rəşadət" və "Vətənə xidmətə görə" ordenli polkovnik Oruc Abdullayevin başçılığı ilə 3-cü Ordu Korpusunun, "Azərbaycan Bayrağı" və "Rəşadət" ordenli general-mayor Münasib Babayevin rəhbərliyi ilə 4-cü Ordu Korpusunun, Vətən Müharibəsi Qəhrəmanı, "Rəşadət" ordenli general-mayor Kənan Seyidovun başçılığı ilə 5-ci Ordu Korpusunun və "Azərbaycan Bayrağı" ordenli general-mayor Məhəmməd Həsənovun rəhbərliyi ilə Əlahiddə Ümumqoşun Ordunun parad heyətləri tribuna önündən mətin addımlarla irəlilədilər.







Hərbi Dəniz Qüvvələrinin dəniz piyadalarının parad heyətinə Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Xalid İbrahimov başçılıq edib.








Daha sonra Vətən Müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin rəhbərliyi ilə Hərbi Hava Qüvvələrinin parad heyətinin keçidi olub.

Dövlət Təhlükəsizliyi Xidmətinin "Qartal" xüsusi təyinatlılarının parad heyəti "Qarabağ" ordenli polkovnik Cabir Cəfərovun başçılığı ilə tribuna önündən keçib.

Sonra Xarici Kəşfiyyat Xidmətinin "Yarasa" xüsusi təyinatlılarının parad heyətinin keçidi olub.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlılarının parad heyəti "Vətənə xidmətə görə" ordenli general-mayor Tofiq Hüseynovun başçılığı ilə Xankəndi şəhərinin mərkəzi meydanında irəliləyib.

Dövlət Sərhəd Xidmətinin parad heyətinə Vətən Müharibəsi Qəhrəmanı, "Vətənə xidmətə görə" ordenli general-mayor Babək Ələkbərov başçılıq edib.

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyəti polkovnik-leytenant Eldar Quliyevin başçılığı ilə tribuna önündən keçib.

Parad heyətlərinin keçidindən sonra antiterror tədbirləri zamanı müsadirə olunan hərbi texnikaların kiçik bir qismi qoşqular üzərində Xankəndi şəhərinin mərkəzi meydanına gətirilib. Müsadirə edilmiş hərbi texnikaların və nəqliyyat vasitələrinin nömrə nişanlarından hazırlanan və üzərində "Zəfər" sözü həkk edilən lövhə nümayiş olunub.

İkinci Qarabağ müharibəsində tarixi Zəfərin üçüncü ildönümü münasibətilə Xankəndi şəhərində təşkil edilən, Vətən müharibəsinin iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu hərbi parad "Qələbə" marşının ifası ilə başa çatıb.



# İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin “DOST EVİ” filialının açılışında iştirak ediblər





Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin “DOST EVİ” filialının açılışında iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. Bu baxımdan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasını da qeyd etmək olar. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi şəhid ailələrinin üzvləri, əlilliyi olan şəxslər, valideynini itirmiş uşaqlar, aztəminatlı ailələrin övladları sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının inkişaf etdirilməsidir.

Mərkəzin fəaliyyət istiqamətləri əsasən musiqi, təsviri incəsənət, rəqs, dulusçuluq, xalçaçılıq, toxuma, floristika, landşaft dizaynı və bağçılıq, bədii oyma, kulinariya, fotoqrafiya və sairdir.

Fəaliyyət dövrü ərzində 470 benefisiar Mərkəzdə müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlim, sosial pedaqoji və psixoloji xidmətlərdən yararlanıb. Hazırda Mərkəzdə 186 nəfərə xidmət göstərilir. Onlardan 131 nəfər əlilliyi olan şəxs, 21 nəfər valideynini itirmiş uşaq, 22 nəfər aztəminatlı ailələrin üzvləri, 12 nəfər isə şəhid ailəsi üzvüdür.

İsmayıllıdakı “DOST EVİ” də həmin Mərkəzin filialı kimi fəaliyyət göstərəcək.

Bildirildi ki, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin “DOST EVİ” filialı Muğanlı-İsmayıllı yolunun 16-cı kilometrliyində yerləşir.

Müəssisə modern və konstruktiv elementlərlə, milli ornamentlər də əlavə olunmaqla müasir üslubda layihələndirilib, mühəndis sistemləri ən yüksək tələblərə cavab verir.

“DOST EVİ” birmərtəbəli olmaqla iki blokdan ibarətdir. Filialda 10 istiqamət üzrə 6 emalatxana - dulusçuluq, bədii oyma, misgərlik və zərgərlik, dərzilik və kəlağayı, xalçaçılıq, toxuma və bədii tikmə, un məmulatları emalatxanaları fəaliyyət göstərəcək.

Sərgi və Satış Mərkəzində benefisiarların hazırladıqları əl işlərinin nümayişi, həmçinin satışı həyata keçiriləcək. Hazırda “DOST EVİ”ndə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları tərəfindən dulusçuluq, bədii oyma, xalçaçılıq, toxuma və tikmə, dərzilik, təsviri incəsənət, floristika, bağçılıq və landşaft dizaynı istiqamətləri üzrə hazırlanmış əl işlərindən ibarət sərgi təşkil olunub. Sərgidə 150-dək əl işi təqdim edilir.





Diqqətə çatdırıldı ki, bölgədə yaşayan və "DOST EVİ"nə cəlb edilmiş əlilliyi olan şəxslər və digər həssas qrupların hazırladıqları sənətkarlıq nümunələrinin də burada nümayişi və satışı həyata keçiriləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "DOST EVİ"ndəki emalatxanalarla tanış oldular.

"DOST EVİ" bölgədə müvafiq peşə hazırlığı kursları üçün təlim bazası rolu oynamaqla yanaşı, özünüməşğulluq layihələrinin icrasına da dəstək olacaq. Burada 50 nəfərin məşğulluğu təmin ediləcək. Benefisiarlar, təlimçilər və digər işçilər əlilliyi olan şəxslər və digər həssas qruplar arasından seçiləcək.

Qeyd olundu ki, filialda 50-80 nəfər benefisiar üçün 6 ay – 2 il müddətində təlimlər-kurslar təşkil olunacaq və sonda onlara sertifikatlar veriləcək.

Əlilliyi olan şəxslər inklüziv kafe sahəsində işə cəlb edilərək ictimai iaşə xidmətləri təşkil olunacaq.

Burada qonaqlara ekoloji təmiz məhsullardan hazırlanan və milli kulinariya nümunələri olan keyfiyyətli qidalar, un məmulatları təqdim ediləcək. Filialın bio-market sahəsində ekoloji təmiz kənd təsərrüfatı məhsulları satılacaq.

Bir sözlə, "DOST EVİ" bölgədə yeni iş yerlərinin, o cümlədən əlilliyi olanlar, həmçinin digər həssas qrupların məşğulluq və gəlir imkanlarının artırılmasına, milli sənətkarlığın inkişafına və təbliğinə, bölgədə turizm imkanlarının genişləndirilməsinə, ekoloji təmiz məhsulların satışına, keyfiyyətli iaşə xidmətlərinin göstərilməsinə dəstək verəcək.

İsmayıllı rayonunda belə bir müəssisənin yaradılması, eyni zamanda, bu ərazinin abadlaşmasına imkan yaradıb.

"DOST EVİ" Muğanlı-İsmayıllı yolu ilə hərəkət edən insanlar, xüsusilə qonaqlar üçün gözəl asudə vaxt, istirahət və keyfiyyətli xidmətlər məkanı olacaq.





# İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib





Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 20 il ötür.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andı, məzarı üzərinə gül dəstələri qoydu.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

***

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin dönməz xarakter alması, milli şüurun dirçəlişi, iqtisadiyyatın inkişafı, ordu quruculuğu bu dövrün əsas mahiyyətini təşkil edir. Ümummilli Liderin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb. Məhz bu dahi şəxsiyyət ölkəmizdə qüdrətli ordu yaratdı, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı.









Sərəncamda da qeyd olunduğu kimi, Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Bu gün Azərbaycan Ümummilli Liderin müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Xalqımız Ulu Öndərin layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə inanır və onu dəstəkləyir. Bu inam və dəstəyin, həmrəyliyin ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, bu gün isə Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm bərpa və quruculuq işləridir.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: “Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun”.

Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. Üçrəngli Bayrağımız yenidən bütövləşən Vətən torpağında qürurla dalğalanmağa başladı.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Dövlətimizin başçısı, qalib sərkərdə İlham Əliyev böyük və müdrik xalqımıza bu il sentyabrın 19-da növbəti Qələbənin sevincini yaşatdı. Dövlət Bayrağımızı əzəli və əbədi torpaqlarımızda – Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda ucaltmaqla xalqımızın arzularını çin etdi. Müstəqil Azərbaycanın suverenliyi tam bərpa olundu.

Görkəmli dövlət xadimi Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırmaqdadır. Ulu Öndərin yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün ölkəmizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.

Xalqımız Ulu Öndərin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş Azərbaycan xalqı xilasına, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə əbədi ehtiramdan xəbər verir. Azərbaycan xalqı Heydər Əliyev ideologiyasına da, ideallarına da sadiqdir. Bunun davam etdirilməsi sosial çağırışdır. Məhz bu çağırışa cavab olaraq Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamına əsasən Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü il ölkəmizdə “Heydər Əliyev İli” elan edildi.

Görkəmli dövlət xadimi Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırmaqdadır. Ulu Öndərin yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün ölkəmizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.

Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcək.


AZERBAIJAN
COP29 HOST

# COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib



Dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atmışdır, COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı.

Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi.

Düzdür, antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda, bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir. Bəzi Qərb ölkələri, onların arasında təbii ki, ənənəvi olaraq Fransa bununla barışmaq fikrində deyil. Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar.

Bir də bəzi hallarda beynəlxalq aləm, beynəlxalq birlik anlayışı Qərbdə təhrif edilir. Beynəlxalq birlik 30-40 ölkə deyil. Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil. Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir.

İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik. Hətta bu il Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirmişik. Onu da hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilmişdir. Ancaq təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

Hesab edirəm ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Ona görə biz dərhal bütün hazırlıq işlərinə start verməliyik. Bizim vaxtımız o qədər də çox deyil, 11 aydan az vaxtımız var. Ona görə mən hesab etdim ki, birinci müşavirəni öz sədrliyimlə keçirim, bütün lazımi tapşırıqları verim. Bu tapşırıqların yerinə yetirilməsi barədə müntəzəm olaraq mənə məlumat veriləcək.

Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək.

# İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Rusiyanın Sankt-Peterburq şəhərinə işgüzar səfər etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün dekabrın 26-da Sankt-Peterburq şəhərinə işgüzar səfərə gəlmişdir.

Sankt-Peterburq şəhərinin "Pulkovo-1" hava limanında dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlov və digər rəsmi şəxslər qarşılamışlar.







Dekabrın 26-da Rusiyanın Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşü olmuşdur.

Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı bir daha məmnunluqla qeyd edildi, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğu bildirilmişdirdi. Yüksək səviyyəli görüşlərin və təmasların əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulanmışdır.









Dövlət başçıları əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək gələcək təmaslar və əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparmışlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən digər ölkələrin rəhbərləri dekabrın 26-da Sankt-Peterburqda "Yekaterina sarayı" ("Екатерининский дворец") ilə tanış olublar.

XVIII əsr memarlığının şah əsəri sayılan "Yekaterina sarayı"nın inşası 1744-cü ildən 1756-cı illəri əhatə edib. 1918-ci ildə "Yekaterina saray-park ansamblı" muzeyə çevrilib.

İkinci Dünya müharibəsi illərində faşist istilası zamanı bu tarixi abidə dağıdılaraq talan edilib, muzey kolleksiyasının əhəmiyyətli hissəsi itirilib, dağıntılar və talan nəticəsində abidəyə ciddi ziyan dəyib. "Yekaterina sarayı"nın bərpası 1957-ci ildən bəri davam edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən digər ölkələrin rəhbərləri dekabrın 26-da Sankt-Peterburqda "Böyük Peterhof Sarayı" ("Большой петергофский дворец") ilə tanış olmuşlar.








Dekabrın 26-da Sankt-Peterburqda MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmişdir.

Rusiya Prezidenti Vladimir Putin görüşdə çıxış etmişdir.

***

Dekabrın 26-da Rusiyanın Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının birgə naharı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmişdir.



# DÜZ 20 İL BUNDAN ƏVVƏL

## AZƏRBAYCAN XALQI MƏNƏ BÖYÜK ETİMAD GÖSTƏRƏRƏK PREZİDENT SEÇKİLƏRİNDƏ PREZİDENT VƏZİFƏSİNƏ SEÇMİŞDİR.

O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

İLHAM ƏLİYEV

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## NÖVBƏDƏNKƏNAR AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ SEÇKİLƏRİNİN ELAN EDİLMƏSI HAQQINDA

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsini rəhbər tutaraq, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq **qərara alıram:**

**1.** Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri elan edilsin.

**2.** Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 dekabr 2023 cü il

# Baş Prokurorluqda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi hakimiyyətə gəlişinin 20-ci ildönümü qeyd edilib





Oktyabrın 14-də Baş Prokurorluqda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkə rəhbəri seçilməsinin 20-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.

Təntənəli tədbirdə Baş Prokurorluğun rəhbərliyi ilə yanaşı, Milli Məclis sədrinin müavini və deputatlar, Baş Prokurorluq, Hərbi prokurorluq və tabe qurumların əməkdaşları, prokurorluğun veteranları, habelə prokurorluq orqanlarında ictimai köməkçi qismində fəaliyyət göstərən könüllülər və media nümayəndələri iştirak edib.

İlk öncə iştirakçılar Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, unudulmaz xatirəsini dərin ehtiramla yad edib.

Bundan sonra Ulu Öndər Heydər Əliyev və şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib, daha sonra isə Dövlət himni səsləndirilib.

Çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, Ümummilli Lider Heydər Əliyevin canından çox sevdiyi xalqına sonuncu müraciətində "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" bildirməsi bugünkü tarixi gerçəkliyimizin aydın mənzərəsinin tərənnümü olub.

Vurğulanıb ki, milli təfəkkürlə bəşəri düşüncəni birləşdirən, gerçəkliklə qlobal baxışları uzlaşdıran görkəmli siyasi lider İlham Əliyev nəinki Ümummilli Liderin etimadını doğruldub, eləcə də bütün Azərbaycan xalqının növbəti onilliklər üçün əbədi inamını və sarsılmaz dəstəyini qazanıb.

Dövlət başçısı cənab Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının ötən 20 ildə keçdiyi inkişaf yoluna nəzər salan Baş prokuror qeyd edib ki, 20 illik fəaliyyəti ilə hər bir azərbaycanlının Zəfər və tərəqqi rəmzinə çevrilən möhtərəm Prezident cənab İlham Əliyevin 15 oktyabr 2003-cü ildə ölkə rəhbəri seçilməsi ilə başlanan möhtəşəm qələbə yolu tarixin ən qüdrətli, ən xoşbəxt və ən qürurlu Azərbaycanını ərsəyə gətirib.

Bildirilib ki, prokurorluq orqanları daim möhtərəm cənab Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub.

Qeyd olunub ki, dövlət başçısının dəstəyi ilə prokurorluqda hesabatlılığın və şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyinin artırılması və çatışmazlıqların təxirə salınmadan aradan qaldırılması istiqamətində mütəmadi islahat tədbirləri həyata keçirilməkdədir.













Baş prokuror Kamran Əliyev həm "Heydər Əliyev İli", həm də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkə rəhbəri seçilməsinin 20-ci ildönümü ilə əlaqədar məsuliyyətini dərindən dərk edən prokurorluq işçiləri tərəfindən bu müddətdə üzərlərinə düşən vəzifələrin layiqincə icrası hədəf seçilməklə ictimai-siyasi sabitliyin və dövlətçiliyimizin qorunması, qanunçuluğun möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi naminə lazımi tədbirlərin görüləcəyini vurğulamaqla milli iradənin təntənəsi olan Qalib Liderin rəhbərliyi ilə növbəti onilliklərdə də Azərbaycan xalqının öz tarixinin yeni, şanlı səhifələrini yazacağına, bütün sahələrdə möhtəşəm inkişaf naminə yüksək zirvələr fəth edəcəyinə əminliyini bildirib.

Tədbirdə, həmçinin, Milli Məclis sədrinin müavini Fəzail İbrahimli, prokurorluğun veteranı Pənah Abbasov, prokurorluqda ictimai köməkçi qismində fəaliyyət göstərən könüllü Telman İsmayılov çıxış edib.

Daha sonra Bakı Media Mərkəzi tərəfindən ərsəyə gətirilmiş, dövlət başçısının 2003-cü ildən başlayaraq yürütdüyü məqsədyönlü siyasət və nəticədə torpaqlarımızın işğaldan azad olunması ilə bağlı tarixi missiyasına həsr olunmuş "İlham" sənədli filmi tədbir zamanı nümayiş etdirilib.

# Baş prokuror Türkiyə Ali Məhkəməsinin sədri ilə görüşüb










Oktyabrın 16-da Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Ali Məhkəməsinin sədri Mehmet Akarca ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror qardaş Türkiyə ilə xalqımızın Ümümmilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" və türk xalqının Ulu Öndəri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" fəlsəfəsi ilə tarixən milli köklərə söykənən münasibətlərinin siyasi,

iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdiyini bildirərək, hər iki dövlətin prezidentləri cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasəti nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qaldırıldığını qeyd edib.

Həmçinin, 44 günlük Vətən müharibəsi dövründə Türkiyənin ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyinə görə bir daha təşəkkürünü bildirib.

Baş prokuror Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqəti ilə Qarabağda aparılan geniş quruculuq bərpa işləri haqda həmkarını məlumatlandırıb.

Görüşdə sentyabr ayının 19-da dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın Qarabağ bölgəsində aparılan lokal antiterror tədbirləri və ölkəmizin öz suveren ərazisində konstitusion quruluşun tam bərpa edildiyi, oktyabrın 15-də isə ölkə başçısı tərəfindən Xankəndi daxil olmaqla bir sıra azad olunmuş ərazilərdə dövlət bayrağının ucaldıldığı qürur hissi ilə qarşılandığı xüsusi qeyd olunub.

Səmimi qəbula görə təşəkkürünü ifadə edən Mehmet Akarca ölkələrimizin prokurorluq, məhkəmə və ədliyyə or-












qanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğu bildirərək, Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə bağlı sevincini bölüşüb. Türkiyə Ali Məhkəməsinin sədri Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi və Türkiyə Cümhuriyyətinin 100 illiyinin baş tutduğu cari ilin hər iki dövlət üçün tarixi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Dialoq zamanı tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə olunub.

Görüşdə Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı iştirak edib.

# Baş prokuror Kamran Əliyev Pekində işgüzar səfərdə olarkən Çinin Baş prokuroru ilə görüşüb

Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasının Milli Nəzarət Komissiyasının təşkilatçılığı ilə keçirilən Şəffaf İpək Yolu Forumunda iştirak etmək məqsədilə oktyabrın 18-də Pekin şəhərinə işgüzar səfərə gedib.

İlk öncə nümayəndə heyəti tərəfindən Azərbaycan Respublikasının Pekindəki səfirliyində Ümummilli Lider Heydər Əliyevin büstü ziyarət olunub, dahi rəhbərin əziz xatirəsi yad edilib.

Daha sonra nümayəndə heyəti 30-dan çox ölkənin korrupsiyaya qarşı mübarizə qurumlarının, nüfuzlu beynəlxalq təşkilatların və şirkətlərin rəhbərlərinin iştirak etdiyi Tematik Forumun işində iştirak edib. Çinin Milli təftiş Komissiyasının sədri Liu Jinguo Forum iştirakçılarını salamlayaraq tədbirin əhəmiyyətini vurğulayıb.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq ölkəmizdə korrupsiyaya qarşı mübarizənin 5 əsas sütun – hüquqi baza, şəffaflıq biznes iqlimi, səmərəli ədalət mühakiməsi, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə qurumları və beynəlxalq əməkdaşlıq fəlsəfəsinə uyğun olaraq mərhələli şəkildə həyata keçirildiyi, bu prosesin bugün də qətiyyət və uğurla davam etdirildiyi barədə danışıb.

Baş prokuror ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün bərpa olunduğunu, otuzillik işğal dövründə Ermənistan tərəfindən Azərbaycanın Qarabağ bölgəsində iqtisadi və sosial infrastrukturun ta-







mamilə dağıdıldığını qeyd edib. Bu gün həmin ərazilərdə ölkə rəhbərliyinin diqqət və qayğısı ilə yenidənqurma işlərinin uğurla aparıldığı vurğulanaraq bu sahədə iqtisadi fəaliyyətin şəffaf və sağlam mühitə əsaslandığı qeyd edilib.

Səfər çərçivəsində Baş prokuror Çin, Özbəkistan, Malayziya, Pa-













kistan, Qazaxıstan, Belarus, Argentina, Kamboca, Misir və sair ölkələrdən olan həmkarları ilə görüşlər keçirib, qarşılıqlı maraq doğuran, xüsusilə antikorrupsiya sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.





***

Oktyabrın 19-da Çin Xalq Respublikasının Baş prokuroru Yinq Yonq ilə ikitərəfli görüş keçirilib.

Nümayəndə heyətini səmimi salamlayan Yinq Azərbaycan və Çinin dost dövlətlər olduğunu bildirərək bir çox sahəni əhatə edən uğurlu əməkdaşlığın davam etdirildiyini vurğulayıb. Yinq Yonq ötən ilin sentyabr ayında Səmərqənddə dövlət başçılarının görüşünü xatırladaraq, bu dialoqun ölkələrimizin müxtəlif dövlət qurumları, o cümlədən prokurorluqlarımız arasında əlaqələrin inkişafına yeni təkan verdiyini bildirib. Bu ilin mart ayında isə Baş prokuror vəzifəsinə təyin olunması ilə əlaqədar təbrik məktubuna görə azərbaycanlı həmkarına təşəkkürünü ifadə edib.

Kamran Əliyev qonaqpərvərliyə görə minnətdarlığını bildirərək ölkələrimiz arasında əsrlər boyu mövcud olan ikitərəfli əlaqələrin tarixindən danışıb. Müstəqilliyin ilk illərində Ulu Öndər Heydər Əliyevin, müasir zamanımızda isə Prezident cənab İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinin uzaqgörən siyasətləri nəticəsində iki ölkə arasında olan münasibətlərin yüksələn xətlə və uğurla inkişaf etdiyi vurğulanıb.

Baş prokuror Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulduğunu, bir ay öncə isə Azərbaycan Ordusu tərəfindən aparılmış lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu barədə həmkarını məlumatlandırıb.

Ölkə rəhbərliyinin diqqət və qayğısı ilə işğaldan azad olunmuş ərazilərdə geniş quruculuq bərpa işlərinin aparıldığı bildirilərək, bu proseslərdə Çin şirkətlərinin rolu xüsusi vurğulanıb.

Daha sonra tərəflər prokurorluqlarımız arasında hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar. Cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquqlarının qorunması, qarşılıqlı peşəkar səfərlər və təcrübə mübadiləsini nəzərdə tutan əməkdaşlıq haqqında memorandumun imzalanması barədə razılığa gəlinib.

Yinq Yonq həmkarını növbəti ilin aprel ayında Makauda keçiriləcək Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin iclasına, Kamran Əliyev isə həmkarını 2024-cü ilin sentyabr ayında ölkəmizdə keçiriləcək ümumdünya prokurolarının illik konfransına işgüzar səfərə dəvət edib.

Həmçinin, cinayətkarlıqla mübarizə sahəsində tərəfləri maraqlandıran bir sıra digər məsələlər müzakirə olunub.

Görüşdə Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynov iştirak edib.

***

Çinə işgüzar səfəri çərçivəsində Baş prokuror Kamran Əliyev oktyabrın 20-də Çin Kommunist Partiyası Mərkəzi İntizam Komissiyasının və Milli Müşahidə Komissiyasının üzvü Vanq Hongjinlə görüşüb.



Görüşdə dövlətlərimiz və xalqlarımız arasında olan dostluq və əməkdaşlıq əlaqələrinin yüksək səviyyəsindən məmnunluq ifadə olunub.

Vanq 2008-ci ildə Çinin Siçuan əyalətində baş vermiş dəhşətli zəlzələdən sonra Azərbaycan Prezidenti tərəfindən dövlət büdcəsi hesabına yeni məktəbin inşasını minnətdarlıq hissi ilə xatırladığını qeyd edib.

Kamran Əliyev Çinin Milli Müşahidə Komissiyası tərəfindən Təmiz İpək Yolu Forumunun yüksək və peşəkar səviyyədə təşkil olunması və uğurlu keçirilməsi münasibətilə həmkarını təbrik edib.

Baş prokuror ölkəmizdə dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsinə və öncül beynəlxalq təcrübəyə əsaslanan antikorrupsiya islahatları barədə Vanq Honjini məlumatlandırıb.

Tərəflər ölkələrimiz arasında korrupsiya və rüşvətxorluğa qarşı mübarizə, sahibkarlıq fəaliyyətində şəffaf biznes iqliminin və rəqabətliliyin təmin olunması sahəsində əməkdaşlığın genişləndirilməsi barədə razılığa gəliblər.

Görüşdə ölkəmizin Çindəki fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynov iştirak edib.



# Baş prokuror Kamran Əliyev Ankarada işgüzar səfərdə olub





Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Baş Prokurorları Şurasının 2-ci iclasında iştirak etmək məqsədilə oktyabrın 23-də Ankara şəhərinə işgüzar səfərə gedib.

Tədbirdən öncə Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərə - Anıtqəbir ziyarət edilib, böyük Atatürkün əziz xatirəsi ehtiramla yad edilib.

TDT-yə üzv Dövlətlərin Baş Prokurorları Şurasının 2-ci iclasında açılış nitqi ilə çıxış edən Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahin, Ali Məhkəmənin sədri Mehmet Akarca, ədliyyə naziri Yılmaz Tunç, TDT-nin Baş katibi Kubaniçbek Ömür-





alıyev və Ağsaqqal Şurasının sədri Binəli Yıldırım iştirakçıları salamlayaraq tədbirin əhəmiyyətini vurğulayıb.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev Türk Dövlətləri Təşkilatına üzv Dövlətlərdə qanunçuluğun və hüquq qaydasının təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığın bütün formalarına qarşı mübarizə sahəsində səylərin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə mühüm töhfə verəcəyini bildirib. TDT Baş Prokurorları Şurasının 2-ci toplantısının Türkiyə Cümhuriyyətinin qurulmasının 100 illiyi ərəfəsində keçirilməsinin xüsusi əhəmiyyəti qeyd edilib.

Kamran Əliyev üç il əvvəl Azərbaycan torpaqlarının otuz illik işğalına son qoyulduğunu, tarixi ədalətin və beynəlxalq hüququn bərpa edildiyini vurğulayıb. İşğal bitsə də, onun ağır fəsadlarının hələ də qalmaqda olduğunu bildirən Baş prokuror Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndinin

Ermənistan tərəfindən vəhşicəsinə dağıdıldığını qeyd edib. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşının mina terrorunun qurbanı olduğu və ya ağır yaralandığı bildirilib.

Həmçinin, Baş prokuror Azərbaycan Ordusu tərəfindən 1 ay öncə lokal xarakterli antiterror tədbirlərinə başlanıldığı və qarşıda duran bütün vəzifələrin cəmi bir gün ərzində yerinə yetirilərək ölkəmizin ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğunu xüsusi vurğulayıb.

Bu ilin 15 oktyabr tarixində isə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən ölkəmizin üçrəngli bayrağının əzəli torpaqlarımız olan Ağdərə, Xocavənd, Xocalı, Əsgəran və nəhayət Xankəndidə qaldırıldığı qeyd olunub.

Ermənistan tərəfindən Azərbaycanın Qarabağ bölgəsində iqtisadi və sosial infrastrukturun tamamilə dağıdıldığını, bugün həmin ərazilərdə ölkə rəhbərliyinin diqqət və qayğısı ilə sürətli yenidənqurma işlərinin uğurla aparıldığı vurğulanıb.





Bundan başqa, Azərbaycan Respublikasının tərəfdar çıxdığı müqavilə və konvensiyalardan irəli gələn öhdəliklərə əməl olunması, o cümlədən cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, cinayət törətmiş şəxslərin verilməsi, cinayət təqibinin həyata keçirilməsi ilə bağlı sorğuların və digər sənədlərin icrasının həyata keçirildiyi bildirilib.



İclasın sonunda Ankara bəyanatı qəbul edilib, növbəti iclasın Qırğızıstanda keçirilməsi qərara alınıb.

***

Oktyabrın 23-də nümayəndə heyəti tərəfindən Ankarada xalqımızın ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin adını daşıyan park ziyarət edilib, abidəsi önünə əklil qoyularaq əziz xatirəsi ehtiramla yad olunub.

Səfər çərçivəsində Baş prokuror TDT Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımla görüşüb. Yıldırım ölkəmizin ərazi bütövlüyünün bərpa olunması münasibətilə təbriklərini çatdırıb,

hər iki ölkənin liderlərinin rəhbərliyi altında ölkələrimiz və xalqlarımız arasında əlaqələrin ən yüksək səviyyədə olduğunu bildirib.

Kamran Əliyev Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsi və ondan sonrakı proseslərdə Türkiyə dövlətinin və xalqının siyasi və mənəvi dəstəyinə görə təşəkkürünü ifadə edib. 2021-ci ildə Bakıda təsis olunmuş TDT-nin Baş Prokurorlar Şurasının hüquqi əməkdaşlığımızın genişləndirilməsi üçün səmərəli platforma olduğu vurğulanıb.

Baş prokuror Türkiyənin ədliyyə naziri, Hakimlər və Prokurorlar Şurasının sədri Yılmaz Tunçla görüşüb. Kamran Əliyev həmkarını bu ilin iyun ayında vəzifəyə təyin olunması münasibətilə təbrik edib, fəaliyyətində uğurlar diləyib. Görüşdə hüquqi əməkdaşlıq, o cümlədən istintaq sorğularının icrası və cinayət törətmiş şəxslərin verilməsi məsələləri müzakirə edilib.



















Görüşlərdə ölkəmizin Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Rəşad Məmmədov iştirak edib.

Türkiyənin Baş prokuroru Bəkir Şahinlə keçirilmiş görüşdə ənənəvi dostluq və əməkdaşlıq əlaqələrinin bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. Beynəlxalq platformalarda birgə fəaliyyətin önəmi qeyd edilərək, yaxın gələcəkdə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Baş Prokurorlar Şurasının təsis edilməsi müzakirə edilib.

Ali Məhkəməsinin sədri Mehmet Akarca ilə keçirilmiş görüşdə TDT Baş Prokurorları Şurası ilə yanaşı bir neçə gün öncə Şuşada Türk Dövlətləri Ali Məhkəmələri Konfransının təsis edilməsi yüksək qiymətləndirilib.

Kamran Əliyev tədbirdə iştirak edən TDT-nin Baş Katibi Kubaniçbek Ömüralıyev, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Şimali Kipr Türk Respublikasının baş prokurorları ilə görüşlər keçirərək gələcək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparıb.

Sonda, Türk dövlətlərinin baş prokurorları Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul ediliblər.

# Baş prokuror Türkiyənin Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyəti ilə görüşüb









Baş prokuror Kamran Əliyevin dəvəti ilə Türkiyənin Hakimlər və Prokurorlar Şurasının geniş tərkibli nümayəndə heyəti noyabrın 6-da ölkəmizə işgüzar səfərə gəlib.

Qonaqlar Fəxri Xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib. Şəhidlər xiyabanını ziyarət edən nümayəndə heyəti Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyub. Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk Şəhidliyi" abidəsi ziyarət edilib.

Daha sonra Baş Prokurorluqda görüş keçirilib. Baş prokuror Kamran Əliyev qonaqları salamlayaraq dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın sarsılmaz səyləri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, ikitərəfli münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdirildiyini qeyd edib.

Baş prokuror Türkiyə Cümhuriyyətinin 100 illiyi münasibətilə nümayəndə heyətini təbrik edərək, 44 günlük Vətən müharibəsi zamanı ölkəmizə göstərmiş olduqları siyasi və mənəvi dəstəyə görə Türkiyə rəhbərliyi və xalqına minnətdarlığını bildirib, bu ilin sentyabr ayında keçirilmiş lokal antiterror tədbirləri nəticəsində ölkəmizin suveren ərazi bütövlüyü tam şəkildə bərpa edildiyini vurğulayıb. Kamran Əliyev ölkə

rəhbərliyinin diqqət və qayğısı ilə işğaldan azad edilmiş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri, Hakimlər və Prokurorlar Şurasının 1-ci Dairə üzvü xanım Aysel Demirel təmsil etdiyi qurumun Azərbaycanın prokurorluq orqanları ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirərək, 8 noyabr Zəfər Günü münasibətilə təbriklərini ifadə edib, bu əlamətdar tarixdə Azərbaycana gəldiklərindən məmnunluğunu bildirib.

Görüşdə ikitərəfli və çoxtərəfli formatda birgə fəaliyyətin perspektivləri, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində hüquqi əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Nümayəndə heyəti Baş Prokurorluğun Tarix muzeyi ilə də tanış olub. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar, həmçinin qardaş ölkələrimiz arasındakı münasibətləri əks etdirən ekspozisiyalar qonaqlarda zəngin təəssürat oyadıb.















# Baş Prokurorluqda “Zəfər Günü” münasibətilə tədbir keçirilib








Ölkəmizin ərazi bütövlüyünün bərpasının, əzəli və əbədi torpaqlarımızın azadlığının təcəssümü olan milli bayram – Zəfər Günü münasibətilə noyabrın 6-da Baş Prokurorluqda tədbir keçirilib.

İlk öncə Baş Prokurorluğun rəhbər heyəti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq dahi şəxsiyyətin unudulmaz xatirəsini ehtiramla yad edib.

Tədbirdə vətən torpaqlarının azadlığı uğrunda şəhid olmuş hərbçilərin və mülki vətəndaşların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Baş prokuror Kamran Əliyev prokurorluq əməkdaşlarını, prokurorluğun veteranlarını və xalqımızı bayram münasibətilə təbrik edib.

Yüksək səviyyəli tədbirdə Türkiyənin Hakimlər və Prokurorlar Şurasının geniş tərkibli nümayəndə heyəti həmçinin, Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı iştirak edib.

Baş prokuror diqqətə çatdırıb ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsi torpaqlarımızın düşmən işğalından azad edilməsi ilə nəticələnib, 19-20 sentyabr 2023-cü il tarixlərdə keçirilmiş lokal xarakterli



antiterror tədbirləri nəticəsində isə ölkəmizin bütün ərazisində dövlət suverenliyimiz və konstitusiya quruluşu bərpa edilib.

Bayrağımızın tarixi torpaqlarımız olan Xankəndidə, Ağdərədə, Əsgəran, Xocavənd, Xocalıda yüksəldildiyini qürurla qeyd edən Baş prokuror Qarabağ bölgəsindəki qondarma rejimin ləğv edildiyini, bölgədə olan bütün silahlı erməni dəstələrinin tərksilah edildiyini, qondarma rejimin keçmiş "rəhbər"ləri və digər separatçıların isə tutularaq cinayət məsuliyyətinə cəlb edildiyini nəzərə çatdırıb.

Kamran Əliyev qeyd edib ki, zəfərin təməlini Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik konsepsiyası və ordu quruculuğu, habelə bu uğurlu siyasətin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən inamla reallaşdırılması təşkil edib.

44 günlük vətən müharibəsində, həm də ondan sonrakı dövrdə şəhid ailələrinə, qazilərə və müharibə veteranlarına Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən yüksək diqqət və qayğının nümayiş etdirildiyini nəzərə çatdıran Baş prokuror, həmçinin, azad edilmiş bölgələrdə gerçəkləşən və bütün dünyanı heyrətləndirən quruculuq və bərpa işlərinin aparıldığını, əbədi azadlığına qovuşmuş Qarabağ və Şərqi Zəngəzura "Böyük Qayıdış"ın yüksək səviyyədə icra olunduğunu vurğulayıb.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən ərazilərdə hüquq qaydasının möhkəmləndirilməsi, prokuror təsir tədbirlərindən istifadə etməklə aidiyyəti dövlət qurumları ilə birlikdə aparılan quruculuq işlərinə səlahiyyətləri daxilində dəstək göstərilməsi istiqamətində prokurorluq əməkdaşları xidmətlərini daha səmərəli və peşəkar təşkil edilib.

Tədbir zamanı çıxış edən türkiyəli nümayəndə heyətinin rəhbəri, Hakimlər və Prokurorlar Şurasının 1-ci Dairə üzvü xanım Aysel Demirel 8 noyabr Zəfər Günü münasibətilə təbriklərini ifadə edib, əlamətdar tarixdə Azərbaycana gəldiklərindən məmnunluğunu bildirib.

İki qardaş ölkə arasında əməkdaşlığın uğurla inkişaf etdiyini nəzərə çatdıran xanım Aysel Demirel Türkiyə dövləti və xalqının Azərbaycanın əldə etdiyi nailiyyətlərə sevindiyini və bunun davamlı olmasını arzuladığını qeyd edib.

Sonda 44 günlük Vətən Müharibəsinə həsr olunmuş sənədli film nümayiş etdirilib.






# Baş prokuror Litvanın Xüsusi İstintaq Xidmətinin nümayəndə heyəti ilə görüşüb








Noyabrın 13-də Baş prokuror Kamran Əliyev "Avropa Qonşuluq Aləti" çərçivəsində reallaşdırılan "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı "Tvinninq" layihəsi üzrə ölkəmizdə işgüzar səfərdə olan Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin rəisinin birinci müavini Yovitas Razkeviçiusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan Baş prokuror dövlət başçısı cənab İlham Əliyevin diqqət və qayğısı ilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda sürətlə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri, məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıdışı və reinteqrasiyası, həmin rayonlarda prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən işlər barədə məlumat verib. Həmçinin, litvalı qonaqlara prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 2022-ci ilin 3 mart tarixli Fərmanı ilə təsdiq edilmiş "Elektron prokurorluq informasiya sistemi"nin fəaliyyəti barədə məlumat verilib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Yovitas Razkeviçius Litva Respublikası tərəfindən Azərbaycanla ənənəvi dostluq əlaqələrinə böyük önəm verildiyini və hüquqi sahədə əməkdaşlığın müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya qarşı Mübarizə Qurumunun Prezidentinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub



Səfərin ilk günü – noyabrın 20-də – qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanışlıq nümayəndə heyətinin üzvlərində xoş təəssürat yaradıb, həmçinin Mərkəzdə yerləşən muzey və eksponatlar barədə onlara ətraflı məlumat verilib.

Daha sonra Azərbaycan Respublikasının Baş Prokurorluğunda ikitərəfli görüş keçirilib.

Görüş zamanı dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və İki Müqəddəs Ocağın Xadimi, kral Salman bin Əbdüləziz Al Səud, həmçinin Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun birgə səyləri və siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, dərin tarixə və mədəni köklərə söykənən ikitərəfli münasibətlərin gələcək dövrdə də uğurla inkişaf etdiriləcəyi vurğulanmışdır.





Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi ilə ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə sahəsində aparılmış genişmiqyaslı islahatlar, “ASAN” xidmət və "DOST" mərkəzlərinin fəaliyyəti, həyata keçirilən hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın gücləndirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən for-









malaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin çağdaş dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Kamran Əliyev 44 günlük Vətən müharibəsi zamanı ölkəmizə göstərmiş olduqları dəstəyə görə Səudiyyə Ərəbistanı Krallığının rəhbərliyi və xalqına minnətdarlığını bildirib, bu ilin sentyabr ayında keçirilmiş lokal antiterror tədbirləri nəticəsində ölkəmizin suveren ərazi bütövlüyü tam şəkildə bərpa edildiyini vurğulayıb. Baş prokuror ölkə rəhbərliyinin diqqət və qayğısı ilə işğaldan azad edilmiş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işlərinin aparıldığı barədə qonaqları məlumatlandırıb.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən Mazin bin İbrahim Əl-Kahmus rəhbərlik etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirməklə iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə bundan sonra da dəstək verəcəklərinə əminliyini ifadə edib.

Nümayəndə heyəti üzvləri Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olmuşlar.

Daha sonra qurumlarımız arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin

gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə sahəsində Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb.

Qonaqlar Baş Prokurorluğun müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş yeni inzibati binasında yaradılmış şərait və prokurorluğun fəaliyyət ilə yaxından tanış olaraq 44 günlük Vətən müharibəsinə həsr olunmuş muzeyi də ziyarət ediblər.

Heyət üzvləri Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsində qurumun fəaliyyəti ilə tanış olublar. Onlara ölkəmizdə korrupsiyaya mübarizə sahəsində aparılan sistemli tədbirlər barədə ətraflı məlumat verilib.













# Baş prokuror Tacikistanın müstəqil antikorrupsiya qurumunun rəhbəri ilə görüşüb





Baş prokuror Kamran Əliyevin dəvəti ilə Tacikistan Respublikasının Dövlət Maliyyə Nəzarəti və Korrupsiyaya qarşı Mübarizə Agentliyinin direktoru Suleymon Sultonzodanın rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 23-də ölkəmizə işgüzar səfərə gəlib.

Fəxri Xiyabanı ziyarət edən qonaqlar xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət ediblər. Daha sonra qonaqlar Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarları üzərinə tər qərənfillər düzərək, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Baş Prokurorluqda keçirilən ikitərəfli görüşdə qonaqları salamlayan Baş prokuror, ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dövlət başçılarının uzaqgörən siyasətləri nəticəsində yüksələn xəttlə inkişaf etdiyini vurğulayıb.

Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi ilə demokratik və hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən ardıcıl və sistemli qabaqlayıcı tədbirlər, aparılmış hüquqi və institusional islahatlar, milli antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən for-



malaşdırılması istiqamətində aparılan köklü islahatlar, həmçinin çağdaş dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Baş prokuror ölkəmizin suveren ərazi bütövlüyünün tam şəkildə bərpa edildiyini, ölkə rəhbərliyinin diqqət və qayğısı ilə işğaldan azad edilmiş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işlərinin aparıldığını xüsusilə vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Suleymon Sultonzoda rəhbərlik etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirməklə iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə bundan sonra da dəstək verəcəklərinə əminliyini ifadə edib.

Nümayəndə heyəti Baş Prokurorluğun Tarix muzeyində Ulu Öndər Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan, həmçinin Azərbaycan Prokurorluğunun keçdiyi inkişaf yolunu özündə əks etdirən guşə və eksponatlarla tanış olublar.

Daha sonra qurumlarımız arasında hüquqi əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı işgüzar səfərlərin təşkil edilməsi, həmçinin təcrübə mübadiləsinin həyata keçirilməsi məqsədilə 2024-2025-ci illər üzrə Əməkdaşlıq Proqramı imzalandı.

***

Qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanış olub, Mərkəzdə yerləşən muzey və eksponatlar barədə onlara ətraflı məlumat verilib.









Səfər çərçivəsində nümayəndə heyəti Baş Prokurorluğun müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş yeni inzibati bina-







sında yaradılmış şərait və prokurorluğun fəaliyyət ilə yaxından tanış olaraq 44 günlük Vətən müharibəsinə həsr olunmuş muzeyi də ziyarət ediblər.

Qonaqlar, həmçinin Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin inzibati binası ilə tanış olublar. Qarşılıqlı müzakirələr formatında baş tutmuş görüş zamanı hər iki ölkədə korrupsiyaya qarşı mübarizə sahəsində görül-






















müş işlər, bu sahədə müsbət təcrübə və eləcə də qurumların fəaliyyəti barədə qarşılıqlı məlumat mübadiləsi həyata keçirilib.

Bundan başqa, heyət üzvləri 44 günlük Vətən müharibəsi zamanı müzəffər Azərbaycan ordusunun işğalçı Ermənistan dövlətini döyüş meydanında məğlub etməsi nəticəsində ələ keçirdiyi hərbi qənimətlərin nümayiş olunduğu, həmçinin, qalibiyyətimizin əbədiləşdirilməsinə xidmət etməklə xalqımızın qürur mənbəyi hesab olunan "Hərbi Qənimətlər Parkı"-nı və UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş İçərişəhəri ziyarət ediblər.

Qonaqlar tarixi-mədəni abidələrlə zəngin olan Bakı şəhərinin Balaxanı qəsəbəsini ziyarət edərək, orada xalçaçılıq, dulusçuluq, milli geyimlərin hazırlanması və digər yerli xüsusilə sənətkarlıq sahələri ilə yaxından tanış olublar.



# Baş Prokurorluqda Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib





Dekabrın 11-də Baş Prokurorluqda xalqımızın Ümummilli Lideri, Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.

İlk öncə Baş Prokurorluğun rəhbərliyi Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, unudulmaz xatirəsini dərin ehtiramla yad edib.

Bundan sonra Ulu Öndər Heydər Əliyev və şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib və Dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, Heydər Əliyev irsini öyrənmək, onu təbliğ etmək, bu irsdən faydalanmaq, onu gələcək nəsillərə çatdırmaq bu gün dövlətimizin qarşısında duran vacib məsələlərdən biridir. Bu mənada möhtərəm Prezident cənab İlham Əliyevin 2023-cü ilin “Heydər Əliyev ili” elan edilməsi barədə Sərəncam imzalaması Ümummilli Liderimizin əziz xatirəsini əbədiləşdirmək istiqamətində həyata keçirilən ən mühüm tədbirlərdən biridir.

Vurğulanıb ki, Ulu Öndərin respublikamıza ilk rəhbərlik etdiyi 1969-1982-ci illərdə onun təşəbbüsü və ciddi səyləri nəticəsində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250-dən çox İttifaq miqyaslı sənaye müəssisələri fəaliyyətə başlamışdır. Məhz həmin dövrdən Heydər Əliyev öz xalqının öndəri olduğunu özünün konkret siyasi-idarəçilik fəaliyyəti ilə sübuta yetirməklə Azərbaycanın gələcək müstəqilliyi üçün möhkəm təməl qoymuşdur.

Qeyd edilib ki, Heydər Əliyevin 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə siyasi hakimiyyətə qayıdışı tariximizin hərc-mərclik, ağır tənəzzül illərinə, uğursuz müharibə, Azərbaycan torpaqlarının bölüşdürülməsi planlarının reallaşması, torpaqlarımızın düşmənə təslim edilməsi dövrünə təsadüf etmişdir. Məhz bu dövrdə Heydər Əliyev Azərbaycan dövlətçiliyini xilas etmiş, Azərbaycanı parçalanıb yox olmaq təhlükəsindən qurtarmışdır. Onun qətiyyəti xalqa ruh yüksəkliyi gətirmiş, inamını özünə qaytarmışdır.











Xüsusilə vurğulanmışdır ki, məhz tarixi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra hüquq sistemində mütərəqqi islahatların həyata keçirilməsinə başlanılmış, qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

Tədbirdə çıxış edən Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Mahir Abbasov Ulu Öndərin siyasi hakimiyyətə gəldiyi ilk illərindən başlayaraq Qarabağda sosial infrastruktur qurulmağa başlandığını, bölgənin mənəvi-siyasi həyatının dəyişməsi istiqamətində həyata keçirilmiş islahatlar nəticəsində Azərbaycanın digər əraziləri ilə yanaşı Qarabağda da sənaye, kənd təsərrüfatı, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrin inkişaf etdiyini bildirmişdir.

Sonda Baş prokuror Kamran Əliyev prokurorluğun kollektivinin daim Heydər Əliyev ideyalarına sadiq qalmaqla Ulu Öndərin siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən yüksək etimadı doğrultmaq üçün bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəklərini bildirmişdir.

Tədbirin sonunda Ümummilli Liderin xatirəsinə həsr olunmuş "Liderin ürəyi" sənədli filmi izlənmişdir.



Müasir Azərbaycan dövlətinin qurucusu və memarı, dünya şöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə bağlı Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları Fəxri xiyabanı ziyarət edib.

Ulu Öndərin məzarı önünə gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad edilib.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri qoyulub.



# Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib



Dekabrın 14-də Baş prokuror Kamran Əliyevin sədrliyi ilə Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti, sayca doqquzuncu iclası keçirilib.

İclasda müvafiq dövlət orqanları nümayəndələri, aparıcı ali təhsil müəssisələri, ixtisaslaşmış akademiyaları, elm ocaqlarını təmsil edən görkəmli hüquqşünaslarla yanaşı, ölkəmizdə təcrübə mübadiləsi ilə səfərdə olan Rusiya Federasi-

















yası Baş Prokurorluğunun nümayəndə heyəti də iştirak edib.

Giriş nitqi ilə çıxış edən Baş prokuror müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, mübariz xalqımızın dəstəyi ilə rəşadətli ordumuz tərəfindən ölkə suverenliyinin bütün ərazilərimizdə bərpa olunduğunu, üç rəngli bayrağımızın Xankəndi şəhərimizdə dalğalanması ilə əbədiyyət qazandığını, genişmiqyaslı quruculuq və yenidənqurma işlərinin artıq Xankəndi, Ağdərə, Əsgəran və digər yaşayış məntəqələrini əhatə etdiyini iclas iştirakçılarının diqqətinə çatdırıb.

Qeyd olunub ki, Qarabağda mövcud olmuş ali təhsil ənənələrinin davamı olaraq, ölkə başçısı cənab İlham Əliyevin 28 noyabr 2023-cü il tarixli sərəncamı ilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradılıb. Əminliklə həmin universitetin bölgənin elm və təhsil mərkəzi olacağı, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələblərinə uyğun regionda yüksəkixtisaslı kadrların hazırlığına öz layiqli töhfəsini verəcəyi bildirilib.

Daha sonra Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən hazırlanmış "Həkim səhvləri ilə bağlı məlumatlar üzrə istintaq-araşdırma təcrübəsi", "Azərbaycan Respublikasının Prokurorluğunda kriminoloji proqnozlaşdırma metodologiyasına yanaşma" adlı vəsaitlərin təqdimatı həyata keçirilib.

Şura iclasının növbəti hissəsində istintaq-məhkəmə, eləcə də cinayət təqibindən kənar fəaliyyət təcrübəsindən irəli gələn aktual məsələlərin müzakirəsi aparılıb.

İclasın yekun hissəsində müxtəlif hüquqi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.





# Baş prokuror İranlı həmkarı ilə görüşüb





Dekabrın 23-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevlə İran İslam Respublikasının Baş prokuroru Mohammad Kazem Movahedi-Azad arasında videoformatda geniş tərkibli görüş keçirilib.

Görüşdə Azərbaycan Respublikasının Tehrandakı Səfirliyinə cari ilin 27 yanvar tarixində edilən terror hücumu ilə bağlı cinayət işi üzrə məhkəmə baxışının keçirilməsi, yekun qərarın qəbulunun sürətləndirilməsi və hüquqi əməkdaşlıq mexanizmləri müzakirə olunub.

Bundan başqa, görüş zamanı ölkələrimizin prokurorluq orqanları arasında hüquqi əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

Görüşdə həmçinin, ölkəmizin İran İslam Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Əli Əlizadə və İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi də iştirak edib.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclası keçirilib






Dekabrın 26-da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə görülən işlər, qarşıda duran vəzifələr və işin təşkilinə dair məsələlərə həsr olunmuş Kollegiya iclası keçirilib.

Kollegiya iclasında çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, 2023-cü ilin yüksək tarixi əhəmiyyəti onunla ifadə olunur ki, bu il Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ilinə təsadüf edir.

Ulu Öndərin irsini öyrənmək, onu təbliğ etmək, bu irsdən faydalanmaq, onu gələcək nəsillərə çatdırmağın dövlətimizin qarşısında duran vacib məsələlərdən biri olmaqla, təkcə "Heydər Əliyev ili" çərçivəsində deyil, bütün dövrlərdə bunun əhəmiyyəti qeyd olunub.



Vurğulanıb ki, bu il çərçivəsində digər dövlət qurumları kimi Prokurorluq orqanları tərəfindən də, dahi liderin mənalı həyatı və Azərbaycanın parlaq gələcəyinə istiqamətlənmiş mükəmməl, çoxşaxəli fəaliyyətindən bəhs edən silsilə tədbirlər, o cümlədən müxtəlif konfranslar, dəyirmi masalar, görüşlər, açıq qapı tədbirləri və s. təşkil olunub, film çəkilib, nəşrlər çap edilib.

Diqqətə çatdırılıb ki, Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsi





nəticəsində 30 il ərzində işğal altında olan torpaqlarımız azad edilmiş, 23 aprel 2023-cü ildə Laçın-Xankəndi yolunun başlanğıcında, Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsinin yaradılması və bunun ardınca 9 sentyabr 2023-cü il tarixdə başlanmış və 24 saatdan az müddətdə davam edən lokal xarakterli anti-terror əməliyyatı ilə Azərbaycanın dövlət suverenliyi bütün Azərbaycan ərazisində bərpa edilib.

Cari ilin 15 oktyabr tarixində Xankəndi şəhərində Azərbaycan Respublikasının dövlət bayrağının ucaldılması və 08 noyabr 2023-cü il tarixdə Xankəndi şəhərində keçirilən Zəfər paradı ilə Prezident cənab İlham Əliyev ərazi bütövlüyümüzün bərpası barədə Azərbaycan xalqına verdiyi sözü, Azərbaycan xalqı qarşısında özünün ən müqəddəs tarixi missiyasını yerinə yetirib.

Tariximizin şanlı səhifələrinə qızıl hərflərlə yazılan Vətən Müharibəsi və ondan sonrakı Zəfərlərin Azərbaycanın regionda və dünyada mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirməklə, Ölkə başçısının rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə gerçəkləşən nəhəng və sürətli tikinti-quruculuq, bərpa işləri əbədi azadlığına qovuşmuş Qarabağ və Şərqi Zəngəzura “Böyük Qayıdış”ın əsasını qoyduğu və həmin ərazilərin dirçəlməyə başladığı diqqətə çatdırılıb.

Kollegiya iclasında 2024-cü ilin 7 fevral tarixində keçiriləcək növbədənkənar Prezident seçkiləri ilə bağlı vətəndaşların hüquqlarının tam şəkildə qorunması, seçki prosesi zamanı hüquqpozmalara yol verildiyi halda qanunla nəzərdə tutulmuş tədbirlərin görüləcəyi xüsusilə vurğulanıb.

Bununla yanaşı, 2024-cü ilin Azərbaycan Respublikası Prezidenti tərəfindən 25 dekabr 2023-cü il tarixli Sərəncamla “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsinin ətraf mühitin qorunmasına verilmiş ən böyük töhfə olduğu, növbəti ildə ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransının (COP) əhəmiyyəti vurğulanıb.

Daha sonra ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsində Azərbaycan prokurorluğu tərəfindən digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə zəruri tədbirlərin görüldüyü bildirilib.

Xüsusilə əvvəlki illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş qəsdən adam öldürmə cinayətlərinin daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılmasının təmin edildiyi qeyd edilib.

İclasda Baş Prokurorluğun “İşin Təşkili Qaydaları”na əlavə və dəyişikliklərin edilməsi, “Elektron Prokurorluq” informasiya sisteminin tətbiqi vəziyyəti, “Azərbaycan Respublikası Prokurorluğunun 2024-2026-cı illər üçün Strateji İnkişaf Konsepsiyası”nın layihənin müzakirəsi və təsdiqi məsələsi ilə bağlı Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, cari kadr məsələləri ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov, Qarabağdakı qondarma separatçı rejimin "yüksək vəzifəli" şəxslərinin barəsində istintaq edilən cinayət işinin hazırkı mərhələsi barədə İstintaq idarəsinin rəisi Nemət Əvəzov məruzələrlə çıxış ediblər.

Aparılmış müzakirələr ətrafında Kollegiya üzvləri çıxış edərək təkliflərini bildirib, sonda Kollegiyanın qərarı ilə bir sıra məsələ üzrə qərarlar qəbul olunub.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli inkişafı istiqamətində prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

## Prokurorluq əməkdaşları Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə və Dünya Azərbaycanlılarının Həmrəyliyi gününə həsr olunmuş tədbirdə iştirak edib








Ümumilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş silsilə tədbirlərin davamı olaraq, Dünya Azərbaycanlılarının Həmrəyliyi günü münasibəti ilə dekabrın 30-da prokurorluq əməkdaşları Dövlət Akademik Filarmoniyasında keçirilən tədbirdə iştirak edib.

Tədbirdə, həmçinin, Baş Prokurorluğun rəhbərliyinin dəvəti ilə Baş prokuror yanında Elm-Məsləhət Şurasının üzvləri, müxtəlif ali təhsil müəssisələrinin müəllim və tələbə heyəti, prokurorluğun veteran və pensiyaya çıxmış əməkdaşları, eləcə də, media subyektləri, qeyri-hökümət təşkilatlarının nümayəndələri iştirak edib.

Tədbiri giriş nitqi ilə açan Baş prokuror Kamran Əliyev Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş 2023-cü ildə prokurorluq orqanları tərəfindən dahi şəxsiyyətin əziz xatirəsinin yad edilməsi məqsədilə həyata keçirilmiş silsilə tədbirlərdən danışıb, bu ilin Azərbaycan dövləti və xalqı üçün olduqca uğurlu olduğunu, cənab Prezidentin rəhbərliyi ilə qazanılan qələbələr nəticəsində ölkəmizin bütün ərazisində suverenliyimizin bərpa edildiyini, tarixi Azərbaycan torpaqlarında, o cümlədən Xankəndi şəhərində üç rəngli bayrağımızın dalğalanmağa başladığını vurğulayıb, prokurorluq əməkdaşlarını, həmçinin, tədbir iştirakçılarını Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və qarşıdan gələn yeni il münasibəti ilə təbrik edib, onlara növbəti ildə fəaliyyətlərində uğurlar arzulayıb.

Konsertdə solistləri bədii rəhbər və baş dirijor Ağaverdi Paşayevin rəhbərliyi altında Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri müşayiət edib.

Tədbirdə zəngin təcrübəyə malik prokurorluğun veteranları ilə gəncləri arasında səmimi və mehriban ünsiyyətin qurulması üçün əlverişli fürsət yaranıb.

# Baş prokuror bölgələrdə vətəndaşları qəbul edib

**GƏNCƏ**







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.

Oktyabrın 10-da Baş prokuror Kamran Əliyev Gəncə şəhər prokurorluğunun inzibati binasında Gəncə şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.
















Daha sonra Baş prokuror Gəncə şəhərində Vətən müharibəsi zamanı Ermənistan Silahlı Qüvvələri tərəfindən törədilən terror hadisəsinin olduğu əraziyə gedərək şəhid olan mülki şəxslərin xatirəsini yad edib.

Qəbulda iştirak edən 74 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

## ABŞERON









Noyabrın 2-də Baş prokuror Kamran Əliyev Abşeron rayon prokurorluğunun inzibati binasında Abşeron və Zəngilan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış







abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 135 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli Fərmanı əsasında yaradılan və Azərbaycan Respublikası prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair əməkdaşların təkliflərini dinləyib, eləcə də müzakirələr aparılmaqla müvafiq göstərişlər verib.

**SUMQAYIT**





Dekabrın 5-də Baş prokuror Kamran Əliyev Sumqayıt şəhər prokurorluğunun inzibati binasında Sumqayıt şəhəri, Qubadlı rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Qəbulda iştirak edən 119 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan









cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***

**Qəbullardan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.**





# Hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçisi ilə Baş Prokurorluqda görüş keçirilib





Hakim vəzifəsinə qəbulla bağlı müsabiqədə uğur qazanaraq Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2023-cü il tarixli Sərəncamı ilə Bakı şəhəri Suraxanı rayon Məhkəməsinin hakimi vəzifəsinə təyin olunan Bakı şəhər prokurorluğunun idarə prokuroru Pərviz Muradov Baş prokurorun birinci müavini Elçin Məmmədov tərəfindən oktyabrın 12-də qəbul edilib.

Qəbul zamanı Pərviz Muradova Baş prokuror Kamran Əliyev tərəfindən qüsursuz fəaliyyətinə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində əldə etdiyi nailiyyətlərə görə təltif olunduğu prokurorluğun fəxri fərmanı təqdim edilib və gələcək fəaliyyətində uğurlar arzulanıb.





# Baş Prokurorluqda mülki müdafiə üzrə tədbir keçirilib







Oktyabrın 25-də “Baş Prokurorluğun 2023-cü il üçün mülki müdafiə üzrə tədbirlər planı”na müvafiq olaraq Təşkilat və icraya nəzarət idarəsi və Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili Baş idarəsinin birgə təşkilatçılığı ilə Baş Prokurorluğun Binəqədi rayonu ərazisində yerləşən inzibati binasında “Fövqəladə hadisələr zamanı işçilərin təxliyəsi” mövzusunda hərbiləşdirilməmiş obyekt mülki müdafiə dəstələri ilə xəbərdarlıq-toplanış üzrə mülki müdafiə məşqi keçirilmişdir.

Məşqin keçirilməsində əsas məqsəd komandir-rəis heyətinin fövqəladə hadisələr zamanı fəaliyyət üzrə biliklərinin təkmilləşdirilməsi, obyektin rabitə və xəbərdarlıq sisteminin dayanıqlığının yoxlanılması, ehtimal olunan fövqəladə hadisələr zamanı mülki müdafiə qüvvələrinin xəbərdarlıq sxeminə müvafiq olaraq hazırlıq









dərəcələrinə gətirilməsi, fövqəladə hallara operativ reaksiya vermə və mülki müdafiə idarəetmə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, eləcə də fövqəladə hallar zamanı şəxsi heyətə əməli vərdişlərin aşılanması olmuşdur.

Məşqə mülki müdafiə qərargahı, mülki müdafiə qüvvələrinin şəxsi heyəti, eləcə də Prokurorluğun digər əməkdaşları cəlb edilmişdir.

Tədbir ilkin olaraq hərbiləşdirilməmiş obyekt mülki müdafiə dəstələrinin xəbərdarlıq və toplanış siqnalı üzrə başlandı və dəstələrin şəxsi heyətinə inzibati binanın baş planı üzərində növbəti siqnalın verilməsi zamanı təhlükəsizlik qaydalarına riayət edilməklə işçilərin təxliyəsi, təxliyə zamanı yarana biləcək problemlər, ehtiyyat təxliyə çıxışları, işçilərin təxliyə edildikdən sonra ərazidə təyin edilmiş təhlükəsiz zonada cəmləşməsi üzrə müvafiq tapşırıqlar verildi.

Tədbirin davamı olaraq, inzibati binada şərti yanğın hadisəsinin baş verməsi barədə "Həyəcan siqnalı" verildi və siqnala əsasən təxminən 150 nəfər əməkdaş təhlükəsiz əraziyə təxliyə edilərək təhlükəli ərazidən uzaqlaşdırıldı.

Tədbirin praktiki hissəsi başa çatdıqdan sonra inzibati binanın akt zalında FHN-in Mülki müdafiə işinin təşkili Baş idarəsinin əməkdaşları tərəfindən mülki müdafiə işinin təşkili ilə bağlı təbii və texnogen xarakterli fövqəladə hadisələrin baş vermə səbəbləri, onların qarşısının alınması və davranış qaydaları üzrə ətraflı məlumat verildi.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzi Daxili İşlər Nazirliyinin Polis Akademiyası ilə birgə elmi-praktik konfrans keçirib










Oktyabrın 27-də DİN-in Polis Akademiyasında Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə birlikdə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi və "Zəfər Gününə" həsr olunmuş "Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Zəfər tarixi" mövzusunda Respublika elmi-praktik konfrans keçirilib.

Konfransda Elm-Tədris Mərkəzi və Polis Akademiyası nümayəndələri ilə yanaşı, Azərbaycan Respublikasının Milli Məclisinin, Baş Prokurorluğun, Daxili İşlər Nazirliyinin, Ali Məhkəmənin, Konstitusiya Məhkəməsinin, Vəkillər Kollegiyasının, eləcə də Respublikamızın bir sıra dövlət qurumları və ali təhsil müəssisələrinin nümayəndələri, tələbə və kursantları iştirak edib.

Tədbirdən öncə Ulu Öndərin abidəsi önünə gül dəstələri qoyulub, Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfrans zamanı DİN-in Polis Akademiyasının rəisi Canpolad Daanov, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov, Heydər Əliyev adına Hərbi İnstitutun rektoru Fizuli Salahov, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi Baba Salayev, Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədr müavini Pərviz Ələkbərov və DİN-in Şəxsi Heyətlə İş İdarəsinin rəisi Elçin Məmmədli çıxışlar edib.

Konfrans zamanı Ulu Öndər Heydər Əliyevin zəngin və çoxşaxəli həyat yoluna dair müxtəlif mövzularda təqdimatlar dinlənilib.

Tədbir zamanı, həmçinin, səmərəli müzakirələr aparılıb və suallar cavablandırılıb.

# Elm-Tədris Mərkəzində "Təbii qazdan istifadə qaydalarının pozulması ilə əlaqədar insan ölümü və digər ağır nəticələrin qarşısının alınması sahəsində aktual problemlər" mövzusunda konfrans keçirilib






Təbii qazdan təhlükəsiz istifadə olunması sahəsində görülmüş ardıcıl tədbirlərə baxmayaraq bəzi hallarda istehlakçıların təhlükəsizlik qaydalarına əməl etməməsi və bu sahədə səlahiyyətli orqanlar tərəfindən zəruri nəzarətin həyata keçirilməməsi səbəbindən qaz sızması və partlayışı, dəm qazının təsirindən insanların ölümü və sağlamlığına zərər vurulması, ölkə iqtisadiyyatına və vətəndaşlara ziyan dəyməsi ilə nəticələnən hadisələrin davam etməsi narahatçılıq doğurur.











Qeyd olunanları nəzərə alaraq, 2023-cü ilin oktyabr ayının 30-da Baş Prokurorluğun Elm-Tədris Mərkəzində aidiyyəti dövlət qurumları, o cümlədən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) “Azəriqaz” İstehsalat Birliyi, Azərbaycan Respublikası Fövqəladə Hallar, Energetika nazirlikləri, Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin nümayəndələrinin iştirakı ilə bu sahədə aktual problemlərin həlli yollarına həsr edilmiş geniş konfrans keçirilib.

Konfransda Baş Prokurorluğunun Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi Fazil Həsənəliyev, Bakı şəhər prokurorunun müavini Fərid Nağıyev, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) “Azəriqaz” İstehsalat Birliyinin Baş direktorunun müavini Ceyhun Şıxəliyev, həmin qurumda departament rəisi Vüqar Eyvazov, şöbə rəisi İlkin Behbudov, Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyində şöbə rəisi Eldar Əhmədov, Energetika Nazirliyinin Enerji Məsələlərini Tənzimləmə Agentliyində şöbə rəisi Samid Əliyev və digər natiqlər məruzə və təqdimatlarla çıxış edərək, bu sahədə mövcud problemlərin həlli məqsədilə konkret təkliflər irəli sürüblər.

Məruzəçilər daxil olmaqla, konfransda hibrid formada (Bakı şəhərində fəaliyyət göstərən məsul əməkdaşlar bilavasitə konfrans zalında, digərləri onlayn formada) “Azəriqaz” İstehsalat Birliyinin tabeliyində işləyən ümumilikdə 100-dən artıq əməkdaş iştirak edib.

Vurğulanıb ki, bu sahədə məsuliyyət tədbirləri ilə yanaşı, təbii qazdan istifadə qaydalarının pozulmasının qarşısının alınmasına xidmət edən preventiv, o cümlədən maarifləndirmə tədbirlərinin xüsusi əhəmiyyəti vardır.



Geniş fikir mübadiləsi şəraitindən keçən konfransın nəticələrinə uyğun olaraq, bu qəbildən olan tədbirlərin gələcəkdə də davam etdirilməsi qərara alınıb.

# “Heydər Əliyev İli” münasibətilə növbəti konfrans Göyçayda təşkil edilib





Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, noyabrın 3-də Göyçay şəhərində “Heydər Əliyev və şanlı Zəfər tariximiz” adlı işgüzar konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Göyçay şəhərinin mərkəzində ucaldılmış abidəsini, daha sonra isə Göyçay Şəhidlər Xiyabanını ziyarət edib.

İştirakçılar Göyçay rayon Heydər Əliyev mərkəzinin Muzey hissəsində Ulu Öndərin zəngin dövlətçilik irsini, həyat və fəaliyyətini özündə əks etdirən eksponat və fotostendlər ilə tanış olub.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Kamal Qılıcov Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə olunmuş Zəfərin Ulu Öndər Heydər Əliyev siyasətinin böyük təntənəsi olduğunu qeyd edib.

Konfrans zamanı çıxış edən Göyçay rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev işgüzar tədbirin Göyçay şəhərində təşkilindən məmnunluğunu ifadə edib.

Konfransda, həmçinin, Göyçay rayon prokuroru Ramin Hüseynov, Milli Məclisin deputatları Sabir Hacıyev və Məzahir Əfəndiyev, Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi Anar Eyvazov, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin Qərb Regional Mərkəzinin rəhbəri Səbuhi Abbasov və digərləri fenomenal şəxsiyyət Heydər Əliyevin gənclər siyasəti, ordu quruculuğu və insan hüquqlarına verilən dəyər, Ulu Öndərin xilaskarlıq missiyası və zəngin dövlətçilik irsi mövzularında çıxış edib.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ











və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparılıb.

Bakı Media Mərkəzi tərəfindən ərsəyə gətirilmiş, dövlət başçısının 2003-cü ildən başlayaraq yürütdüyü məqsədyönlü siyasət və nəticədə torpaqlarımızın işğaldan azad olunması ilə bağlı tarixi missiyasına həsr olunmuş "İlham" sənədli filmi tədbir zamanı nümayiş etdirilib.

Sonda xatirə fotoşəkli çəkilib.



# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində “Məhkəmə ekspertizası fəaliyyətinin nəzəri və təcrübi əsasları” mövzusunda təlim təşkil edilib





Baş Prokurorluğun Elm-Tədris Mərkəzində cari ilin 01–03 noyabr tarixlərində prokurorluq və daxili işlər orqanlarında müstəntiq vəzifəsində çalışan işçilər üçün “Məhkəmə ekspertizası fəaliyyətinin nəzəri və təcrübi əsasları” mövzusunda distant formada təlim təşkil edilib.

Təlimə prokurorluq işçiləri ilə yanaşı, Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin və Ədliyyə Akademiyasının bu sahədə nəzəri və praktiki təcrübəyə malik mütəxəssisləri təlimçi qismində cəlb edilib.

Mühazirə, təqdimat, təcrübə mübadiləsi və sair formada həyata keçirilmiş təlim çərçivəsində ekspertiza təyin edərkən növ və ixtisasın düzgün seçilməsi, həmin növ və ixtisaslara uyğun sualların qoyulması, ekspertizanın aparılması üçün eksperimental və sərbəst nümunələrin götürülməsi və kriminalistik baxımdan düzgün qablaşdırılması qaydaları, habelə ayrı-ayrı ekspertizaların müasir imkanları, təşkili və keçirilməsi ilə bağlı praktiki əhəmiyyət kəsb edən mövzular tədris edilib.

## Emosional-psixoloji vəziyyətə dair maarifləndirici təlim keçirilib



Noyabrın 24-də Baş Prokurorluq, Gənclər Fondu, "UNİCEF Azərbaycan, "Gənclərin İnkişafı" İctimai Birliyi və "Ümidli Gələcək" İB-nin iştirakı ilə "Emosional-Psixoloji vəziyyətə dair maarifləndirici Təlim" keçirilib.



Tədbirdə Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru Nail Əliyev, Gənclər Fondunun icraçı direktorunun müavini Orxan Ərəbov, BMT-nin Uşaq Fondunun rəhbəri Natiq Umarov, "Ümidli Gələcək" İB rəhbəri Kəmalə Aşurova, "Gənclərin İnkişafı" İB, "UNİCEF Azərbaycan" nümayəndələri və gənclər iştirak edib.



İştirakçılara Baş Prokurorluq tərəfindən özünü öldürmə və özünü öldürməyə cəhd hadisələri üzrə aparılan təhlillər, bu sahədə görülən işlər barədə məlumat verilib və mövzu ətrafında faydalı müzakirələr aparılıb.

## Baş Prokurorluqda media nümayəndələri üçün interaktiv təlim keçirilib













Noyabrın 27-də Baş Prokurorluqda media subyektləri və jurnalistlər üçün "Cinayət təqibi, media və vətəndaş cəmiyyəti institutlarının qarşılıqlı əlaqələrinin müasir tendensiyaları" mövzusunda təlim keçirilib.



Baş Prokurorluğun Mətbuat xidmətinin əməkdaşları, Medianın İnkişafı Agentliyində şöbə müdiri Natiq Məmmədli, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev və müxtəlif media qurumlarını təmsil edən jurnalistlərin iştirakı ilə baş tutan interaktiv təlimdə prokurorluq orqanlarında həyata keçirilən kommunikasiya siyasəti barədə ətraflı məlumat verilib, işin səmərəliliyinin artırılması yönündə media nümayəndələrinin təklifləri dinlənilib, o cümlədən mövzu ətrafında qarşılıqlı fikir mübadiləsi aparılıb.

Vətəndaşların operativ və düzgün məlumatlandırılması məqsədilə təşkil olunmuş interaktiv təlim zamanı həmçinin, jurnalistləri maraqlandıran suallar cavablandırılıb, bu cür təlimlərin davamlı olmasının zəruriliyi qeyd edilib.

## Prokurorluq əməkdaşları üçün "Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin təşkilinin aktual problemləri" mövzusunda təlim keçirilib








Baş Prokurorluğun Elm-Tədris Mərkəzində 27-28 noyabr tarixlərində "Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin təşkilinin aktual problemləri" mövzusunda distant formada təlim təşkil edilib.

Təlimə Baş Prokurorluq, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının aidiyyəti struktur bölmələrinin, eləcə də müvafiq sahə üzrə şəhər və rayon prokurorluqlarının ümumilikdə 135 əməkdaşı dinləyici qismində cəlb olunub.

Tədbirə təlimçi qismində Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və "Respublika Psixiatriya Xəstəxanası" publik hüquqi şəxsin müvafiq sahədə təcrübəli işçiləri iştirak edib.

Təqdimatlar zamanı vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu ilə bağlı məsələlərə dair müxtəlif aktual mövzular tədris edilib, xüsusilə də bu sahədə psixoloji hazırlıq, qəbul zamanı peşəkar davranışın mənəvi aspektləri, riskli hadisələrin qarşısının alınması ilə bağlı tələblər və sair məsələlərə xüsusi diqqət yetirilib.

# Baş Prokurorluqda “Maliyyə araşdırmasının forma və metodları” mövzusunda təlim keçirilib









Azərbaycan Respublikasının Prokurorluğu və Maliyyə Monitorinqi Xidmətinin birgə təşkilatçılığı ilə cari ilin 28 noyabr tarixində Baş Prokurorluğun Elm-Tədris Mərkəzində “Maliyyə araşdırmasının forma və metodları” mövzusunda hibrid formatda təlim keçirilib. Tədbirdə Prokurorluq və Maliyyə Monitorinqi Xidmətinin təlimçiləri tərəfindən maliyyə araşdırmasının taktikası və metodikasının əsasları, aktivlərin bərpası və digər əlaqəli sahələrdə mövcud yerli və beynəlxalq təcrübə barədə geniş təqdimatlar həyata keçirilib. Prokurorluq və daxili işlər orqanları, habelə, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin əməkdaşlarının dinləyici qismində iştirak etdiyi təlim zamanı “FATF standartlarında və milli kontekstdə maliyyə araşdırması”, “Maliyyə araşdırmasının metodları”, “Maliyyə araşdırmasının planlaşdırılması”, “Maliyyə Monitorinqi Xidmətindən maliyyə məlumatlarının əldə olunması”, “Paralel maliyyə araşdırmasının xarakterik xüsusiyyətləri”, “Ölkə hüdudlarından kənara çıxarılmış aktivlərin bərpasında beynəlxalq əməkdaşlıq” və “Predikativ cinayətlər üzrə paralel maliyyə araşdırmasının aparılması” kimi aktual mövzular tədris edilib. Qarşılıqlı müzakirələr formatında baş tutmuş təlimin sonunda dinləyicilər tərəfindən verilmiş çoxsaylı suallar cavablandırılıb.





# Elm-Tədris Mərkəzində istintaq və əməliyyat qurumlarının əməkdaşları üçün təlim təşkil edilib

Baş Prokurorluğun Elm-Tədris Mərkəzində 28 və 29 noyabr tarixlərində istintaq və əməliyyat qurumlarının əməkdaşları, həmçinin prokurorluğa qulluğa yeni qəbul edilmiş əməkdaşlar üçün "İşgəncələrin və qeyri-insani, yaxud insan ləyaqətini alçaldan rəftarın və ya cəzaların qarşısının alınması haqqında Avropa Konvensiyasının tətbiqi məsələləri və yetkinlik yaşına çatmayanlar barəsində icraatın xüsusiyyətləri" mövzusunda, əyani formada təlim təşkil edilib.









Sözü gedən tədbirə prokurorluq və daxili işlər orqanlarında istintaq və əməliyyat sahəsində fəaliyyət göstərən əməkdaşlar dinləyici qismində, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyin Voronej İnstitutunun təcrübəli işçiləri isə təlimçi qismində cəlb olunub.





Təlim çərçivəsində "İşgəncələrin və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Avropa Komitəsinin tövsiyələri", "Avropanın polis etik qaydaları", "İstintaq və məlumatların toplanması üçün effektiv müsahibə prinsipləri (Mendez prinsipləri)", "Yetkinlik yaşına çatmayanlar barəsində icraatın xüsusiyyətləri" və digər aktual mövzular tədris edilib.

# Astara şəhərində “Heydər Əliyev və müasir dövlət quruculuğu” adlı konfrans keçirilib






Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, noyabrın 29-da Astara şəhərində “Heydər Əliyev və müasir dövlət quruculuğu” adlı işgüzar konfrans keçirilib.









Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Astara şəhərinin mərkəzində ucaldılmış abidəsini, daha sonra isə Astara Şəhidlər Xiyabanını ziyarət edib.

İştirakçılar Astara rayon Heydər Əliyev mərkəzinin Muzey hissəsində Ulu Öndərin zəngin dövlətçilik irsini, həyat və fəaliyyətini özündə əks etdirən eksponat və fotostendlər ilə tanış olub.

Astara rayon Mədəniyyət Mərkəzində baş tutmuş tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Murad Dadaşov müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dahi lider Heydər Əliyevin mövcud iqtisadi inkişafın və hərtərəfli tərəqqinin əldə olunmasındakı rolundan bəhs edib.

Dahi lider Heydər Əliyevin müasir dövlət quruculuğu siyasəti barədə danışan Murad Dadaşov uğurlu siyasətin bu gün də Azərbaycan Respublikasının Prezidenti

cənab İlham Əliyev tərəfindən davam etdirildiyini qeyd edib.

Konfrans zamanı çıxış edən Astara rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev işgüzar tədbirin Astara şəhərində təşkilindən məmnunluğunu ifadə edib.

Konfransda, həmçinin, Astara rayon prokuroru Əli Əliyev, Milli Məclisin deputatları Rəşad Mahmudov və Ziyafət Əsgərov, Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi Anar Eyvazov və digərləri fenomenal şəxsiyyət Heydər Əliyevin gənclər siyasəti, ordu quruculuğu və insan hüquqlarına verilən dəyər, Ulu Öndərin xilaskarlıq missiyası və zəngin dövlətçilik irsi mövzularında çıxış edib.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparılıb.

Bakı Media Mərkəzi tərəfindən ərsəyə gətirilmiş, dövlət başçısının 2003-cü ildən başlayaraq yürütdüyü məqsədyönlü siyasət və nəticədə torpaqlarımızın işğaldan azad olunması ilə bağlı tarixi missiyasına həsr olunmuş "İlham" sənədli filmi tədbir zamanı nümayiş etdirilib.







# Prokurorluq işçiləri "Natiqlik və sosial media ilə ünsiyyət" mövzusunda təlimə cəlb edilib







Prokurorluq əməkdaşlarının kommunikasiya sahəsində biliklərinin, ictimaiyyətlə əlaqələrinin, natiqlik bacarığının artırılması daim diqqət mərkəzində saxlanılır.

Bu məqsədlə Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Mətbuat xidməti tərəfindən cari ilin dekabrın 7-də tabe prokurorluqlarda media ilə əlaqələrə görə məsul şəxslər üçün "Natiqlik və sosial media ilə ünsiyyət" mövzusunda distant formada onlayn rejimdə təlim təşkil edilmişdir.

Təlimin daha səmərəli olması üçün tədbirə təlimçi qismində Baş Prokurorluğun Mətbuat xidmətinin əməkdaşları ilə yanaşı, Bakı Dövlət Universitetinin peşəkar müəllimi və jurnalistika sahəsi üzrə mütəxəssis cəlb edilmişdir.

Təlim çərçivəsində 84 nəfərdən ibarət dinləyici auditoriyasına "Azərbaycan Prokurorluğunun media siyasəti", "Prokurorluqda aşkarlıq və şəffaflığın təmin olunması ilə bağlı həyata keçirilən kompleks tədbirlər", "Xidməti məlumatların kütləvi informasiya vasitələrinə çatdırılma qaydası və onun nümayiş etdirmə üslubları", "Natiqlik qabiliyyətinin artırılması üçün nitq texnikası və vasitələri" və sair mövzularda mühazirələr tədris edilərək, dinləyicilərin sualları cavablandırılmışdır.

# Dövlətçiliyin qorunmasında Azərbaycan qadınının rolu mövzusunda elmi-praktik konfrans keçirilib





Dekabrın 19-da Dövlət Gömrük Komitəsi Akademiyasının təşkilatçılığı ilə xüsusi təyinatlı ali təhsil müəssisələri arasında Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Azərbaycan qadını dövlətçiliyin keşiyində" mövzusunda elmi-praktik konfrans keçirilmişdir.

Əsas məqsədi Ulu Öndərin dövlətçilik strategiyasının həyata keçirilməsində Azərbaycan qadınlarının rolu, onların ictimai-siyasi fəallığının artırılması istiqamətində görülən işlərin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qadın siyasətinin, onların dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatındakı rolunun işıqlandırılması olan konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin əməkdaşları Nigar Qələndərli, Nigar Əskərova və Sarıtel Əliyeva iştirak etmişlər.

Konfransda Nigar Əskərova "Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi sahəsində Heydər Əliyevin rolu" mövzusunda çıxış etmişdir.

Konfransda təqdimatlar və çıxışlar dinlənilərək, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.






# Abşeronda “Heydər Əliyev və müasir dövlət quruculuğu” adlı konfrans keçirilib





Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, dekabrın 22-də Abşeronda “Heydər Əliyev və müasir dövlət quruculuğu” adlı işgüzar konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Abşeron rayonunun mərkəzində ucaldılmış abidəsini ziyarət edib.








İştirakçılar Abşeron rayon Heydər Əliyev mərkəzinin Muzey hissəsində Ulu Öndərin zəngin dövlətçilik irsini, həyat və fəaliyyətini özündə əks etdirən eksponat və fotostendlər ilə tanış olub.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Tural Aslanov müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dahi lider Heydər Əliyevin mövcud iqtisadi inkişafın və hərtərəfli tərəqqinin

əldə olunmasındakı rolundan bəhs edib.



Dahi lider Heydər Əliyevin müasir dövlət quruculuğu siyasəti barədə danışan Tural Aslanov uğurlu siyasətin bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirildiyini qeyd edib.

Konfransda, həmçinin, Abşeron rayon prokuroru Qabil Qasımov, Milli Məclisin deputatı Hikmət Məmmədov, Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi Anar Eyvazov və digərləri fenomenal şəxsiyyət Heydər Əliyevin gənclər siyasəti, ordu quruculuğu və insan hüquqlarına verilən dəyər, Ulu Öndərin xilaskarlıq missiyası və zəngin dövlətçilik irsi mövzularında çıxış edib.



Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparılıb.





Bakı Media Mərkəzi tərəfindən ərsəyə gətirilmiş, dövlət başçısının 2003-cü ildən başlayaraq yürütdüyü məqsədyönlü siyasət və nəticədə torpaqlarımızın işğaldan azad olunması ilə bağlı tarixi missiyasına həsr olunmuş "İlham" sənədli filmi tədbir zamanı nümayiş etdirilib.



# Respublika Hərbi Prokurorluğunda qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd və digər cinayətlər kollegiya iclasının gündəliyində olub






06.10.2023-cü ildə Respublika Hərbi Prokurorluğunda Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, eləcə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə 2023-cü ilin birinci yarımilində hərbi prokurorluq orqanlarında qeydə alınmış qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd və özünü öldürmə həddinə çatdırma cinayətləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyin vəziyyətinin, cinayət hadisələrinin baş verməsinin səbəb və şəraitinin, həmin cinayətlər üzrə istintaq təcrübəsi və məhkəmə nəticələrinin ümumiləşdirilməsinin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.

Əvvəlcə kollegiya iştirakçıları Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələrini bir dəqiqəlik sükutla anıblar, qazilərə şəfa diləyiblər.

Kollegiya iclasını açıq elan edən Baş prokurorun müavini – Respublika Hərbi prokuroru Xanlar Vəliyev bildirib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasətini dövrün tələblərinə uyğun reallaşdıran Prezident İlham Əliyevin yüksək erudisiyası, mükəmməl siyasi strategiyası və yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində dövlətimizin daha da qüdrətlənməsi və əhalinin rifahının hərtərəfli yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. Hərbi prokuror Xanlar Vəliyev, həmçinin vurğulayıb ki, Prezidentin ölkəyə rəhbərlik etdiyi 20 ildə qazanılmış misli görünməmiş uğurlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti də mühüm əhəmiyyət kəsb etməkdədir.









Məruzələr ətrafında geniş fikir mübadiləsi aparılıb.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, şəxsi heyəti peşəkar hərbi qulluqçularla komplektləşdirilib, hərbçilərin nəzəri bilik və peşə, həmçinin mənəvi-psixoloji hazırlıq səviyyəsi artırılıb, qeyd olunanlar nizam-intizamın və qanunçuluğun daha da möhkəmlənməsini şərtləndirib.

Sonra Hərbi prokuror Xanlar Vəliyev kollegiya iclasının həsr olunduğu cinayətlərin istintaq və məhkəmə təcrübəsinin ildə iki dəfə ümumiləşdirilərək Respublika Hərbi Prokurorluğunun kollegiyalarında Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının, eləcə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbər vəzifəli şəxslərinin iştirakı ilə müzakirə edilməklə, kollegiyaların qərarlarına əsasən həmin cinayətləri doğurmuş səbəb və şəraitin aradan qaldırılması üçün zəruri qabaqlayıcı tədbirlərin görülməsinə dair aidiyyəti qurumların rəhbərlərinə məlumat məktubları, komandanlıqlara təqdimatlar, ərazi hərbi prokurorlarına icmal məktublar göndərilməsinin, həmçinin hər ilin əvvəlində tərtib edilmiş birgə tədbirlər planlarına əsasən nizam-intizamın, qanunçuluğun möhkəmləndirilməsi və cinayətkarlığa qarşı mübarizədə birlikdə görülən digər işlərin cinayətlərin, o cümlədən bu qəbildən olan cinayətlərin qarşısının alınmasındakı xüsusi rolunu qeyd edərək, qarşılıqlı səmərəli fəaliyyətə görə adları çəkilən qurumların rəhbərlərinə öz təşəkkürünü bildirib.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev xüsusi vurğulayıb ki, bütün bunların nəticəsində 2022-ci ilin birinci yarımili ilə müqayisədə 2023-cü ilin eyni dövründə qeydə alınmış qəsdən adam öldürmə cinayətləri 20 faiz, qəsdən adam öldürməyə cəhd cinayətləri 66,7 faiz, özünü öldürməyə cəhd hadisələri isə 75 faiz azalıb.

Bundan sonra, Respublika Hərbi Prokurorluğunun Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin rəisi Hümmət Məmmədov və İstintaq idarəsinin rəis müavini Rüstəm Ələsgərov kollegiya iclasının həsr olunduğu məsələlər barədə çıxış edərək, bununla bağlı hesabat dövründə görülmüş işlərdən danışıb, həmin cinayətlərin qarşısının alınması ilə əlaqədar hərbi prokurorluq orqanlarının və aidiyyəti qurumların qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün görülməli olan tədbirlər barədə məlumat veriblər.

Kollegiya iclasına yekun vuran Respublika Hərbi prokuroru Xanlar Vəliyev bildirib ki, cinayət hadisələrinin, o cümlədən bu qəbildən olan cinayətlərin qarşısının alınması istiqamətində Hərbi Prokurorluğun aidiyyəti qurumlarla birgə fəaliyyəti bundan sonra da uğurla davam etdiriləcəkdir.

# Respublikanın Hərbi Prokurorluğunda "8 Noyabr – Zəfər Günü" qeyd olunub







07.11.2023-cü il tarixdə "8 Noyabr – Zəfər Günü" münasibətilə Hərbi Prokurorluqda Milli Məclis deputatların və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Vətən müharibəsində və antiterror tədbirlərində iştirak etmiş hərbi qulluqçuları ilə, o cümlədən qazilərlə görüş keçirilib.

Respublika Hərbi Prokurorluğunun inzibati binasındakı "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülərək, dahi insanın parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Mərasim iştirakçıları nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin və ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərin əziz və unudulmaz xatirələrini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Tədbirdə çıxış edən Baş prokurorun müavini – Respublikanın Hərbi prokuroru Xanlar Vəliyev mərasim iştirakçılarını, bütün qaziləri və şəhid ailələrini Zəfər Günü münasibətilə təbrik edərək onlara xoş arzularını ifadə edib. Hərbi prokuror bildirib ki, müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini zamanın tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyevin zəngin elmi bilikləri, dərin düşüncəsi, uzaqgörən siyasi strategiyası, sarsılmaz qətiyyəti və yorulmaz fəaliyyəti ilə xalqın əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən postpandemiya dövrünə, eləcə də müharibədən çıxmış ölkə olmağımıza rəğmən, dövlətimiz qüdrətlənir, işğaldan azad olunmuş ərazilərimiz də daxil olmaqla regionlarımız hərtərəfli inkişaf edir və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. Ədliyyə general-leytenantı Xanlar Vəliyev, həmçinin qeyd edib ki, ölkəmizin sürətli tərəqqisində və qazanılan ardıcıl uğurlarda, eləcə də dövlətimizin beynəlxalq əlaqələrinin genişləndirilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli və zəngin fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Ölkəmizin sürətli inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də rəvac verdiyini deyən hərbi prokuror Xanlar Vəliyev bildirib ki, son illər Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, arsenalı ən müasir silah-sursat, hərbi texnika və digər avadanlıqlarla bir qədər də zənginləşdirilib. Həmçinin hərbçilərin sosial vəziyyəti davamlı yaxşılaşdırılıb, mənəvi-psixoloji hazırlıq səviyyəsi və döyüş əhval-ruhiyyəsi artırılıb, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşıb. Qeyd olunanlar hərbi uğurlarımızı şərtləndirmiş və nəticədə düşmənin 2020-ci il sentyabrın 27-dən başlayaraq törətdikləri növbəti təxribatlarının qarşısının alınması, eləcə də antiterror tədbirləri zamanı gedən döyüşlərdə müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri öz gücünü, qüdrətini, hərbçilərimiz isə peşəkarlığını və yüksək

döyüş hazırlığını əyani şəkildə sübut edib və Zəfərlərimiz təmin olunub. Vətən müharibəsindən, qazanılan möhtəşəm Qələbədən bəhs edən Xanlar Vəliyev Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə damlası düşmənin bütövlükdə vücudundan dəyərli olan qanları ilə şanlı tarix yazan vətən oğullarının qəhrəmanlığından, hərbçilərimizin əzmkarlığından, xalqımızın mübarizliyindən, prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşlarının xidməti və-











zifələrini layiqincə icra etmələrindən danışaraq, əldə olunan uğurları Prezident-Xalq birliyinin şərtləndirdiyini vurğulayıb. Sentyabrda uğurla həyata keçirilən antiterror əməliyyatları bir daha təsdiq etdi ki, “Dəmir yumruq” yerindədir, istənilən təxribatın qarşısını qətiyyətlə almağa və düşmənin “başını əzməyə” qadirdir. Millətinə xidməti həyat amalına çevirmiş İlham Əliyevin xalq qarşısında verdiyi vədləri əməlləri ilə hər zaman doğrultduğunu xüsusi vurğulayan Hərbi prokuror Xanlar Vəliyev söylədi ki, dövlətimizin başçısı hərbi və siyasi-diplomatik yolla ölkəmizin əzəli ərazilərini işğaldan azad etməklə, növbəti vədini də yerinə yetirdi. Prezidentin müstəsna fəaliyyəti digər dövlət başçılarına örnəkdir.

Milli Məclisin deputatları Sabir Rüstəmxanlı, Nizami Cəfərov, Azər Badamov, Ceyhun Məmmədov və çıxış edən digər şəxslər oxşar məzmunlu nitqlər söyləyərək Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan tarixi Qələbədən, eləcə də 44 günlük döyüşlərdə və antiterror əməliyyatlarında Hərbi Prokurorluğun özünəməxsus rolundan, Silahlı Qüvvələrlə, o cümlədən Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti və Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, habelə aidiyyəti təşkilatlarla birgə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs etdilər. Eyni zamanda, çıxışçılar Vətən müharibəsində iştirak edən şəxslərə, o cümlədən qazilərə göstərilən diqqət və qayğıya görə Hərbi Prokurorluğun rəhbərinə və kollektivinə dərin minnətdarlıqlarını bildirdilər.

Sonda ədliyyə general-leytenantı Xanlar Vəliyev igid oğullara bir daha öz dərin təşəkkürünü bildirdi və onlara hədiyyələr təqdim olundu, qəhrəman Vətən övladları isə məmnunluqlarını ifadə etdilər.

# Hərbi Prokurorluğun təşəbbüsü ilə Sumqayıtda keçirilən tədbirdə son 20 ildə ölkəmizdə həyata keçirilmiş hərtərəfli köklü islahatlardan danışılıb

Respublika Hərbi Prokurorluğunun təşəbbüsü ilə Sumqayıt şəhərində 21 noyabr 2023-cü il tarixdə şəhər rəhbərliyinin, ictimaiyyət nümayəndələrinin, o cümlədən şəhid ailələrin və qazilərin, eləcə də yüksək rütbəli hərbi qulluqçuların iştirakı ilə keçirilən tədbirdən öncə Ümummilli Lider Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzülərək tarixi şəxsiyyətin ruhuna ehtiram ifadə olunub.

Tədbir Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canından keçən qəhrəmanların əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini –Respublikanın Hərbi prokuroru Xanlar Vəliyev, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Vətən müharibəsi qəhrəmanı Kənan Seyidov və digərləri müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxaran tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

















Çıxışçılar xalqımızın lideri Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş müstəsna uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların əldə olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın həmrəyliyindən danışıblar.

Tədbirdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə və uğurlu antiterror tədbirləri xüsusi vurğulanmaqla, həmin dövrlərdə Baş Prokurorluğun, həmçinin Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən aidiyyəti rayonların rəhbərlikləri ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, iftixar dolu günlərin unudulmaz təəssüratları bölüşülüb.

Tədbirdən sonra şəhid ailələri və qazilərlə fikir mübadiləsi aparılıb.

# Hərbi Prokurorluq Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Qəbələdə tədbir keçirib









25 noyabr 2023-cü ildə Hərbi Prokurorluğun Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi və ictimaiyyəti, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları ilə birgə keçirilən tədbirdən əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsinin və şəhidlər guşəsinin önünə gül dəstələri düzülərək, nəhəng tarixi şəxsiyyətin və qəhrəman vətən övladlarının ruhlarına ehtiram ifadə olunub.

Ulu Öndər Heydər Əliyevin və bütün şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə isə şəfa arzulanıb.

Tədbirdə Baş prokurorun müavini – Respublika Hərbi prokuroru Xanlar Vəliyev, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və digər çıxışçılar müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışçılar, eyni zamanda, xalqımızın lideri Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddət ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş









hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş müstəsna uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar.

Tədbirdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə və uğurlu antiterror tədbirləri xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, o dövrlərdə prokurorluğun, həmçinin Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Daxili Qoşunlarla, eləcə də aidiyyəti rayonların rəhbərlikləri ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, iftixar dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Sonra hərbi qulluqçuların qayğı və problemləri ilə maraqlanılıb, onlarla hüquqi maarifləndirici mövzularda söhbətlər aparılıb, xidmətdə fərqlənən hərbi qulluqçular qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

## Respublika Hərbi Prokurorluğunda Ulu Öndər Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib









Dekabr ayının 7-də Respublika Hərbi Prokurorluğunda nəhəng tarixi şəxsiyyət, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib.

Əvvəlcə prokurorluğun inzibati binasındakı “Heydər Əliyev guşəsi”ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülərək, dünya şöhrətli siyasətçinin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbir iştirakçıları böyük şəxsiyyətin, eləcə də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin əziz və unudulmaz xatirələrini bir dəqiqəlik sükutla anıb, qazilərə şəfa diləyiblər.





Mərasimdə çıxış edən Baş prokurorun müavini – Respublika Hərbi prokuroru Xanlar Vəliyev qəlbi daim vətən eşqi ilə döyünən, bütün varlığı ilə millətinə bağlı olan, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxaran, müstəqilliyə gedən yolumuzu və istiqbalımızı işıqlandıran dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən ətraflı danışıb. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin mənalı həyatından və çoxşaxəli fəaliyyətindən bəhs edən ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, şərəfli ömrünü ölkəmizin hərtərəfli inkişafına və millətimizin parlaq gələcəyinə həsr edən Ümummilli Lider dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb.

Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli üsulları hələ Ulu Öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə işlənib hazırlanıb. Dahi şəxsiyyət Heydər Əliyevin xalqın israrlı tələbi ilə qayıdışından sonra hər şeyin müsbətə doğru dəyişdiyini vurğulayan hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, Azərbaycanın müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən bu böyük qayıdışdan sonra vətəndaş müharibəsinin, eləcə də müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı qətiyyətlə alınıb, cinayətkar dəstələr zərərsizləşdirilib, separatçı meyillərə son qoyulub, ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin edən digər zəruri tədbirlər görülüb, bununla da Azərbaycan tərəqqi yoluna qədəm qoydu. “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Azərbaycan Prezidentinin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından söz açan ədliyyə general-leytenantı Xanlar Vəliyev qeyd edib ki, sözügedən Sərəncamın və onun əsasında hazırlanan tədbirlər planlarının müddəalarının hərbi prokurorluq orqanları tərəfindən böyük qürur və fərəh hissləri ilə uğurla icra edilib, bu müqəddəs missiya ilə əlaqədar Hərbi Prokurorluq tərəfindən Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçuları, eləcə də müxtəlif dövlət qurumları, şəhər və rayon rəhbərlikləri ilə birlikdə 20-dən artıq tədbir keçirilib.

Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə müstəsna əhəmiyyətli nəhəng işlər görülüb, çoxşaxəli köklü islahatlar həyata keçirilib, bütün istiqamətlərdə misli görünməmiş uğurlar əldə olunub.

Prezident İlham Əliyevin dərin zəkası, hərtərəfli bilikləri, mükəmməl rəhbərliyi, sarsılmaz qətiyyəti və







gərgin əməyi sayəsində, eləcə də hakimiyyətlə xalq arasında olan sıx bağlılığın nəticəsində iqtisadiyyatımız daha da güclənib, ölkəmiz hərtərəfli inkişaf edib, qüdrətli Silahlı Qüvvələrimiz formalaşıb. Eyni zamanda, dövlətimizin beynəlxalq nüfuzu daha da artmaqla, dünya ölkələri sırasında mövqeyi hərtərəfli möhkəmlənib. Bütün bunlar isə Vətən müharibəsindəki möhtəşəm qələbəmizi də şərtləndirib, nəticədə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə düşmən tapdağında olan dədə-baba torpaqlarımız işğaldan azad edilib. Uğurla həyata keçirilən antiterror əməliyyatları bir daha təsdiq edib ki, "Dəmir yumruq" yerindədir, istənilən təxribatın qarşısını qətiyyətlə almağa və düşmənin "başını əzməyə" qadirdir.

Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, Prezident İlham Əliyevin mükəmməl siyasi strategiyası və yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən postpandemiya dövrünə, eləcə də müharibədən çıxmış ölkə olmağımıza rəğmən dövlətimizin eyni templə hərtərəfli qüdrətlənməsi və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı bu gün də uğurla təmin edilir.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev vurğulayıb ki, əldə olunan uğurlarda və dövlətimizin qüdrətlənməsində, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində zəngin biliklərə, iti düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik olan, sadəliyi, səmimiliyi və insanpərvərliyi ilə xalq məhəbbəti qazanmış Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Tədbirdə Milli Məclisin deputatları Cavanşir Feyziyev "Ümummilli Lider Heydər Əliyevin şərəfli və mənalı ömür yolu", Arzu Nağıyev "Ulu Öndər Heydər Əliyevin zəngin və çoxşaxəli fəaliyyəti", İqbal Məmmədov "Ümummilli Lider Heydər Əliyev və Azərbaycançılıq", Vüqar İsgəndərov "Ulu Öndər Heydər Əliyev irsi, müstəqil dövlətçilik" və Jalə Əhmədova "Ümummilli Lider Heydər Əliyev Azərbaycanda dövlət quruculuğunun banisidir" mövzularında çıxış ediblər, Xalq şairi Vahid Əziz tədbir iştirakçıları ilə Ulu Öndərlə bağlı xatirələri ilə bölüşüb.

Prezident İlham Əliyev xalqda olan sonsuz inamdan irəli gələn bənzərsiz sevgidən bəhs etməklə tədbiri yekunlaşdıran Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən Ulu Öndər siyasətinin Prezidentimiz tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, qanunun aliliyinin təmin edilməsində, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə icra etməklə Azərbaycanın firavan gələcəyinin təminatı olan müdrik siyasəti daim dəstəkləyəcək.

Çıxışının sonunda ədliyyə general-leytenantı Xanlar Vəliyev qeyd edib ki, dəyərli və mənalı ömrünü millətinə həsr edərək Vətən qarşısında misilsiz xidmətlər göstərməklə Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmış dünya siyasətinin parlaq siması Heydər Əliyev tarixdə və azərbaycanlıların qəlbində əbədi olaraq qalacaq, böyük tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsi hər zaman dərin ehtiramla yad ediləcəkdir.

# Respublika Hərbi Prokurorluğu Dövlət Təhlükəsizliyi Xidməti ilə birlikdə Ulu Öndərin 100 illik yubileyi münasibəti ilə tədbir keçirib







Cari ilin oktyabr ayının 4-ü Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində keçirilən tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

General-mayor Rövşən Muxtarov tədbiri açıq elan etdikdən sonra mərasimdə çıxış edən Respublika Hərbi Prokurorluğunun əməkdaşları Firad Əliyev, Emil Kərimov və Samir Əzimzadə əvvəlcə Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamlarını şəxsi heyətə çatdırıb.



Bundan sonra, adları çəkilən şəxslər istiqlal yolumuzu və firavan istiqbalımızı işıqlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışçılar, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə zamanın tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş uğurlardan, bu uğurların əldə olunmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın əzmkarlığından danışıblar.

Çıxışlarda, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi qələbə xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, uğurlu antiterror tədbirlərindən, prokurorluq orqanlarının, o cümlədən Hərbi Prokurorluğun Dövlət Təhlükəsizliyi Xidməti ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib.

# Ulu Öndərin 100 illik yubileyi ilə bağlı Hərbi Prokurorluğun tədbirləri Beyləqan, Xocavənd və Füzuli rayonlarında davam etdirilib









Hərbi Prokurorluğun təşkilatçılığı ilə cari ilin oktyabr ayının 11-i Beyləqan rayonunda rayon rəhbərliyi, eləcə də işğaldan azad olunmuş Xocavənd və Füzuli rayonlarında Müdafiə Nazirliyinin hərbi qulluqçuları ilə birgə keçirilən tədbirlərdən əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi və Şəhidlər guşəsi ziyarət olunub, önlərinə gül dəstələri düzülüb. Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ulu Öndər Heydər Əliyevin və ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canından keçənlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb.

Mərasimlərdə çıxış edən Hərbi prokurorun müavini Fuad Məmmədov, Hərbi prokurorun böyük köməkçisi Firad Əliyev, Füzuli hərbi prokuroru Elçin Hacıyev, Müdafiə Nazirliyinin nümayəndəsi Ruslan Ağasıyev və digər çıxışçılar müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan böyük tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışçılar, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ilə yaxın müddətdə ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, həmin uğurların əldə olunmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın əzmkarlığından danışıblar.

Tədbirlərdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, həmin dövrdə prokurorluğun, o cümlədən hərbi prokurorluğun Silahlı Qüvvələrlə, eləcə də aidiyyəti rayonların rəhbərlikləri ilə qarşılıqlı səmərəli fəaliyyəti, iftixar dolu 44 günün unudulmaz təəssüratları xatırlanıb.

Mərasimlərdən sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar edilib, onları maraqlandıran suallar cavablandırılıb. Həmçinin tədbir çərçivəsində iştirakçılar hərbçilərin qayğı və problemləri ilə maraqlanıblar.

## Hərbi Prokurorluq Dövlət Sərhəd Xidmətinin Akademiyasında Ulu Öndərin 100 illik yubileyi ilə əlaqədar tədbir keçirib









Respublika Hərbi Prokurorluğu Dövlət Sərhəd Xidməti ilə birlikdə 16.10.2023-cü il tarixdə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı tədbir keçirib. Dövlət Sərhəd Xidmətinin (DSX) Akademiyasında təşkil edilən bu tədbirdən əvvəl Ümummilli Liderin abidəsinin və şəhidlər guşəsinin önünə gül dəstələri düzülərək, aziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə isə şəfa arzulanıb.

Tədbirdə Akademiyanın rəisi Azər İbrahimov, Respublika Hərbi prokurorunun müavini Fuad Məmmədov, Hərbi prokurorun böyük köməkçisi, mətbuat xidmətinin rəhbəri Firad Əliyev və digər çıxışçılar müstəqillik yolumuzu və firavan istiqbalımızı işıqlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Natiqlər Ulu Öndərin Azərbaycanın nurlu gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların əldə olunmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən, xalqın müdrikliyindən və əzmkarlığından danışdılar.

Tədbirdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, eləcə də antiterror tədbirlərindən, o dövrlərdə prokurorluğun, hərbi prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Dövlət Sərhəd Xidməti ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, iftixar dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Mərasimdən sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olunub, onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.

# Naxçıvan hərbi prokurorluğunda “Qalib Azərbaycanın Müzəffər Ali Baş Komandanı” adlı tədbir keçirilib







Oktyabr ayının 24-də İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Naxçıvan hərbi prokurorluğunda “Qalib Azərbaycanın Müzəffər Ali Baş Komandanı” adlı elmi-praktik konfrans keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla anılıb. Tədbirdə çıxış edən Naxçıvanın hərbi prokuroru Aqil Axundov bildirib ki, 20 il bundan əvvəl, 2003-cü ildə Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyev xalqımızın etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilib və bununla da ölkəmizin inkişafında yeni mərhələ başlanıb.

Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət siyasəti bütün sahələrdə Prezident İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun uğurla davam etdirilib. Xalqımızın çoxəsrlik dövlətçilik tarixinə qızıl hərflərlə yazılmış, hər ili tərəqqi ili olan son 20 ildə Azərbaycan Respublikası uğurlu yol keçib, o cümlədən bütün ərazisində suverenliyini tam bərpa edib.

Qazanılan uğurlarda Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da rolu qeyd edilib. Habelə bildirilib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti və müdrik sərkərdəliyi, xalqımızın dəmir iradəsi, hərbçilərimizin qəhrəmanlığı qüdrətli Azərbaycanın ərazi bütövlüyünün bərpasını şərtləndirib və bu böyük tarixi hadisə Ulu Öndərin 100 illiyinə, “Heydər Əliyev İli”nə möhtəşəm töhfə olub.

Mövzu ilə bağlı digər məruzəçilər də çıxışlar ediblər.

## Hərbi Prokurorluq Qazaxda Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə birgə tədbir keçirib

2023-cü ilin oktyabr ayının 26-da Qazaxda rayon rəhbərliyi və Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə birgə keçirilən tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsinin və şəhidlər guşəsinin önünə gül dəstələri düzülərək, onların əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə isə şəfa arzulanıb.







Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamları şəxsi heyətə və tədbir iştirakçılarına çatdırılıb.

Tədbirdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Qazax” əlahiddə sərhəd diviziyasının komandiri Misir Əliyev, Respublika Hərbi Prokurorluğunun Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin rəisi Hümmət Məmmədov, Mətbuat xidmətinin rəhbəri Firad Əliyev, Qazax rayon prokuroru Rauf Gözəlov, Şəmkir hərbi prokuroru İlham Babayev və digərləri çıxış edərək müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Tədbir çərçivəsində xalqımızın lideri Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddət ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə qazanılmış müstəsna nailiyyətlərdən, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların əldə olunmasında Birinci vitse-prezident Mehriban xanım







Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən çıxışlar edilib.

Tədbir zamanı Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış tarixi Qələbə və uğurlu antiterror tədbirləri xüsusi vurğulanmaqla, o dövrlərdə prokurorluğun, eləcə də hərbi prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Dövlət Sərhəd Xidməti ilə, aidiyyəti rayonların rəhbərlikləri ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, iftixar dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.



Sonda hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar edilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri barədə məlumat verilib.



# Hərbi Prokurorluq Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Ağcabədidə tədbir keçirib









Hərbi Prokurorluq noyabr ayının 2-də Ağcabədi rayonunda rayon rəhbərliyi və ictimaiyyəti, şəhid ailələri və qazilərlə, eləcə də Müdafiə Nazirliyinin hərbi qulluqçuları birgə tədbir keçirib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsinin və şəhidlər guşəsinin önünə gül dəstələri düzülərək, onların əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə isə şəfa arzulanıb.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ardınca Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamları şəxsi heyətə və tədbir iştirakçılarına çatdırılıb.

Mərasimdə çıxış edən Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, Ağdam hərbi prokuroru Surxay Hüseynov, Respublika Hərbi Prokurorluğunun Kriminalistika və informasiya texnologiya idarəsinin rəisi Emil Kərimov, Hərbi prokurorun böyük köməkçisi, mətbuat xidmətinin rəhbəri Firad Əliyev, polkovnik-leytenant Mehman Ədilov və digər çıxışçılar müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Natiqlər, eyni zamanda, xalqımızın lideri Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il müddətdə ölkədə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş müstəsna uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban xanım



Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar.

Tədbirdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi qələbə və uğurlu anti-



terror tədbirləri xüsusi vurğulanıb, Vətən müharibəsindən, antiterror tədbirlərindən, o dövrlərdə prokurorluğun, həmçinin hərbi prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Müdafiə Nazirliyi ilə, eləcə də aidiyyəti rayonların rəhbərlikləri ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, iftixar dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Sonda xidməti vəzifələrini nümunəvi icra edən hərbçilər mükafatlandırılıb, hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar olunub, onları maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.

Həmçinin şəhid ailələri və qazilərlə tədbirin təəssüratları bölüşülüb, fikir mübadiləsi aparılıb, istər dövlət səviyyəsində, istərsə də vətəndaşlarımızın göstərdiyi diqqətə görə minnətdarlıq ifadə olunub.

## Hərbi Prokurorluq Ulu Öndərin 100 illik yubileyi ilə bağlı Lənkəran şəhərində tədbirlər keçirib



Ulu Öndərin 100 illik yubileyi ilə bağlı Hərbi Prokurorluğun silsilə tədbirləri davam etdirilib. Növbəti tədbir noyabr ayının 16-da Lənkəran şəhərində ictimaiyyət nümayəndələrinin, o cümlədən şəhid ailələri və qazilərin, eləcə də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının iştirakı ilə baş tutub.

Keçirilən tədbirdən öncə Ümummilli Lider Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzülərək tarixi şəxsiyyətin ruhuna ehtiram ifadə olunub.

Tədbir Ulu Öndərin və ərazi bütövlüyümüz və suverenliyimiz uğrunda canından keçən qəhrəmanların əziz xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, Respublika Hərbi prokurorunun müavini Fuad Məmmədov və böyük köməkçisi Firad Əliyev, habelə digərləri müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxaran tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin









fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışçılar xalqımızın böyük oğlu Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş müstəsna uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların əldə olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın həmrəyliyindən danışıblar.

Tədbirdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə və uğurlu antiterror tədbirləri xüsusi vurğulanmaqla, həmin dövrlərdə Baş Prokurorluğun, həmçinin Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Müdafiə Nazirliyi və aidiyyəti rayonların rəhbərlikləri ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, iftixar dolu günlərin unudulmaz təəssüratları bölüşülüb.

Tədbirdən sonra hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar edilib, onları maraqlandıran suallar cavablandırılıb, həmçinin şəhid ailələri və qazilərlə fikir mübadiləsi aparılıb.







# Hərbi Prokurorluq Ulu Öndərin 100 illik yubileyi ilə bağlı Şuşada tədbir keçirib





Dekabrın 14-də Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxslərinin, yüksək rütbəli hərbçilərin və ərazi hərbi prokurorlarının iştirakı ilə Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində hərbi qulluqçularla keçirilən tədbirdən əvvəl nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin və bütün şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə isə şəfa arzulanıb.

Bundan sonra Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamları şəxsi heyətə çatdırılıb. Hərbi prokurorun böyük köməkçisi, Firad Əliyev, Hərbi Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi Emil Kərimov, Füzuli hərbi prokuroru Elçin Hacıyev, polkovnik Ruslan Ağasıyev və digər çıxışçılar müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan dahi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Natiqlər xalqımızın lideri Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş müstəsna uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların qazanılmasında Birinci vitse-prezident





Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar.

Tədbirdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə və uğurlu antiterror tədbirləri xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, o dövrlərdə prokurorluğun, həmçinin Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, eləcə də aidiyyəti rayonların rəhbərlikləri ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, iftixar dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Sonda hərbi qulluqçuların qayğı və problemləri ilə maraqlanılıb, onlarla hüquqi maarifləndirici mövzularda söhbətlər aparılıb.



# Hərbi Prokurorluq Ulu Öndərin 100 illik yubileyi ilə bağlı Xankəndidə tədbir keçirib



Dekabrın 15-də Hərbi Prokurorluğun əməkdaşlarının, yüksək rütbəli hərbçilərin və ərazi hərbi prokurorlarının iştirakı ilə Müdafiə Nazirliyinin N saylı hərbi hissəsində hərbi qulluqçularla keçirilən tədbirdən əvvəl dahi şəxsiyyət Heydər Əliyevin və bütün şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə isə şəfa arzulanıb.









Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Firad Əliyev, Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi Emil Kərimov, Ağdam hərbi prokuroru Surxay Hüseynov, polkovnik Sadiq Hüseynov və digər çıxışçılar istiqlal yolumuzu və firavan gələcəyimizi nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan dahi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışçılar, eyni zamanda, xalqımızın lideri Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş müstəsna uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın müdrikliyindən danışıblar.

Tədbirdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə və uğurlu antiterror tədbirləri xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, o dövrlərdə prokurorluq orqanlarının Silahlı Qüvvələrlə, eləcə də aidiyyəti rayonların rəhbərlikləri ilə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, iftixar dolu günlərin unudulmaz təəssüratları xatırlanıb.

Sonda hərbi qulluqçuların qayğı və problemləri ilə maraqlanılıb, onlarla hüquqi maarifləndirici mövzularda söhbətlər aparılıb.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi hakimiyyətə gəlişinin 20-ci ildönümü qeyd edilib



Oktyabr ayının 14-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkə rəhbəri seçilməsinin 20-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.

Tədbirin əvvəlində Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının prokuroru, III dərəcəli dövlət ədliyyə müşaviri Sənan Paşayev bildirib ki, 2003-cü ildə Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra Azərbaycanda yeni inkişaf mərhələsi başlamışdır. Görkəmli siyasi lider, Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün Azərbaycan xalqının növbəti onilliklər üçün əbədi inamını və sarsılmaz dəstəyini qazanmışdır.

Həmçinin vurğulanmışdır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən 20 il Azərbaycan xalqının taleyində tamamilə yeni inkişaf mərhələsinin başlanğıcı olmuş, bu dövrdə cəmiyyətimizin həyatında inqilabi dəyişikliklər baş vermiş, Ümummilli Lider Heydər Əliyevin formalaşdırdığı sağlam və möhkəm təməl üzərində Prezident İlham Əliyevin inşa etdiyi güclü və müasir Azərbaycan bir çox taleyüklü problemləri geridə qoyaraq, gələcəyə doğru inamla addımlayan ölkələr sırasında öz layiqli yerini tutmuşdur.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə narkomaniyaya qarşı maarifləndirmə tədbirləri keçirilib





Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019–2024-cü illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində ali və orta ümumtəhsil müəssisələrində "Narkomaniyaya qarşı mübarizə vətəndaşlıq borcumuzdur" mövzusunda tədbirlər keçirilib.

Tədbirlərdə qeyd olunub ki, sürətlə qloballaşan dünyamızda bəşəriyyətin ən böyük bəlalarından olan narkomaniya bu gün hər birimizi narahat edən mürəkkəb problemlərdən biridir. Çoxlarının haqlı olaraq "ağ ölüm" adlandırdığı bu təhlükəli amil isə insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük ziyan vuran, sosial-iqtisadi inkişaf mənfi təsir göstərən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cinayətkarlığın artmasına səbəb olan əsas amildir. "Ağ ölüm" ilə mübarizədə vətəndaşlar da əllərindən gələni əsirgəməməli, xüsusən də ictimai qınaq mexanizminin daim işlək vəziyyətdə olması üçün ciddi səy göstərməli, vətəndaşlıq mövqeyi nümayiş etdirməlidir. Sağlam düşüncəli insanlar











bilirlər ki, narkomaniya cinayət, ailələrin dağılması, çarəsiz xəstəlik, ölüm və sair bu kimi digər ağır nəticələrə gedən yolun başlanğıcı olmaqla bütün cəmiyyət üçün böyük təhlükədir. Ona görə də hər bir insanın sağlamlığını və həyatını ciddi təhlükə altına alan, əxlaqi və mənəvi dəyərləri sarsıdan, insanlığa xələl gətirən, cəmiyyətin sosial-iqtisadi tərəqqisini ləngidən, narkomanlığa qarşı mübarizədə hər birimiz fəal iştirak etməli və ümumbəşəri bəlaya qarşı qətiyyətli mübarizə aparmalıyıq.

İlk öncə oktyabr ayının 11-də Naxçıvan Dövlət Universitetində "Narkomaniyaya qarşı mübarizə vətəndaşlıq borcumuzdur" mövzusunda tədbir keçirilib. Tədbirdə Naxçıvan Dövlət Universitetinin Magistratura və doktorantura mərkəzinin direktoru Çapay Quliyev, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov və Naxçıvan Muxtar Respublikası Psixi Xəstəliklər Dispanserinin Narkologiya şöbəsinin müdiri, həkim-narkoloq Azad Şükürlü mövzu ilə bağlı çıxış ediblər.

Oktyabrın 20-də Naxçıvan Dövlət Texniki Kollecində keçirilən tədbirdə Kollecinin direktoru Asəf Rişanov bu tədbirin mahiyyətini açıqlamış, Faiq Səfərov və Azad Şükürlü isə mövzu ətrafında çıxış ediblər.

Oktyabrın 27-də Naxçıvan Müəllimlər İnstitutunda eyni mövzuda tədbir keçirilib. Tədbir çərçivəsində İnstitutun prorektoru İlqar Hacıyev, Faiq Səfərov, Azad Şükürlü və psixoloq-müəllim Raidə Quliyeva mövzu ilə bağlı çıxış ediblər.

Noyabrın 16-da "Naxçıvan" Universitetində "Narkomaniyaya qarşı mübarizə vətəndaşlıq borcumuzdur" mövzusunda keçirilən tədbirdə Faiq Səfərov və Azad Şükürlü ilə yanaşı, Universitetinin əməkdaşları Afim Məmmədov və Təranə Əliyeva mövzu üzrə çıxış ediblər.

Bu cür tədbirlər Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bir çox orta məktəbləri də əhatə edib.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları internat məktəbinin şagirdlərini ziyarət ediblər



Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı silsilə tədbirlərin davamı olaraq oktyabr ayının 26-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunun bir qrup əməkdaşı Məhəmməd Füzuli adına Ordubad şəhər tam orta internat məktəbinin şagirdlərini ziyarət edərək onlarla söhbətlər aparmışlar, istək və qayğılarını öyrənmişlər. Həmçinin həmin məktəbdə təhsil alan 54 şagirdə geyim dəstləri, məktəb ləvazimatları və ərzaq məhsulları hədiyyə edilib.

Sonda şagirdlərlə xatirə şəkli çəkdirilib.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Naxçıvan Dövlət Universitetində maarifləndirici tədbir keçirilib



Noyabr ayının 2-də Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən Naxçıvan Dövlət Universitetində "Müasir çağırışlara cavab verən hüquq islahatları: 2003–2023-cü illər" mövzusunda tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi Faiq Səfərov son iyirmi ildə ölkəmizdə həyata keçirilən mütərəqqi islahatlar və əldə edilən nailiyyətlər, Azərbaycan Respublikası Konstitusiyasının təkmilləşdirilməsi tədbirləri və müasirləşən Azərbaycan Prokurorluğu haqqında, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi Anar Məmmədov penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi, vətəndaşların hüquqi yardım almaq imkanının və inzibati qanunvericiliyin təkmilləşdirilməsi, Şərur rayon prokurorunun böyük müstəntiqi Jalə İbrahimova isə ölkəmizdə aparılan hüquq islahatları, o cümlədən məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi və ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Planları və Dövlət Proqramları haqqında tələbələrə məlumat veriblər.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.



# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda “8 Noyabr – Zəfər Günü” münasibəti ilə tədbir keçirilib







Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Prokurorluğun mərkəzi aparatının və tabe rayon (şəhər) prokurorluqlarının əməkdaşları noyabr ayının 7-də “8 Noyabr – Zəfər Günü” münasibətilə tədbir keçiriblər.

Naxçıvan Muxtar Respublikasının prokuroru və prokurorluq əməkdaşları Naxçıvan şəhərinin mərkəzində yerləşən Zəfər parkını ziyarət edərək, memorial kompleksinin önünə gül dəstələri qoyaraq, kompleksin qarşısında xatirə şəkili çəkdiriblər.

Bundan sonra prokurorluq əməkdaşları Naxçıvan şəhərində yerləşən Gənclik kinoteatrında Naxçıvan Televiziyasının ərsəyə gətirdiyi sənədli filmə baxıblar.



## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda mülki müdafiənin təşkili ilə əlaqədar tədbir keçirilib







Noyabr ayının 22-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Muxtar Respublika Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə birlikdə tədbir keçirilib.

Tədbir zamanı Muxtar Respublika ərazisində ehtimal olunan təbii və texnogen xarakterli fövqəladə halların, dinc və müharibə dövründə mülki müdafiənin məqsədi, təşkil edilmə prinsipləri və vəzifələri, radiasiya təhlükəsi, kimyəvi və bioloji zəhərlənmələr zamanı davranış və fəaliyyət qaydaları, yanğın söndürmə vasitələrindən düzgün istifadə qaydaları və dəm qazının yaranma səbəbləri, yanğından və dəm qazından qorunma üsulları, eləcə də zəhərlənmə zamanı davranış qaydaları haqqında prokurorluq əməkdaşları məlumatlandırılıb.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda "Məhkəmə ekspertizasının təyin olunmasının xüsusiyyətləri" mövzusunda tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə audio və video yazıların məhkəmə kriminalistik ekspertizası, məhkəmə-ballistik, məhkəmə-psixoloji, məhkəmə yanğın texniki, insan izlərinin tədqiqi, təhlükəsizlik texnikası, iqtisad, fonoskopiya və məhkəmə xətşünaslıq ekspertizası ixtisası sahələri üzrə tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorunun müavini Amil Rəhimov, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə



ekspertizası Mərkəzi və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə ekspertizası mərkəzinin peşəkar əməkdaşları tərəfindən müxtəlif mövzularda çıxışlar edilib.

Tədbir zamanı əməkdaşları maraqlandıran suallar ekspertlər tərəfindən cavablandırıb.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi Ulu Öndər Heydər Əliyevin xatirəsini yad edib



Ulu Öndər Heydər Əliyevin xatirəsi dekabr ayının 12-də vəfatının 20-ci ildönümündə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi tərəfindən yad edilib.

Xalqımızın Ümummilli Liderinin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Sonra tədbir Naxçıvan Muxtar Respublikası Prokurorluğunun akt zalında davam etdirilib.





## Naxçıvan Muxtar Respublikası Prokurorluğunun nümayəndəsi "ELSA Naxçıvan" təşkilatçılığı ilə keçirilən tədbirdə iştirak edib





"ELSA Naxçıvan" tərəfindən 16 dekabr 2023-cü il tarixində Naxçıvan Dövlət Universitetinin Magistratura və doktorantura mərkəzinin akt zalında "İnsan Hüquqları sahəsində təlim proqramı" layihəsi baş tutub.

Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müəllimi Əziz Qasımovun moderatorluğu ilə "Avropa İnsan Hüquqları Konvensiyası – işgəncə" mövzusunda panel müzakirəsi keçirilib. Panel müzakirədə Naxçıvan Muxtar Respublikası Babək rayon məhkəməsinin hakimi Günay İsmayıl, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi Faiq Səfərov və Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədri Vüsal Həsənov iştirak etmişlər. Tədbir çərçivəsində tələbələri maraqlandıran suallar cavablandırılmışdır.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən "Heydər Əliyev İli" çərçivəsində Naxçıvan Dövlət Universitetinin Tibb Kollecində tədbir keçirilib



Dekabr ayının 14-də Naxçıvan Muxtar Respublikası tərəfindən Naxçıvan Dövlət Universitetinin Tibb Kollecində "Ümummilli Lider Heydər Əliyev və hüquqi dövlət quruculuğu" mövzusunda tədbir keçirilib.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Tibb Kollecinin direktoru Sona Məmmədova giriş sözü ilə çıxış edib.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və in-





san hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov "Ulu Öndər Heydər Əliyev Azərbaycanda hüquqi islahatların memarıdır" mövzusunda çıxış edərək müəllifi olduğu və Ümummilli Liderin 100 illik yubileyinə ithaf etdiyi "Qanunçuluq və hüquq düşüncəsi" adlı kitabını universitetin elmi kitabxanasına hədiyyə edib.

Sonda Ulu Öndərin zəngin fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib.

# Prokurorluğun nümayəndə heyəti İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) korrupsiyaya qarşı mübarizəyə dair yüksək səviyyəli tədbirində iştirak etmişdir



Cari ilin 3-5 oktyabr tarixlərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Fransa Respublikasının Paris şəhərindəki mənzil qərargahında Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin (ACN) 22-ci Plenar iclası və Şəbəkənin İdarə Heyətinin 28-ci görüşü keçirilmişdir.




Qeyd edilən tədbirlərdə ölkəmiz Azərbaycan Respublikasının Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun rəhbərlik etdiyi, tərkibinə Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi Səbuhi Alıyev, Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Nicat Nağıyev və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın Katibliyinin böyük məsləhətçisi Kamran Həsənovun daxil olduğu nümayəndə heyəti tərəfindən təmsil olunmuşdur.

Qurumun oktyabr 3-də keçirilmiş 22-ci Plenar iclasında nümayəndə heyətinin rəhbəri Nazim Rəcəbov tərəfindən ölkəmizin korrupsiyaya qarşı mübarizə təcrübəsinə dair geniş məlumat verilmiş, eləcə də ölkəmiz üzrə dəyərləndirilən hər bir fəaliyyət sahəsi üzrə tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

Plenar iclasda Azərbaycan üzrə 5-ci dəyərləndirmə mərhələsinin hesabatı müzakirə edilərək qəbul edilmişdir. Korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasəti, müvafiq Milli Fəaliyyət Planının icrası, məhkəmə və prokurorluq sistemində həyata keçirilən islahatlar, həmçinin korrupsiyaya qarşı mübarizə sahəsində cinayət təqibi və ixtisaslaşmış qurumların fəaliyyəti yüksək qiymətləndirilmişdir.

İdarə Heyətinin iclasında isə Şəbəkənin 2023-2026-cı illər üzrə İş Proqramının, o cümlədən Regional Dialoq, Hüquq Mühafizə Orqanları Şəbəkəsi, Biznesdə Dürüstlük platformalarının və Ölkə Layihələrinin icrası vəziyyəti müzakirə edilmişdir. İclasda, həmçinin Avropa Birliyinin Şərq Tərəfdaşlığı ölkələri üzrə Təhsildə Dürüstlük mövzusunda xüsusi sessiyası keçirilmişdir.

Nazim Rəcəbov tərəfindən ölkəmizdə korrupsiyaya qarşı mübarizənin dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil etməsi vurğulanaraq Anti-Korrupsiya Şəbəkəsinin (ACN) növbəti İş Proqramının dəstəklənməsi ifadə edilmişdir.

## Baş Prokurorluğun nümayəndəsi Avropa Şurasının ekspert komitəsinin iclasında iştirak edib



Cari ilin 4-6 oktyabr tarixlərində Strasburqda Avropa Şurasının Nifrət cinayətləri üzrə ekspert komitəsinin 4-cü iclası keçirilib.

Tədbirdə ölkəmizi təmsil edən Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanov prokurorluq orqanlarında aparılan islahatlar çərçivəsində nifrət zəminində baş verən cinayətlərə, həmçinin məişət zorakılığı, qadınlara və azyaşlılara qarşı şiddət və zorakılıqla mübarizə sahəsində görülən qanunvericilik və praktiki tədbirlər haqda danışıb.

Avropa Şurası Nazirlər Komitəsinin nifrət cinayətlərinə qarşı mübarizə sahəsində üzv dövlətlərə tövsiyə sənədinin yekun layihəsində ölkəmizin rəy və təklifləri nəzərə alınaraq layihə Şuranın Nazirlər Komitəsinə təqdim olunub.

## Prokurorluğun əməkdaşları korrupsiyaya qarşı mübarizə sahəsində Estoniya təcrübəsi ilə tanış olublar



Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq əlaqələrinin uğurlu davamı kimi Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsi (EACN) tərəfindən həyata keçirilən "Antikorrupsiya sahəsində qabaqcıl təcrübə mübadiləsi" (BACPE) layihəsinə qoşulublar.

Layihə çərçivəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin prokuror-kriminalisti Samir Mirzəyev, Əməliyyat idarəsinin mühüm işlər üzrə əməliyyatçısı Orxan Qazızadə və Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin prokuroru Əhməd Həsənov cari ilin 3-6 oktyabr tarixlərində Estoniya Respublikasının paytaxtı Tallin şəhərində səfərdə olublar.

Səfər zamanı əməkdaşlarımız Estoniya Baş Prokurorluğu, habelə Korrupsiya Cinayətləri Bürosunda olub, tərəfdaş ölkənin Baş Prokurorluğunda keçirilmiş görüşdə xarici həmkarlar tərəfindən onlara qurumun strukturu, eləcə də korrupsiya cinayətlərinə qarşı mübarizə sahəsində müsbət təcrübələri barədə geniş məlumat verilib.

Korrupsiya Cinayətləri Bürosunda keçirilmiş növbəti görüşdə isə nümayəndələrimizə korrupsiya cinayətlərinin istintaqı zamanı aktivlərin bərpası istiqaməti ilə bağlı bu qurumun fəaliyyətindən bəhs edilib

Hər iki görüşdə əməkdaşlarımız tərəfindən ölkəmizdə korrupsiyaya qarşı mübarizə və aktivlərin bərpası sahələrində görülən işlər barədə ətraflı məlumat verilib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında müsbət təcrübə və fikir mübadiləsi aparılıb.

Layihənin formatına uyğun olaraq, tərəfdaş ölkə nümayəndələrinin də Azərbaycan Prokurorluğunun müvafiq sahədə müsbət təcrübəsi ilə tanış olması məqsədi ilə ölkəmizə səfəri nəzərdə tutulur.

# Baş Prokurorluq tərəfindən beynəlxalq əməkdaşlıq sahəsində əlaqələr uğurla inkişaf etdirilir

Prokurorluq əməkdaşlarının beynəlxalq təcrübəni öyrənməklə peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və əldə edilmiş biliklərin təcrübədə tətbiq etməsi istiqamətində işlər davam etdirilir. Bu məqsədlə prokurorluq əməkdaşlarının beynəlxalq təlim kurslarında, konfranslarda, seminarlarda və digər tədbirlərdə iştirakı təmin olunur.

Tədbirlərin davamı olaraq, cari ilin noyabr ayı ərzində Baş Prokurorluğun əməkdaşları bir neçə ölkədə beynəlxalq səviyyəli tədbirlərdə iştirak ediblər.

Belə ki, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Samirə Nəcəfzadə, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti Qədir Məmmədov və Astara rayon prokurorluğunun müstəntiqi Tərlan Həmidov Monteneqronun Budva şəhərində “Transsərhəd mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə prokurorların beynəlxalq forumu” adlı hibrid Multi-TAİEX seminarında iştirak ediblər. Tədbirdə transsərhəd mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və ağır cinayətlərə qarşı mübarizədə “Eurojust” və “Europol”un rolu müzakirə edilərək Avropa İttifaqının ən yaxşı təcrübələri istiqamətində fikir mübadiləsi aparılıb.











Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Apellyasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Zəfər Ramazanov Avropa Şurasının Kibercinayətkarlıq üzrə Proqram Ofisi və Avropa İttifaqının Cinayət Ədliyyəsi üzrə Əməkdaşlıq Agentliyinin (Eurojust) təşkilatçılığı ilə Niderland Krallığının Haaqa şəhərində təşkil olunmuş seminarda iştirak edib. Seminar zamanı maddi gəlir əldə etmək məqsədi ilə törədilən kiberhücumlar, habelə kibercinayətkarlığın müxtəlif formaları barədə müzakirələr aparılıb.

Həmçinin, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Nigar Yahyazadə Kosta Rika Respublikasının paytaxtı San-Xose şəhərində Avropa İttifaqı və Avropa Şurasının birgə maliyyələşdirdiyi Kibercinayətkarlıq üzrə Qlobal Tədbirlər (Global Action on Cyber Action Extended - GLACY) layihəsi çərçivəsində təşkil edilmiş “Kibercinayətkarlığın qarşısının alınması, istintaqı və mühakiməsində qadınların rolu” mövzusunda olan beynəlxalq konfransda iştirak edib.

## Baş Prokurorluğun əməkdaşı Avropa Prokurorlarının Məşvərət Şurasının plenar iclasında iştirak edib





Cari ilin 19-20 oktyabr tarixlərində Fransanın Strasburq şəhərində Avropa Şurasına üzv dövlətlərin prokurorlarını birləşdirən Avropa Prokurorlarının Məşvərət Şurasının (CCPE) 18-ci plenar iclası keçirilib.

Tədbirdə Azərbaycan Respublikasını təmsil edən Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Murad Bayramlı çıxış edərək Baş Prokurorluğun struktur qurumu olmayan, prokurorluq sistemində özünüidarə etmə funksiyasını yerinə yetirən ad hoc qurumların fəaliyyəti, həmçinin Elektron Prokurorluq İnformasiya Sisteminin təşkili və əldə edilmiş nəticələr barədə ətraflı məlumat verib.

Plenar iclasda ekspert qrupu tərəfindən "Prokurorlar Şurası və prokurorluğun özünüidarə etmə qurumları" adlı 18 saylı Rəy və "Prokurorluq fəaliyyətinin rəqəmsallaşması" adlı ümumiləşdirmə geniş müzakirə edilərək qəbul edilib. Sənədin müzakirəsi zamanı ümumi rəy üzrə müvafiq müddəaların qəbul olunmasında ölkəmizin müsbət təcrübəsi nəzərə alınıb.

Plenar iclasın sonunda Çex Respublikasının nümayəndəsi Yana Zezulova yekdilliklə Şuranın növbəti il üçün prezidenti seçilib.

## Prokurorluq əməkdaşları "Tvinninq" layihəsi çərçivəsində təşkil olunmuş tədris turunda iştirak edib



Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı "Tvinninq" layihəsi çərçivəsində 16-20 oktyabr tarixlərində Azərbaycan Respublikası Baş prokurorunun müavini Elmar Camalovun rəhbərlik etdiyi nümayəndə heyəti Belçika Krallığı və Polşa Respublikasında tədris turunda iştirak edib.

Belçika Krallığının Cinayət Aktivlərinin Həbs və Müsadirəsi üzrə Mərkəzi Ofisində (COSC) keçirilmiş görüşlərdə korrupsiya, maliyyə və iqtisadi fəaliyyət sahəsində törədilən cinayətlərdən əldə edilən aktivlərin müəyyən edilməsi mexanizmi, üzərinə həbs qoyulması, zəruri olduqda vəziyyətinin yaxşılaşdırılması, satılması və ya başqa cür idarə olunması, bərpası, müsadirə alətləri və digər mövzularda təqdimatlar edilməklə müzakirələr aparılıb, həmçinin nümayəndə heyəti əyani olaraq Belçika Krallığının Ədalət Sarayında qeyd edilən kateqoriya cinayətlər üzrə xüsusi müsadirəyə dair məhkəmə iclasında iştirak edib.

Həmçinin 19-20 oktyabr tarixlərində nümayəndə heyətinin Polşa Respublikasının Baş Prokurorluğu, Mərkəzi Anti-korrupsiya bürosu və Milli Polisində baş tutmuş görüşlərində həmin qurumların əmlakların bərpası və idarə edilməsi sahəsində təcrübələri öyrənilib.







Bundan başqa, Azərbaycan Respublikasının Baş prokurorunun müavini Elmar Camalovla Polşa Respublikasının Baş prokurorunun birinci müavini Darius Barski arasında keçrilmiş görüşdə iki qurum arasında qarşılıqlı əlaqələrə dair müzakirələr aparılıb və gələcəkdə əməkdaşlığın inkişaf etdirilməsi üçün razılıq əldə edilib, elədə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyələrinə uyğun olaraq prokurorluqda davam etdirilən hüquqi islahatlar, həmçinin Müzəffər Ali Baş komandanın rəhbərliyi altında torpaqlarımızın 30 illik işğalına son qoyulması və ölkəmizin konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycan Ordusu tərəfindən aparılmış lokal xarakterli antiterror tədbirləri barədə məlumatlar verilib.

## “Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək” adlı Tvinninq layihəsi üzrə təlimlər davam etdirilir



Avropa İttifaqının dəstəyi ilə həyata keçirilən və Baş Prokurorluğun benefisiar olduğu “Azərbaycanda əmlakın bərpası və idarə edilməsi sistemində islahatlara dəstək” adlı Tvinninq layihəsi çərçivəsində prokurorluq əməkdaşlarının aktivlərin bərpası və idarə edilməsi sahəsində bilik və bacarıqlarının artırılması istiqamətində silsilə təlimlər keçirilmişdir.



Cari ilin oktyabr ayında Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi tərəfindən qeyd edilən Layihə çərçivəsində Azərbaycan Respublikasının şəhər və rayon prokurorluqlarının, eləcə də Bakı şəhərinin rayon prokurorluqlarının əməkdaşları üçün əyani şəkildə və real vaxt rejimində təlimlər baş tutmuşdur. Qeyd edilən təlimlərdə müxtəlif şəhər və rayon prokurorluqlarından ümumilikdə 52 əməkdaş iştirak etmişdir.





Belçika Krallığının Həbs və müsadirə üzrə mərkəzi ofisi (COSC), Litva Respublikasının Baş Prokurorluğu və Xüsusi istintaq xidmətindən olan ekspertlərin, eləcə də Azərbaycan Respublikası Baş Prokurorluğundan olan təlimçilərin də iştirak etdiyi tədbirlərdə müvafiq cinayət işləri üzrə qanunsuz yolla əldə edilmiş əmlakların aşkar edilməsi, izlənməsi, idarə edilməsi və bərpasını ehtiva edən bütün elementlərin dərindən öyrənilməsi, eləcə də təcrübədə istifadə edilməsi qaydasına dair təqdimatlar baş tutmuş, qarşılıqlı müzakirələr aparılmışdır.

## Baş Prokurorluğun nümayəndəsi Moskvada baş tutmuş beynəlxalq tədbirdə iştirak edib








Oktyabrın 27-də Rusiya Federasiyası O.Y.Kutafin adına Moskva Dövlət Hüquq Universitetinin dəvətilə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Elmi-tədqiqat işinin təşkili şöbəsinin rəisi Ramin Camalov Moskva şəhərində keçirilmiş "İqtisadi sahədə cinayətlər: Rusiya və beynəlxalq təcrübə" mövzusunda XV Beynəlxalq dəyirmi masada iştirak edib.

Tədbirdə yerli dövlət, hüquq mühafizə orqanlarının, vəkillər palatasının, ali və hüquq sahəsində ixtisaslaşmış təhsil müəssisələrinin nümayəndələri iştirak edib.

Tədbirdə Moskva Dövlət Hüquq Universitetinin birinci prorektoru Yerşova İnna Vladimirovna, Moskva vəkillər palatasının prezidenti Zubkov Sergey Borisoviç, Universitetin Cinayət hüququ kafedrasının rəhbəri Zvecarovski İqor Eduardoviç və dəyirmi masaya dəvət olunmuş xarici və yerli qonaqlar çıxış edib.

Dəyirmi masa iştirakçıları öz məruzələrində istintaq sahələrində tətbiq edilən yeni üsul, metod və texnologiyalar barədə geniş məlumatlar verib, qanunvericiliyin və təcrübənin təkmilləşdirilməsi üzrə təkliflər irəli sürüb.

Ramin Camalovun dəyirmi masa zamanı "Vergi cinayətlərinə görə məsuliyyətə cəlb olunma zamanı yaranan problemlər" mövzusunda çıxışı Moskva Dövlət Hüquq Universitetinin "Cinayət hüququ: XXI əsrdə inkişafı və strategiyası" elmi praktiki jurnalında dərc olunub.

Tədbirin sonunda səslənmiş fikirlər ətrafında dəyirmi masa iştirakçıları tərəfindən müzakirələr aparılıb, tədbirin ümumi nəticələri qiymətləndirilib.

# Baş Prokurorluğun nümayəndə heyəti Özbəkistana səfər edib

Cari ilin 14-15 noyabr tarixlərində Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Özbəkistan Respublikasının Baş Prokurorluğu arasında imzalanmış Əməkdaşlıq Proqramı çərçivəsində bir qrup prokurorluq əməkdaşı Özbəkistanın Daşkənd şəhərinə səfər edib.

Səfərdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Müqəddəs Sultanov, İmişli rayon prokuroru Valeh Səmədov, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Ceyhun Budaqov və Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Aynur Əfəndiyevadan ibarət nümayəndə heyəti təmsil edib.







Özbəkistan Respublikasının Baş prokurorunun müavini Svetlana Artikova nümayəndə heyətini səmimi salamlayaraq tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini qeyd edərək ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edib.



Yüksək qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlığını ifadə edən Müqəddəs Sultanov qurumlarımız arasındakı sıx münasibətlərin təzahürü olaraq intensiv qarşılıqlı səfərlərin gerçəkləşdiyini bildirib. Görüşdə həmkarlar arasında səmərəli fikir mübadiləsi aparılıb.





Daha sonra əməkdaşlıq proqramı çərçivəsində “Yetkinlik yaşına çatmayanlara qarşı cinayətlərin açılmasının aktual problemləri” mövzusunda seminar keçirilib. Tədbirdə Azərbaycan və Özbəkistan prokurorluq əməkdaşları mövzu ətrafında təqdimatlarla çıxış ediblər.

Tədbir çərçivəsində nümayəndə heyəti Özbəkistan Respublikası Baş Prokurorluğunun muzeyi, eləcə də Səmərqənd vilayət prokurorluğunun fəaliyyəti ilə yaxından tanış olub, şəhərin tarixi-mədəni abidələrini ziyarət edib.

# Prokurorluq əməkdaşları beynəlxalq təşkilat tərəfindən təşkil olunmuş seminarda iştirak edib





Cari il 14-16 noyabr tarixlərində Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı Nümayəndəliyinin və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının birgə təşkilatçılığı ilə Şabran rayonunda "Məhkəmə ekspertiza işlərində keyfiyyətin idarə edilməsi" mövzusunda təlim keçirilib.

Seminarda Baş Prokurorluğun İstintaq idarəsinin rəis müavini Nazim Rəşidov, Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəis müavini – Kriminalistika şöbəsinin rəisi Orxan Rzayev və Hərbi Prokurorluğun Xüsusi istintaq şöbəsinin rəisi Emil Tağıyev iştirak edib.

Tədbirdə iştirakçılara Beynəlxalq Qızıl Xaç Komitəsinin məhkəmə-ekspertiza fəaliyyətindəki rolu, məhkəmə-ekspertizası işlərinin xüsusiyyətləri, keyfiyyət aspektləri və sistemləri, habelə keyfiyyətin idarə edilməsinin xüsusiyyətləri, İSO 17025 standartına əsasən tələblər və digər mövzularda seminarlar keçirilib.






## Baş Prokurorluğun nümayəndə heyəti İtaliyada keçirilən təlimdə iştirak edib







Prokurorluq orqanlarının mövcud beynəlxalq əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi və əməkdaşların peşə hazırlığının qabaqcıl beynəlxalq təcrübə əsasında formalaşdırılması daim diqqət mərkəzində saxlanılır.

Bu məqsədlə cari ilin 14-16 noyabr tarixlərində Baş Prokurorluğun Dövlət İttihamının müdafiəsi üzrə idarəsinin əməkdaşlarından ibarət nümayəndə heyəti İtaliyanın Roma şəhərində təlimdə olmuşlar.

Səfərdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Dövlət ittihamının müdafiəsi üzrə idarənin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Vüsal Mehrəliyev, Zəfər Ramazanov, Namiq Əliyev və Təranə Məmmədovadan ibarət nümayəndə heyəti təmsil edib.

Təlim zamanı nümayəndə heyəti “İstintaq sövdələşməsi” ilə bağlı İtaliya Kassasiya Məhkəməsində, Roma Apellyasiya Məhkəməsində və Roma birinci instansiya Məhkəməsində prokuror və hakimlərin təcrübəsi ilə tanış olmuş, istintaq sövdələşməsinin nəzəri və praktiki tərəflərini, həmçinin qanunvericiliyimizdə əks olunması imkanlarını araşdırmışlar.

Səfər çərçivəsində İtaliya Kassasiya məhkəməsində həmin ölkənin Baş prokurorun beynəlxalq əlaqələr üzrə məsul vəzifəli şəxsi Renato Finocchi Gherzi ilə ikitərəfli görüş keçirilmiş, bu sahədə ikitərəfli əməkdaşlığın mümkün perspektivləri müzakirə olunmuşdur.

Bundan başqa, İtaliya Ədliyyə məktəbində olan nümayəndə heyətinə İtaliyada hakim və prokurorların seçilməsi və fəaliyyətə başlama qaydaları barədə ətraflı məlumat verilmişdir.

## Baş Prokurorluğun nümayəndəsi Buxarest şəhərində keçirilmiş təlimdə iştirak edib



Azərbaycan Respublikasının Baş Prokurorluğu xarici ölkələrin prokurorluq və digər cinayət təqibi orqanları, eləcə də beynəlxalq təşkilatlarla işgüzar əlaqələr və dostluq münasibətlərinin qurulması sahəsində səmərəli fəaliyyətini davam etdirir.

Cari ilin 14-16 noyabr tarixlərində Buxarest şəhərində “Mütəşəkkil cinayətkarlıq və hüquq-mühafizə orqanlarının narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində transsərhəd əməkdaşlığı” mövzusunda təlim keçirilmiş təlimdə Baş Prokurorluğunun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti Şamil Şəmmədli iştirak edib.

Tədbirdə həmçinin Moldova Ukrayna və Rumıniya Respublikasının müvafiq sahələrdə çalışan əməkdaşları iştirak etmişlər.





Təlim zamanı Rumıniya Respublikasının Mütəşəkkil Cinayətkarlığa və Terorrizmə qarşı İstintaq İdarəsində (DİİCOT), Norkotiklərlə Mübarizə üzrə Milli Agenlik (ANA) və Rumıniya Respublikasının cinayətkarlığa qarşı mübarizə sahəsində fəaliyyət göstərərən digər qurumlarının fəaliyyəti öyrənilmiş və Mütəşəkkil cinayətkarlıq və hüquq-mühafizə orqanlarının narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində iştirakçı ölkələr tərəfindən əldə edilmiş təcrübələr paylaşılmışdır.

## Baş Prokurorluğun nümayəndəsi Astana şəhərində təşkil olunan seminarda iştirak edib




Cari ilin 14-16 noyabr tarixlərində Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin (UNODC) Mərkəzi Asiya və Cənubi Qafqaz regionu üzrə hüquqi əməkdaşlıq şəbəkəsi (CASC) tərəfindən “Prokurorluq orqanlarının fəaliyyətində informasiya texnologiyalarından istifadə. Beynəlxalq əməkdaşlıq” mövzusunda Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində seminar keçirilmişdir.

Seminarda Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin İnformasiya texnologiyaları xidmətinin rəhbəri Elşən Məmmədov ekspert qismində iştirak etmişdir.

Tədbirdə “Azərbaycan Respublikasının prokurorluq orqanlarının işində informasiya texnologiyalarının tətbiqi” mövzusunda çıxış edən Baş Prokurorluğun nümayəndəsi, prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatlar çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 3 mart 2022-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş və prokurorluğun bütün fəaliyyət istiqamətlərini vahid elektron platformada birləşdirən “Elektron prokurorluq informasiya sistemi"nin fəaliyyəti barədə geniş məlumat vermişdir.



## Prokurorluq orqanları tərəfindən beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində işlər davam etdirilir








Prokurorluq orqanları tərəfindən cinayət təqibi ilə bağlı xarici təcrübənin öyrənilməsi, bu sahədə fəaliyyətin səmərəliliyinin artırılması və əməkdaşlıq imkanlarının inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır.

Cari ilin 16-17 noyabr tarixlərində Polşa Respublikasının paytaxtı Varşava şəhərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu tərəfindən Beynəlxalq Tolerantlıq Günü ilə bağlı illik Nifrət Cinayəti Hesabatı təqdim olunmuşdur.

ATƏT-in üzvü olan 30-dan çox ölkənin milli əlaqələndirici şəxslərinin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycan Respublikası Baş prokurorunun böyük köməkçisi Vüsal Əliyev təmsil etmişdir.

Tədbirdə nifrət cinayətləri qanunvericiliyi, nifrət cinayətlərinə qarşı mübarizə və bu sahədə məlumatların toplanması ilə bağlı mövcud təcrübə barədə geniş məlumat verilmiş, digər ölkələrin müvafiq sahədə təcrübəsi öyrənilmiş və mövzu ətrafında müzakirələr aparılmışdır.

## Baş Prokurorluğun nümayəndəsi Minsk şəhərində keçirilmiş beynəlxalq elmi-praktik konfransda iştirak edib

Cari ilin noyabr ayının 17-də Belarus Respublikası İstintaq komitəsinin "İxtisasartırma və yenidən hazırlıq institutu"nun dəvəti ilə Baş Prokurorluğun Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Ruslan Babazadə Minsk şəhərində "Milli təhlükəsizlik sisteminin təkmilləşdirilməsinin əsas istiqamətləri" mövzusuna həsr edilmiş III Beynəlxalq elmi-praktik konfransda iştirak etmişdir.



Hər il keçirilən genişmiqyaslı tədbirin təşkilatçıları Belarus Respublikası Təhlükəsizlik Şura-






sının Dövlət Katibliyi və Belarus Respublikasının İstintaq Komitəsi olmuşdur.

Tədbirdə Belarus Respublikasının İstintaq Komitəsinin sədri Dmitriy Yuryeviç Qora, Belarus Respublikası Milli Məclisinin Nümayəndələr Palatasının sədr müavini Valeri Mitskeviç, Belarus Respublikası Prezidentinin Administrasiyası rəhbərinin müavini Olqa Çupris, Belarus Respublikası Təhlükəsizlik Şurasının Dövlət Katibliyinin İnformasiya və Analitik Departamentinin rəhbəri Aleksey Bankovski, Dövlət Məhkəmə Ekspertizaları Komitəsinin sədri Aleksey Volkov, Belarus Respublikasının Təhsil naziri Andrey İvanets, habelə Rusiya Federasiyası İstintaq Komitəsinin əməkdaşları iştirak etmişlər.

Konfransda Milli təhlükəsizlik sisteminin təkmilləşdirilməsinin əsas istiqamətləri barədə iştirakçı ölkələr tərəfindən əldə edilmiş təcrübələr paylaşılmış, mövzu ətrafında iştirakçılar geniş fikir mübadiləsi və müzakirələr aparmışdır.

## Baş Prokurorluğun nümayəndəsi Özbəkistanda keçirilən beynəlxalq konfransda iştirak edib

Prokurorluq orqanlarında peşə hazırlığının təşkili sahəsində həyata keçirilən tədbirlərin mühüm hissəsi xarici tərəfdaşlarla təcrübə mübadiləsinin və birgə tədqiqatların aparılması, habelə beynəlxalq elmi konfranslarda iştirak edilməsi ilə əlaqədardır.




Cari ilin 1-3 dekabr tarixlərində Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov Özbəkistan Respublikasının Hüquq mühafizə Akademiyasının dəvəti ilə Daşkənd şəhərində keçirilən “Hüquq mühafizə orqanlarında hüquq təhsili və elm: müasir tendensiyalar və perspektivlər” mövzusunda beynəlxalq elmi-praktik konfransda iştirak edib.

Akademiyanın yaradılmasının növbəti ildönümünə təsadüf etmiş konfransa Türkiyə, Özbəkistan, Malayziya, Qazaxıstan, İsveç, Portuqaliya, Yaponiya habelə digər ölkələri təmsil edən ali ixtisaslaşmış akademiya rəhbərləri, alimlər, ekspertlər, BMT, Avropa Şurası və digər beynəlxalq təşkilatları təmsil edən nümayəndələr qatılıb.

Tədbir çərçivəsində Baş Prokurorluğun nümayəndəsi “Prokurorların peşə hazırlığı: Azərbaycan Respublikasının təcrübəsi” mövzusunda çıxış edib.




Daşkənd və Səmərqənd şəhərlərində keçirilən konfransın plenar iclaslarında hüquq təhsili və peşə hazırlığının müxtəlif sahələrinə aid mövzular üzrə faydalı müzakirələr davam etdirilib.

## Baş Prokurorluğun nümayəndəsi Strasburqda keçirilmiş beynəlxalq tədbirdə iştirak edib






6-8 dekabr tarixlərində Fransanın Strasburq şəhərində keçirilmiş Narkotiklərə Nəzarət Şəbəkəsinin İllik Konfransında Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Toğrul Muxtarov iştirak edib.

Əsas məqsədi narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində avropa dövlətlərinin təcrübəsinin öyrənilməsi, hüquq-mühafizə orqanları əməkdaşlarının potensialının artırılması, müasir informasiya-texnologiyalarından istifadə olunmaqla törədilən bu növ cinayətlərin və yeni tərkibli sintetik narkotik vasitələrin yayılmasının qarşısının alınması olan tədbirdə iştirakçı ölkələrin nümayəndə heyətləri tərəfindən hazırlanan təqdimatlar və çıxışlar dinlənilərək, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Konfransda çıxış edən Toğrul Muxtarov ölkəmiz üzərindən narkotik vasitələrin tranzit olaraq daşınmasına qarşı mübarizə, bu sahədə əldə olunmuş nailiyyətlər, o cümlədən mübarizə tədbirləri çərçivəsində tətbiq tətbiq edilən yeni üsul və vasitələr barədə iştirakçılara ətraflı məlumat verib.

## Azərbaycan Prokurorluğu beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı uğurla davam etdirir

Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair qarşıya qoyulmuş hədəflərə uyğun olaraq Azərbaycan Respublikasının Prokurorluq orqanları bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.

Cari ilin 05 - 06 dekabr tarixlərində Fransa Respublikasının paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Transmilli Korrupsiyaya qarşı Hüquq-Mühafizə Orqanları İşçilərinin Qlobal Şəbəkəsinin (GLEN) "Asiya-Sakit Okean regionunda fövqəladə hallarda korrupsiya və dələduzluq cinayətlərinin ifşa olunması və istintaqı" mövzusunda 5-ci iclası keçirilmişdir.

Avstraliya, Böyük Britaniya, Danimarka Krallığı, Mavriki Respublikası, Ukrayna və digər dövlətlərin təmsilçilərinin qatıldığı tədbirdə ölkəmizi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin prokuror-kriminalisti Samir Mirzəyev təmsil etmişdir.





“Əməliyyat məlumatlarının analitik şəkildə idarə olunması”, “Yüksək profilli cinayət işlərində effektiv rəftar və münasibətlərin tənzimlənməsi”, “Çirkli pulların yuyulması ilə əlaqədar istintaq olunan cinayət işləri zamanı beynəlxalq əməkdaşlıq”, “Xüsusi müsadirə məsələlərinin icrası mexanizmləri” və digər bu kimi mövzular ətrafında geniş müzakirələrin aparıldığı görüşdə nümayəndəmiz Samir Mirzəyev çıxış edərək ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş effektiv tədbirlər və eləcə də Baş Prokurorluqda həyata keçirilmiş son struktur islahatları nəticəsində yaradılmış idarələrin fəaliyyəti haqqında iştirakçıları məlumatlandırmışdır.

## Baş Prokurorluğun nümayəndələri Ankara şəhərində keçirilən “Türk hüquq tarixi” mövzusunda konfransda iştirak edib









Cari ilin 6-10 dekabr 2023-cü il tarixlərində Ankara şəhərində Türkiyə Ədliyyə Akademiyası, Atatürk Mədəniyyət Mərkəzi, Türkiyə Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) birgə təşkilatçılığı ilə "Türk hüquq tarixi" mövzusunda konfrans (qurultay) keçirilib.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin də təmsil olunduğu tədbirdə Türk Ədliyyə Təlim Şəbəkəsinə daxil olan 6 ölkənin 12 prokurorluq və məhkəmə qurumlarının tədris akademiyaları (mərkəzləri) ilə yanaşı hüquqşünas alimlər, tarixçilər, ədəbiyyatşünaslar, siyasətçilər və dövlət xadimləri iştirak edib.

Qurultayın məqsədi kimi müasir hüquq nəzəriyyəsi və təcrübəsinin əhəmiyyətli mənbələrlə təmin edilməsi və bu çərçivədə məlumatlılığın artırılması müəyyən olunub.

Tədbirdə Baş Prokurorluğun nümayəndə heyətini Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov, şöbə rəisi Əmir Ocaqverdiyev, hüquq ictimaiyyəti adından isə Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvü, Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin dekanı Ayxan Rüstəmzadə təmsil edib.

Tədbirin müxtəlif sessiyalarında Əmir Ocaqverdiyev “Türk hüquq tarixinə töhfə verən təsisatlar”, professor Ayxan Rüstəmzadə “Türk hüquq tarixinə töhfə verən hüquqşünas alimlər” mövzularında təqdimatlarla məruzələr edib, Mübariz Əhmədov isə tədbirin prokurorluqda peşə hazırlığının təşkili sahəsində həyata keçirilən tədbirlər barədə çıxış edib.

# Rusiya Federasiyası Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olub



Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnov arasında 12 yanvar 2021-ci il tarixdə Moskva şəhərində imzalanmış "2021-2023-cü illər üçün Əməkdaşlıq Proqramı"ndan irəli gələn müddəaların icrası məqsədilə Rusiya Federasiyası Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.

Baş Prokurorluqda nümayəndə heyəti ilə keçirilmiş görüş zamanı Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanov qonaqları salamlayaraq prokurorluqlarımız arasında əlaqələrin yüksək səviyyədə olmasını məmnunluqla qeyd edib, seminar zamanı müzakirə ediləcək mövzuların aktuallığını vurğulayıb.

Rusiya Baş Prokurorluğunun nümayəndələri yüksək qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlıqlarını ifadə ediblər. Səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün faydalı olacağı qeyd olunub.

Daha sonra Əməkdaşlıq Proqramı çərçivəsində cinayət işləri üzrə ekstradisiya və hüquqi yardımın göstərilməsi, o cümlədən cinayət yolu ilə əldə edilmiş əmlakın axtarışı, müsadirəsi və xaricdən qaytarılmasının təşkili sahəsində beynəlxalq hüquqi əməkdaşlıq, məişət zorakılığı ilə mübarizə, yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi, azyaşlılara qarşı törədilən cinayətlərlə mübarizə tədbirləri və ekoloji cinayətlərə dair işlərdə dövlət ittihamının mü-














dafiəsinin xüsusiyyətləri adlı mövzulara həsr olunmuş seminarlar keçirilərək faydalı təcrübə mübadiləsi aparılıb.

Nümayəndə heyəti Baş Prokurorluğun yeni inzibati binası və Zəfər muzeyi ilə tanış olublar. Həmçinin, rusiyalı prokurorlar Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclasında qonaq qismində iştirak ediblər.

Dekabrın 15-də nümayəndə heyəti Heydər Əliyev Mərkəzini ziyarət edib. Görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanış olan nümayəndə heyətinə Mərkəzdə yerləşən muzey və eksponatlar barədə ətraflı məlumat verilib.

Qonaqlar həmçinin paytaxtımızın tarixi və mədəni abidələri ilə tanış olublar.

## Prokurorluq əməkdaşları Türkiyədə işgüzar səfərdə olub



Cari il 11-15 dekabr tarixlərdə Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin təşkilatçılığı ilə Türkiyənin İstanbul şəhərində yerləşən Məhkəmə-Tibbi Ekspertiza Şurasına (Adli Tıp Kurumu) birgə fəaliyyət səfəri baş tutmuşdur.

Səfərdə Azərbaycan Respublikası Baş Prokurorluğunun Kriminalistika və İnformasiya Texnologiyaları idarəsinin rəis müavini - Kriminalistika şöbəsinin rəisi Orxan Rzayev, Respublika Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin rəisi Emil Tağıyev, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Pataloji Anatomiya Birliyinin direktoru Ədalət Həsənov və digər qurumların əməkdaşları iştirak etmişlər.

Səfər zamanı nümayəndə heyəti Türkiyənin Məhkəmə-Tibbi Ekspertiza Şurasının və İstanbul Cərrahpaşa Universitetinin Adli Tıp və Adli Bilimlər İnstitutunun rəhbərliyi və əməkdaşları ilə görüşlər keçirmiş, həmin qurumların tabeliyində olan müxtəlif laboratoriyaların fəaliyyəti ilə tanış olmuş, təcrübə mübadiləsi aparmış, habelə DNK tədqiqatları sahəsində Türkiyənin və Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlər barədə qarşılıqlı məlumatlar verilmişdir.

Görüş zamanı prokurorluğun nümayəndələri tərəfindən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımız işğaldan azad








edildikdən sonra, dövlət başçısının tapşırığına əsasən, Birinci Qarabağ Müharibəsi zamanı itkin düşmüş soydaşlarımızın axtarışı prosesinin daha intensiv xarakter alması, həmin dövr ərzində işğaldan azad edilmiş ərazilərdə aşkar edilmiş kütləvi məzarlıqlardan götürülmüş insan sümük qalıqlarının Birinci Qarabağ Müharibəsi zamanı itkin düşmüş şəxslərlə eyniləşdirilməsi məqsədi ilə məhkəmə-tibbi kriminalistik və məhkəmə molekulyar-genetik ekspertizaları təyin edilməsi və bu sahədə qabaqcıl texnologiyalardan və müasir avadanlıqlardan istifadə edilməklə müsbət nəticələrin də əldə edilməsi qeyd edilmişdir.

## Baş Prokurorluğun nümayəndəsi Astanada keçirilmiş beynəlxalq tədbirdə iştirak edib




12-14 dekabr tarixlərində Qazaxıstanın Almatı şəhərində keçirilmiş Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının regional təlimində Azərbaycan Respublikası Baş Prokurorluğunun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru Fikrət Mahmudov iştirak edib.

Əsas məqsədi insan alveri məqsədləri üçün texnologiyalardan sui-istifadə hallarına qarşı mübarizə sahəsində beynəlxalq təcrübəsinin öyrənilməsi, hüquq-mühafizə orqanları əməkdaşlarının potensialının artırılması, müasir informasiya-texnologiyalarından istifadə olunmaqla törədilən bu növ cinayətlərin qarşısının alınması olan tədbirdə iştirakçı ölkələrin nümayəndə heyətləri tərəfindən hazırlanan təqdimatlar və çıxışlar dinlənilərək, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

## Tacikistan Prokurorluğu ilə əməkdaşlıq uğurla davam etdirilir









2022-ci il dekabrın 15-də Baş prokuror Kamran Əliyev və Tacikistanın Baş prokuroru Yusuf Raxmon arasında imzalanmış “2023-2024-cü illər üçün Əməkdaşlıq Proqramı”nın icrası çərçivəsində bir qrup prokurorluq əməkdaşı cari ilin 14-15 dekabr tarixlərində Düşənbə şəhərinə işgüzar səfər edib.

Səfərdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru Qədir Məmmədov, Təşkilat və icraya nəzarət idarəsinin böyük prokuroru Rövşən Əhmədov, Dövlət ittihamının müdafiəsi üzrə idarənin prokuroru Eldar Məmmədov, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Murad Bayramlı və Naxçıvan Muxtar Respublikasının prokurorunun köməkçisi Əkbər Həsənlidən ibarət nümayəndə heyəti təmsil edib.

Əməkdaşlıq proqramı çərçivəsində “Terrorizm və ekstremizmlə bağlı cinayət işlərinin araşdırılmasının aktual problemləri” mövzusunda “dəyirmi masa” keçirilib. Tədbirdə Azərbaycan və Tacikistanın prokurorluq əməkdaşları mövzu ətrafında təqdimatlarla çıxış edərək, faydalı fikir mübadiləsi aparıblar.

Tədbir çərçivəsində həmçinin nümayəndə heyəti Tacikistan Baş Prokurorluğunun fəaliyyəti ilə yaxından tanış olub.

## Prokurorluq işçilərinin iştirakı ilə Polis Akademiyasında beynəlxalq elmi-praktiki konfrans keçirilib



Daxili İşlər Nazirliyinin Polis Akademiyasında 2023-cü ilin dekabr ayının 15-də “Mülkiyyət əleyhinə törədilən cinayətlərin tədqiqinin cinayət-hüquqi, cinayət-prosessual və kriminalistik aspektləri” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.

Konfransın hədəfləri ümumi cinayətlərin təqribən 70 faizini təşkil edən mülkiyyət əleyhinə törədilən cinayətlərin mürəkkəb tədqiqat obyekti kimi öyrə-

nilməsi, rəqəmsal texnologiyaların sürətli inkişaf dövründə bu cür cinayətlərin istintaq təcrübəsi üçün innovativ üsul və metodların müəyyən edilməsi olmuşdur.

Tədbirdə Daxili İşlər Nazirliyinin, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin, Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin, Vəkillər Kollegiya Akademiyasının, habelə Türkiyə, Qazaxıstan, Bolqarıstan və Moldova dövlətlərinin aidiyyəti qurumlarının əməkdaşları, eləcə də ali təhsil müəssisələrinin alimləri iştirak etmişlər.





Tədbir Polis Akademiyasının ərazisində ucadılmış Ümummilli Lider Heydər Əliyevin heykəli önünə gül dəstələrinin qoyulması, Ulu Öndərin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla anılması və Dövlət Himnin səslənilməsi ilə başlanmışdır.

Polis Akademiyasının rəisi Canpolad Daanov konfransı açıq etdikdən sonra digər qonaqlarla yanaşı, Elm-Tədris Mərkəzinin rəis müavini Talıb Cəfərov təmsil etdiyi qurumla Akademiya arasında formalaşmış işgüzar əlaqələr barədə konfrans iş-



tirakçılarını məlumatlandırmış, Baş prokurorun rəhbərliyi ilə keçirilən Elmi-Məsləhət Şurasının iclaslarında Akademiya nümayəndəsinin fəaliyyətini, qurumların tədris prosesində təlimçilərin mübadiləsini, Mərkəzdə gənclər üçün təşkil edilən hüquqi müsabiqələrdə Akademiya kursantlarının iştirakını xüsusi vurğulamışdı.

Konfransın gedişatında, habelə fasilə vaxtı kuluarlarda Elm-Tədris Mərkəzinin əməkdaşları Nigar Qələndərli, Rəşad Qasımov və Ruslan Ağayev tədbir iştirakçıları ilə disput edərək, təcrübə mübadiləsi aparmışlar.



Konfransda keçirilmiş təqdimatlar, dinlənilən çıxışlar və səslənən fikirlər müzakirə edildikdən sonra, elmi-tədqiqat tədbiri öz işini müvafiq bəyannamənin qəbulu ilə başa çatdırmışdır.

# Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatları



**Sülh və insanlıq əleyhinə cinayət törətmiş şəxslər məsuliyyətə cəlb edilib**
30.09.2023

Erməni silahlı birləşmələrinin üzvləri tərəfindən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin əsirlikdə olan hərbi qulluqçuları və beynəlxalq humanitar hüquqla müdafiə olunan mülki və digər şəxslərə qarşı sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlər törədilməsi faktlarları üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrilə Azərbaycan Respublikasının Prokurorluq orqanları tərəfindən başlanmış cinayət işinin istintaqı davam etdirilir.

İstintaqla müəyyən edilmişdir ki, 2013-2023-cü illərdə separatçı qurumun "prezidenti aparatının rəhbərinin müavini, prezidentin xarici siyasət məsələləri üzrə köməkçisi, xarici işlər naziri və xüsusi tapşırıqlar üzrə prezidentin köməkçisi vəzifələrində" işləmiş, 1973-cü il tarixdə Xankəndi şəhərində anadan olmuş Babayan Davit Klimoviç həm 44 günlük Vətən müharibəsi dövründə, həm Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması, əhalinin təhlükəsizliyini təmin olunması məqsədilə aparılan antiterror əməliyyatlarında qondarma qurumun digər "rəhbər vəzifəli şəxsləri" ilə cinayətkar birlik halında milli düşməçilik və nifrət aşılayan, terrorçu qruplaşmaların fəaliyyətini əlaqələndirən fəaliyyətlə məşğul olması, o cümlədən 2020-ci il oktyabrın 17-də, Azərbaycan Respublikasının Gəncə şəhərinin müdafiə olunmayan və mülki əhalinin yaşadığı əraziləri, yaşayış məntəqələri və silahsızlaşdırılmış zonaları hədəfə almaqla, ballistik raketlərdən istifadə edib çoxsaylı mülki şəxslərin ümumi təhlükəli üsulla, xüsusi amansızlıqla, terrorçuluqla əlaqədar, milli ədavət və düşmənçilik zəminində qəsdən öldürülməsi və yaralanması ilə bağlı cinayətləri təşkil etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Davit Babayan 2020-ci il oktyabrın 28-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 32.3, 114.1 (muzdlular yığma, onlara təlim keçmə, maliyyələşdirmə və başqa cür maddi təminat vermə, habelə onlardan hərbi münaqişədə və hərbi əməliyyatlarda istifadə etməni təşkil etmə), 32.3, 116.0.1, 32.3, 116.0.6, 32.3, 116.0.7, 32.3, 116.0.8, 32.3, 116.0.9, 32.3, 116.0.10 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 117.2-ci (silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr vermə), 32.3,214.2.1, 32.3,214.2.3, 32.3,214.2.4 (terrorçuluğu təşkil etmə), 283.2.1, 283.2.3-cü (milli düşmənçiliyin salınmasını təşkil etmə) və digər maddələrilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, barəsində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilmişdir.

Cari il sentyabrın 29-da D.Babayan Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları tərəfindən saxlanılarq istintaqa təqdim olunmuş və ona həmin tarixdə qeyd olunan maddələr üzrə ittiham elan edilmişdir.

Bundan başqa, istintaqla 1965-ci ildə Azərbaycan Respublikasının Xocavənd rayonunda anadan olmaqla orada yaşamış, Ermənistan Respublikasının sabiq hərbi qulluqçusu, 2015-2018-ci illərdə qondarma rejimin "müdafiə naziri" vəzifəsində işləmiş, eləcə də, Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərmiş qanunsuz hərbi silahlı qrupun üzvü olan Mnatsakanyan Lyova Henrixi qabaqcadan əlbir olduğu şəxslərlə birgə 2002-ci il mayın 8-də beynəlxalq humanitar hüquqla müdafiə olunan Məmmədov İlham Yusif oğlunu və digər əsir düşmüş azərbaycanlıları Füzuli rayonunun Alxanlı kəndi ərazisində əsir götürərək Füzuli şəhərində yerləşən hərbi hissədə milli ədavət zəminində çoxsaylı işgəncələr vermiş və həmin il noyabrın 19-dək onu əsirlikdə saxlamalarına əsaslı şübhələr müəyyən edilmişdir.

Lyova Mnatsakanyanın 2006-cı il noyabrın 8-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 113-cü (işgəncə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb ediməsi barədə qərar qəbuil edilmiş və həmin il noyabrın 14-də barəsində müvafiq məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilməklə İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmişdir.

Cari il sentyabrın 29-da L.Mnatsakanyan Laçın Sərhəd Buraxılış məntəqəsindən Ermənistan Respublikasına keçmək istəyərkən saxlanılaraq istintaqa təqdim olunmuş və həmin tarixdə ona qeyd olunan maddə ilə ittiham elan edilmişdir.

Hər iki şəxs barəsində həbs qətiman tədbirinin seçilməsinə dair məhkəmə qərarı icra olunaraq Dövlət Təhlükəsizliyi Xİdmətinin istintaq təcridxanasına etap olunmuşlar.

Hazırda cinayət işləri üzrə zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Arayik Harutunyan cinayət məsuliyyətinə cəlb edilmişdir
05.10.2023




Azərbaycan Respublikasının Qarabağ ərazisində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayətlərin araşdırılması ilə bağlı başlanmış cinayət işləri üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğu və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks tədbirlər həyata keçirilir.

Araşdırmalar zamanı Azərbaycanın Xankəndi şəhərində anadan olmuş, 1973-cü il təvəllüdlü Harutunyan Arayik Vladimiri tərəfindən Azərbaycan Respublikasının ərazisində qondarma "Dağlıq Qarabağ Respublikasının prezidenti" və digər adlar altında təcavüzkar müharibənin aparılmasında iştirak edilməsi, muzdluların yığılması, onlara təlim keçirilməsi və maliyyələşdirilməsinə, həmçinin onlardan hərbi münaqişədə və hərbi əməliyyatlarda istifadə edilməsinin təşkil olunmasına, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulmasına, silahlı münaqişə dövründə cinayətkar əmr verilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Bundan başqa, Arayik Harutunyan tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmələrin formalaşdırılmasına və fəaliyyətinin təşkilinə, cinayətkar birlik halında həmin birləşmələrin silah, onun komplekt hissələri, döyüş sursatı, partlayıcı maddələr, hərbi texnika və əsgəri ləvazimatla təchizinə, bunlardan istifadə hazırlığı üzrə təlimlərin təşkil edilməsinə, eləcə də qaçaqmalçılıq yolu ilə ölkəmizə gətirilməsinə və terrorçuluğun maliyyələşdirilməsinə əsaslı şübhələr müəyyən olunmuşdur.

İstintaq-əməliyyat tədbirləri nəticəsində, həmçinin, Arayik Harutunyan tərəfindən terror aktlarının törədilməsi məqsədilə Azərbaycan Respublikasının ərazilərinin davamlı şəkildə minalanması, cəbhə zonasından kənarda yerləşən, əhalinin sıx məskunlaşdığı Azərbaycan Respublikasının Gəncə şəhəri və Bərdə rayonunun yaşayış məntəqələri və mülki obyektlərini hədəfə alaraq ballistik və digər növ raketlər atılmaqla çoxsaylı mülki şəxslərin öldürülməsi və onlara müxtəlif dərəcəli bədən xəsarətlərinin yetirilməsi, mülki və hərbi infrastruktura ağır nəticələrə səbəb olan ziyan vurulması ilə nəticələnən terror hücumlarının təşkil olunması və digər çoxsaylı cinayətlər törədilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Arayik Harutunyan 2020-ci il oktyabrın 28-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, barəsində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarışa verilmişdir.

Cari il oktyabrın 3-də Araik Harutunyan Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən Xankəndi şəhərində saxlanılmış, ona Cinayət Məcəlləsinin 100, 116, 117, 120, 214, 214-1, 214-3, 218, 279-cu və digər maddələri ilə ittiham elan edilmişdir.

Hazırda Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq tərəfindən zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Qohumunu qəsdən öldürməkdə təqsirləndirilən şəxs barəsində cinayət işi məhkəməyə göndərilib
09.10.2023




Cari il iyunun 10-da Biləsuvar rayon sakini 1969-cu il təvəllüdlü Azad Almasovun öldürülməsi faktı ilə bağlı rayon prokurorluğunda başlanmış olunan cinayət işinin ibtidai istintaqı tamamlanıb.

İstintaqla 1991-ci il təvəllüdlü Elşən Şəbiyevin iyunun 8-də Biləsuvar rayonu ərazisində aralarında yaranmış mübahisə zamanı qayınatası Azad Almasova bıçaqla xəsarətlər yetirməsi və sonuncunun həmin xəsarətlərdən 2 gün sonra müalicə aldığı xəstəxanada ölməsinə əsaslı şübhələr müəyyən edilib.

Elşən Şəbiyevə Cinayət Məcəlləsinin 120.2.2, 120.2.4 (xuliqanlıq niyyəti ilə və xüsusi amansızlıqla qəsdən adam öldürmə) və digər maddələri ilə yekun ittiham elan edilərək barəsində məhkəmənin qərarı əsasında həbs qətimkan tədbiri seçilib və cinayət işi baxılması üçün Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

**#hüquqimaarifləndirmə #cinayətprosessualhüquq #qətimkantədbirləri - Qətimkan tədbiri nədir? Həbs qətimkan tədbiri hansı qaydada seçilir?**
18.10.2023




Qətimkan tədbiri Cinayət-Prosessual Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən şübhəli, yaxud təqsirləndirilən şəxsin hüquqlarını müvəqqəti məhdudlaşdırmaqla onun qanuna zidd davranışının qarşısını almaq və hökmün icrasını təmin etmək məqsədi ilə seçilən prosessual məcburiyyət tədbiridir. Qətimkan tədbirlərinin aşağıdakı növləri var:

1. həbs;
2. ev dustaqlığı;
3. girov;
4. başqa yerə getməmək barədə iltizam;
5. şəxsi zaminlik;
6. təşkilatın zaminliyi;
7. polisin nəzarəti altına vermə;
8. yetkinlik yaşına çatmayanı nəzarət altına vermə;
9. komandanlığın müşahidəsi altına vermə.
10. vəzifədən kənarlaşdırma.

Həbs qətimkan tədbirinin seçilmə qaydası:

İbtidai istintaq zamanı təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyat keçirən prokurorun təqdimatı əsasında məhkəmə tərəfindən seçilir.

Yəni, cinayət işi üzrə istintaqı aparan müstəntiq təqsirləndirilən şəxsin barəsində həbs qətimkan tədbirinin seçilməsini zəruri hesab etdikdə bu barədə əsaslandırılmış vəsatətlə prokurora müraciət edir.

Prokuror vəsatətin əsaslılığını yoxlayır, təqsirləndirilən şəxsin barəsində həbslə bağlı olmayan, digər qətimkan tədbiri seçilməklə də məqsədə nail olunmasının mümkün olduğunu hesab etdikdə, müstəntiqin vəsatətinin təmin edilməməsi barədə qərar qəbul edir.

Prokuror şəxsin barəsində həbs qətimkan tədbirinin seçilməsini zəruri hesab etdikdə, bu barədə əsaslandırılmış təqdimatla məhkəməyə müraciət edir.

Həbsdə saxlama müddətinin uzadılması zamanı da eyni qayda tətbiq edilir.

İbtidai istintaq zamanı məhkəmə öz təşəbbüsü ilə şəxsin barəsində həbs qətimkan tədbirinin seçilməsi məsələsinə baxa bilməz. Bunun üçün mütləq prokurorun təqdimatı olmalıdır. Lakin cinayət işinə məhkəmədə baxıldıqda, məhkəmənin öz təşəbbüsü ilə həbs qətimkan tədbiri seçilə bilər.

**Qanunsuz ağac kəsmə faktı ilə bağlı cinayət işi başlanıb**
19.10.202




Mingəçevir şəhəri, Aydın Məmmədov küçəsində qanunsuz ağac kəsilməsi faktı üzrə şəhər prokurorluğunda araşdırma aparılıb.

Araşdırma zamanı məscidin həyətində 60 ədəd müxtəlif cinsli ağac, 9 ədəd fındıq kolunun kökündən çıxarılaraq məhv edilməsi nəticəsində təbiətə 16 min manatdan artıq ziyan vurulması müəyyən edilib.

Faktla bağlı Mingəçevir şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 259.2.3, 259.2.4 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə və külli miqdarda ziyan vurmaqla qanunsuz ağac kəsmə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Hazırda ibtidai istintaq davam edir.

**#maarifləndirmə - Dəm qazından zəhərlənmiş şəxsə ilkin yardım necə olmalıdır?**
30.10.2023




Zəhərlənmiş şəxsin huşu özündə deyilsə, dərhal onu qapalı mühitdən çıxarmaq, arxası üstə uzadıb yaxasını açmaq, mümkünsə nəfəs yollarını açmaq üçün ağız boşluğundakı seliyi təmizləmək, başına və sinəsinə soyuq islatma qoymaq, burnuna naşatır spirtində isladılmış pambıq yaxınlaşdırmaq, zərərçəkənin tənəffüsü dayanıbsa, ona mütləq süni nəfəs vermək və mütləq təcili tibbi yardıma xəbər etmək lazımdır.

Əgər dəm qazından zəhərlənmiş xəstənin huşu özündədirsə, onu təmiz havaya çıxarmaq vacibdir. Onun huşunun özündə olub-olmadığını müəyyənləşdirmə üçün sadə sullar da vermək olar.

Zəhərlənmə nəticəsində bədən temperaturu düşdüyü üçün xəstənin üstünü örtmək, ona isti içki vermək, sonra mütləq tibb mütəxəssisinə müraciət etmək lazımdır.

**Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə məlumatı**
31.10.2023




Oktyabrın 28-də Sumqayıt şəhərinin Corat qəsəbəsi ərazisində yerləşən fərdi yaşayış evlərindən birində odlu silahdan açılan atəş nəticəsində 2 nəfərin ölməsi və 4 nəfərin xəsarət alması faktı ilə bağlı Sumqayıt şəhər prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq istintaq aparılır.

Prokurorluq və Daxili işlər orqanlarının əməkdaşları tərəfindən keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində əvvəllər məhkum edilmiş 1987-ci il təvəllüdlü Müşfiq Tağıyevin qonşusu Anar Fərəcovdan qisas almaq məqsədilə sonuncunun ailəsinin yaşadığı həyətə gələrək evin divarlarına benzin töküb yandırması və özünün hazırladığı partlayıcı qurğunu partlatdıqdan sonra odlu silahdan atəş açaraq evdən çıxan Dağbəyi Fərəcov və Susana Karakaşı qəsdən öldürməsi, Tərlan Fərəcova və Serkan Karakaşı, eləcə də onlara köməyə gələn qonşuları Etibar Sarıyev və Mehman Sarıyevi qəsdən öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən edilib.

Keçirilmiş tədbirlərlə cinayətin törədilməsində istifadə edilən "İJ-18" markalı tüfəng, patronlar, barıt, benzin və digər əşyalar saxlandıqları yerlərdən aşkar edilərək götürülüb.

İstintaq-əməliyyat tədbirləri nəticəsində şübhəli şəxs qismində saxlanılan Müşfiq Tağıyev Cinayət Məcəlləsinin 120.2.4, 120.2.7 (xüsusi amansızlıqla və ümumi təhlükəli üsulla iki şəxsi öldürmə) 29, 120.2.3, 29, 120.2.4, 29, 120.2.7 (xüsusi amansızlıqla və ümumi təhlükəli üsulla ictimai borcunu yerinə yetirən iki şəxsi öldürməyə cəhd), 29, 186.2.1, 29, 186.2.2 (külli miqdarda ziyan vurmaqla yandırmaqla və partlatmaqla əmlakı qəsdən məhv etməyə cəhd) və 229.1-ci (qanunsuz olaraq partlayıcı qurğuları hazırlama) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda ibtidai istintaq davam edir.

Media nümayəndələri və sosial şəbəkə istifadəçilərindən qanunvericiliyinin tələblərinə riayət edilməsi və istintaq orqanı ilə dəqiqləşdirilməmiş məlumatların paylaşılmaması bir daha xahiş olunur.

**Beynəlxalq axtarışa verilmiş 4 şəxsin Rusiyadan ölkəmizə ekstradisiyası təmin edilib**
31.10.2023




"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 07.10.2002-ci il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının 4 vətəndaşı - Həbib Kaltayev, Məhərrəm Miriyev, Rəşad Tağıyev və Cəmşid Bədirzadənin ekstradisiyaları haqqında Baş Prokurorluğun vəsatətləri Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən təmin edilib.

Həbib Kaltayevin dini məzhəbləri yaymaq və dini ayinlərin icrası adı altında Azərbaycan Respublikasının hüdudlarından kənarda aparılan silahlı münaqişələrdə, eləcə də bu məqsədlə keçirilən döyüş təlimlərində iştirak etmə, Məhərrəm Miriyevin xuliqanlıq, Rəşad Tağıyev və Cəmşid Bədirzadənin isə xeyli miqdarda ziyan vurmaqla dələduzluq cinayətini törətmələrinə əsaslı şübhələr müəyyən edildiyindən, barələrində təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilib və onlar istintaqdan qaçıb gizləndikləri üçün beynəlxalq axtarışa verliblər.

Yuxarıda adları göstərilən şəxslər Rusiya Federasiyası ərazisində saxlanılaraq 30.10.2023-cü il tarixdə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Azərbaycana gətirilib.

**Milli Hematologiya və Transfuziologiya Mərkəzinin vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edilmişdir**
18.12.2023




Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin “Milli Hematologiya və Transfuziologiya Mərkəzi” publik hüquqi şəxsin əməkdaşlarının qanunsuz əməlləri barədə həmin qurumdan daxil olmuş məlumat əsasında aparılmış araşdırma nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanmışdır.

Aparılmış ilkin araşdırma zamanı 2023-cü ilin fevral-may aylarında qeyd olunan tibb müəssisəsinin vəzifəli şəxsləri tərəfindən Mərkəzə müraciət etmiş çoxsaylı sağlam vətəndaşın hematoloji müayinədən keçirilmədən adlarına qanın bədxassəli xəstəliyi ilə bağlı saxta diaqnozların rəsmiləşdirilməsinə, bu yolla da onların Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq qurumlarına təqdim etmələri üçün əlilliyin təyin olunması və hərbi xidmətdən azad olunma hüququ verən saxta tibbi sənədlərlə təmin edilməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Fakta görə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanmışdır.

Hazırda cinayət işi üzrə təqsirli şəxslərin və onların əlbir olduğu digər şəxslərin dəqiq dairəsinin müəyyən olunması istiqamətində istintaq davam etdirilir.

**Baş Prokurorluğun idarə rəisləri canlı yayımda sualları cavablandırmışlar**
22.12.2023

Dekabrın 26-da saat 11:00-dan saat 12:00-dək Baş Prokurorluğun instaqram sosial şəbəkəsindəki səhifəsində (link: https://www.instagram.com/prokurorluq/) canlı yayım keçirilmişdir.

Canlı yayım zamanı Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi Fazil Həsənəliyev, Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Natiq Abdullayev, Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəisi Vüqar Əliyev, Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova və Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanov vətəndaşları maraqlandıran sualları cavablandırmışlar.



### “Elm və Təfəkkür Universiteti”nin prorektorunun öldürülməsində təqsirləndirilən şəxslər barədə cinayət işi məhkəməyə göndərilib

25.12.2023




“Elm və Təhsil Mərkəzi Təfəkkür Universiteti”nin prorektoru Tariyel Əhmədovun 16 sentyabr 2011-ci il tarixdə qəsdən öldürülməsi faktı ilə bağlı başlanmış cinayət işi üzrə həyata keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində cinayəti törətməkdə təqsirləndirilən şəxslər ifşa edilib.

İbtidai istintaq zamanı həmin universitetin rektoru vəzifəsində işləmiş Müşviq Atakişiyevin Tariyel Əhmədovu öldürməyi qohumu Dəyanət Quliyevə sifariş verməsi, sonuncunun sifarişi əsasında isə Samir Quliyevin cinayəti törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlara əsasən rektor vəzifəsində qalmasına və işgüzar nüfuzuna maneə kimi qəbul etdiyi üçün Müşviq Atakişiyevin qisas məqsədilə pul müqabilində zərərçəkmiş şəxs Tariyel Əhmədovun öldürülməsini öz qohumu Dəyanət Quliyevə sifariş verməsi, sonuncunun isə 40 min ABŞ dolları müqabilində, habelə gələcəkdə maddi və mənəvi dəstək olmaq şərtilə bu cinayəti sifariş verdiyi həmkəndlisi Samir Quliyevin bir neçə gün zərərçəkmişi izlədikdən sonra Bakı şəhəri, Yasamal rayonunun Şərifzadə küçəsində yerləşən idman meydançalarından birində küt əşya ilə bir neçə dəfə onun baş və bədəninin müxtəlif nahiyələrinə zərbələr endirərək ölümünə səbəb olan xəsarətlər yetirməsi müəyyən edilib.

Müşviq Atakişiyev (sifarişçi) və Dəyanət Quliyev (sifarişçi) Cinayət Məcəlləsinin 32.3, 120.2.5-ci (sifarişlə adam öldürmədə təşkilatçı), Samir Quliyev (icraçı) isə həmin Məcəllənin 120.2.5-ci (sifarişlə adam öldürmədə) maddəsilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində həbs qətimkan tədbiri seçilib və cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Ötən illərdən bağlı qalan qeyri-aşkar şəraitdə törədilmiş qəsdən adam öldürmə cinayətlərinin üstünün açılması, cinayət törətmiş şəxslərin məsuliyyətə cəlb edilmələrinin təmin olunması sahəsində Baş Prokurorluq tərəfindən aidiyyəti dövlət orqanları ilə birgə zəruri tədbirlərin icrası davam etdirilir.

### #SORĞUYACAVAB - Sabunçu rayon məhkəməsinin hökmündən və qərarından apellyasiya protesti verilib

29.12.2023




Baş Prokurorluğun Mətbuat xidmətinə daxil olmuş sorğulara cavab olaraq bildirilir ki, “Patrul.az” MMC-nin və eyni adlı xəbər portalının təsisçisi Səməndər Niftəliyevin tanışı Həmzə Hüseynli ilə qabaqcadan əlbir olaraq vətəndaşa şəxsi həyatı ilə bağlı videogörüntülərinin media və sosial şəbəkə səhifələrindən silinməsi barədə yalan vəd verərək onun 2 min 800 manat məbləğində pul vəsaitini ələ keçirmələrinə əsaslı şübhələr müəyyən edildiyindən fakta görə, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılmış və iş baxılması üçün məhkəməyə göndərilmişdir.

Sabunçu rayon məhkəməsinin 8 dekabr 2023-cü il tarixli hökmü ilə Səməndər Niftəliyevə bəraət verilmiş, Həmzə Hüseynli isə zərərçəkmiş şəxsə vurulmuş ziyanı ödədiyinə görə eyni tarixli qərarla barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmişdir.

Dövlət ittihamçısı tərəfindən 28 dekabr 2023-cü il tarixdə qeyd edilən bəraət hökmündən və qərardan apellyasiya protesti verilmişdir.

# Tovuz rayonunda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib






Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq oktyabrın 13-də Tovuz rayonunda Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib.



Konfransda Tovuz, Qazax, Ağstafa, Gədəbəy, Şəmkir rayon və Şəmkir hərbi prokurorluqlarının əməkdaşları, hüquq-mühafizə və digər dövlət hakimiyyət orqanlarının nümayəndələri iştirak edib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq unudulmaz xatirəsini ehtiramla yad ediblər.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və Vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə açılış nitqi ilə çıxış edən Tovuz rayon prokuroru Maarif





Hüseynov müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətləri, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barəsində çıxış edib.

Daha sonra Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, Şəmkir rayon prokuroru Azər Hətəmov, Qazax rayon prokuroru Rauf Gözəlov, Ağstafa rayon prokuroru Anar Cəfərov, Gədəbəy rayob prokuroru Əli





Babayev və YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahovun Ümummilli Liderin dövlətçiliyin qorunması, iqtisadiyyatın inkişafı, prokurorluq orqanlarına qayğısı, gənclər siyasəti, respublikamıza, xüsusilə Tovuz rayonuna diqqət və qayğısı barəsində çıxışları dinlənilib.

Konfrans iştirakçıları Baş Prokurorluğun təşəbbüsü ilə ərsəyə gəlmiş Ümummilli Liderin xatirəsinə həsr olunan “Böyük şəxsiyyət...3 ştrixdə” adlı sənədli filmə baxıblar.

Sonda xatirə fotoşəkili çəkilib.



# Füzuli rayonunda “Narkomaniya ilə mübarizədə prokurorluğun rolu” mövzusunda tədbir keçirilib



20 oktyabr 2023-cü il tarixdə Füzuli rayon prokurorluğunun təşəbbüsü ilə işğaldan azad olunan Füzuli şəhərində inşa edilmiş Mirzə Uluqbəy adına Füzuli şəhər 1 nömrəli tam orta məktəbdə yuxarı sinif şagirdlərinin iştirakı ilə “Narkomaniya ilə mübarizədə prokurorluğun rolu” mövzusunda tədbir keçirilib.

Tədbirə başlamazdan əvvəl Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş  şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.



Tədbiri giriş sözü ilə açan Füzuli rayon prokuroru Elnur Rüstəmov narkomaniyanın mənfi təzahürləri, ümumbəşəri bəla ilə mübarizənin qanunvericiliklə tənzimlənməsi, Azərbaycan Prokurorluğunun narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizədə rolunun əhəmiyyəti, eləcə də prokurorluğun Azərbaycan Respublikasının Konstitusiyasında və Qanunlarında təsbit etmiş fəaliyyət istiqamətləri haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.



Daha sonra mövzu ətrafında şagirdlərin çoxsaylı sualları cavablandırılıb.

# Şamaxıda Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib













Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, noyabrın 16-da Şamaxı şəhərində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib.

Konfransda Şamaxı, Ağsu, İsmayıllı və Qobustan rayon prokurorluqlarının əməkdaşları, hüquq mühafizə və digər dövlət hakimiyyəti orqanlarının nümayəndələri iştirak edib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, unudulmaz xatirəsini ehtiramla yad edib.

Konfransın açılışında Ulu Öndərin və ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş şəxslərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Şamaxı rayon prokuroru Müşfiq Səfərov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətləri, hüquqi dövlət quruculuğu mövzusunda çıxış edib.

Konfransda həmçinin, Şamaxı rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov Ulu Öndər Heydər Əliyevin zəngin siyasi və dövlət quruculuğu sahəsində əvəzolunmaz fəaliyyəti mövzularında çıxış edib.

Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, həmçinin gənclərə olan qayğısından bəhs edən çıxışlar etdikdən sonra Azərbaycan Respublikasının Baş Prokurorluğunun təşəbbüsü ilə hazırlanmış filmə baxıblar.

Sonda xatirə fotoşəkli çəkilib.

# Astara rayon prokurorluğunda “Açıq qapı günü” keçirilib









Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə olan ictimai maraq nəzərə alınaraq noyabrın 29-da Astara rayon prokurorluğunda “Açıq qapı günü” keçirilib.

Tədbirdə media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələri, eləcə də dövlət qurumları və hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak edib.





İnzibati bina barədə məlumatlandırılan iştirakçılar binada əməkdaşlar üçün yaradılmış iş şəraiti ilə tanış olub.

İştirakçılara, həmçinin, “Elektron prokurorluq” informasiya sistemi əyani olaraq nümayiş olunub.

Kriminalistik avtomobil və avadanlıqlarla tanış olan qonaqlara istintaq hərəkətlərinin keçirilməsi zamanı müasir texnikadan istifadənin əhəmiyyəti izah olunub.

# Abşeron rayon prokurorluğunda "Açıq qapı günü" keçirilib







Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə olan ictimai maraq nəzərə alınaraq, dekabrın 22-də Abşeron rayon prokurorluğunda "Açıq qapı günü" keçirilib.

Tədbirdə media qurumları və qeyri-hökumət təşkilatlarının nümayəndələri, eləcə də dövlət qurumları və hüquq-mühafizə orqanlarının əməkdaşları iştirak edib.

İnzibati bina barədə məlumatlandırılan iştirakçılar binada əməkdaşlar üçün yaradılmış iş şəraiti ilə tanış olub.

İştirakçılara, həmçinin, "Elektron prokurorluq" informasiya sistemi əyani olaraq nümayiş olunub.

Kriminalistik avtomobil və avadanlıqlarla tanış olan qonaqlara istintaq hərəkətlərinin keçirilməsi zamanı müasir texnikadan istifadənin əhəmiyyəti izah olunub.



# Ulu Öndər Heydər Əliyev prokurorluğun da hamisi idi

*Müstəqil Azərbaycanın dövlət quruluşu sistemində prokurorluq öz yerini tutubdur və ölkəmizə layiqli xidmət edir.*

**Heydər Əliyev**
**Azərbaycan Xalqının Ümummilli Lideri**

*Son illər prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Müzəffər Ali Baş Komandan**



Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə 2023-cü il Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilmişdir. Sözügedən sərəncam əsasında Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında hazırlanmış "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı" Tədbirlər Planı istər icraçı orqanlar və qurumlar, istərsə də hər bir şəxs tərəfindən yüksək həvəslə və böyük iftixar hissləri ilə icra olunmaqdadır.

Hər il olduğu kimi, bu il də 3 may 2023-cü il tarixdə Azərbaycan Respublikası Baş prokurorunun müavini – Respublika Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyevin təşəbbüsü və rəhbərliyi ilə Respublika Hərbi Prokurorluğunda, 6 may 2023-cü il tarixdə isə Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Baş Prokurorluqda millət vəkillərinin, ictimaiyyət və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Ümummilli Liderin doğum gününün növbəti ildönümü, 100 illik yubileyi təntənəli surətdə qeyd olunmuş, dahi insanın əziz və unudulmaz xatirəsi hörmətlə yad edilmişdir. Sözsüz ki, bu, prokurorluq işçilərinin Ulu Öndər Heydər Əliyevə olan sonsuz sevgisindən irəli gəlir və həmin sevgi isə böyük tarixi şəxsiyyətin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən, o cümlədən həyatı boyu prokurorluğa göstərdiyi yüksək diqqət və qayğıdan, eləcə də prokurorluq işçilərinə verdiyi dəyərdən yaranmışdır.

Məlum olduğu kimi, istər Azərbaycan Demokratik Respublikasının mövcudluğu zamanı, istərsə də ölkəmizin SSRİ-nin tərkib hissəsi olduğu dövrdə milli prokurorluq orqanları tam formalaşa, cəmiyyətdə və dövlətdə öz layiqli yerini tuta bilməmiş, onun milli maraqları və insan hüquqlarını layiqincə müdafiə edən təsisata çevrilməsi mümkün olmamış, müstəqilliyimizin ilk illərində isə ölkədə yaranmış özbaşınalıq, anarxiya, xaos, hakimiyyət zəifliyi, xalq ilə iqtidar arasında olan uçurum səbəbindən vəzifə uğrunda gedən mübarizələrdə bir alətə çevrilmişdir. Bununla belə, çətin dövrlərdə, eləcə də ölkəmizdə separatçılıq meyillərinin və dövlət çevrilişinə cəhdlərin qarşısının alınmasında prokurorluq əməkdaşları da üzərlərinə düşən vəzifələri layiqincə icra edərək, dövlətimizin suverenliyinə və müstəqilliyinə qarşı ağır cinayətlər törətmiş şəxslərin tez bir zamanda ifşa edilib məsuliyyətə cəlb olunmasına bütün güclərini səfərbər etməklə cəmiyyətin və dövlətin onlara olan etimadını doğrultmuşdur.

Sirr deyil ki, prokurorluğun müasir dövrün tələblərinə uyğun formalaşdırılması, o cümlədən müstəqil Azərbaycanın ali qanunu olan Konstitusiyada ilk dəfə olaraq cinayət mühakimə icraatında mühüm vəzifələri yerinə yetirməsi nəzərə alınmaqla ölkəmizin məhkəmə hakimiyyəti sistemində layiqli yerinin müəyyənləşdirilməsi, onun sta-

tusunun, təşkili və fəaliyyət prinsiplərinin, funksiyalarının və səlahiyyət dairəsinin qanunvericilik qaydasında təsbit olunması məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə gerçəkləşən köklü hüquq islahatlarının sayəsində mümkün olmuşdur. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü əsasında qəbul edilmiş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanunu qarşıda duran bu və ya digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmaqla, prokurorluq orqanlarının daha da demokratikləşdirilməsini, onun qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etmişdir. Ardınca müdrik rəhbərin təşəbbüsü ilə beynəlxalq hüquq normalarına və demokratik prinsiplərə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" Azərbaycan Respublikası Qanunlarının və digər hüquqi aktların qəbul edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənməsi prosesi dövrün tələblərinə və beynəlxalq standartlara cavab verən səviyyəyə çatdırılmışdır. 19 sentyabr 2002-ci il tarixdə qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" referendum aktı ilə prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi isə dövlətdə və cəmiyyətdə prokurorluğun rolunu daha da artırmışdır. Həyata keçirilən möhtəşəm islahatlar çərçivəsində görülən nəhəng işlər sayəsində və təməl prinsiplərin mövcud tələblərlə uzlaşdırılması ilə hazırlanmış hüquqi baza əsasında Azərbaycan Prokurorluğu struktur və mahiyyət baxımından tamamilə yenidən qurularaq, yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirilməklə, səlahiyyətləri, vəzifələri və fəaliyyəti beynəlxalq standartlara uyğun formalaşdırılmış müasir dövlət təsisatına çevrilmişdir.

Təəssüf hissi ilə qeyd olunmalıdır ki, Azərbaycan Prokurorluğu 80 il ərzində dövlətin etibarlı sütunlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsinə dövlət tərəfindən heç bir təşəbbüs göstərilməmiş, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməmişdir. Qürur vericidir ki, məhz Ulu Öndər Heydər Əliyevin imzaladığı 17 iyul 1998-ci il tarixli Sərəncam ilə "1 oktyabr-Prokurorluq işçilərinin peşə bayramı günü" təsis edilmiş, bu isə tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa qayğının ifadəsi, onun roluna rəsmi münasibətin dövlət səviyyəsində təzahürü olmuşdur. Azərbaycan Prokurorluğuna daim yüksək diqqət göstərmiş nəhəng tarixi şəxsiyyətin "Azərbaycan Respublikası Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 8 oktyabr 2002-ci il tarixli Sərəncamı isə prokurorluq işçilərinin rifahına xidmət edən önəmli hüquqi akt kimi xüsusi vurğulanmalıdır.

Dərin minnətdarlıq hissləri ilə qeyd edilməlidir ki, prokurorluğa hərtərəfli diqqət və yüksək qayğı göstərilməsi ənənəsi dövlət başçısı tərəfindən davam etdirilir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən mükəmməl siyasət sayəsində dövlətimizin sürətlə hərtərəfli qüdrətlənməsi, iqtisadiyyatımızın durmadan güclənməsi prokurorluğa kifayət qədər maddi vəsait ayrılmasına rəvac vermişdir ki, bu da maddi təminatın, eləcə də işçilərin sosial müdafiəsinin daha da güclənməsinə zəmin yaratmışdır. Ölkə rəhbərinin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009–2011-ci illər üçün Dövlət Proqramı" bunun əyani sübutu olmuşdur.

Ölkədə gedən demokratik proseslər prokurorluq orqanlarında da müvafiq islahatların həyata keçirilməsini şərtləndirmişdir. Möhtərəm cənab Prezident İlham Əliyevin mayın 1-də Azərbaycan Respublikasına yeni Baş prokuror təyin etməsi və Kamran Əliyevin elə həmin gün videoformatda qəbulu zamanı dövlət başçısının verdiyi dəyərli tapşırıq və tövsiyələrin prokurorluq, o cümlədən hərbi prokurorluq orqanlarında həyata keçirilməsi ilə prokurorluğun yeni, mütərəqqi islahatlar və səmərəli dəyişikliklər dövrü başlamışdır. Qəbul zamanı ölkə başçısı demişdir: "Bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac var. Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Tərəqqi islahatsız

mümkün deyil. Ona görə hüquq mühafizə orqanlarında da digər sahələrdə olduğu kimi, islahatlara böyük ehtiyac var. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq". Bundan sonra, cənab Prezidentin müdrik kəlamları rəhbər tutulmaqla prokurorluq orqanlarında əsaslı struktur və kadr islahatları həyata keçirilərək ədalətli meyarlara və şəffaf prosedurlara əsaslanan mütərəqqi dəyişikliklərin reallaşdırılması istiqamətində mühüm işlər görülmüşdür.

"Prokurorluq işçilərinin sosial müdafiəsini gücləndirmək və prokurorluq orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 16 iyul 2021-ci il tarixli Fərmanı prokurorluğa olan dövlət qayğısının növbəti bariz nümunəsi olmuşdur.

Vurğulanmalıdır ki, ötən illər ərzində Azərbaycan Respublikası Hərbi Prokurorluğunun da maddi-texniki bazası gücləndirilmiş, Hərbi Prokurorluğun mərkəzi aparatı, Naxçıvan, Şəmkir, Zaqatala və Gəncə hərbi prokurorluqları ən müasir standartlara uyğun tikilməklə bütün zəruri avadanlıqlarla təchiz edilmiş inzibati binalarla təmin olunmuş, bir neçə hərbi prokurorluğun inzibati binası əsaslı təmir edilmişdir. Tarixi torpaqlarımız işğaldan azad olunduqdan sonra həmin ərazilərdə Hərbi Prokurorluq orqanlarının fəaliyyətinin effektivliyini və operativliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 1 aprel 2021-ci il tarixli Sərəncamı ilə Qubadlı, Kəlbəcər hərbi prokurorluqları və Qarabağ hərbi prokurorluğunun əsasında Ağdam hərbi prokurorluğu yaradılmış və hazırda adları çəkilən prokurorluqlar qısa zamanda formalaşdırılmış münbit şəraitdə uğurla fəaliyyət göstərirlər.

Ümummilli Liderin hakimiyyətə gəldiyi vaxtdan bu günədək prokurorluq orqanlarının, o cümlədən Hərbi Prokurorluğun kollektivinə dövlət səviyyəsində daimi göstərilən diqqət və qayğı işçilərin fəaliyyətinin stimullaşdırılmasını, bununla da işin səmərəliliyinin artırılmasını şərtləndirmişdir.

Əvvəlcə onu qeyd etmək lazımdır ki, 2005-ci ildən başlayaraq, yəni möhtərəm Prezidentimizin müvafiq sərəncamı ilə Xanlar Vəliyev Azərbaycan Respublikasının Hərbi prokuroru təyin edildikdən sonra Silahlı Qüvvələrdə 1992 – 2004-cü illərdə törədilmiş qəsdən adam öldürməyə cəhd, qəsdən adam öldürmə və digər ağır, xüsusilə ağır cinayət hadisələri ilə bağlı həmin dövrdə başlanılmış, uzun müddət istintaq aparılmasına baxmayaraq, səriştəsizlik və bəzi hallarda isə yarıtmaz fəaliyyət ucbatından iş üzrə ibtidai araşdırmanın yekunlaşdırılması mümkün olmadığından təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin müəyyən edilməməsi əsası ilə icraatı dayandırılmış cinayət işlərinin təcrübəli əməkdaşlar tərəfindən öyrənilməklə, bir neçəsi üzrə icraatın təzələnərək ibtidai istintaqın davam etdirilməsi, yekun qərarların qəbul olunması, bununla da ibtidai araşdırmanın qurtarması təmin edilmişdir. Belə ki, icraatı təzələnmiş işlər üzrə düzgün qurulmuş istintaq metodikası və taktikası, səriştəli aparılan istintaq hərəkətləri, istintaqçıların peşəkarlığı və əzmi, eləcə də məharətlə həyata keçirilmiş prosessual rəhbərlik sayəsində 25-dən artıq cinayət işinin ibtidai araşdırmasının yekunlaşdırılmasına, o cümlədən cinayət törətmiş şəxslərin ifşa olunmasına, faktlara və şəxslərin əməllərinə hüquqi qiymət verilməsinə nail olunmuşdur.

Ötən illərdə olduğu kimi, bu ilin keçən dövrü ərzində də Hərbi Prokurorluq orqanlarının fəaliyyəti səmərəli olmuş, işçilər üzərlərinə düşən vəzifələri layiqincə icra etmişlər. Cinayət işlərinin başlanmasının qanuniliyinə və əsaslılığına xüsusi diqqət yetirilməsi, icraatda olan işlər üzrə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması istiqamətində həyata keçirilmiş fəaliyyət, tələb edilən səviyyədə prosessual rəhbərlik, eləcə də işçilərin peşəkarlığı və zəhməti sayəsində ötən doqquz ay ərzində qeydə alınmış cinayətlərin 98,2 %-i açılmışdır.

Göründüyü kimi, Ulu Öndər Heydər Əliyev hər bir sahənin, eləcə də digər hüquq mühafizə orqanları ilə bərabər, prokurorluğun da hamisi olmuşdur. Odur ki, bütün xalq, həmçinin hər bir ədalət keşikçisi, o cümlədən prokurorluq əməkdaşı dünya şöhrətli siyasətçi, xalqın böyük oğlu Heydər Əliyevin parlaq simasını daim dərin hörmətlə xatırlayacaq və nəhəng şəxsiyyətin əziz və unudulmaz xatirəsini hər zaman yüksək ehtiramla anacaqdır.

**Şəfahət İmranov**
**Azərbaycan Respublikası**
**Hərbi Prokurorunun müavini,**
**ədliyyə general-mayoru**

# İnsan hüquqlarının müdafiəsi sahəsində səmərəli cinayət araşdırması prinsipinin rolu və əhəmiyyəti

Müasir dövrdə insan hüquqlarının səmərəli müdafiəsi üçün milli hüquq sistemlərində ədalətli hüquqi prosedurun mövcud olması prinsipial əhəmiyyətə malikdir. Ədalətli hüquqi prosedurun təmin edilməsi dövlətlərin insan hüquqları sahəsindəki pozitiv öhdəliklərindən irəli gəlir.

Qeyd edim ki, ədalətli hüquqi prosedur kifayət qədər geniş anlayışdır. Bu anlayışa hakimiyyətin həyata keçirilməsi proseduru, şikayət və müraciətlərə baxılması proseduru, hüquqi məsuliyyətə cəlb olunma prosesi və sair aid edilir. Hazırkı məqalədə ədalətli hüquqi prosedur anlayışının yalnız bir komponenti – səmərəli cinayət araşdırması prinsipi nəzərdən keçirilir. Məqalədə əsas diqqət işgəncəyə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq hüququnun təmin edilməsi və məişət zorakılığı ilə mübarizə sahəsində bu prinsipin roluna və əhəmiyyətinə yetirilmişdir.

Səmərəli cinayət araşdırması prinsipinin mahiyyəti ondan ibarətdir ki, təməl hüquqlardan biri pozulduğu halda, məsələn, şəxs həyatdan məhrum edildikdə, işgəncəyə və ya digər pis rəftara məruz qaldıqda, məcburi əməyə cəlb edildikdə səlahiyyətli dövlət orqanları səmərəli araşdırma həyata keçirməli və təqsirli şəxsləri müvafiq surətdə cəzalandırmalıdırlar. Səmərəli cinayət araşdırması dövlətin pozitiv, prosessual öhdəliyi kimi keçən əsrin 90-cı illərində Avropa İnsan Hüquqları Məhkəməsinin (bundan sonra "Avropa Məhkəməsi") presedent hüququna daxil edilmişdir. Avropa Məhkəməsi McCann və başqaları Böyük Britaniyaya qarşı işi üzrə qərarında (1995-ci il) göstərmişdir ki, yaşamaq hüququ şəxsin dövlət nümayəndələri tərəfindən həyatdan məhrum edildiyi hər bir halda səmərəli rəsmi araşdırmanın aparılması öhdəliyini özündə ehtiva edir. Sonrakı işlərdə Avropa Məhkəməsi bu öhdəliyi şəxsin digər özəl şəxslər tərəfindən həyatdan məhrum edildiyi hallara da şamil etmişdir.

Avropa Məhkəməsinin mövcud təcrübəsində səmərəli araşdırma prinsipi İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın (bundan sonra – "Avropa Konvensiyası") 2-ci maddəsi ilə yanaşı, əsasən, 3-cü (işgəncəyə və qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamaq hüququ), 4-cü (köləliyə və məcburi əməyə məruz qalmamaq hüququ) və 8-ci (şəxsi və ailə həyatına hörmət edilməsi hüququ) maddələri ilə əlaqədar tətbiq edilir.

Avropa Məhkəməsinin təcrübəsindən məlumdur ki, məişət zorakılığının qarşısının alınması, işin hallarından asılı olaraq, dövlətin Avropa Konvensiyasının 2-ci, 3-cü və ya 8-ci maddələrindən irəli gələn pozitiv öhdəliyi kimi tövsif edilir. Avropa Məhkəməsi hesab edir ki, məişət zorakılığı ictimai maraq kəsb edir və ailədaxili məsələ kimi nəzərdən keçirilə bilməz. Dövlətin bu sahədə pozitiv öhdəlikləri vardır (müvafiq qanunvericilik bazasının mövcud olması, məişət zəmində törədilən hər bir zorakılıq faktının səmərəli surətdə araşdırılması, zorakılıq qurbanları mühafizə orderinin verilməsi və s.). Müvafiq olaraq, dövlətin pozitiv öhdəliyinin yerinə yetirilməməsi onun beynəlxalq məsuliyyətinə əsas yaradır.

Məişət zorakılığı ilə mübarizədə dövlətlərin pozitiv öhdəliklərinin, o cümlədən səmərəli araşdırma aparmaq öhdəliyinin məzmunu Avropa Məhkəməsinin təcrübəsində müfəssəl açıqlanmışdır. İlk mühüm presedent kimi Opuz Türkiyəyə qarşı işi üzrə qərarı (2009-cu il) göstərmək olar. Avropa Məhkəməsi həmin qərarında qeyd etmişdir ki, ailə zorakılığı probleminə ailədaxili özəl məsələ kimi baxılmamalıdır. Dövlətin müdaxiləsi ilə məişət zorakılığından etibarlı qorunma hər bir demokratik cəmiyyətin marağında olmalıdır. Qeyd edilən iş üzrə zorakılığın qurbanı olan Nahidə Opuzun əri onu bir neçə dəfə öldürməyə cəhd etmişdi (avtomaşınla vurmuş, sonra isə bıçaqla yeddi dəfə xəsarət yetirmişdi). Bu cinayət hadisələrindən əvvəl isə onun ərinə qarşı məişət zorakılığı ittihamı ilə əlaqədar prokurorluq tərəfindən iki dəfə cinayət işi başlanmış və bu icraatlara kifayət qədər sübutlar olmadığı üçün xitam verilmişdi. Nəticədə Nahidənin səhhətinə və sağlamlığına ciddi xəsarət yetirilmiş və onun anası zorakılıq törədən kürəkəni tərəfindən öldürülmüşdü. Avropa Məhkəməsinin qənaətinə görə, bu cür ağır hadisənin baş verməsinin səbəbi dövlət orqanları tərəfindən cinayət işinin vaxtında başlanmaması və səmərəli cinayət araşdırmasının aparılmaması olmuşdu.

Məişət zorakılığı ilə bağlı bəzi işlərdə Avropa Məhkəməsi digər müvafiq hüquqlarla yanaşı, ayrı-seçkiliyə məruz qalmamaq hüququnun da pozulduğunu qeyd etmişdir. Məsələn, Tunikova və başqaları Rusiyaya qarşı işi üzrə qərarında (2021-ci il) Avropa Məhkəməsi göstərmişdir ki, "məişət zorakılığı əksər hallarda qadınlara qarşı törədildiyindən və buna qarşı Rusiyanın hüquq sistemində zorakılıq qurbanlarına münasibətdə hər hansı mühafizə mexanizmi olmadığından Konvensiyanın 3-cü maddəsinin pozulması ilə yanaşı, habelə həmin Kon-

vensiyanın 14-cü maddəsinin tələbləri də pozulmuşdur, çünki ölkədə qadınlara qarşı ayrı-seçkilik vəziyyəti yaranır".

Səmərəli cinayət araşdırması prosessual cəhətdən məhkəməyəqədər mərhələyə aiddir. Məhkəmə nəzarəti isə məhkəməyəqədər mərhələdə cinayət-prosesi qaydasında təhqiqatçının, müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun fəaliyyəti nəticəsində insan və vətəndaş hüquq və azadlıqlarına qanunsuz müdaxilələrin qarşısını almağa, pozulmuş hüquqların bərpasına xidmət edən məhkəmə fəaliyyətinin müstəqil növüdür. Məhz bu səbəbdən məhkəmə nəzarəti insan hüquqlarının müdafiəsinə dair faydalı vasitə xarakteri daşıyan və ibtidai araşdırmanın səmərəliliyinə təsir göstərən amildir. Misal üçün, işgəncədən zərər çəkmiş şəxs və ya məişət zorakılığı qurbanı təhqiqat və ya istintaqın səmərəli aparılmasını yalnız prokuror və ya məhkəmə nəzarəti vasitəsi ilə tələb edə bilir.

Azərbaycan Respublikasının hüquq sistemində məhkəmə nəzarəti mexanizminin təkmilləşdirilməsinə ehtiyac vardır. İşgəncə faktlarının qarşısının alınması ilə əlaqədar səmərəli cinayət araşdırılması üçün bu sahədə prokurorluğun təhqiqat və istintaqa rəhbərliyi funksiyası və məhkəmə nəzarətin rolunun güclənməsi önəmlidir. Prokurorluğun əməliyyat-axtarış fəaliyyətinə rəhbərliyi və məhkəmə nəzarətinin səmərəliliyinin artırılması məqsədi ilə, məhkəməyəqədər prosessual mexanizmin təkmilləşdirilməsi və bu orqanların prosessual səlahiyyətlərinin artırılması (məsələn, işgəncə izi aşkar göründüyü halda dərhal cinayət işinin başlanması, məhkəmə tərəfindən ekspertizanın təyin edilməsi və s.) məqsədəmüvafiq olardı.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi məhkəmə nəzarətinin gücləndirilməsi ilə əlaqədar hüquqi mövqeyini ardıcıl ortaya qoymuşdur. Belə ki, hələ keçən əsrin 90-cı illərinin sonunda "Təhqiqat aparan şəxs, müstəntiq və ya prokuror tərəfindən tətbiq edilmiş həbsə alma qətimkan tədbirindən verilmiş şikayətlərə baxılma qaydasının müəyyən edilməsi məsələsinə dair" 12 may 1999-cu il tarixli Qərarında Konstitusiya Məhkəməsi bildirmişdir ki, prokuror tərəfindən tətbiq edilmiş qətimkan tədbirindən məhkəməyə şikayət vermə və onun tərəfindən həmin şikayətə baxılma qaydaları Milli Məclis tərəfindən qanunvericilik qaydasında təkmilləşdirilməlidir.

2000-ci ildə qəbul edilmiş Cinayət-Prosessual Məcəllədə məhkəməyəqədər məhkəmə nəzarəti prosessual qaydada nəzərdə tutuldu, hətta həbs edilmə qətimkan tədbirinin tətbiqi səlahiyyəti məhkəməyə verildi. Beləliklə, cinayət işinə mahiyyəti üzrə məhkəmə baxışına qədər məhkəmələrə insan hüquq və azadlıqlarının müdafiəsi məqsədi ilə nəzarət, prokurorluğa isə təhqiqat və istintaqa ümumi rəhbərlik funksiyası verildi. Məhkəmə və prokurorluğun bu funksiyaları 1999-cu ildə qəbul edilmiş "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanunda da öz əksini tapmışdır.

Lakin müəyyən hallarda məhkəmə nəzarəti institutunun formal (yalnız sənədlərdə) olduğunu nəzərə alaraq, Azərbaycan Respublikası Qəbələ rayon məhkəməsi Konstitusiya Məhkəməsinə müraciət etmiş və Cinayət-Prosessual Məcəllənin 137 və 445.2-ci maddələrinin şərh edilməsini xahiş etmişdir. Konstitusiya Məhkəməsi "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 137 və 445.2-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 12 fevral 2015-ci il tarixli Qərarında bildirmişdir ki, Cinayət-Prosessual Məcəllənin 445.2-ci maddəsinə müvafiq olaraq əməliyyat-axtarış tədbirinin aparılması barədə qərar məhkəməyə daxil olduqda, insan hüquq və azadlıqlarının təmin edilməsi baxımından onun qanuniliyi və əsaslılığı məhkəmə nəzarəti qaydasında yoxlanılmalıdır, ehtiyac olduğu halda isə əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar məxfiliyi təmin olunmaqla tələb edilə bilər. Əməliyyat-axtarış tədbirinin aparılması barədə qərara əsasən əldə edilmiş materiallar "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanuna uyğun əldə olunduqda və Cinayət-Prosessual Məcəllənin tələblərinə uyğun təqdim edildikdə, habelə məhkəmə nəzarəti qaydasında ətraflı yoxlanıldıqda, həmin Məcəllənin 137-ci maddəsinin tələblərinə uyğun olduğu halda cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər.

İşgəncə faktlarının səmərəli cinayət prosessual qaydada araşdırılması prosesinin məhkəmə nəzarəti altında olması insan hüquqlarının müdafiəsi baxımından xüsusilə əhəmiyyətlidir. İlk növbədə, səmərəli araşdırma imkanları yalnız nisbətən müstəqil statusa malik olan səlahiyyətli orqan tərəfindən aparılmalıdır. Məsələn, işgəncə faktı üzrə istintaqı aparan prokurorluğun xüsusi qurumu müstəqil olmalıdır.

Avropa ölkələri prokurorlarının elmi-məşvərətçi şurasının 26 noyabr 2021-ci il tarixli Rəyinə əsasən, prokurorların müstəqilliyi hakim müstəqilliyi şərtləri ilə müəyyən edilməlidir. Həmin Rəyin 31-ci bəndində qeyd edilir ki, səmərəli araşdırma üçün prokurorun təkcə institusional yox, hətta praktiki müstəqilliyi təmin edilməlidir. Prokurorun praktiki müstəqilliyi, işgəncə faktı ilə yaranan və vəzifəli şəxsə dair başlanan cinayət təqibinin səmərəli araşdırmasına

zəmanət yaradan şərtdir. Bununla bağlı həm Avropa Məhkəməsinin presedent hüququ, həm də İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) tövsiyələri nəzərə alınmalıdır. Həmin qurumların mövqeyinə görə, prokurorluğun xüsusi qurumu tərəfindən işgəncə faktları üzrə aparılan cinayət araşdırması səmərəli məhkəmə nəzarəti altında olmalıdır. Bu prosessual vasitə işgəncə qurbanlarının hüquqi müdafiəsi üçün real imkanlar yaratmış olur.

Avropa Məhkəməsi cinayət araşdırmasının səmərəli olması və bununla Avropa Konvensiyasının tələblərinə cavab verməsi üçün bir sıra meyarlar (standartlar) müəyyən etmişdir, CPT isə öz təcrübəsində həmin meyarlara əməl olunmasına dair tövsiyələr qəbul etmişdir.

Təxirəsalınmazlıq. Bu meyar prinsip müvafiq cinayət faktına dair sübutların asan və tezliklə əldə edilməsi üçün cinayət araşdırmasının dərhal başlanılmasını nəzərdə tutur. Bevasqua və S. Bolqarıstana qarşı işi üzrə qərarında (2008-ci il) Avropa Məhkəməsi bildirmişdir ki, "şikayət olan kimi cinayət işi dərhal başlanılmalıdır". Həmin işin materiallarına əsasən, şikayətçinin əri onu və onun oğlunu daim təhqir edirdi, şikayətçinin özünü isə hətta döymüşdü. Milli məhkəmələrin qərarına əsasən, onlar boşanandan sonra onların oğlu anası ilə qalmalı idi. Lakin onun əri uşağı uşaq bağçasından götürərək uzun müddət anasına qaytarmırdı. Hüquq mühafizə orqanları tərəfindən isə uşağın qaçırılmasına görə zorakılıq törədən atası cinayət məsuliyyətinə cəlb edilməmiş və uşaqla onun anasına real təhlükə yaranmışdı.

Təxirəsalınmazlıq müəyyən ayrı-ayrı istintaq hərəkətlərinə də aid edilir. Məsələn, işgəncəyə məruz qalmış şəxsin və ya məişət zorakılığı qurbanının üzərində təxirəsalınmaz (dərhal) tibbi müayinə (ekspertiza) keçirilmədiyi və zədə, xəsarətlər qeydə alınmadığı halda buna dair ekspert rəyinin iş üzrə sübut kimi istifadə edilməsi imkanı itirilmiş olur.

Rizvanov Azərbaycana qarşı işi üzrə qərarında (2012-ci il) Avropa Məhkəməsi bildirmişdir ki, məhkəmə-tibb ekspertizasına dair sübutların gec əldə edilməsi pis rəftar ittihamı üzrə aparılan araşdırmanın ümumi səmərəliliyinin qiymətləndirilməsində ən mühüm amillərdən biridir. Bu iş üzrə istintaq orqanları şəxsin üzərində dərhal keçirilən tibbi müayinə üzrə təqdim edilən tibbi arayışı "natamam" sənəd kimi qiymətləndirsələr də, təxirəsalınmaz yeni "tələb olunan" məhkəmə-tibb ekspertizanı keçirməmiş və yalnız bu hal araşdırmanın səmərəliliyini şübhə altına almışdı.

CPT öz növbəsində dəfələrlə vurğulamışdır ki, hətta şikayət olmadığı halda müvafiq araşdırma dərhal başlanmalıdır. Məsələn, CPT 20-ci Ümumi məruzəsində bildirmişdir ki, elektrik çarpan alətin istifadəsinin müvafiq qanunlara və ya qaydalara uyğun olmadığı aşkar edildikdə müvafiq araşdırma (intizam və/və ya cinayət) dərhal başlanmalıdır. Cəzaçəkmə yerlərində isə məhbuslar arasında zorakılıq nəticəsində xəsarətlər həkim tərəfindən qeydə alındıqda qeyd müvafiq prokurorun diqqətinə çatdırılmalı və onun tərəfindən ibtidai istintaq dərhal başlanmalıdır (CPT-nin Litvaya səfəri üzrə 2004-cü il məruzəsi).

Müstəqillik və qərəzsizlik. Bu iki meyar bir-biri ilə üzvi surətdə bağlıdır. İlk növbədə, cinayət araşdırmasını aparan orqan və sübutların yoxlanması ilə əlaqədar dəvət edilən ekspert müstəqil qurumların əməkdaşları olmalıdırlar. Avropa Məhkəməsi Ramsahai və başqaları Niderlanda qarşı işi üzrə qərarında (2007-ci il) bu qənaətə gəlmişdir ki, polis tərəfindən zəruri müdafiə adı altında Moravia Ramsahainin öldürülməsi faktına dair cinayət araşdırılması qərəzli şəkildə aparılmamışdır. Belə ki, araşdırma zamanı silah tətbiq edən polis əməkdaşlarının əlində barıt izinin olmasına dair ekspertiza, hadisənin baş verdiyi yerə baxış, polis əməkdaşlarının ayrılıqda dərhal dindirilməsi (onlar 3 gündən sonra dindirilmişdilər), hər hansı bir müstəqil şahidin dindirilməsi və digər istintaq hərəkətləri keçirilməmişdir. Əsas sübutlar isə hadisədən sonra ilk 15 gün ərzində yerli polis orqanları tərəfindən aparılan araşdırma mərhələsində toplanmışdır. Bütün bunlar səmərəli araşdırmanın qərəzsiz aparılmasını şübhə altına alır.

Avropa Məhkəməsinin Azərbaycana qarşı bir sıra işlərində müstəqillik və qərəzsizlik meyarlarının pozulduğu aşkar edilmişdir. Məsələn, müvafiq polis idarəsinin əməkdaşları tərəfindən törədildiyi güman edilən qeyri-insani rəftar barədə təhqiqatın həmin polis idarəsinin müstəntiqinə həvalə edilməsi müstəqillik meyarının pozulması kimi qiymətləndirilmişdir (Nəcəfli Azərbaycana qarşı (2012-ci il), Layıcov Azərbaycana qarşı (2014-cü il)).

Qərəzsizlik meyarının vacibliyi Malik Babayev Azərbaycana qarşı işi üzrə qərarda (2017-ci il) vurğulanmışdır. Həmin işdə silahlı qüvvələrin əsgəri özünə qəsd etdikdən sonra hadisə yerinə baxış hal şahidi qismində onunla xidmət etmiş iki əsgərin iştirakı ilə onun xidmət etdiyi hərbi hissənin komandiri tərəfindən keçirilmişdi. Avropa Məhkəməsinin qənaətinə görə, həmin şəxslərin intihar hadisəsi ilə əlaqəli olması ehtimalı istisna edilmir. Təbii ki, bu cür halda həmin istintaq hərəkətinin qərəzli he-

sab edilməsi üçün kifayət qədər əsas yaranmış olur.

CPT qərəzsizliyə zəmanət verən müasir texniki vasitələrin geniş istifadəsini xüsusi vurğulayır. Belə ki, Azərbaycana 2012-ci il tarixli səfəri ilə əlaqədar məruzəsində qeyd edilir ki, polis şöbələrində CCTV sistemlərinin qeydləri xüsusilə önəmlidir. Araşdırma aparan prokurorluq orqanları bu texniki vasitələrdən istifadə etməlidirlər. Texniki qeydiyyat, bir tərəfdən, qərəzsizliyi nümayiş etdirən, digər tərəfdən isə, hüquq mühafizə orqanlarının mövqeyini əsassız ittiham və böhtanlardan qoruyan vasitədir.

Hərtərəflilik və adekvatlıq. Məntiqi olaraq bir-birini tamamlayan bu iki meyar cinayət araşdırması prosesində bütün ağlabatan və adekvat addımların atılmasını, sübutların prosessual qaydalara uyğun tam və ətraflı toplanmasını, müvafiq cinayət faktlarının diqqətlə, ardıcıl və obyektiv surətdə qiymətləndirilməsini və s. nəzərdə tutur. B.U. Çexiyaya qarşı işi üzrə qərarında (2022-ci il) Avropa Məhkəməsi qeyd etmişdir ki, insidentlə əlaqədar Praqa aeroportunda saxlanılan əcnəbi vətəndaşın aqressiv olması səbəblərinin araşdırılmaması, şahidlərin dindirilməməsi, hər hansı məhkəmə-tibb ekspertizasının keçirilməməsi və s. ümumilikdə araşdırmanın adekvat və hərtərəfli olmamasını nümayiş etdirir.

Savalanlı və başqaları Azərbaycana qarşı işi üzrə qərarında Avropa Məhkəməsi göstərmişdir ki, istintaq orqanları tərəfindən təqsirləndirilən şəxsin evində axtarış zamanı yalnız narkotik vasitələri götürülmüş və sonradan istintaq zamanı bu narkotik vasitələrin alınma mənbələri və ya digər şəxslərin bu cinayətə aid olub-olmamarına dair hər hansı istintaq tədbiri görülməmişdir. Hilal Məmmədov Azərbaycana qarşı işi üzrə qərarında (2016-cı il) qərarında isə Avropa Məhkəməsi qeyd etmişdir ki, istintaq zamanı polis əməkdaşlarının ifadələri ərizəçinin ifadələri ilə açıq şəkildə ziddiyyət təşkil etsə də, ərizəçi ilə polis əməkdaşları arasında üzləşmə keçirilməmiş və üstünlük polis əməkdaşlarının ifadələrinə verilmişdir.

Təbii ki, istintaq orqanları ifadələrdə bu cür ziddiyyət aşkar etdiyi halda və ya cinayətin törədilməsi motivini tam aydınlaşdırmadıqda cinayət hadisəsini hərtərəfli və adekvat qiymətləndirməsi üçün müvafiq tədbirlərin (üzləşmə, hadisə yerinə baxış və s.) aparılmasını davam etdirməlidir.

CPT-nin 14-cü Ümumi Hesabatında vurğulanır ki, dövlət nümayəndələri tərəfindən mümkün hər hansı bir pis rəftara dair araşdırma hərtərəflilik meyarına uyğun aparılmalıdır. Hadisə ilə əlaqədar sübutların təmin edilməsi üçün bütün ağlabatan addımlar atılmalı, yəni şahidlər dindirilməli, müvafiq qeydiyyat sənədləri yoxlanmalı, ekspertiza keçirilməli və s. tədbirlər görülməlidir.

İşgəncə qurbanının (və onun ailə üzvlərinin) iştirakı. İşgəncə qurbanının cinayətin araşdırılmasında iştirakı, aparılan icraat barədə onun mütəmadi məlumatlandırılması və onun qanuni maraqlarının müdafiəsi səmərəli cinayət araşdırmasının əsas meyarlarından biridir. İşgəncə qurbanı və ya məişət zorakılığı qurbanına hüquqi yardımın göstərilməsi, onun tərəfindən konkret istintaq hərəkətlərinin aparılmasını tələb etmək və təhqiqat, istintaq orqanlarının hərəkət və ya hərəkətsizliyinə etiraz bildirmək imkanlarının verilməsi müdafiə vasitəsinin vacib komponentləridir. X. və başqaları Bolqarıstana qarşı işi üzrə qərarında (2021-ci il) Avropa Məhkəməsi göstərmişdir ki, İtaliyada bir ailə tərəfindən övladlığa götürülmüş uşaqların Bolqarıstanda uşaq evində olduqları dövrdə cinsi zorakılığa məruz qaldıqlarına görə həmin uşaq evinin rəhbərliyinə qarşı aparılan ibtidai araşdırma zamanı zorakılıq qurbanlarının Bolqarıstana dəvət olunmaması və dindirilməməsi həmin araşdırmanın səmərəli olmadığına dəlalət edir. Avropa Məhkəməsi vurğulamışdır ki, zərərçəkmiş şəxslərin ibtidai araşdırılmada iştirakı mütləqdir və hətta İtaliya köçmüş uşaqların Bolqarıstana ifadə verməkləri üçün gəlmək imkanı olmadığı halda belə, Bolqarıstan rəsmiləri İtaliyanın ədliyyə orqanları vasitəsi ilə cinsi zorakılıq qurbanlarını dindirmək imkanından istifadə etməli idilər.

İctimai nəzarət. Müvafiq cinayət faktına dair araşdırmanın nəticələrinin ictimailəşməsi xüsusilə əhəmiyyətlidir. İctimai nəzarətin olması şəffaflığa, eləcə də təqsirli şəxslərin müəyyənləşdirilməsi və müvafiq surətdə cəzalandırılması ilə bağlı qanunçuluq prinsipinə riayət edilməsinə dəlalət edir.

Yuxarıda göstərilən meyarlara əməl olunmaması cinayət araşdırmasının səmərəli olmaması və bununla da müvafiq insan hüququnun prosessual cəhətdən pozulması kimi qiymətləndirilir və müvafiq olaraq, dövlətin beynəlxalq hüquqi məsuliyyətinə əsas verir.

**Ceyhun Qaracayev**
**Azərbaycan Respublikası Konstitusiya məhkəməsinin hakimi, hüquq elmləri doktoru, Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının professoru, İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin üzvü**

# Xalqımıza qarşı törədilmiş heç bir cinayət cəzasız qalmayacaq




Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu daxili və xarici siyasət sayəsində, o cümlədən dövlətimiz tərəfindən ölkədə və respublikamızdan kənarda görülən nəhəng işlər, həyata keçirilən sistemli və ardıcıl tədbirlər nəticəsində tarix boyu xalqımıza qarşı törədilən deportasiyalar, soyqırımlar, terrorlar və digər sülh və insanlıq əleyhinə cinayətlər, o cümlədən Xocalı, Qaradağlı, Ağdaban, Başlıbel, Bağanıs Ayrım, Meşəli, Kərkicahan qətliamları və sair insanlığa sığmayan vəhşiliklərlə törədilmiş cinayətlər, eləcə də Ballıqaya faciəsi barədə tarixi reallıqlar dünya ictimaiyyətinə çatdırılmış və hətta onların bəzilərinə beynəlxalq səviyyədə obyektiv və ədalətli, yəni həqiqətə və milli maraqlarımıza uyğun münasibət bildirilməsinə müvəffəq olunmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətdə görülən böyük işlər də mühüm əhəmiyyət kəsb etməkdədir. Bu haqda danışarkən, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın sözügedən istiqamətdəki səmərəli fəaliyyətini, xüsusən də Xocalı Soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması məqsədilə 2008-ci ildən başlayaraq həyata keçirdiyi "Xocalıya Ədalət!" kampaniyasını da vurğulamaq lazımdır.

Azərbaycan xalqına qarşı törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, terrorçuluq cinayətləri və digər cinayətlər ilə əlaqədar istintaqının aparılması və onları törətmiş şəxslərin əməllərinə hüquqi qiymət verilməsi, həmin cinayətlərin təşkilində və törədilməsində iştirak etmiş şəxslərin müəyyən edilib mövcud qanunvericiliyə və beynəlxalq hüquqa əsasən cinayət məsuliyyətinə cəlb edilməsi, habelə Ermənistan tərəfindən beynəlxalq hüquq normalarının və prinsiplərinin kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədi ilə 18.12.2003-cü ildə Baş Prokurorluğun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlərinin vahid əmri ilə birgə istintaq-əməliyyat qrupu yaradılmış, 05.05.2005-ci ildən isə ibtidai araşdırmaya prosessual rəhbərlik Azərbaycan Respublikası Baş prokurorunun müavini – Respublika Hərbi prokuroru Xanlar Vəliyevə həvalə edilməklə, həmin istintaq-əməliyyat qrupunun fəaliyyəti Respublika Hərbi Prokurorluğuna tapşırılmışdır. Bundan sonra erməni silahlı birləşmələrinin üzvləri tərəfindən müxtəlif illərdə törədilmiş eyni xarakterli cinayət faktları ilə bağlı başlanılmış və cinayət törətmiş şəxslərin və ya onların olduqları yerin müəyyən edilməməsi əsası ilə icraatları dayandırılmış hər bir cinayət işi öyrənilmiş, bir neçə cinayət işinin icraatı təzələnərək vahid bir icraatda birləşdirilmiş və istintaq aparılmışdır. Cinayət işinin ibtidai araşdırması əvvəlki illərdən fərqli olaraq cinayət işinin vahid istintaq-əməliyyat planına əsasən daha səmərəli və effektiv, ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, beynəlxalq hüquq normalarına, eləcə də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, Cinayət-Prosessual Məcəlləsinin tələblərinə tam uyğun və baş vermiş cinayət hadisələrinin hər birinin mahiyyəti üzrə aparılmışdır.

İstintaq-əməliyyat qrupunun səmərəli fəaliyyəti nəticəsində təqsirləri qanunvericiliklə müəyyən

olunmuş qaydada, eləcə də beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinin tələblərinə uyğun olaraq sübuta yetirilmiş müvafiq şəxslərin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103 (Soyqırım), 107 (Əhalini deportasiya etmə və ya məcburi köçürmə), 113 (İşgəncə), 115 (Müharibə qanunlarını və adətlərini pozma), 116 (Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120 (Qəsdən adam öldürmə), 214 (Terrorçuluq) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələrinə dair qərarlar qəbul edilmiş, barələrində məhkəmə qərarlarına əsasən həbs qətimkan tədbiri seçilmiş və axtarışlarının təmin edilməsi üçün müvafiq sənədlər İnterpolun Azərbaycan Respublikasındakı Milli Bürosuna və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsinə göndərilmişdir.

Hazırda Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin nəzarəti və Baş prokurorun müavini Xanlar Vəliyevin prosessual rəhbərliyi ilə hərtərəfli istintaq-əməliyyat tədbirləri davam etdirilir. Məlum olduğu kimi, bir müddət əvvəl Meşəli soyqırımı epizodu üzrə axtarışda olan şəxslərdən biri – Xaçatryan Vaqif Çerkezoviç tutularaq istintaqa təhvil verilmişdir. Yeri gəlmişkən, Bakı Hərbi Məhkəməsinin hökmü ilə Vaqif Xaçatryanın təqsiri sübuta yetirildiyindən o, 15 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir.

Konkret olaraq Ballıqaya soyqırımı ilə bağlı onu deyə bilərəm ki, 18.05.1992-ci il tarixdə Laçın rayonu Ermənistan Respublikası tərəfindən işğal edildikdən sonra həmin rayonun sakinləri Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmaq məcburiyyətində qalmışdılar. Laçın rayon sakinlərinin bir hissəsi də Goranboy rayonunun Ballıqaya kəndinə köçmüşlər. Adıçəkilən ərazidə məskunlaşmış Laçın rayon sakinləri 1992-ci ilin avqust ayında düşmənin silahlı hücumuna məruz qalmış, hücum nəticəsində xeyli insan qətlə yetirilmiş, bir neçə nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almışdır. Sözügedən faktla əlaqədar Goranboy rayon prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılaraq ibtidai araşdırma aparılmışdır. Bir müddət sonra cinayət işi üzrə istintaq Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda davam etdirilmişdir.




İbtidai araşdırma zamanı iş üzrə çoxsaylı istintaq hərəkətləri həyata keçirirlmiş, o cümlədən şahidlər və zərərçəkmiş şəxslər, zərərçəkmiş şəxslərin hüquqi varisləri dindirilmiş, müxtəlif ekspertizalar təyin olunmaqla icra edilmiş, əməliyyat tapşırıqları verilmiş, aidiyyati qurumlara müvafiq sorğular göndərilmiş və digər zəruri istintaq-əməliyyat tədbirləri yerinə yetirilmişdir.

Aparılmış istintaqla müəyyən edilmişdir ki, 28.08.1992-ci il tarixdə Goranboy rayonunun dağlıq hissəsində yerləşən Ballıqaya kəndində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkünlər, dinc sakinlər erməni silahlı dəstəsinin hücumuna məruz qalmış, hücum zamanı səhər saat 05 radələrində 24 nəfər günahsız insan xüsusi amansızlıqla qəsdən həyatdan məhrum edilmiş, 9 nəfərə isə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilmişdir. Böyük kədər və təəssüf hisləri ilə vurğulayım ki, qətlə yetirilənlər sırasında qoca, qadın, uşaq və hətta 6 aylıq körpə belə olmuşdur. Hazırda sözügedən faktla əlaqədar müvafiq zəruri tədbirlərin görülməsi davam etdirilir. Əminəm ki, xalqımıza qarşı törədilmiş heç bir cinayət cəzasız qalmayacaqdır.

**Firad Əliyev**
**Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi – Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri**

# Преступления против несовершеннолетних в Азербайджанской Республике

**Xülasə:**

*Bu məqalə Azərbaycan Respublikasında yetkinlik yaşına çatmayanlara qarşı cinayətləri araşdırır, qanunvericiliyə, problemlərə və perspektivlərə diqqət yetirir. Məqalədə uşaqlara qarşı törədilən müxtəlif növ cinayətlərdən, o cümlədən uşaqlara qarşı zorakılıq, uşaq alveri, uşaq ayrı-seçkiliyi, təhsil müəssisələrində zorakılıqdan bəhs etməklə, profilaktik tədbirləri və qurbanların dəstəyini araşdırılır. Məqalədə Azərbaycanın bu sahədə üzləşdiyi problemlər vurğulanır və məlumatlılığın artırılması və beynəlxalq təşkilatlarla əməkdaşlıq da daxil olmaqla, təkmilləşdirmə perspektivləri təklif olunur.*

**Аннотация:**

*Эта статья исследует преступления против несовершеннолетних в Республике Азербайджан, фокусируясь на законодательстве, проблемах и перспективах. В статье обсуждаются разнообразные виды преступлений, совершаемых против детей, включая детское насилие, детские сексуальные преступления, торговлю детьми, детскую дискриминацию и насилие в образовательных учреждениях. Она также рассматривает меры профилактики и поддержки жертв. Статья подчеркивает вызовы, с которыми сталкивается Азербайджан в этой области, и предлагает перспективы для улучшения ситуации, включая повышение осведомленности и сотрудничество с международными организациями.*

**Abstract:**

*This article examines crimes against minors in the Republic of Azerbaijan, focusing on legislation, challenges, and prospects. The article discusses various types of crimes committed against children, including child abuse, child sexual crimes, child trafficking, child discrimination, and violence in educational institutions. It also explores preventive measures and victim support. The article underscores the challenges faced by Azerbaijan in this field and offers prospects for improvement, including raising awareness and collaboration with international organizations.*

Ребенком является каждое человеческое существо до достижения 18-летнего возраста, если по закону, применимому к данному ребенку, он не достигает совершеннолетия ранее. Об этом гласит статья 1 Международной конвенции о правах ребенка 1989 года. Как следует из статьи 1 Закона Азербайджанской Республики «О правах ребенка», принятого 19 мая 1998 года [1]. «права (и обязанности) детей, предусмотренные настоящим Законом, распространяются на каждое лицо, не достигшее 18-летнего возраста» – иными словами согласно этой норме понятия «дети» и «несовершеннолетние» приравниваются [2].

Лица в возрасте до 18 лет составляют примерно одну треть населения земного шара, а в ряде стран почти 50% населения страны принадлежат числу молодежи и детей. Поэтому преступления, совершаемые против несовершеннолетних, представляют собой серьезную общественную проблему, требующую внимания и действий со стороны законодателей, правоохранительных органов и общества в целом. В Азербайджанской Республике, как и во многих других странах, защита прав и интересов детей и подростков играет ключевую роль в обеспечении их благополучия и безопасности. Эта статья посвящена анализу преступлений, совершаемых против несовершеннолетних в Азербайджане, рассмотрению законодательства, принятых мер по защите детей, а также вызовов и перспектив в этой области. Осознание важности этой темы позволяет более эффективно бороться с нарушениями прав детей и стремиться к созданию безопасной и благополучной среды для молодого поколения.

Азербайджан имеет в своем распоряжении законодательные акты, призванные обеспечивать защиту несовершеннолетних. Важным законом в этой области является "Закон Азербайджанской Республики о правах ребенка", принятый в 1997 году и последующие поправки, и дополнения к нему. Этот закон устанавливает основные права детей и обязательства государства по их защите.

Более того, Азербайджан ратифицировал Конвенцию ООН о правах ребенка 21 июля 1992 года, что обязывает страну придерживаться международных стандартов по защите прав детей.

В 2006 году Азербайджан разработал Национальный план действий по детям, который включает в себя стратегии и действия, направленные на обеспечение безопасности и благополучия детей.

Кроме того, Азербайджан всегда уделял правам несовершеннолетних особое внимание. Этому подтверждением может служить целый ряд международных документов, к которым Азербайджан присоединился, а именно:

– «Конвенция о международном порядке взыскания алиментов на детей и иных форм содержания семьи» (ратифицирована Законом Азербайджанской Республики от 30 сентября 2022 года)

– «Конвенция Совета Европы о защите детей от сексуальной эксплуатации и сексуального насилия» Лансароте, 25 октября 2007 года (ратифицирована Законом Азербайджанской Республики от 22 октября 2019 года)

– «Конвенция о защите детей и сотрудничестве в области

межгосударственного усыновления» Гаага, 29 мая 1993 года (ратифицирована Законом Азербайджанской Республики от 30 марта 2004 года, а изменения к этой конвенции ратифицированы 15 декабря 2006 года)

– «Конвенция о запрещении и немедленных мерах по искоренению наихудших форм детского труда» Международной организации труда, Женева, 1 июня 1999 года (ратифицирована Законом Азербайджанской Республики от 13 января 2004 года)

– Факультативный протокол к Конвенции о правах ребенка, касающийся торговли детьми, детской проституции и детской порнографии, принятый резолюцией 54/263 Генеральной Ассамблеи от 25 мая 2000 года (ратифицирован Законом Азербайджанской Республики от 2 апреля 2002 года)

– Факультативный протокол к Конвенции о правах ребенка, касающийся участия детей в вооруженных конфликтах, принятый резолюцией 54/263 Генеральной Ассамблеи от 25 мая 2000 года (ратифицирован Законом Азербайджанской Республики от 2 апреля 2002 года)

– «Европейская конвенция о правовом статусе внебрачных детей» Страсбург, 15. октября 1975 года

В нашей Республике была создана достаточная законодательная база для защиты прав граждан, не достигших совершеннолетия, предотвращения правонарушений, совершаемых ими, а также в профилактической сфере.

Следует указать Закон Азербайджанской Республики от 24.05.2005 «О беспризорности и профилактике правонарушений несовершеннолетних», с целью определения правил осуществления в Органах Внутренних Дел деятельности, связанной с защитой прав детей, профилактикой детской беспризорности и правонарушений, «Инструкцию касательно деятельности органов внутренних дел по профилактике беспризорности и правонарушений несовершеннолетних», утвержденную приказом МВД от 24.02.20117, и Указ Президента Азербайджанской Республики от 08 мая 2012 года «Об утверждении порядка Государственного Контроля за осуществлением прав ребенка», помимо определения прав сотрудников органов внутренних дел, ставят перед ними важные задачи.

Кроме того, необходимо отметить, что "Стратегия Азербайджанской Республики в отношении детей на 2020-2030 годы" совершенствует существующую правовую базу в области прав ребенка в Азербайджанской Республике, а создание функционирующего механизма защиты детей, оказание государственной поддержки их развитию в раннем детстве, защита детей, находящихся в трудной жизненной ситуации, воспитание и развитие детей в здоровой среде, определяет основные направления и основные цели детской политики в Азербайджанской Республике. Это помогает также и развитию системы мониторинга и оценки мероприятий, проводимых в отношении детей. План действий по реализации стратегии в отношении детей на 2020-2025 годы разработан в соответствии с пунктом 3.1 Распоряжения Президента Азербайджанской Республики от 2 июня 2020 года № 2073 "об утверждении Стратегии Азербайджанской Республики в отношении детей на 2020-2030 годы". Президент Азербайджана Ильхам Алиев на днях подписал распоряжение об утверждении «Плана действий по реализации Стратегии относительно детей на 2020-2025 годы». Согласно распоряжению, Государственному комитету Азербайджана по проблемам семьи, женщин и детей поручено скоординировать реализацию мер, предусмотренных в утвержденном настоящим распоряжением Плане действий; один раз в год информировать президента Азербайджана о ходе реализации мер, предусмотренных в Плане действий. Кабинету Министров поручено решить вопросы, вытекающие из распоряжения.

Первым направлением в данном плане является усовершенствование нормативно-правовой базы в сфере защиты детей и формирование институциональных механизмов в этой области с изучением международного опыта.

Речь, в частности, о повышении эффективности органов опеки и попечительства местных исполнительных властей, предотвращение насилия

в отношении детей. Также будет уделено особое внимание разработке требований к качеству услуг в государственных и негосударственных детских учреждениях, реабилитации и интеграции безнадзорных детей и детей из социально уязвимых семей в общество и т.д. Кроме того, будет разработан рабочий механизм по выявлению детей, находящихся в тяжелых жизненных условиях. По этим направлениям Государственный комитет по проблемам семьи, женщин и детей планирует подготовить проект Детского кодекса [3].

Ответственным за реализацию детской политики в стране является Государственный Комитет по делам семьи, женщин и детей. Тем не менее, целый ряд организаций реализуют важные проекты в этой области. На сегодняшний день самым большим защитником детей в Азербайджане является президент Фонда Гейдара Алиева, вице-президент Азербайджанской Республики – Мехрибан Алиева. Именно под ее руководством строятся детские сады, детские реабилитационные центры и лечебные учреждения.

27 декабря 2022 года были приняты поправки к целому ряду законов Азербайджанской Республики, в том числе и к Уголовному Кодексу, разработанные в связи с исполнением закона от 22-го октября 2019-го года о ратификации конвенции Совета Европы «О защите детей от сексуальной эксплуатации и сексуальных злоупотреблений», и предусматривают введение в национальное законодательство упреждающих мер, оказания помощи жертвам указанных деяний и выполнение обязательств, вытекающих из материальных уголовно-правовых норм. Эти изменения отражают требования, предъявляемые к лицам, работающим с детьми, а также применение уголовного права в отношении юридических лиц, лишение родительских прав, определение круга несовершеннолетних и вопросы, связанные с защитой детей. Вдобавок, в документе содержатся положения о формах и правилах оказания правовой помощи жертвам сексуального насилия, об изучении таких случаев и о проведении соответствующей просветительской работы.

Достижение физического и психического развития детей является одним из главных вызовов современной эпохи. Дети – это украшение общества и семьи. Методы воспитания и обучения, которые применяются к ним, оказывают влияние на их развитие, движения и мышление, обеспечивая формирование их личности. В некоторых случаях детям не оказывается должного отношения, что приводит к различным негативным последствиям. Применение насилия в отношении детей препятствует их нормальному развитию. В наше время часто встречается домашнее насилие, которое имеет различные причины. Но ни одна из них не оправдывает применение насилия и не должна нарушать права детей. В целом, почти все случаи нарушения прав ребенка рассматриваются как насилие.

В соответствии с Конвенцией о правах ребенка ООН, у ребенка есть право на достойный уровень жизни, необходимый для выживания и нормального развития, право на свободное выражение своих мнений, право на образование и защиту от различных форм насилия. Однако существуют семьи и различные общественные структуры, которые нарушают права детей, не обращая на них внимания и создавая преграды для их развития.

Физическое, психологическое и сексуальное насилие различаются друг от друга и связаны с семейными отношениями. В первую очередь, должно быть обращено внимание на методы воспитания в семье, окружение, в котором растет ребенок, и тип семьи. Если семья относится к авторитарному типу, то здесь чаще встречается насилие, особенно психологическое и физическое.

Родители пытаются оказывать воздействие на ребенка словами, при этом используют вульгарные выражения, что уже является психологическим давлением. Но дело не ограничивается только этим – также проявляются физические наказания. Это вызывает серьезные изменения в поведении и отношениях ребенка с окружающими, особенно с друзьями. Такие ситуации могут возникать и в школе. Наблюдения показывают, что избиение или унижение ребенка со стороны его друзей влечет за собой физическое и психологическое воздействие на него. Эта ситуация потрясает ребенка, заставляет его чувствовать себя изолированным в обществе и создает большую пустоту в его жизни. Часто такие психологические проблемы усугубляются и, в худших случаях, могут привести к суициду. Поэтому важно обратить внимание также на школьное окружение.

Преступления против несовершеннолетних в Азербайджане охватывают различные аспекты, включая:

1. Детское насилие: Это включает в себя физическое и эмоциональное насилие над детьми, как в семейной среде, так и в обществе. Законодательство направлено на предотвращение и

наказание детского насилия, а также на создание средств защиты и поддержки для жертв.

2. Детские сексуальные преступления: Сексуальное насилие и эксплуатация детей остаются серьезной проблемой. Законодательство в этой области строго регулирует сексуальные преступления против несовершеннолетних и предусматривает наказания для виновных лиц.

3. Торговля детьми: Торговля детьми включает в себя нелегальный оборот детей, их эксплуатацию и использование в различных целях. Здесь также принимаются строгие меры для предотвращения и борьбы с этим видом преступлений.

4. Детская дискриминация: Детская дискриминация означает недопустимое отношение к детям на основе их пола, национальности, инвалидности и других характеристик. Законодательные и политические меры предназначены для предотвращения детской дискриминации и обеспечения равенства прав детей.

5. Насилие в образовательных учреждениях: Насилие в школах и других учебных заведениях подвергает опасности физическое и психологическое благополучие учащихся. В Азербайджане принимаются меры для обеспечения безопасности в образовательных учреждениях.

Профилактика преступлений против детей включает в себя проведение образовательных программ, информационных кампаний и сотрудничество с организациями, работающими в сфере защиты несовершеннолетних.

Следует отметить, что Прокуратура Азербайджанской Республики всегда с особым вниманием относилась к проблемам защиты и обеспечения прав и свобод несовершеннолетних. Так в Научно-Учебном Центре Генеральной Прокуратуры периодически проводятся курсы повышения квалификации и преодоления проблем, возникающих на практике для сотрудников правоохранительных органов. В качестве примера можно привести образовательный курс для сотрудников органов прокуратуры и МВД по теме «Принцип приоритета защиты прав ребенка при осуществлении уголовного преследования». В программу курса были включены лекции на тему «Биологические и социальные факторы, влияющие на совершение преступлений несовершеннолетними», «Особенности уголовной ответственности в отношении несовершеннолетних, процессуальные гарантии защиты их прав в уголовном процессе», «Судебная практика по делам о преступлениях несовершеннолетних, вопросы применения наказаний и мер воспитательного характера», «Европейское правосудие в вопросах защиты прав несовершеннолетних» и «Предотвращение суицидального поведения у несовершеннолетних». К указанным выше учениям, помимо опытных сотрудников Генеральной прокуратуры, в качестве преподавателей были привлечены ответственные сотрудники полицейской академии МВД, Управления общественной безопасности Главного управления полиции города Баку, Государственного комитета по проблемам семьи, женщин и детей, а также общественного объединения помощи женщинам "Чистый мир".

Распоряжением Президента Республики от 10 июня 2020 года была реорганизована структура Генеральной Прокуратуры и в ходе реорганизации было создано 4 совершенно новых подразделений, одно из которых Управление вне-уголовного производства. При этом одним из основных направлений деятельности этого Управления - координация деятельности прокуратуры в области защиты интересов несовершеннолетних по вне-уголовным делам.

В связи с расширением деятельности прокуратуры в сфере вне-уголовного производства, в соответствии с поручениями, данными Президентом Республики, прокуратура начала более активно действовать в гражданско-процессуальном порядке. Так в целях защиты прав несовершеннолетних в районных и городских судах прокуратура стала предъявлять гражданские иски об ограничении родительских прав лиц, угрожающих жизни детей, что на практике не применялось уже около 20 лет.

Гражданские иски, поднятые в судах с целью защиты детей, находящихся в социальной опасности, руководствуясь значимостью принципа верховенства закона и состязательности, по мере выдвижения прокуратурой и оценивания судами правовых и материальных доказательств, формируют в этой сфере положительную судебную практику. Кстати, сложившаяся эта прогрессивная практика также целесообразна для распространения и применения между другими районными и городскими судами республики. Дети, находившиеся под социальной угрозой, по поводу которых были поданы гражданские иски, были немедленно помещены в приюты, а угрозы их жизням были устранены. Кроме того, непрерывно принимаются меры в отношении СМИ, которые не объективно освещали те или иные нарушения прав и свобод вышеуказанных лиц. Для обращений в связи с подобными правонарушениями была выделена специальная «Горячая Линия» [4].

Следует отметить, что далеко не всегда получаемая правоохранительными органами информация о насилии в отношении несовершеннолетних соответствует действительности и, не всегда нужно, прибегая к крайней мере, лишать людей родительских прав. Поэтому эти проблемы решаются другими средствами. Проще говоря, даже если несовершеннолетний и не подвергается насилию, но находится в социальной опасности, принимая в отношении них адекватные меры, они размещаются в различные приюты [5].

Оказание помощи жертвам также находит приоритетное место в деле защиты детей. Различные организации предоставляют консультации, психологическую поддержку и юридическую помощь жертвам преступлений против детей.

Несмотря на действующие законы и меры, Азербайджанская Республика сталкивается с несколькими вызовами в области защиты несовершеннолетних. У детей, подвергшихся насилию, возникают серьезные проблемы. Реакция ребенка на насилие зависит от его возраста и развития. Насилие может повлиять на ребенка и иным способом. Это означает, что некоторые проблемы могут проявиться в настоящее время, в то время как другие проявятся позже. Например, у детей могут возникнуть агрессивные наклонности как к самим себе, так и к другим, развивается недостаток уверенности в себе. Если ребенок подвергается физическому насилию дома, он может проявлять подобное отношение и к своим одноклассникам, проявлять наклонность к удару и избиению. В этой связи недостаток осведомленности в обществе, недостаточное финансирование программ по защите детей и несоблюдение законодательства остаются актуальными проблемами.

С целью снижения числа детей, подвергающихся насилию, в обществе необходимо проводить множество мероприятий, включая постоянную психопрофилактику и образовательные меры, что приведет к положительным результатам. Организация просветительских семинаров как в школах, так и в других центрах развития детей, проведение бесед с детьми и их родителями, а также демонстрация различных форм насилия с использованием видеоматериалов – это шаги в направлении образования и профилактики. Эти меры способствуют предотвращению насилия и давления на детей и приводят к положительным результатам.

Однако существуют перспективы для улучшения ситуации. Помимо повышения осведомленности, это еще и сотрудничество с международными организациями и долгосрочные усилия по реализации национальных стратегий, которые могут привести к более эффективной защите несовершеннолетних в Азербайджане.

Защита прав и интересов несовершеннолетних остается одним из важных аспектов общественной политики в Азербайджанской Республике. Дети-инвалиды, беспризорные дети, насилие в отношении детей, запрет ранних браков, детская смертность, существующие проблемы в дошкольном образовании и других областях – проблемы не только Азербайджана, но всего человечества. Все страны должны работать вместе, чтобы побороть эти проблемы. Необходимо продолжать укреплять законодательство, проводить профилактическую работу и предоставлять помощь жертвам, чтобы обеспечить безопасную и благополучную среду для детей и подростков. Внимание к этой проблеме и совместные усилия со стороны общества и государства играют важную роль в решении вызовов, связанных с преступлениями против несовершеннолетних в Азербайджане.

**Источники:**


1. Конвенция о правах ребенка / Принята резолюцией 44/25 Генеральной Ассамблеи от 20 ноября 1989 года. Электронный ресурс: https://www.un.org/ru/documents/decl_conv/conventions/childcon.shtml (дата последнего посещения 30.10.2023)
2. Закон Азербайджанской Республики «О правах ребенка» от 19 мая 1998 года за номером N 499-1Г
3. “Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası” Электронный ресурс: https://e-qanun.az/framework/45086 (дата последнего посещения 31.10.2023)
4. Правовой статус прокурора в Азербайджанской Республике / Издание Научно-Учебного Центра Генеральной Прокуратуры Азербайджанской Республики. Баку, 2023 г, с. 83
5. Musayev E.N. Hüquqi islahatlar prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşməsinə xidmət edir («Правовые реформы служат улучшению работы прокуратуры») // Xalq qəzeti. 22.11.2021. Электронный ресурс: https://xalqqazeti.com/az/news/85678 (дата последнего посещения 31.10.2023)



**Нигяр Аскерова**
**Старший прокурор Отдела стратегического планирования и определения рисков Научно-Учебного Центра Генеральной Прокуратуры Азербайджанской Республики**

# Müasir Azərbaycan Prokurorluğunun memarı – Heydər Əliyev




1918-ci il 28 may tarixində qəbul edilmiş "İstiqlal Bəyannaməsi" ilə müstəqilliyini rəsmi elan edərək Şərqdə ilk demokratik respublikanın əsasını qoymuş Azərbaycan Xalq Cümhuriyyətinin qarşıya qoyduğu məqsədlərdən biri insan hüquq və azadlıqlarına əsaslanan, milli tələblərə və demokratik prinsiplərə cavab verən qanunvericilik, icra və məhkəmə hakimiyyəti fonunda milli dövlət təsisatlarının yaradılması olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 1 oktyabr tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində təsis olunmuş Azərbaycan Prokurorluğu Azərbaycan xalqının öz müstəqilliyi uğrunda apardığı mübarizədə müstəsna rola sahib olmuşdur. Mövcudluğu 23 ay çəkmiş Azərbaycan Xalq Cümhuriyyətinin süquta uğraması ilə öz fəaliyyətini dayandırmış milli prokurorluq orqanları müstəqil dövlətin təsisatı kimi həmin dövrlərdə millət və dövlətçilik ideyalarına sədaqət nümayiş etdirməklə misilsiz xidmətlər göstərmişdir.

Aydındır ki, bir xalqın böyüklüyü onun sayca çoxluğu ilə deyil, onun bəşər dünyasına bəxş etdiyi müdrik şəxsiyyətlər, yaradıcı ziyalılar ilə müqayisə olunur. Bəşəriyyətin örnək nümunələrindən birinə çevrilmiş milli liderimiz Heydər Əliyev Azərbaycan xalqının XX əsrdə etibarlı təminatçısı olmaqla, xalqımızın özünü təsdiqi, özünü idarəetməsi, tərəqqisi naminə müqayisə olunmaz irs qoyub getmişdir.

Firavan həyatımızın əbədi qarantı olan Heydər Əliyevin respublikamıza birinci dəfə rəhbərlik etdiyi 1969–1982-ci illər Azərbaycanın intibahı, tariximizin qızıl dövrü kimi yaddaşlarda iz buraxmışdır. Məhz həmin dövrdə onun məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində Azərbaycan keçmiş SSRİ-nin ən inkişaf etmiş, qüdrətli respublikalarından birinə çevrilmiş, iqtisadi, mədəni və digər sahələr üzrə sürətli inkişaf təmin etməklə gələcək müstəqilliyimiz üçün möhkəm təməl qoyulmuşdur.

Azərbaycan dövlət müstəqilliyinin bərpa edilməsinin rəsmi tarixi 1991-ci ilin 18 oktyabrından başlasa da, həmin dönəmlər cəmiyyətimizdə qanunçuluğun əsaslarının ciddi şəkildə zəifləməsi, hakimiyyətsizlik, siyasi hərc-mərclik, cinayətkarlığın səviyyəsinin ən yüksək həddə çatması, insan hüquqlarının kütləvi şəkildə pozulması, hakimiyyət uğrunda gedən gərgin mübarizə, iqtisadi böhranın hökm sürməsi ilə xatırlanır. Belə bir şəraitdə prokurorluq orqanları, eləcə də digər hüquq mühafizə orqanları qanun çərçivəsində üzərilərinə düşən vəzifələri həyata keçirməkdə böyük çətinliklərlə üzləşmiş, böyük vüsət alan cinayətkarlığın, insanların hüquq və azadlıqlarının kütləvi şəkildə pozulması hallarının qarşısını almaqda aciz olmuşdur.

15 iyun 1993-cü il tarixdə xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyət kürsüsünə qayıdışı "xilasedici qayıdış" kimi dövlətimizin tarixinə düşmüş və həmin gün "Azərbaycan xalqının Milli Qurtuluş Günü" kimi hər il təntənə ilə qeyd edilməyə başlanmışdır.

Milli öndərimiz Heydər Əliyevin iradəsi, iti zəkası, böyük dövlətçilik təcrübəsi, siyasi uzaqgörənliyi ilə müstəqilliyimizin qorunmasına, dövlətçiliyimizin möhkəmləndirilməsinə, müasir və döyüş qabiliyyətli Milli Ordunun təşkili və gücləndirilməsinə, Azərbaycanın dünya birliyinə və Avropa ailəsinə inteqrasiyasına, dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasına, ölkənin neft-qaz sənayesinin dirçəlməsinə, habelə dünya dövlətləri arasında Azərbaycan Respublikasının müstəqil və etibarlı tərəfdaş kimi tanınması ilə nəticələnən "Əsrin müqaviləsi"nin imzalanmasına nail olunmuşdur. Ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallar sahibi olan Heydər Əliyev Azərbaycan dövlətçiliyinə xidmət edərək azərbaycançılıq ideologiyasını milli ideologiya səviyyəsinə qaldırmış, Azərbaycanı milli müstəqilliyə qovuşduran xalq hərəkatının və sonralar isə Milli Azadlıq Hərəkatının əsl lideri olmuşdur. Görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycana xilasedici qayıdışı xalqın həmişə ürəyində yaşatdığı və həsrətində olduğu müstəqilliyə faktiki olaraq qovuşmasının əsl səbəbkarı olmuşdur.

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə çoxəsrlik dövlətçilik ənənələrimizi, Azərbaycanın ümumbəşəri ideya və dəyərlərini özündə ehtiva edən 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi ilə hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsası qoyulmuş, əsas Qanunda ilk dəfə olaraq Respublikamızın dövlət quruluşu sistemində prokurorluğun layiqli yeri müəy-

yənləşdirilmiş, məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edilərək prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilmişdir.

Milli prokurorluq orqanlarının tarixinin 1918-ci ildən başlanmasına baxmayaraq, ilk dəfə xalqımızın Ümummilli Lideri Heydər Əliyev prokurorluq işçilərinin peşə bayramı gününün təsis edilməsi ilə bağlı təşəbbüs göstərmiş və onun 17 iyul 1998-ci il tarixli sərəncamına əsasən hər il oktyabrın 1-i Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü olaraq müəyyən edilmişdir. Respublikamızın prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş 28 noyabr 1998-ci il tarixli təntənəli yığıncaqda milli fəxrimiz Heydər Əliyev çıxışında Azərbaycanda cinayətkar dəstələr tərəfindən güclə, silah yolu ilə dövlət çevrilişlərinə cəhdlərin qarşısının alınmasında və bunun nəticəsində cinayətkarların yaxalanmasında, edilmiş cinayətlərin açılmasında, cinayətkarların qanun əsasında məsuliyyətə cəlb olunmasında, beləliklə də cinayətkarlığın qarşısının alınmasında prokurorluğun xidmətlərinin böyük olduğunu, müstəqil Azərbaycanın



prokurorluğu və prokurorluq orqanlarının əməkdaşlarının peşə bayramına layiq olduğunu bildirmişdir.

Müstəqil Azərbaycan Respublikasının varisi Heydər Əliyevin 26 aprel 2000-ci il tarixdə Respublika prokurorluq orqanlarının rəhbər işçiləri ilə keçirdiyi görüş Azərbaycan prokurorluğunda demokratik, hüquqi dövlət quruculuğunun müasir tələblərinə cavab verən köklü islahatlara başlanmasının əsasını qoymuşdur. Prokurorluğun həyatında müstəsna rol oynamış bu tarixi müşavirədə dövlət başçısının verdiyi tövsiyə və göstərişlər əsasında həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan Prokurorluğu hazırlanmış hüquqi baza əsasında struktur və mahiyyət baxımından tamamilə yenidən qurulmuş və öz xalqının, müstəqil dövlətçiliyin maraqlarına xidmət edən, səlahiyyətləri beynəlxalq standartlara uyğun və müasir tələblərə cavab verən konstitusion statuslu tam təsisatlı bir dövlət qurumuna çevrilmişdir.

Möhtərəm Prezidentimizin dəyərli tövsiyələri və hərtərəfli dəstəyi ilə Azərbaycan Prokurorluğunda, o cümlədən Hərbi Prokurorluqda həyata keçirilən islahatlar bu orqanın demokratik məzmunda yenilənməsi, prokurorluğun yüksək mənəvi keyfiyyətlərə və dərin bilik və dünyagörüşünə malik, dövlətçilik prinsiplərinə sadiq gənc hüquqşünaslardan ibarət kadr korpusunun formalaşdırılması, prokurorluğun maddi-texniki təminatının daha da möhkəmləndirilməsi məqsədilə maddi və sosial bazanın yaradılması ilə nəticələnmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasına 2002-ci il avqust ayının 24-də keçirilən referendumla edilən dəyişikliklərlə prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmiş və müasir Prokurorluğun hüquqyaratma fəaliyyətində səlahiyyətli subyekt kimi iştirak edərək normativ-hüquqi aktların layihəsinin hüquqyaradıcı orqanın müzakirəsinə çıxarmasına, normativ akt yaratmaq təklifinin, habelə akt layihəsi hazırlanmasına şərait yaradılmışdır.

Hakimiyyətdə olduğu bütün dövrlərdə prokurorluğa böyük dəstək, yüksək diqqət və xüsusi qayğı göstərən Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə prokurorluğun fəaliyyətinin hüquqi əsasını təşkil edən normativ aktlar, o cümlədən «Prokurorluq haqqında», «Prokurorluq orqanlarında qulluq keçmə haqqında», «Prokurorluğun rəsmi emblemi haqqında», «Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında» qanunlar qəbul olunmuş və «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi qaydaları haqqında» Əsasnamə onun sərəncamı ilə təsdiq edilmişdir.

"Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram" deyən Ulu Öndər Heydər Əliyev prokurorluq orqanlarının müasir dövrün tələblərinə cavab verən dövlət orqanı səviyyəsinə uyğun təkmilləşdirilməsi və normal fəaliyyəti üçün zəruri təminatlar sistemi yaradılması istiqamətində məqsədyönlü işlər görülməsini təmin etmişdir.

Azərbaycan Demokratik Respublikasının mövcudluğu zamanı, həmçinin ölkəmizin SSRİ-nin tərkibində olduğu dövrdə milli prokurorluq orqanlarının tam formalaşması, cəmiyyətdə və dövlətdə öz layiqli yerini tuta bilməsi, qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısı olması üçün real imkanlar olmamışdır. Lakin ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının Prokurorluğu qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin

olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edən orqana çevrilməklə sivil və demokratik inkişaf yolu keçmişdir.

Yalnız Ümummilli Liderimiz Heydər Əliyevin xalqın israrlı tələbi ilə siyasi hakimiyyətə xilasedici qayıdışından sonra həyata keçirilən təxirəsalınmaz və qətiyyətli tədbirlər sayəsində ölkəmizdə özbaşınalığa, siyasi hakimiyyətsizliyə birdəfəlik son qoyulmuş, dövlət çevriliş cəhdləri, vətəndaş müharibəsi və separatizm təhlükəsi aradan qaldırılaraq, cinayətkarlığa qarşı barışmaz mübarizə elan edilməklə dayanıqlı ictimai-siyasi sabitlik əldə edilmiş və demokratik hüquqi dövlət quruculuğu prosesinə başlanılmışdır. Həmin illərdə respublikamızda Ümummilli Lider Heydər Əliyev dövlətimizin suverenliyinə və müstəqilliyinə qarşı ağır cinayətlər törədən şəxslərin müəyyən olunub məsuliyyətə cəlb edilməsi ilə bağlı prokurorluq orqanlarına arxalanaraq onların üzərinə əsaslı vəzifələr qoymuşdur.

Ümummilli Lider Heydər Əliyev bütün fəaliyyəti dönəmində hüquq-mühafizə orqanları, o cümlədən prokurorluq orqanları vasitəsilə dönməz ictimai-siyasi sabitlik və tam əmin-amanlıq əldə edilməklə qanunun aliliyinə hərtərəfli təminatlar verən vətəndaş cəmiyyəti formalaşdırılmasına çalışmış, çıxışlarında hər bir kəsin vəzifəsindən, səlahiyyətindən, cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq qanunun müəyyənləşdirdiyi norma və tələblərə əməl etməli, özünü qanundan yüksəkdə tutmamalı olduğunu vurğulamışdır. Məhz bu gün prokurorluq orqanları qanunun aliliyini böyük bir şücaətlə qoruyan Azərbaycan dövlətçiliyinin etibarlı və sarsılmaz sütunlarından biridir.

Azərbaycan prokurorluğu orqanlarına dövlət səviyyəsində göstərilən etimad və diqqət Heydər Əliyev siyasi-fəlsəfi yolunun ən layiqli davamçısı olan Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilərək prokurorluq orqanlarının fəaliyyəti daha da müasirləş dirilmiş, təkmilləşdirilmiş, hüquq sisteminin inkişafında prokurorluğun rolu artırılmış, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları, habelə xarici dövlətlərlə qarşılıqlı fəaliyyəti və beynəlxalq əlaqələri genişləndirilmiş, prokurorluğun işinin təmini məqsədilə mərkəzləşdirilmiş informasiya-kommunikasiya sistemi yaradılmış, bununla yanaşı prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün tədbirlər görülmüşdür.

Ulu Öndərin haqq-ədalət uğrunda qətiyyətli mübarizəsini onun layiqli siyasi varisi Prezidentimiz cənab İlham Əliyev tərəfindən davam etdirmişdir. Belə ki, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun müqayisə olunmaz şücaəti sayəsində Ümummilli Liderin ən vacib vəsiyyəti yerinə yetirilərək, 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüz bərpa edilmiş və tarixi zəfərimizə imza atılmışdır. II Qarabağ müharibəsi başlanan vaxtdan prokurorluq orqanları əlaqəli dövlət orqanları ilə birgə fəaliyyət göstərərək Ermənistanın beynəlxalq humanitar hüquq normalarını pozmaqla törətdikləri hər bir cinayət əməli üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanmış, Ermənistanın törətdiyi cinayətlərə görə beynəlxalq məsuliyyətə cəlb olunması üçün beynəlxalq məhkəmələrə müraciət etmişdir. Seçdikləri peşəyə dərindən bağlanmaları, öz işlərinə məsuliyyətlə yanaşmalarına görə prokurorluq əməkdaşları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilərək müxtəlif dövlət təltiflərinə layiq görmüşdür.



Bu gün bir azərbaycanlı kimi hər birimizin vəzifəsi Azərbaycanın haqq səsini bütün dünyaya çatdırmış, dövlət müstəqilliyimizin sarsılmazlığı, dönməzliyi və əbədiliyi üçün misilsiz xidmət göstərmiş, həm müasirləri olan bizlər üçün, həm də növbəti nəsillər üçün örnək bir məktəb olmuş milli fəxrimiz Heydər Əliyevin onilliklər boyunca öz xalqı, vətəni yolunda gördüyü nəhəng işlərin bütöv mənzərəsini göz önünə gətirərək xatirəsini yad etmək və onun bizə miras qoyub getdiyi müstəqil Azərbaycan dövlətini daha da inkişaf etdirməkdir.

**Sevinc Şıxəliyeva**
**Hacıqabul rayon prokurorluğunun müstəntiqi**

# Cinayət mühakiməsində blokçeyn texnologiyalarından mümkün istifadənin xüsusiyyətləri




Cinayət mühakiməsinin rəqəmsallaşması reallığa əsaslanmış qaçılmaz və mürəkkəb bir prosesdir. Cinayət prosesinə yeni texnologiyalardan istifadə edilməsi hüquq-mühafizə orqanlarına və məhkəmələrə müraciətlərin elektron formatda verilməsini, işin materiallarının rəqəmsal formata çevrilməsini, ibtidai istintaq zamanı videokonfrans rejiminin tətbiq edilməsini, məhkəmələr tərəfindən işlərin distant formada aparılmasını, məhkəmə iclasının audio-protokollarının aparılmasını, məhkəmə hərəkətlərinin avtomatlaşdırılması üçün süni zəkanın istifadə edilməsi və sair məsələlərini əhatə edir. Digər tərəfdən, cinayət mühakimə prosesinin rəqəmsallaşdırılmasının tədqiqatı və nəticələrini təcrübi və nəzəri baxımdan təhlil etmək – bu prosesdə lehinə və əleyhinə olan arqumentlərə aydınlıq gətirməyə imkan verir.

Cinayət mühakiməsinin rəqəmsallaşdırılmasına dair müsbət arqumentlər:

– internet vasitəsi ilə kommunikasiyaların günügündən artan etibarlılıq səviyyəsinin və şəbəkə kanallarının buraxılış gücünün artması "Elektron hökumət" (şəxsi kabinet) sisteminin inkişafına, proses iştirakçısının müasir biometrik eyniləşdirmə texnologiyalarından istifadəsinə münbit şərait yaradır;

– həm ibtidai araşdırma, həm də məhkəmə istintaqı mərhələsində cinayət təqibinin keyfiyyətinin artmasına xidmət edir;

– vətəndaşlar (xüsusən də, imkanları məhdud olan şəxslər) üçün ədalətin daha da əlçatan olmasını təmin edir, hüquqlarının müdafiəsini asanlaşdırır;

– vaxt, insan və maliyyə resurslarına qənaət edir;

– hüquq-mühafizə orqanlarının və məhkəmələrin texniki təchizat səviyyəsini artırır;

– məhkəmə prosesinin şəffaflığını təmin etmək imkanını genişləndirir və sair.

Cinayət mühakiməsinin rəqəmsallaşdırılmasına təsir edən mənfi amillər:

– cəmiyyətin məhkəmə sistemi ilə ənənəvi qarşılıqlı əlaqə formalarından imtina etməyə hazır olmaması;

– qanunvericiliklə istintaqın bütün mərhələlərində tam elektron formada ədalət mühakiməsini həyata keçirməyə imkan verən vahid sistemin olmaması;

– şəxsi və ibtidai istintaq məlumatlarının sızma riski;

– distant formatda məhkəmə prosesinin keçirilməsində bilavasitəlik və şifahilik prinsipinə riayət etməkdə yaranan çətinlik və sair.

Cinayət prosesinin rəqəmsallaşdırılması prosesinin əsasını təşkil etməli olan əsas amil – hər hansı yeni texnologiyanın istifadəsinin mütləq şəkildə insan nəzarəti altında tətbiq olunmasıdır.

Cinayət prosesinin hər hansı bir iştirakçısı tərəfindən adi imza əvəzinə prosessual sənədin rəqəmsal üsullarla təsdiq edilmə texnologiyalarının cinayət prosesində tətbiq edilməsi bir sıra prosessual hərəkətləri onlayn şəkildə həyata keçirməyə imkan verəcəkdir. Bu isə, iştirakçıların hüquq və qanuni mənafelərinin təmin edilməsi üçün geniş imkanlar yaradır. Bu sahədə bir sıra ölkələrin müsbət təcrübəsini qeyd etmək olar.

Məsələn, tarixdə ilk dəfə 2018-ci ildə Böyük Britaniyada Birləşmiş Krallıq Ədliyyə Nazirliyinin sifarişi ilə hazırlanmış xüsusi "qapalı" şəbəkə vasitəsi ilə "rəqəmsal ədalət" sistemi çərçivəsində hakim, iddiaçı və cavabdehin nümayəndəsinin bir-biri ilə ünsiyyət qurduğu tam virtual məhkəmə prosesi keçirilmişdir.

2011–2012-ci illərdə Qazaxıstanda cinayətlərlə bağlı bütün ərizə və məlumatların elektron qeydiyyatı tətbiq edilib. 2015-ci ildən bəri məhkəmə öncəsi araşdırmaların vahid reyestri (ERDR) işləməyə başlamışdır. Bu gün qeydiyyat cinayət prosesinin başlanğıcıdır. Prokurorluq "e-cinayət işi" pilot layihəsi Astanada və Qaraqanda vilayətində Dövlət Gəlirləri Komitəsinin xətti ilə işə salınıb. Eyni zamanda, yeni sistemlərin informasiya təhlükəsizliyinə xüsusi diqqət yetirilir.

Gürcüstanın hüquq-mühafizə islahatlarının uğurlu təcrübəsi də onların 2011-ci ildə cinayət işinin elektron formatına keçməsi ilə bağlı olub. Eyni zamanda Cənubi Koreya, Sinqapur, Estoniya və digər ölkələr bu sahədə əhəmiyyətli nəticələr əldə etmişlər.

Zərərçəkmiş tərəfə internet üzərindən onlayn olaraq elektron ərizə təqdim etməkdən başlayaraq cinayət işinin hərəkətini izləmək imkanı vermək cinayət prosesində informasiya texnologiyalarının inkişafı üçün vacib bir istiqamətdir. Lakin burada istintaq sirrinin qorunub saxlanılmasını da unutmaq olmaz.

Hazırda cinayət prosesi çərçivəsində ərizəçi tərəfindən hüquq-mühafizə orqanlarından cinayət işinin hərəkəti barədə real vaxt rejimində məlumatın əldə edilməsi mümkün deyil. Lakin, müvafiq proqramdan istifadə edərək qəbul edilmiş qərarlar, materialların müstəntiqə verilməsi, istintaqın vaxtı və digər prosessual məqamlar barədə məlumatlar sistemə daxil edilən zamandan aidiyyəti şəxslər onları əldə edə bilərlər. Məsələn, zərərçəkənə cinayət işinin materialları ilə internet vasitəsilə tanış olmaq imkanı da verilməsi – bu baxımdan mütərəqqi bir hal kimi qəbul oluna bilər.

Cinayət işinin materialları ilə cari rejimdə tanış olmaq imkanı, vaxtında cavab verməyə, iştirak etməyə və qəbul edilmiş qərarlar, müddətlər, vəzifəli şəxslər və işlə əlaqəli digər şəxslər haqqında məlumat almaq imkanı verən vacib bir zəmanətdir. Məlumatlandırma avtomatik rejimdə SMS bildirişləri, e-poçt və sair vasitəsilə ola bilər.

Bundan əlavə, rəqəmsal cinayət prosesi sistemi cinayət prosesinin istənilən iştirakçısına sənədləri müstəqil şəkildə elektron formada əlavə etməyə imkan verməlidir.

Müdafiə tərəfi üçün müəyyən dərəcədə vəkil istintaqını həyata keçirmək üçün bu bir fürsətdir, çünki iş üzrə sübut toplamaq və onu rəqəmsal materiallara əlavə etmək üçün əlavə imkanlar açılacaqdır. Bu proses araşdırma aparan şəxsin istəyindən asılı olmayaraq, yəni müstəqil olaraq baş verməlidir. Araşdırma aparan şəxs bu barədə yalnız bildiriş almalıdır.



**Türkiyə Respublikasının təcrübəsi**

Bu məsələyə bir qədər fərqli yanaşmalar da mövcuddur. Məsələn, ötən ildə Türkiyədə fəaliyyət göstərən, milli məhkəmə və ədliyyə informasiya sistemi olan UYAP (Ulusal Yargı Ağı Bilişim Sistemi) vasitəsilə vəkillər istintaq materiallarında olan sənədlərlə tanış olmaq imkanı əldə ediblər. Ədliyyə Nazirliyi hüquqşünasların UYAP-da baxa biləcəyi məlumat və sənədlərin əhatə dairəsinin genişləndirilməsi istiqamətində iş aparıb. Araşdırmanın başa çatması ilə vəkillərə UYAP-dan istintaq fayllarında olan sənədlərlə tanış olmaq imkanı verilir.

Lakin UYAP çərçivəsində vəkilin cinayət işinin materialları ilə tanış olması yalnız prokurorun icazəsi ilə mümkün hesab edilir. Bununla da, prokurorlar bu sistemdə müəyyən dərəcədə moderator rolunu oynayaraq, aidiyyəti şəxslərin məlumatlara çıxışını tənzimləyirlər.

Ümumilikdə, UYAP Türkiyədə elektron hökumət layihəsinin bir hissəsi olan elektron ədalət sistemidir. Bu sistem, sürətli, etibarlı və dəqiq bir ədalət sistemini təmin etmək məqsədi ilə Ədliyyə Nazirliyinin İT Şöbəsi tərəfindən ən son texnologiyalardan və metodikalardan istifadə edilərək hazırlanmışdır. Mərkəzi bir məlumat sistemi olan UYAP bütün məhkəmə qurumlarını və digər dövlət orqanlarını əhatə edir. UYAP məhkəmə fəaliyyətini və effektivliyini artırmağa, maraqlı qurumlar və şəxslər üçün effektiv və az bürokratik bir məhkəmə sistemini yaratmağa yönəlmişdir. Hazırda bütün məhkəmə qurumları, bütün proseslər və əməliyyatlar elektron mühitə köçürüldüyündən, günlük həyatlarında İKT-dən istifadə edirlər. İndiyədək 307.950.276 elektron sənəd və 57.240.073 elektron fayl UYAP-da saxlanılmışdır. Bütün məhkəmə qurumlarında gündəlik olaraq sistemdə 1.000.000-dan çox yeni elektron sənəd işlənir.

UYAP, kağız əsaslı sistemdə əldə olunacaq idarəetmə və kommunikasiya xərclərini azaltmışdır. Məhkəmələrdə onlayn bağlantı və korrespondensiya aparılmaqla, bürokratiya və poçt xərclərinin qaldırılmasına nail olunmuşdur. Bütün məlumatlar digərləri arasında rəqəmsal şəkildə təqdim edilir və daxil edilir. Əvvəllər saatlar və günlərlə davam edən proseslər, statistika və korrespondensiya artıq UYAP vasitəsilə çox bir tez zamanda əldə oluna bilər. Hüquqşünaslar və vətəndaşlar öz elektron imzalarını istifadə edərək internet vasitəsilə bir çox hüquqi prosesləri yerinə yetirə bilərlər.

UYAP-da vətəndaşların ədliyyə orqanlarına daha sürətli çıxışı və ədliyyə xidmətlərindən maksimum yararlanması məqsədi ilə Vətəndaş Portalı hazırlanmışdır. Vətəndaşlar UYAP Vətəndaş Portalına internet vasitəsilə üç variantla qoşula bilərlər: “Elektron Hökumət” parolu, e-imza və ya mobil imza ilə. Bütün işlərinə dair məlumatları Türkiyə daxilində izləyə bilərlər. Elektron imzası və ya mobil imzası olmayan vətəndaşlar UYAP Vətəndaş Portalı vasitəsilə yalnız “Elektron Hökumət” parolundan istifadə edərək məhkəmənin əsas mərhələ məlumatlarını (işin mövzusu, məsrəfləri, tərəfləri, mərhələsi, məhkəmə baxışı tarixləri, fayllar) əldə edə bilərlər. UYAP çərçivəsində məhkəmə və inzibati məhkəmə vahidlərində baxılan iş materiallarını, Ali Məhkəmədən qayıdıb-qayıtmadığı və sair kimi məlumatları görə bilərlər.

Məlumat sistemi sayəsində vətəndaşlar fayllarında baş verən hadisələr barədə ən qısa zamanda məlumatlandırılır və fiziki mühitdə araşdırılan fayldakı bütün sənədlərin məzmununu və gedişat məlumatlarını ətraflı şəkildə araşdıra bilirlər. O cümlədən:

– qaldırdıqları məhkəmə iddiaları üzrə ödəniləcək rüsumları hesablaya bilərlər;

– məhkəmə orqanlarının telefon və faks nömrələrinə müraciət edə bilərlər;

– Ali Məhkəmədə və Dövlət Şurasında işlərinin vəziyyəti ilə maraqlana bilərlər.

**Qazaxıstan Respublikasının təcrübəsi**

Daha bir nümunə Qazaxıstanda “Rəqəmsal Qazaxıstan” platforması çərçivəsində tətbiq olunan “Elektron cinayət işi” moduludur. Həmin “Elektron cinayət işi” modulu aşağıdakı komponentləri özündə ehtiva edir:

– cinayətlərin qeydiyyata alınması;
– məhkəməyədək araşdırma;
– prokuror nəzarəti;
– idarədaxili nəzarət;
– məhkəmə baxışı;
– cəzaların icrası.

Müstəntiqlər üçün “Elektron cinayət işi” modulunun üstünlükləri:

– distant formada sanksiyalaşdırma (daxili işlər orqanlarının müvəqqəti saxlama yerlərinin məhkəmələrə qoşulması ilə şəxslərin MST-də saxlanılmasının qanuniliyi barədə vəsatətlərinə distant formada baxılması);

– mərkəzləşdirilmiş məlumat bazalarına çıxış;

– distant rejimdə ekspertiza və kriminalistik tədqiqatların tapşırılması;

– distant formada vəkillərin çağırılması (dövlət hesabına vəkil təyinatı).

Cinayət prosesi iştirakçılarının və vəkillərin ictimai sektoru üçün "Elektron cinayət işi" modulunun üstünlükləri:

– vəsatət və şikayətlərin elektron formatda təqdim edilməsi;

– internet üzərindən iş materiallarına çıxış;

– araşdırma prosesinin monitorinq imkanı;

– cinayət prosesi orqanları ilə təmasın istisna edilməsi.

Bundan əlavə, "Elektron cinayət işi" modulu prosessual müddətlərə qənaət edilməsi, insan hüquqlarını daha dolğun müdafiə etmək imkanlarını təqdim etməklə cinayət prosesi orqanları ilə təmasın minimallaşdırılmasına, habelə materialların saxtalaşdırılması və itirilməsi riskinin minimallaşdırılmasına xidmət edir.

Modulun üstünlükləri sırasında aktual hüquqi statistikanı operativ qaydada əldə etməsini və prokuror nəzarətinin daha sistemli olmaqla gücləndirilməsini qeyd etmək olar.




**Cinayət mühakiməsində blokçeynin istifadəsi**

Riyazi metodlardan və alqoritmləşdirmədən istifadə edərək cinayət prosesində hüquqi qərarlar qəbul etmək fikri yeni deyil və onun tərəfdarları kimi, həm də əleyhinə olanları da var. Cinayət prosesinin elektron (rəqəmsal) vasitələrindən istifadənin inkişafının ümumi kontekstində hər şey olduqca məntiqli görünür. Bununla bağlı cinayət işlərinin qeydiyyatı və saxlanılması üçün blokçeyn sisteminin yaradılmasını nümunə kimi göstərmək olar.

Blokçeyn texnologiyalarını cinayət mühakiməsində istifadə etməyin bir yolu, cinayətlərlə bağlı rəqəmsal sübutlar (məsələn, video, audio, şəkil və sənədlər) kimi məlumatları etibarlı bir şəkildə idarə etməkdir. Blokçeyn texnologiyaları, rəqəmsal sübutları yaratmaq, saxlamaq və yoxlamaq üçün paylanmış bir sistemdə istifadə edilir ki, bu da onları saxta, haker hücumu və məlumat itkisinə qarşı qoruyur. Blokçeyn texnologiyaları həmçinin araşdırma, istintaq və məhkəmə prosesinin şəffaflığını, eləcə də qanunlara və insan hüquqlarına riayət edilməsini təmin edə bilər.

Dünyanın bir neçə böyük ölkəsi son zamanlarda blokçeyndə qeyd edilmiş sübutların məhkəmələrdə qəbul edilməsi məsələsini həll etmişdir. Bu inkişaflar müxtəlif yollarla baş vermişdir. Bəzi ölkələr blokçeyn sübutlarının hüquqi tanınması xüsusi olaraq tənzimləmək üçün yeni qanunlar qəbul etmiş, digərləri isə mövcud qanunları dəyişdirmiş, bəzi ölkələr isə mövcud qanunlar altında tənzimlənmələrini açıqlayan bəyanatlar yaymışlar.

ABŞ-də federal hökumət blokçeyn sübutlarının məhkəmələrdə qəbul edilməsini tənzimləyən qanunvericiliyi qəbul etməmişdir. Buna görə, ştatlar öz qanunvericiliyini tətbiq etmək səlahiyyətinə malikdir. Federal Dəlillər Qaydası, ən yaxşı dəlil qaydası adlanan minimum tələbi müəyyənləşdirir ki, bu da məhkəmədə ən yaxşı dəlilin istifadə edilməsini tələb edir. İllinoys, Vermont, Virciniya, Vaşinqton, Arizona, Nyu-York və Oqayo kimi bir neçə ştat blokçeyn sübutlarının məhkəmələrdə qəbul edilməsini xüsusi olaraq tənzimləyən və ya təqdim edən qanunlar qəbul etmişdir.

Çində Ali Xalq Məhkəməsi blokçeyndə qeyd edilmiş sübutların məhkəmələrdə etibarlı sayıla biləcəyini açıqlayan bir bəyanat yayımlamışdır. Bu bəyanata görə, blokçeyn sübutları, mövcud qanunlar altında rəqəmsal sübutlar kimi tanınır və yoxlanır. Blokçeyn sübutlarının qəbul edilməsi üçün, onların saxta olmadığını, dəyişdirilmədiyini və silinmədiyini sübut etmək lazımdır. Çinin Hangzhou İnternet Məhkəməsi "Hangzhou Huatai Yimei culture Media Co Ltd. Shenzhen Daotong Technology Development Co-ya qarşı iş" üzrə 2018-ci ilin iyun ayında blokçeyndə qeydə alınan sübutları qəbul edən ilk məhkəmə olmuşdur.

Böyük Britaniya və İtaliya kimi, Avropa ölkələri də blokçeyn sübutlarının məhkəmələrdə qəbul edilməsi ilə bağlı qanunvericiliyi yeniləmiş və ya açıqlamışdır. Böyük Britaniya rəqəmsal sübutların qəbul edilməsi ilə bağlı mövcud qanunvericiliyini blokçeyn texnologiyasına uyğunlaşdırmışdır. Bu, blokçeyn sübutlarının məhkəmələrdə qəbul edilməsi üçün ən yaxşı dəlil qaydasının tətbiq edilməsini tələb edir. Bu qayda, məhkəmədə ən yaxşı dəlilin istifadə edilməsini nəzərdə tutur.

Böyük Britaniya blokçeyn sübutlarının qəbul edilməsi ilə bağlı həmçinin bəzi praktiki problemlərlə üzləşmişdir. Məsələn, blokçeyn sübutlarının məhkəmədə təqdim edilməsi, yoxlanılması və dəyərləndirilməsi üçün lazım olan texniki bilik və bacarıqların çatışmazlığı, blokçeyn sübutlarının saxta olub-olmadığını və ya dəyişdirilib-dəyişdirilmədiyini sübut etmək üçün lazım olan standartların və metodların olmaması, blokçeyn sübutlarının məhkəmədə qəbul edilməsi ilə bağlı beynəlxalq hüquqi uyğunluğun təmin edilməsi kimi məsələlərdir.

2018-ci ilin avqust ayında Böyük Britaniyanın məhkəmələr və tribunallar xidmətinin Rəqəmsal memarlıq və kibertəhlükəsizlik şöbəsi (HMCTS- The Digital Architecture and Cyber Security at Her Majesty's Courts and Tribunals Service) rəqəmsal sübutların təhlükəsiz

saxlanması üçün istifadə ediləcəyi bir pilot layihə üzrə planlarını açıqlamışdır. Bu planlardan biri məhkəmə proseslərini optimallaşdırmaq və məlumat əldə etməyi asanlaşdırmaq üçün kağız sənədlərdən istifadənin istisna edilməsidir. Bu sistem vasitəsilə rəqəmsal sübutların yaradılması, əldə edilməsi və dəyişdirilməsi yolları, habelə bu cür sübutların ortaya çıxmasına səbəb olacaq hadisənin diqqətlə araşdırılmasına imkan verən rəqəmsal qeydiyyat jurnalının aparılması nəzərdə tutulur. Layihənin tətbiqi sübutların saxlanması prosesinə sərf olunan xərcləri və vaxtı azaldacaq və eyni zamanda sübutların saxtalaşdırılmasının qarşısını alacaqdır.

İtaliyada da blokçeyn texnologiyasının rəqəmsal sübutlar üçün istifadə edilə biləcəyini və bu sübutların məhkəmələrdə qəbul edilə biləcəyini təsdiqləyən qanun qəbul etmişdir.

Azərbaycanda isə 2018-ci ilin oktyabr ayında Azərbaycan İnternet Forumu (AİF) ilə Ədliyyə Nazirliyi arasında nazirliyin səlahiyyət dairəsinə daxil olan bir neçə sistemdə blokçeyn texnologiyasının tətbiq edilməsi barədə müzakirələr aparılmışdır. Bu müzakirələr zamanı, blokçeyn texnologiyasının ədliyyə sisteminin effektivliyini artıracağı və rəqəmsal sübutların idarə edilməsində istifadə edilə biləcəyi bildirilmişdir. Hal-hazırda Azərbaycanda blokçeyn sübutlarının məhkəmələrdə qəbul edilməsi ilə bağlı xüsusi bir qanunvericilik yoxdur.

**Rəqəmsal (elektron) sübutların müdafiəsi sistemi**

Sübutların blokçeyndə qeydiyyat qaydası: bütün rəqəmsal sübutlar (fotoşəkil, video-audio yazı və sair) müvafiq qaydada kodlaşdırılaraq blokçeyndə qeydiyyata alınır. Bununla da hər bir sübutun sistemdə təkrarolunmaz, eyni zamanda onun həqiqiliyini təsdiq edən "rəqəmsal izi" yaradılır.

İstintaq hərəkətlərinin rəqəmsal şəkildə aparılması və bu prosesin şəffaflığının təmin edilməsi qaydası: hüquq-mühafizə orqanlarının rəqəmsal sübutlarının toplanılması və emalı ilə bağlı bütün hərəkət zənciri blokçeyndə qeydə alınır. Sistem rəqəmsal istintaqın şəffaflığını və kəsilməzliyini təmin etməklə, sübutlara kənardan hər hansı manipulyasiyaların edilməsinin qarşısını alır.

Sübutların təhlükəsiz saxlanması qaydası: kodlaşdırılmış rəqəmsal sübutlar mərkəzdən xaric olunmuş blokçeyn xəzinəsində (bazalarında) saxlanılır və istənilən qanunsuz müdaxilədən qorunur.

**Girişi nəzarətdə saxlayan smart müqavilələr (Smart Contract)**

Bu smart müqavilələrin istifadəsi yalnız icazəsi olan cinayət prosesi tərəflərinə və yalnız zəruri məlumatlarla tanış olmağa imkan verir. Smart müqavilə blokçeyn texnologiyası əsaslı kommersiya müqavilələrinin bağlanması üçün nəzərdə tutulan kompüter alqoritmidir.

Mövcud kriptovalyuta şəbəkələrində olduğu kimi iş prinsipi belədir ki, vəsaitin göndərilməsinin analoji imzalanma üsulundan istifadə edərək tərəflər ağıllı müqaviləni



imzalayırlar. Tərəflər imzaladıqdan sonra müqavilə qüvvəyə minir. Müqavilə öhdəliyinin avtomatlaşdırılmış icrasını təmin etmək üçün müqavilənin mövcudluğu üçün mühit yaranması tələb olunur. Belə ki, onun mövcud olması üçün müqavilənin maddələrinin yerinə yetirilməsini o tamamilə avtomatlaşdırmağa imkan verir. Bu isə o deməkdir ki, smart, ağıllı müqavilə yalnız mühitin daxilində ola bilər. Bu da icra edilən kodun (alqoritmin) smart müqavilə obyektinə maneəsiz girişi əldə etdiyi zaman mümkün olacaqdır.

İmzalanan müqavilənin mütləq şəkildə bütün şərtlərinin riyazi təsviri və icrasının aydın məntiqi olmalıdır. Bununla əlaqədar olaraq ilk smart müqavilələr ən sadə qarşılıqlı münasibətlərin formalaşması tapşırığı kimi olmalıdır. Məsələn smart müqavilə uzun müddətli kredit şərtlərinin yerinə yetirilməsini izləyə, təqib edə bilər. Analoji şəkildə cinayət prosesinin iştirakçıları smart müqavilədən yararlana bilərlər.

Beləliklə, ağıllı müqavilənin əsas prinsipi icrasının avtomatlaşdırması və insanlar arasında müqavilə icrasına etimadın təmin edilməsindən ibarət olur. Smart müqavilə əvvəlcədən verilmiş qaydalara uyğun blokçeyndə data məlumatlarını yeniləyə bilər. Məsələn rəqəmsal aktivləri bir iştirakçıdan digərinə keçirə bilər.

Ümumiyyətlə smart müqavilələr kriptoqrafiyaya əsaslanıb bizim ənənəvi adət etdiyimiz müqavilədən fərqli olaraq daha yaxşı təhlükəsizliyi təmin etməyə qadirdir. Britaniyanın "Economist" jurnalının fikrinə görə, smart müqavilələr blokçeyn texnologiyasının ən mühüm əlavəsi (application) olmaq perspektivinə malikdir.

2019-cu ilin noyabr ayında kripto aktivləri və ağıllı müqavilələrin hüquqi rejimi, bu ilin əvvəlində isə edilən məsləhətləşmələrdən sonra İngiltərənin yurisdiksiyası üzrə İşçi Qrupunun (UKJT – UK Jurisdiction Taskforce's) bəyanatının dərc edilməsi ilə quruldu.

Həmin bəyanatda deyilir ki, "prinsipcə, ağıllı müqavilə həm tərəflərin müqavilə öhdəliklərini müəyyən etmək üçün koddan istifadə edildiyi, həm də sadəcə mənası kənardan tapıla bilən bir razılaşma yaratmaq üçün adi və qurulmuş hüquqi prinsiplərdən istifadə edərək müəyyən edilə, şərh edilə və icra edilə bilər". Bəyanatda həm mərkəzləşdirilməmiş Muxtar təşkilatların (DAO's – Decentralized Autonomous Organizations) iştirak etdiyi müqavilələr, həm də daha az istifadə olunan ikitərəfli

ağıllı müqavilələr kimi, həm də birtərəfli ağıllı müqavilələrin qanunla tanındığı təsdiqlənir. Nəhayət, qanunun yazılı bir imza tələb etdiyi yerdə bu tələb xüsusi bir açarla yerinə yetirilə bilər. Praktiki baxımdan, məhkəmələrin təfsirinə gəldikdə, ağıllı müqavilələrə digər müqavilələr kimi baxılacağı, hakimlərin şərhlərini tərəflərin öhdəliklərinin xarakterinin nə olması ilə bağlı niyyətlərinə yönəldikləri aydın olur. Bununla belə, kompüter kodunu şərh etmək üçün ekspert sübutları tələb oluna bilər.

Bundan əlavə, blokçeyndə smart müqavilənin hazırlanması girişə nəzarət mexanizminin yaradılmasına köməklik edir. Bu isə administrator və ümumi profilin tərəflərinin sübutların emalı sahəsində hüquqlarının fərqləndirilməsi üçün lazımdır.

Sübutların məhv olunmasının və məxfiliyin pozulmasının qarşısının alınması üçün girişə nəzarət sisteminin dəqiqliyi cinayət mühakimə sistemində vacib əhəmiyyət kəsb edir. Bu səbəbdən blokçeyn sistemi özündə smart müqavilələrin müxtəlif imkanlarını ehtiva etməlidir.

Freymvörk üç mərhələdən ibarətdir: ilkin araşdırma, istintaq və məhkəmə mərhələsi. İlkin araşdırma mərhələsində hüquq-mühafizə orqanlarının müvafiq əməkdaşları rəqəmsal sübutların unikallığını təmin edən həş (Hash) şifrələrini blokçeynə yükləyə bilərlər. Növbəti mərhələdə müvafiq əməkdaşlar smart müqavilə üzərində əməliyyat aparmaq imkanlarını əldə edir. Sonuncu mərhələdə isə faktların yoxlanılmasını həyata keçirən şəxs sübutların dəyişikliyə uğramasını həş şifrəsini əvvəlki göstəricilərlə müqayisə yolu ilə yoxlaya bilər. Əlavə olaraq, ağıllı müqavilələrin istifadəsi aşağıda göstərilən istiqamətlərdə həyata keçirilə bilər.




**Müsahibə (dindirmə) və sorğu-sual üçün ağıllı müqavilələr**

Avtomatlaşdırılmış dindirmə planı. İstintaq başlandıqdan sonra şahidlər, şübhəli, təqsirləndirilən və digər aidiyyəti şəxslərlə dindirmələr təyin etmək üçün ağıllı müqavilə yaradılır. Smart müqavilə vasitəsilə hüquqi təmsilçilik tələblərini və hər hansı digər zəruri şərtlər nəzərdən keçirə bilər.

Videoyazılı müsahibə (dindirmə). Smart müqavilə ilə inteqrasiya olunmuş təhlükəsiz platforma vasitəsilə videoyazılı müsahibələr aparıla bilər. Belə olan halda dindirmənin videoyazısı blokçeyn reyestrində saxlanılır. Bununla da hər növ saxtakarlığın (vaxtın düzgün göstərilməsi və sair) qarşısı alınır.

Girişə nəzarət və məxfilik. Yalnız səlahiyyətli işçilərin, qanuni nümayəndələrin və maraqlı tərəflərin dindirmə fayllarına giriş əldə etməsini təmin etmək üçün giriş nəzarəti həyata keçirilə bilər.

Avtomatlaşdırılmış transkripsiya və təhlil. Audio yazıları mətnə çevirmə ağıllı müqavilə ilə inteqrasiya olunmuş avtomatlaşdırılmış transkripsiya xidmətləri vasitəsi ilə həyata keçirilə bilər. Bu halda hazırda geniş yayılmış ifadələrin təhlilinə və əsas məlumatları müəyyən etməyə kömək etmək üçün təbii dil emalı (natural language processing – NLP) alqoritmlərindən istifadə edilir.

Hüquq və vəzifələrin izah edilməsi üçün ağıllı müqavilələrin tətbiqi. Hüquq və vəzifələrin izah edilməsi smart müqavilənin şərti kimi göstərilməklə, dindirmə platformasının ayrıca modulu qismində (text və ya yazılmış audio bildiriş) və ya bilavasitə müstəntiq tərəfindən icra edilə bilər. Eyni zamanda, qanunvericilikdə nəzərdə tutulmuş bəzi məsələlərdə dindirilən şəxslərin razılığının qeyd edilməsi xüsusi əhəmiyyət kəsb edə bilər (misal üçün yaxın qohumlar barəsində ifadələrin verilməsi).

Real zamanda bildirişlər və yeniləmələr. Dindirmə faylları yükləndikdə, müvafiq tərəflərə (bizim qanunvericiliyə görə prosessual rəhbərliyi həyata keçirən prokurora) real vaxt bildirişləri aktivləşdirilə bilər. Nəzarətdə olan işlərə münasibətdə bu təklif operativliyin təmin olunmasına xidmət edəcəkdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Azərbaycanda cinayət-prosessual münasibətlərin tənzimlənməsi üçün innovativ sayılan smart müqaviləsinin hüquqi təməlinin qoyulması istiqamətində müvafiq tədbirlərin görülməsi məqsədəuyğun hesab edilə bilər. Bu səbəbdən aşağıdakı təkliflər irəli sürülür:

1. Dindirmə prosesinin rəqəmsallaşdırılması məqsədilə yuxarıda göstərilən şərtləri nəzərə almaqla smart müqavilə metodlarının tətbiq edilməsi.
2. Şəffaflığın təmin edilməsi və rəqəmsal sübutların, habelə istintaq materiallarının (hərəkətlərin) hər hansı qanunsuz müdaxilədən, saxtalaşdırmadan qorunması üçün onların blokçeyn reyestrində qeydiyyata alınması.
3. İstintaq materiallarını onlayn şəkildə aidiyyəti şəxslərə təqdim etmə imkanının yaradılması.
4. Cinayət təqibi çərçivəsində prosessual sənədlərin təsdiqlənməsi, habelə ifadələrin alınması zamanı ənənəvi üsullarla yanaşı, təsdiq üçün elektron imzadan və biometrik əlamətlərdən istifadə olunması.

**Əmir Ocaqverdiyev**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin rəisi**
**Nigar Əskərova**
**şöbənin böyük prokuroru**

# Mülkiyyət əleyhinə cinayətlərlə mübarizənin müasir problemləri

Mülkiyyət əleyhinə olan cinayətlərlə mübarizə hər bir cəmiyyətdə olduğu kimi bizdə də hər zaman aktual olaraq qalmaqdadır. Müasir dövrdə bu növ cinayətlərin sürətlə yeni-yeni təzahür formaları və törədilmə üsulları yaranır. Ona görə də qanunvericilik, məhkəmə şərhləri və izahları ya bu sürətli dəyişmələrə çevik reaksiya verməli, ya da elə səviyyədə olmalıdır ki, cinayət təqibini həyata keçirən orqanlar cinayət törətmiş şəxsi məsuliyyətə cəlb edərkən çətinliklərlə üzləşməsinlər, cinayət törətmiş şəxslər məsuliyyətdən kənarda qalmasın, cinayətkar qəsdə məruz qalmış şəxslərin pozulmuş hüquqları bərpa edilsin.

Təəssüflə qeyd olunmalıdır ki, qüvvədə olan cinayət və cinayət-prosessual qanunvericiliyində, o cümlədən digər qanunvericilik aktlarında olan bir çox boşluqlar və çatışmazlıqlar, hüquq tətbiqetmə təcrübəsindəki qeyri-müəyyənliklər, vahid istintaq və məhkəmə təcrübəsinin formalaşmasına imkan verməmiş, Konstitusiya Məhkəməsi və Ali Məhkəmə plenumlarının qərarları belə problemləri əsasən aradan qaldırmağa kömək etsə də, bəzi qərarlar əksinə yeni-yeni ziddiyyətlərin yaranmasına səbəb olmuşdur.

Hesab edirəm ki, qanunvericilik aktları ilə bağlı şərh və izah xarakterli məhkəmə qərarları qəbul edilərkən onların tətbiq edilməsi imkanları və digər əhəmiyyətli hallar nəzərə alınmalı, qərarlar normaların düzgün tətbiqinə, ziddiyyətlərin və çətinliklərin aradan qaldırılmasına, vahid istintaq və məhkəmə təcrübəsinin formalaşmasına, qanunvericiliyin hüquq tətbiq edənlər tərəfindən eyni qaydada tətbiq edilməsinə nail olunmalı, hüquqi müəyyənlik prinsipi təmin edilməlidir. Hüquqi müəyyənlik prinsipi Konstitusiyanın Preambulasında əksini tapan qanunun aliliyinin əsas elementlərindən biridir. Hüquqi müəyyənlik prinsipi digər tələblərlə yanaşı, ən ümumi mənasında mövcud hüquqi vəziyyətə aid aydınlığı və müəyyənliyi nəzərdə tutur. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Konstitusiya Məhkəməsi Plenumunun bir çox qərarlarında dəfələrlə istinad etdiyi hüquqi müəyyənlik prinsipinin təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu, öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarını müdafiə edəcəyinə, hüquq tətbiqedənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir. Bunun əksi, yəni hüquq normasının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiqetmədə məhdudiyyətsiz mülahizə üçün imkan yaratmaqla, hər bir normativ hüquqi aktın əsasında dayanmalı olan qanunun aliliyi, qanun və məhkəmə qarşısında bərabərlik və ədalət prinsiplərinin pozulmasına gətirib çıxara bilər. Qanunverici tərəfindən Konstitusiyada təsbit olunmuş hər hansı hüququn həyata keçirilməsinin tənzimlənməsi zamanı hüquqi müəyyənlik prinsipinin nəzərə alınmaması həmin hüququn pozulması ilə nəticələnə bilər. Qanunun aydın və proqnozlaşdırıla bilən olması hüquqi dövlətin vacib təzahürlərindən biri olan qanunun ümumiliyini təmin etmək zərurəti ilə uzlaşmalıdır [1]. Nəzərə almaq lazımdır ki, qanunun mətninin mütləq aydınlığı (qanunvericinin bütün mümkün ola biləcək həyati halları qanunda nəzərdə tutması) qeyri-realdır. Bu səbəbdən qanunda ümumi anlayışlardan istifadə edilməsi qaçılmazdır. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 64.9-cu maddəsinə əsasən, qanunda normaların həddindən artıq detallaşdırılması Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş icra və məhkəmə hakimiyyəti orqanlarının səlahiyyətlərinə müdaxiləyə gətirib çıxarmamalıdır[2]. Hüquqi normaların bəzən qaçılmaz olan natamamlığı və ya qeyri-müəyyənliyi isə məhz məhkəmə təcrübəsi vasitəsilə aradan qaldırılır.

Hüquq nəzəriyyəsində formalaşmış fikrə əsasən, hüququn təfsiri normanın mətninin mənasının aydınlaşdırılması və izahıdır. Hüquqi boşluq isə əksinə, hüquqi məsələni tənzimləyən normativ mətnin olmamasını və ya natamam olmasını nəzərdə tutur. Normativ akt konkret mübahisəli məsələnin həlli üçün nəzərdə tutulduqda, lakin nəticə etibarı ilə mətninin ikimənalılığı və ya qeyri-dəqiqliyinə görə deyil, natamamlığına görə bunu etmək qabiliyyətində olmadıqda boşluq yaranır. Beləliklə, baxmayaraq ki, hüquqi boşluğun müəyyən edilməsi yalnız hüquq normasının təfsir edilməsindən sonra mümkün olur, onun aradan qaldırılması hüquq normasının təfsiri prosesi çərçivəsində həyata keçirilmir. Hüquq tətbiqedən normanın məzmununu, o cümlədən nəzərdə tutulan mənanı müəyyən etməklə həmin normanın qeyri-müəyyənliyini və ikimənalılığını aradan qaldırmış olur. Boşluğun aradan qaldırılması zamanı isə hüquq tətbiqedən faktiki olaraq konkret hüquqi mübahisənin birdəfəlik həlli üçün qanunvericiliklə müəyyən edilmiş meyarlara müvafiq davranış qaydası müəyyənləşdirir. Nəzərə alınmalıdır ki, hüquq tətbiqedici tərəfindən qanunvericilik normasının yanlış təfsir edilərək başqa qaydada tətbiq olunması hüquqi müəyyənlik prinsipinin pozulmasına gətirib çıxara bilər (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 74-cü maddəsinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39, 40 və 305.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2021-ci il 14 sentyabr tarixli Qərarı). Konstitusiya Məhkəməsinin Plenumu həmin Qərarda vurğulamışdır ki, cinayət hüquq normalarının dəqiqliyi, aydınlığı, birmənalılığının ümumhüquqi meyarları hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipindən irəli gəlir və bu meyarlar Cinayət Məcəlləsinin qanunçuluq prinsipinin təmin edilməsinə xidmət edir. Belə ki, hamının qanun və məhkəmə qarşısında bərabərliyi və qanunçuluq prinsiplərinin təmin edilməsi yalnız cinayət

hüquq normalarının bütün hüquq tətbiqedən orqanlar tərəfindən vahid anlaşılması və şərhi nəticəsində mümkündür. Əksinə, qanunçuluq prinsipi baxımından hüquq normalarının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiqetmə prosesində hədsiz mülahizələrə və özbaşınalığa gətirib çıxarmaqla bərabərlik, qanunun aliliyi prinsiplərini də pozmuş olar. Qeyd olunan prinsiplərə riayət olunması, bununla da cinayət prosesini həyata keçirən orqanlar tərəfindən qarşıda duran vəzifələrin qanuna əsasən yerinə yetirilməsi cinayət mühakimə icraatının məqsədlərinə nail olunmasına xidmət etməklə, nəticədə hər kəsin hüquqlarının müdafiəsini də təmin etmiş olur. Hüquqtətbiqedici tərəfindən mübahisə doğurmayan qanunvericilik normasının yanlış təfsir edilərək başqa qaydada tətbiq olunması hüquqi müəyyənlik prinsipinin pozulmasına gətirib çıxara bilər. Cinayət mühakimə icraatında cinayət prosesini həyata keçirən orqanların hər bir prosessual hərəkətləri qanunvericilikdə dəqiq və birmənalı tənzimlənmişdir. Hüquqi müəyyənlik prinsipi onu da tələb edir ki, bu orqanlar cinayət-prosessual qanunvericiliyindən kənar hərəkətlərə yol verməməli, cinayət təqibi zamanı qanunvericilikdə müəyyən olunmuş cinayət prosesi mərhələlərinin xüsusiyyətlərinə, ardıcıllıqlarına, təyinatına, prosessual hədlərinə və s. dəqiq riayət etməlidirlər. Cinayət prosesinin hər bir mərhələsinin qarşısında duran vəzifələrin düzgün yerinə yetirilməsi nəticə etibarı ilə cinayət mühakimə icraatının vəzifələrinin həyata keçirilməsinə xidmət etməklə, hər kəsin hüquqlarının müdafiəsinə təminat vermiş olur[3].

Xüsusi qeyd etməyi vacib hesab edirəm ki, qanunvericilik, məhkəmə şərh və izahlarında qeyd olunmuş bir sıra məsələlərlə bağlı hüquq tətbiqedənlər arasında müxtəlif baxışlar vardır. Fikrimizcə, aidiyyəti məsələlərlə bağlı Konstitusiya Məhkəməsi və Ali Məhkəmənin plenum qərar layihələri hazırlanarkən hüquq tətbiq edənlərlə, xüsusən istintaq orqanları ilə müzakirə edilərək hüquq tətbiq edənlər tərəfindən verilən təkliflər və rəylər nəzərə alınmalıdır.

Elm ictimaiyyətinin və hüquq tətbiq edənlərin diqqətini mülkiyyət əleyhinə olan cinayətlər sahəsində qanunvericilikdə, istintaq və məhkəmə təcrübəsində mövcud olan aşağıdakı qeyri-müəyyənliklərə, problemlərə, nöqsanlara və çatışmazlıqlara cəlb etməklə onların həlli yolları ilə bağlı real təkliflər verməyi də zəruri hesab edirik.

**1.** Mülkiyyət əleyhinə cinayətlərlə mübarizənin aparılmasında əməliyyat-axtarış fəaliyyətinin müstəsna önəmi vardır. Lakin bu sahədə bir sıra hüquqi və praktik problemlər vardır. Belə ki, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" 28 oktyabr 1999-cu il tarixli Qanunun 16.1-ci maddəsində "əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar bu qanuna müvafiq əldə edildikdə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun təqdim edildikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər" [4] norması təsbit edilsə də, həmin qanunda konkret olaraq cinayətin predmetinin, cinayətin izlərinin, əşyaların, sənədlərin, habelə gələcəkdə sübut əhəmiyyəti kəsb edə biləcək digər əşyaların "aşkar edilməsi", "götürülməsi" anlayışları öz əksini tapmamış, yalnız "əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar" anlayışına istinad edilmiş, lakin əşyaların (materialların) aşkar edilib götürülməsinin prosedur qaydaları, əməliyyat-axtarış tədbirlərinin gedişində yaxalanmış şəxsin əməliyyat-axtarış fəaliyyətinin subyekti tərəfindən üstünün yoxlanılaraq üzərindən cinayətin predmeti olan əşyanın götürülməsinin əməliyyat tədbiri kimi adı, aparılma qaydası, əməliyyat-axtarış fəaliyyətinin nəticələrinin hansı sənədlərlə rəsmiləşdirilməsi, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materialların istintaq orqanına hansı qaydada təqdim edilməsi müəyyən edilməmişdir. Eyni zamanda CPM-in 137-ci maddəsində "əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materiallar "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun əldə olunduqda və bu Məcəllənin tələblərinə uyğun təqdim edildikdə və yoxlanıldıqda, cinayət təqibi üzrə sübut kimi qəbul edilə bilər" [5] müddəası əksini tapsa da, həmin Məcəllədə də əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə edilmiş materialların təqdim edilməsi və yoxlanılmasının qaydası nəzərdə tutulmamışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" 2011-ci il 4 mart tarixli 2 nömrəli qərari Cinayət-Prosessual Məcəllə və "Əməliyyat-axtarış fəaliyyəti haqqında" 28 oktyabr 1999-cu il tarixli Azərbaycan Respublikası Qanununda olan bu və ya digər boşluqların aradan qaldırılması və həll yollarının müəyyənləşdirilməsi üçün qəbul edilsə də, əsl həqiqətdə bu boşluqları, qanunların tətbiqindəki çətinlikləri aradan qaldırmamış, yeni-yeni ziddiyyətlərin yaranmasına və səhv təcrübənin formalaşmasına gətirib çıxarmışdır.

Ali Məhkəmə Plenumunun bu qərarı qəbul edildikdən sonra keçən 10 ildən artıq müddətdə əməliyyat-axtarış fəaliyyəti subyektlərinin fəaliyyəti məhdudlaşdırılmış, onlar nəinki narkotiklərlə bağlı cinayətləri, digər bütün cinayətləri, o cümlədən mülkiyyət əleyhinə olan cinayətləri törətmiş şəxslərin yaxalanması və cinayətin predmetinin təşkil edən əşyaların götürülməsi ilə bağlı keçirdikləri əməliyyat-axtarış tədbirlərinin nəticələrini rəsmiləşdirmək imkanından məhrum olmuşdur. Təcrübədə əməliyyat-axtarış tədbirlərinin nəticələri əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən deyil, qanunla nəzərdə tutulmadığı halda faktiki olaraq təhqiqatçı, bəzi hallarda isə müstəntiq tərəfindən rəsmiləşdirilir, cinayət-prosessual qanunvericiliyin tələblərinə zidd olaraq yaxalanmış şəxs şübhəli şəxs qismində tutulur, daha sonra onun üzərinə təhqiqatçı, bəzi hallarda isə müstəntiq tərəfindən vəkilin iştirakı ilə şəxsi axtarış keçirilir, təhqiqatçı, bəzi hallarda isə müstəntiq tərəfindən nəqliyyat vasitələrinə baxış, binalarda, o cümlədən yaşayış yerlərində, binalarda məhkəmə qə-

rarı əsasında axtarış keçirilir, cinayətin predmeti, o cümlədən oğurlanmış əşyalar aşkar edilərək götürülür. *Hesab edirəm ki, "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununda və Cinayət-Prosessual Məcəlləsində əlavə və dəyişikliklər edilməklə əməliyyat-axtarış fəaliyyəti ilə bağlı zəruri məsələlər bu normativ hüquqi aktlarda birbaşa əksini tapmalı, əməliyyat-axtarış fəaliyyətinin subyektləri əməliyyat-axtarış fəaliyyətinin nəticələrini özləri rəsmiləşdirməli, yaxalanmış şəxslərin üstünü yoxlamaqla, nəqliyyat vasitələrinə baxış keçirməklə, binalara, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğulara və torpaq sahələrinə daxil olma və baxış keçirməklə cinayətin predmeti olan əşyaları aşkar edib bu barədə protokol tərtib etməli, toplanmış materialı, götürülmüş əşyaları və yaxalanmış şəxsi təhqiqatçı və ya müstəntiqə təqdim etməlidir.*

**2.** Fikrimcə, cinayət qanunvericiliyində, xüsusən də mülkiyyət əleyhinə olan cinayətə məruz qalan şəxsi ifadə edərkən Azərbaycan dilində daha çox "kənar şəxs" mənasını verən "özgə" sözünün əvəzinə, daha geniş mənada başa düşülən, özü-özlüyündə məhdudlaşdırıcı xarakterli olmayan sadəcə "şəxs" sözündən və ya "digər şəxs" sözlərindən istifadə edilməlidir. "Şəxs" sözü qəsdə məruz qalan şəxsi daha düzgün, tam və uğurlu ifadə edə bilər. Bundan əlavə, bu növ cinayətlərdə "əmlak" sözünün işlədilməsi də bir sıra problemlərə gətirib çıxarmışdır. "Əmlak" sözünə mülki qanunvericilikdə anlayış verilməmiş, qüvvədə olan Mülki Məcəllədə yalnız "əşya hüququnun obyektləri" adlı 135.2-ci maddəsində uğursuz şəkildə "əmlak istənilən əşyaların və qeyri-maddi əmlak nemətlərinin toplusudur" kimi ifadə edilmişdir [6]. Həmin maddəyə əsasən bitkilər və heyvanlar əşya deyildir. Əşyalar daşınmaz və daşınar ola bilər. Torpaq sahələri, yer təki sahələri, ayrıca su obyektləri, meşələr, çoxillik əkmələr, binalar, qurğular və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər daşınmaz əşyalardır. Torpaq sahəsi və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) əşya vahid daşınmaz əşyadır və vahid mülkiyyət obyektidir. Başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar qeyri-maddi əmlak nemətləridir. Göründüyü kimi mülkiyyət əleyhinə olan cinayətlərdə qəsdin yönəldiyi predmetləri "əmlak" sözü ilə ifadə etmək kifayət qədər qüsurludur. İstənilən əşyanın oğurlanmasından və ya başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar hesab edilən qeyri-maddi əmlak nemətlərinin oğurlanmasından, soyğunçuluğa və ya quldurluğa məruz qalmasından necə danışmaq olar? Bundan əlavə, Mülki Məcəllənin sözü gedən maddəsində "çox illik əkmələr" əşya hesab edilmişdir. Belə olan halda "çoxillik olmayan əkmələr" oğurlandıqda məsələ necə tənzimlənməlidir? Əşya hesab edilən heyvanlar, bitkilər, balıq və su bioresursları ilə bağlı məsələdə də fərqli vəziyyət yaranır: Faktiki xalqa, dövlətə məxsus olan balıq və digər su bioresurslarının, vəhşi heyvanların və ağacların (çöl ağacları, meşə fondu) gizli talanması baş verdikdə balıq və digər su bioresurslarına münasibətdə qanunsuz tutma (CM-in 256-cı maddəsi), heyvanlara münasibətdə qanunsuz ov etmə (CM-in 258-ci maddəsi), bitkilərə münasibətdə isə qanunsuz ağackəsmə (CM-in 259-cu maddəsi) kimi ekoloji cinayətlər fəslində kriminallaşdırılmışdır. Təsadüfi deyildir ki, CM-in 259.1-ci maddəsində "kəsilməsi" sözündən sonra mötərizə içində talama cinayətlərinə xarakterik olan "götürülmə" sözü qeyd edilmişdir. Bundan əlavə torpaq sahəsindən torpaq, qum, çınqıl və sair qazılıb aparılması Cinayət Məcəlləsinin 255-ci (yerin təkinin qorunması və istifadəsi qaydalarını pozma) maddəsi ilə tövsif edilir. Lakin, bu cinayət də mahiyyətcə gizli talamadır. Deməli, qanunvericiliyə əsasən hər bir əmlakın talanması CM-in 177-ci maddəsi ilə cinayət məsuliyyətinə səbəb ola bilməz. *Fikrimcə, mülkiyyət əleyhinə olan cinayətlərdə, xüsusən də oğurluq, soyğunçuluq və quldurluqda konkret olaraq nələrin bu cinayətkar qəsdlərə məruz qala biləcəyi ya qanunvericilikdə dəqiq müəyyən edilməli, ya da Konstitusiya Məhkəməsi Plenumu tərəfindən şərh edilməlidir.*

**3.** "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Ali Məhkəmə Plenumunun 03.03.2005-ci il tarixli Qərarı bu sahədə tövsiflə bağlı bir çox məsələləri həll etsə də, bəzi anlaşılmazlıqlara və birmənalı olmayan baxışlara da səbəb olmuşdur. Belə ki, qərarın 13-cü bəndində qeyd edilmişdir ki, "Əgər təqsirkar yaşına, anlaqsız olmasına və ya başqa hallara görə cinayət məsuliyyətinə alına bilməyən digər şəxslərdən istifadə etməklə oğurluq, soyğunçuluq və ya quldurluq cinayətləri törətmişsə onun əməli (bilavasitə icraçı tərəfindən törədilən cinayət kimi CM-in müvafiq maddələrində ağırlaşdırıcı tövsifedici əlamətlər olmadıqda) müvafiq olaraq CM-in 177.1, 180.1 və ya 181.1-ci maddələri ilə tövsif edilməlidir. Hökm çıxırarkən məhkəmə CM-in 34-cü maddəsində göstərilən əsaslar olduqda CM-in 61.1.3 və 61.1.5-ci maddələrinə istinad etməklə cinayətin bir qrup şəxsin tərkibində törədilməsi halını cəzanı ağırlaşdıran hal kimi tanımağa haqlıdır. Cinayət Məcəlləsinin 177.1, 180.1, 181.1-ci maddələri cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmayan şəxslərdən istifadə etməklə əməlin törədilməsini cinayət tərkibinin əlaməti olaraq nəzərdə tutmadığından həmin hal Cinayət Məcəlləsinin 61.1.5-ci maddəsinə əsasən bu cinayətlərə görə cəza təyin edilərkən cəzanı ağırlaşdıran hal qismində nəzərə alınır. Eynilə cinayət məsuliyyətinə cəlb edilə bilməyən psixi pozuntudan əziyyət çəkən şəxsin cinayətin törədilməsinə cəlb edilməsi CM-in 61.1.5-ci maddəsinə istinad edilməklə cəzanı ağırlaşdıran hal qismində nəzərə alınmalıdır" [7]. Fikrimizcə bu mövqe qanuni

və həm də kifayət qədər ədalətli deyildir. Təsadüfi deyildir ki, Cinayət Məcəlləsinin 31-ci maddəsində iştirakçılıq "iki və ya daha çox şəxsin qəsdən cinayət törətməkdə qəsdən birgə iştirakı", 34.2-ci maddəsində isə qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilmiş cinayət "qabaqcadan razılaşmaqla iki və ya daha çox şəxsin birgə iştirakı ilə törədilən cinayət" kimi müəyyən edilmişdir[8]. *Ona görə də, qeyd olunan halda şəxsin əməlinin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilən cinayət kimi tövsif edilməsi daha düzgün və ədalətli yanaşma olardı.* Çünki, təqsirkar yaşına, anlaqsız olmasına və ya başqa hallara görə cinayət məsuliyyətinə alına bilməyən digər şəxslərdən istifadə etməklə həmin şəxslə cinayət əlaqəsinə girərək onunla birgə ictimai təhlükəli əməl törətdiyini dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş, bunları arzu etmiş və cinayətin törədilməsi ilə bağlı üzərinə düşən funksiyaları icra etmişdirsə, bu şəxsin əməlinin düzgün tövsifinə faktiki olaraq qabaqcadan əlbir olan bir qrupun digər üzvünün yaşı, anlaqsız olması və ya başqa hallara görə cinayət məsuliyyətinə cəlb olunmasının mümkünsüzlüyü təsir etməməlidir.

**4.** "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Ali Məhkəmə Plenumunun 03.03.2005-ci il tarixli Qərarının 18-ci bəndinin sonuncu abzasında qeyd edilmişdir ki, "Əgər şəxs Cinayət Məcəlləsinin müvafiq olaraq, 177.2.1, 177.2.2, 177.2.3, 177.2.4, 177.3.1, 177.3.2, 177.4 və ya 180.2.1, 180.2.2, 180.2.3, 180.2.4, 180.2.5, 180.3.1, 180.3.2, 180.4 yaxud da 181.2.1, 181.2.2, 181.2.3, 181.2.4, 181.2.5, 181.3.1, 181.3.2, 181.4-cü maddələri ilə nəzərdə tutulmuş cinayətlərin real məcmusunu yaratmayan, ağırlaşdırıcı hallarda oğurluq, soyğunçuluq və quldurluq cinayəti törətmişsə, o zaman onun əməli CM-in daha ağır cəza nəzərdə tutan müvafiq maddəsi ilə tövsif edilməli, hökmün təsviri-əsaslandırıcı hissəsində isə bütün tövsifedici əlamətlər sadalanmalıdır" [7]. Buradan belə nəticə çıxır ki, şəxs qeyd olunan maddələrlə nəzərdə tutulmuş cinayətlərin real məcmusunu yaradan ağırlaşdırıcı hallarda oğurluq, soyğunçuluq və quldurluq cinayəti törətmişsə, o zaman onun əməli CM-in daha ağır cəza nəzərdə tutan müvafiq maddəsi ilə deyil, törətdiyi hər bir cinayətə müvafiq olan maddələrlə tövsif edilməlidir. Məsələn, "A" müəyyən bir tarixdə qabaqcadan əlbir olan bir qrup şəxsin tərkibində sadə oğurluq cinayəti, bir neçə gün sonra tək halda yaşayış sahəsinə qanunsuz daxil olmaqla oğurluq cinayəti və bir müddət sonra külli miqdarda ziyan vurmaqla oğurluq cinayəti törətdiyi halda onun əməlləri cinayətlərin real məcmusunu təşkil etdiyindən CM-in 177.2.1, 177.2.2, 177.2.3 və 177.3.2-cü maddələri ilə cinayət məsuliyyətinə cəlb edilməlidir. Lakin, istintaq və məhkəmə təcrübəsi səhv istiqamətlənərək belə cinayətlərin (o cümlədən dələduzluq və digər) real məcmusu yarandığı hallarda da təəssüf ki, şəxsin əməlləri CM-in daha ağır cəza nəzərdə tutan müvafiq maddəsi (məsələn, 177.3.2-ci) ilə tövsif edilir, işlərə baxan məhkəmələr tərəfindən də belə qəbul edilərək hökm çıxarılır və ya hökmlər qüvvədə saxlanılır. *Yaranmış bu səhv təcrübənin dəyişdirilməsi üçün təklif edirəm ki, Ali Məhkəmə Plenumunun müvafiq qərarının 18-ci bəndinin sonuncu abzasından sonra cinayətlərin real məcmusu hallında əməllərin düzgün tövsifini müəyyən edən aşağıdakı cümlə əlavə edilməlidir: "Şəxs qeyd olunan maddələrlə nəzərdə tutulmuş cinayətlərin real məcmusunu yaradan ağırlaşdırıcı hallarda oğurluq, soyğunçuluq və quldurluq cinayətləri törətmişsə, o zaman onun əməlləri Cinayət Məcəlləsinin daha ağır cəza nəzərdə tutan müvafiq maddəsi ilə deyil, törətdiyi hər bir cinayətə müvafiq olan maddələrlə tövsif edilməlidir".* Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumu tərəfindən "Hədə-qorxu ilə tələb etmə işləri üzrə məhkəmə təcrübəsi haqqında" 25 dekabr 1998-ci il tarixli qərarında 30 aprel 2021-ci il tarixli qərarla edilmiş dəyişiklikdə cinayətlərin real məcmusuna münasibət bizim mövqeyimizə uyğundur və həm də daha aydın şəkildə ifadə edilmişdir. Belə ki, həmin qərarın 2-ci bəndinin sonuncu abzasında "Bununla belə, hədə-qorxu ilə tələb etmə bilavasitə zərər çəkmiş şəxsin əmlakının ələ keçirilməsi ilə müşayiət olunmaqla cinayətlərin real məcmusunu yaratdığı hallarda zorun xarakterindən asılı olaraq bu hərəkətlər hədə-qorxu ilə tələb etmə ilə yanaşı həm də soyğunçuluq və ya quldurluq kimi tövsif edilməlidir", 7-ci bəndinin sonuncu abzasında isə "Təkrarlığı yaradan cinayətlərdən bəziləri CM-in 182.2-ci maddəsində göstərilən, bəziləri isə 182.3 və yaxud 182.4-cü maddələrində göstərilən tövsifedici əlamətlərə malik olduqda, hər bir əməl ayrıca – onu xarakterizə edən əlamətlərə görə, yəni CM-in 182.2-ci maddəsində göstərilən cinayətlə (məsələn, zor tətbiq etmə ilə törədilən hədə-qorxu ilə tələb etmə ilə) CM-in 182.3 və yaxud 182.4-cü maddələrində göstərilən cinayətlərin real məcmusu kimi tövsif olunmalı və təqsirkara cəza cinayətlərin məcmusu qaydasında təyin olunmalıdır"[9]. Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 16 və 18-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 25 yanvar 2021-ci il tarixli qərarında da cinayətlərin real məcmusu halında hər bir cinayət əməlinin Cinayət Məcəlləsinin fərqli maddələrinin təsiri altına düşməsi qeyd edilmişdir" [11].

**5.** "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Ali Məhkəmə Plenumunun 03.03.2005-ci il tarixli Qərarının 19-cu bəndinin sonuncu abzasında qeyd edilmişdir ki, avtomobil və digər nəqliyyat vasitəsinin kabinəsi, oturacaq salonu saxlanc yerlərinə aid olmadığından oradan hər hansı əşyanın gizlin götürülməsi saxlanc yerlərinə daxil olma kimi qiymətləndirilə bilməz [7]. Lakin, qərarda bu əsaslandırılmamışdır. Fikrimcə, nəqliyyat vasitələrinin (ictimai nəqliyyat vasitələri təyinatına uyğun istifadə edildiyi hallar istisna olunmaqla), o cümlədən, onların karvan tipli və ya digər kilidlənmiş halda olan qoşqularının içərisindən oğurluğun ağırlaşdırıcı hal hesab edilməməsi doğru deyildir. Belə ki, nəqliyyat

vasitələri mahiyyətcə saxlanc yerləri tiplidir, onların kilidlənən qapıları vardır, bir çox hallarda xüsusi mühafizə siqnalları ilə təchiz olunmuşdur. Nəqliyyat vasitələrinə və onların qoşqularına bu cürə maneələri dəf etmədən sahibinin (və ya qanuni istifadəçisinin) icazəsi olmadan kənar şəxsin daxil olması mümkün deyildir. *Hesab edirəm ki, yaranmış problemin aradan qaldırılması üçün Ali Məhkəmə Plenumun məlum qərarında bu cür cinayət əməllərini Cinayət Məcəlləsinin 177.2.3-cü maddəsi ilə tövsif edilməsinə imkan verən dəyişiklik edilməli, eləcə də, Cinayət Məcəlləsində əlavə və dəyişiklik edilməklə 177.2.3-cü maddədə "başqa saxlanc yerlərinə" sözlərindən sonra "o cümlədən, nəqliyyat vasitələrindən və onların qoşqularından" sözləri yazılmalı, ya da ayrıca tövsifedici əlamət kimi 177.2.3-3-cü maddə nəzərdə tutulmalıdır.*

**6.** "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Ali Məhkəmə Plenumunun 03.03.2005-ci il tarixli Qərarının 22-ci bəndinin 1-ci abzasında qeyd edilmişdir ki, "Şəxs, oğurluq, soyğunçuluq və ya quldurluq cinayəti törədərkən, qapıları, qıfılları, gözlükləri və s. qırmaqla, sındırmaqla yaşayış sahəsinə, habelə binaya və ya başqa saxlanc yerlərinə daxil olursa, o zaman əməl, müvafiq olaraq, CM-in 177.2.3, 180.2.3 və ya 181.2.3-cü maddəsi ilə tövsif edilməli, əməlin əlavə olaraq CM-in 186-cı maddəsi ilə də tövsif edilməsinə ehtiyac qalmır. Belə ki, bu halda zərərçəkmişin qeyd edilən əmlakının qəsdən məhv edilməsi ağırlaşdırıcı halda talama cinayətinin törədilməsi üsuludur. Oğurluq, soyğunçuluq və ya quldurluq cinayətləri törədilərkən, talamanın predmeti olmayan zərərçəkmişin əmlakı (məsələn, mebel, məişət texnikası və digər şeylər) qəsdən məhv edilərsə və ya zədələnərsə, bu zaman əməl, buna əsaslar olarsa, əlavə olaraq CM-in 186-cı maddəsi ilə də tövsif edilməlidir" [7]. Qərarda ifadə edilmiş bu mövqe ilə razılaşmaq olmaz. Əmlakı qəsdən məhv etmə və ya zədələmə cinayətinin yalnız birbaşa qəsdlə törədilməsi kimi bir mövqe doğru deyildir. Talama məqsədilə yaşayış sahəsinə, binaya və ya başqa saxlanc yerinə qanunsuz daxil olmaq üçün qapını, pəncərəni, divarı, damı müxtəlif üsullarla kəsib, qırıb, sındırıb, dağıdıb, uçurub zədələdikdə və ya məhv etdikdə, bundan əlavə, saxlanc yerlərinə daxil olduqdan sonra pulu və ya digər əşyanı götürmək üçün saxlandığı seyfi, şkafı, yeşiyi və ya başqa bu tipli yeri zədələyən və ya yarasız hala salan, bununla da əmlakın sahibinə faktiki olaraq dolayı qəsdlə ziyan vuran şəxsin əməlinin yalnız oğurluq, soyğunçuluq və ya quldurluq cinayəti ilə əhatə olunması düzgün hüquqi və ədalətli yanaşma deyildir. Bununla yalnız o halda razılaşmaq olar ki, əmlakın məhv edilməsi və ya zədələnməsi zamanı (dəymiş ziyanın məbləğindən asılı olmayaraq) ziyan oğurluq, soyğunçuluq və ya quldurluq nəticəsində talanmış əmlakın dəyəri (və ya pulun məbləğinə) ilə birlikdə ittihama daxil edilsin və ümumi məbləğ əməlin oğurluq, o cümlədən ağırlaşdırıcı hallarda xeyli, külli və ya xüsusilə külli miqdarda ziyan vurmaqla oğurluq (və ya soyğunçuluq, yaxud quldurluq) kimi tövsif edilməsinə birbaşa təsir göstərsin. Lakin, Cinayət Məcəlləsinin 177.1 və 180.1-ci maddələri, xüsusən 181.2.4, 181.3.2 və 181.4-cü maddələri buna imkan vermir. Çünki, cinayət qanununda oğurluq əmlakı gizli talama, soyğunçuluq isə açıq talamadır, tövsifedici əlamətləri isə bu əməllərin xeyli, külli və ya xüsusilə külli miqdarda ziyan vurmaqla törədilməsi kimi, quldurluq əmlakı ələ keçirmək üçün basqın, ağırlaşdırıcı halları isə xeyli, külli və ya xüsusilə külli miqdarda əmlak əldə etmək məqsədi ilə törədilməsi kimi nəzərdə tutulmuşdur. *Qeyd olunanları ümumiləşdirərək hesab edirəm ki, talamanın predmeti olan əmlakın qəsdən məhv edilməsi və ya zədələnməsi halında da dəymiş ziyanın məbləği xeyli və ya külli miqdar təşkil etdikdə şəxsin əməli həm də CM-in müvafiq olaraq 186.1 və ya 186.2.1-ci maddəsi ilə tövsif edilməli, şəxs cinayətlərin məcmusu üzrə məsuliyyətə cəlb edilməlidir.*

**İstifadə olunmuş mənbələrin siyahısı:**

1. https://constcourt.gov.az/az/decision/1246
2. https://e-qanun.az/framework/21300
3. https://www.constcourt.gov.az/az/decision/1242
4. https://e-qanun.az/framework/2938
5. https://e-qanun.az/framework/46950
6. https://e-qanun.az/framework/46944
7. https://supremecourt.gov.az/storage/pages/551/plenum-id-26.pdf
8. https://e-qanun.az/framework/46947
9. https://supremecourt.gov.az/storage/pages/570/plenum-id-45.pdf
10. https://constcourt.gov.az/az/decision/1199
11. https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.5237.pdf
12. https://e-qanun.az/framework/91
13. https://continent-online.com/Document/?doc_id=31575252#pos=203;-60
14. https://supremecourt.gov.az/storage/pages/530/plenum-id-7.pdf
15. https://www.constcourt.gov.az/az/decision/1303
16. https://supremecourt.gov.az/storage/pages/316/plenum-id-89.pdf
17. https://www.constcourt.gov.az/az/decision/1320
18. https://constitutions.ru/?p=24969
19. https://constitutions.ru/?p=25017
20. https://matsne.gov.ge/ru/document/view/16426?publication=254
21. https://www.constcourt.gov.az/az/decision/1103
22. https://supremecourt.gov.az/storage/pages/547/plenum-id-23.pdf

**Yasin Mikayıllı**
**Daxili İşlər Nazirliyi, Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq və təhqiqat idarəsinin rəis müavini, polis polkovniki**

# Интервью директора Агентства по государственному финансовому контролю и борьбе с коррупцией Республики Таджикистан Сулаймон Султонзода

***Господин Султонзода, позвольте выразить Вам особую благодарность, что смогли выделить нам время на интервью, хотя у Вас довольно интенсивный и напряжённый график работы. В ноябре прошлого года Вы посещали с официальным визитом нашу страну. Могли бы Вы поделиться впечатлениями от визита?***



Спасибо, всегда рад сотрудничеству с нашими коллегами из Азербайджанской Республики.

Действительно, в ноябре прошлого года, по приглашению Генерального прокурора Азербайджанской Республики, уважаемого Камрана Алиева нам представилась честь посетить вашу прекрасную страну с целью подписания Программы сотрудничества между нашими ведомствами.

Нужно отметить, что подписание «Соглашения о сотрудничестве между Агентством по государственному финансовому контролю и борьбе с коррупцией Республики Таджикистан и Генеральной Прокуратурой Азербайджанской Республики в сфере борьбы с коррупцией» и «Программы сотрудничества между Агентством по государственному финансовому контролю и борьбе с коррупцией Республики Таджикистан и Генеральной Прокуратурой Азербайджанской Республики на 2024 – 2025 годы» является важными и основополагающими документами, которые заложили основу для наращивания и укрепления взаимовыгодного сотрудничества между нашими ведомствами в вопросе противодействия коррупционным и экономическим преступлениям.

Наше Агентство высоко ценит сложившиеся деловые отношения с Генеральной Прокуратурой Азербайджанской Республики и будет предпринимать все необходимые меры для поддержки и реализации поставленных задач на основании вышеуказанных документов.

Во время визита наша делегация ознакомилась с деятельностью Генеральной Прокуратуры Азербайджанской Республики и нам представилась возможность изучить внедрённые инновационные решения в вопросе приёма заявления граждан, порядка делопроизводства, порядка выявления и расследования коррупционных преступлений. Полученный опыт и знания послужат усовершенствованию функционирования нашего ведомства, и мы постараемся внедрить эти решения в свою деятельность.

Также, во время нашего визита была организована культурно-ознакомительная программа, согласно которой мы посетили могилу Общенационального лидера Азербайджанской Республики Гейдара Алиева, Аллею Шахидов, Парк военных трофеев, исторические и многие другие памятные места красивого города Баку.

В течение всего нашего пребывания в азербайджанской столице наша делегация получила много позитивных эмоций и хороших впечатлений, за что мы благодарим организаторов – наших коллег из Генеральной Прокуратуры Азербайджанской Республики.

Данная поездка показала, что народ Таджикистана и Азербайджана ввиду культурных, исторических и религиозных традиций и обычаев очень близки друг к другу, и надеюсь, что дальнейшие взаимоотношения между братскими народами будут развиваться в духе мира и взаимного понимания.

***Какие новые возможности открывает реализация положений Программы сотрудничества между нашими ведомствами в плане развития двусторонних отношений?***

Да, действительно, во время нашего визита мы с господином Камраном Алиевым подписали Программу сотрудничества между нашими ведомствами, которая будет способствовать реализации поставленных задач и развития двусторонних взаимоотношений.

В целях повышения навыков и знаний сотрудников наших ведомств, а также изучения опыта антикоррупционной политики наших стран в программе предусмотрены обмен нормативно-правовыми актами, проведение совместных семинаров и конференций, в том числе на постоянной основе проведение встреч рабочей группы для мониторинга реализации Соглашения о сотрудничестве между нашими ведомствами в сфере противодействия коррупции.

Кроме того, реализация положений данной Программы внесет свой вклад в развитие двусторонних отношений между нашими органами как на служебном, так и в личном плане, ведь не стоит забывать и о личном знакомстве с коллегами из Генеральной Прокуратуры Азербайджанской Республики, которое играет важную роль при организации совместных ме-

роприятий, а также оперативного получения необходимой информации для осуществления того или иного совместного проекта.

***Нам известно, что Агентством проводится глубокий анализ коррупционных правонарушений, совершаемых в Таджикистане. Каковы наиболее уязвимые сферы в плане коррупционных правонарушений и каким ценным опытом, связанным с принятием мер как уголовно-правового, так и превентивного характера могли бы Вы поделиться с азербайджанскими коллегами?***

На протяжении вот уже 17 лет Агентством ведётся активная работа по противодействию коррупции в республике не только путём выявления и пресечения коррупционных преступлений, но и посредством проведения агитационных работ совместно с гражданским обществом и средствами массовой информации для снижения интенсивности коррупции.

Как показывает практика, для эффективного противодействия коррупции недостаточно только привлечение лица к административной и уголовной ответственности за совершение коррупционных проступков, и применение такой политики не даст значимый результат к достижению поставленной цели.

Для реализации поставленных задач и получения эффективных результатов в борьбе с этим негативным явлением существует необходимость коллективного взаимодействия и вовлечения всех слоёв общества в дело противодействия коррупции.

Следует отметить, что по мере развития общества и технологий противодействовать этому негативному явлению становится тяжелее с каждым днём и необходимость разработки новых методов и решений для борьбы с коррупцией является неотъемлемой частью нашей с вами деятельности.

Агентство как полноправный и основной субъект противодействия коррупции в Республике Таджикистан предпринимает необходимые меры для создания и реализации инновационных решений для снижения интенсивности коррупции в стране.

Также, на основании полученного опыта предыдущих лет, наше ведомство придерживается следующих основных приоритетов направления деятельности.

- Снижение интенсивности коррупции среди гражданского общества путём проведения агитационных, пропагандистских и научных работ для создания всеобщей неприемлемой атмосферы по отношению к коррупции. С этой целью Агентством регулярно проводятся семинары, встречи, организовываются учебные курсы, конференции, а также другие светские мероприятия среди гражданского общества, в ходе которых внимание граждан привлекается к коллективному противодействию этому негативному явлению и нетерпимости к коррупции.
- Созданы Центры повышения квалификации для субъектов, непосредственно противодействующих коррупции при Академии государственного управления при Президенте Республики Таджикистан и кафедры по противодействию коррупции в различных высших учебных заведениях страны. Разработаны теоретические и научно-практические материалы по противодействию коррупции с целью приобретения знаний, навыков и ответственности по предупреждению, предотвращению и выявлению правонарушений, связанных с коррупцией, создания в обществе непримиримых отношений с правонарушениями, связанными с коррупцией, и повышения уровня правовых знаний и культуры.
- К другим инновационным решениям можно отнести выявление коррупционных факторов в законодательстве путём проведения антикоррупционных экспертиз. Для этой цели в Агентстве функционирует отдельное управление антикоррупционной экспертизы нормативных правовых актов. Данное управление осуществляет антикоррупционный анализ существующих нормативных правовых актов и их проектов. Функционирование данного управления позволило выявить имеющиеся коррупционные риски в нормативных правовых актах, и стала причиной приведения в норму отдельных законодательных актов.
- Для выявления коррупционных рисков в деятельности государственных учреждений путём проведения мониторинга и анализа в Агентстве функционирует управление по противодействию коррупции, одним из обязанностей которого является проведение мониторинга и анализа коррупционных рисков. Практика функционирования данного управления показала, что выявление коррупционных рисков в дальнейшем служат основой для разработки рекомендаций по устранению результатов их воздействия в деятельность государственных учреждений.
- В Агентстве функционируют оперативные подразделения, целью которых является выявление и раскрытие коррупционных и экономических преступлений. Также в полномочия Агентства входит расследования вышеуказанных преступлений и для обеспечения данных полномочий в нашем ведомстве функционируют следственные подразделения. Слаженное взаимодействие данных подразделений обеспечивает непоколебимую борьбу с коррупцией, результатом которой является выявление и расследование громких коррупционных и экономических преступлений.
- Другим немаловажным приоритетным направлением Агентства является обеспечение экономической безопасности в Республике Таджикистан. Для реализации данной цели в нашем ведомстве функционируют подразделения государственного финансового контроля. Данные подразделения проводят финансово-хозяйственную проверку государственных учреждений с целью выявления фактов хищения и нецелесообразного использования бюджетных средств.

***Господин Султонзода, от имени редакции журнала еще раз благодарим Вас за это интересное и обширное интервью.***

## Baş prokuror tərəfindən qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçisi təltif olunub






"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinə əsasən prokurorluqda qulluqda olmanın yaş həddinə çatmış Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin böyük prokuroru Qəzənfər Bayramlının qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Baş prokuror Kamran Əliyev oktyabrın 21-də onu qəbul edərək "Prokurorluğun fəxri işçisi" döş nişanını təqdim etmişdir.

Baş prokuror görüşdə tədbir iştirakçısı ilə xatirələrini bölüşüb səmimi söhbətlər etmiş və sonda xatirə şəkli çəkilmişdir.

## Baş prokuror Kamran Əliyev prokurorluğun veteranları ilə görüşüb

Zəfər Günü münasibətilə "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin idarə heyətinin üzvləri və prokurorluğun digər veteranları ilə görüş keçirilib.

İştirakçıları salamlayıb, onları Zəfər Günü münasibətilə təbrik edən Baş prokuror qeyd etmişdir ki, bu qələbə müasir Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin ictimai-siyasi kursunu layiqincə davam etdirən cənab Prezident İlham Əliyevin möhkəm iradəsi, müdrik diplomatiyası, yaratdığı güclü iqtisadiyyat, ordu quruculuğu sahəsində həyata keçirdiyi uğurlu siyasət və Ali Baş Komandanı olduğu Silahlı Qüvvələrimizin fədakarlığı sayəsində mümkün olmuşdur.



Qeyd olunub ki, 3 il bundan öncə rəşadətli Azərbaycan əsgər və zabitləri qəhrəmanlıq göstərərək torpaqlarımızı işğaldan azad etmiş, bu ilin sentyabr ayının 19-da başlayıb 24 saatdan az davam edən lokal xarakterli antiterror əməliyyatlarının uğurla başa çatması








nəticəsində isə Xankəndi şəhərində bayrağımız ucaldılmış və Ulu Öndərin yaratdığı dövlətin suverenliyi bütün ölkə ərazisində təmin olunmuşdur.

Baş prokuror müharibədən sonrakı dövrdə dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi altında işğaldan azad edilmiş ərazilərimizdə bərpa- quruculuq işlərinin həyata keçirilməsi, soydaşlarımızın doğma yurduna qayıdışı, bu istiqamətdə görülən sistemli işlərdən bəhs edərək, paralel olaraq yenidənqurma və bərpa işlərində Birinci Vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da yaxından iştirak etdiyini xüsusilə vurğulamışdır.

Kamran Əliyev Vətən müharibəsi zamanı xalqımızla, dövlətimizlə bir cəbhədə dayanan prokurorluq orqanlarının üzərlərinə düşən vəzifələrin layiqincə yerinə yetirildiyini, xüsusən döyüş əməliyyatlarının aparıldığı şəraitdə mümkün olan bütün istintaq-əməliyyat tədbirlərinin peşəkarlıqla icra edildiyini qeyd etmişdir.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən daim prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqətin göstərildiyini vurğulayan Baş prokuror mühüm dövlət təsisatlarından biri kimi prokurorluq orqanlarının maddi-sosial bazası üçün yaradılmış təminatlar barədə söz açmışdır.

Eyni zamanda, prokurorluq orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsində veteran prokurorluq işçilərinin səmərəli təcrübəsinə daim ehtiyacın olması qeyd olunmuşdur.



Çıxış edən "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin sədri Seyfulla Aslanov, prokurorluğun veteranları Ruslan Hacıyev, Dürhəsən İmanov, Nadir Mirzəyev, Hafiz Məmmədov, Zahid Vəliyev və Vilayət Məmmədov Zəfər Günü münasibətilə xalqımızı təbrik edərək, Qələbənin əldə olunmasına qədər olan müddətdə cənab Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uzaqgörən siyasətdən, ordumuzun gücündən söhbət açmışlar. Həmçinin, ölkə rəhbərliyi tərəfindən prokurorluq orqalarına göstərilən qayğı və diqqətin prokurorluğun veteranları və pensiyaya çıxmış işçilərini də əhatə etdiyini, daim Azərbaycan dövlətinin yanında olduqlarını və cənab Prezidentin ətrafında sıx birləşərək, onun siyasətinə dəstək verdiklərini bildirmişlər.

Görüş zamanı həmçinin prokurorluq orqanlarının keçdiyi inkişaf yolundan danışılmış, ötən günlər xatırlanmışdır.

## Qulluqda olmanın son yaş həddinə çatmış prokurorluq işçisi ilə görüş keçirilib






"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinə əsasən prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Naxçıvan Hərbi Prokurorunun böyük köməkçisi, ədliyyə polkovnik-leytenantı İsa Məhərrəmovun qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokuroru Sənan Paşayev oktyabrın 23-də onu qəbul edərək Azərbaycan Respublikası Baş prokurorunun müvafiq əmri ilə təltif olunduğu "Fəxri fərmanı" təqdim edib.

Görüşdə tədbir iştirakçıları xatirələrini bölüşüb səmimi söhbətlər edib və sonda xatirə şəkilləri çəkilib.

## Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluğun veteranları ilə görüş keçirilib




Dekabrın 27-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin Dünya Azərbaycanlılarının həmrəylik günü və Yeni il münasibətilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun veteranlarına məktubların çatdırılması üçün Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev veteranlarla görüş keçirib, qarşıdan gələn bayram münasibətilə onları təbrik edib və Baş prokurorun müraciətini səsləndirib.



# Prokurorluğun veteranı Mahir Tağıyevin "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi



***Tağıyev Mahir Nəriman oğlu 1983-cü ildə Lomonosov adına Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirərək, həmin Universitetin tədqiqatçı stajoru olmuş və əmək fəaliyyətini 1990-cı ilədək Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun Cinayət hüququ və cinayət prosesi şöbəsində davam etdirmişdir. Prokurorluqdakı fəaliyyətini isə o, 1990-cı ildən Bakı şəhər prokurorluğunun Sosial, iqtisadi və kənd təsərrüfatı sahələrində qanunların icrasına nəzarət şöbəsinin prokuroru vəzifəsində başlamışdır. Bundan sonra Bakı şəhər prokurorunun müxtəlif sahələr üzrə böyük köməkçisi, həmin prokurorluğun Təşkilat-analitik şöbəsinin rəisi vəzifələrinə təyinat almışdır. 1997–2007-ci illərdə Zəngilan rayon prokurorunun böyük köməkçisi vəzifəsində çalışmış, 2007–2021-ci illər ərzində isə hüquqi təminat fəaliyyət istiqaməti üzrə Baş Prokurorluğun struktur qurumlarının böyük prokuroru olmuşdur.***

***Mahir Tağıyev prokurorluqda işlədiyi müddət ərzində xidməti vəzifələrini nümunəvi icra etdiyi üçün, habelə qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində peşəkarlıq göstərdiyinə görə dəfələrlə həvəsləndirilmiş, baş ədliyyə müşaviri rütbəsində olmaqla təqaüdçüdür və hüquq üzrə fəlsəfə doktorudur.***



***Mahir müəllim, ilk öncə jurnalımızın redaksiya heyəti adından müsahibə verməyə razılıq verdiyiniz üçün Sizə dərin təşəkkürümüzü bildiririk.***

Müsahibə üçün mənə müraciət olunduğuna görə prokurorluğun rəhbərliyinə və jurnalının redaksiya heyətinə təşəkkürümü bildirmək istərdim. "Azərbaycan Prokurorluğu" jurnalında müsahibə rubrikasının açılması, prokurorluğun veteranlarının müsahibələrinin dərc edilməsi – jurnalın onsuz da geniş olan oxucu auditoriyasının daha da artmasına səbəb olmaqla yanaşı, prokurorluqda son dövrdə şəffaflığın və aşkarlığın artırılmasına yönəlmiş ardıcıl surətdə həyata keçirilən əhəmiyyətli tədbirlərdən biri kimi dəyəndirilməlidir. Bu müsahibələr, eyni zamanda, veteranlara olan diqqətin göstəricisi olmaqla, hazırda prokurorluğun kadr korpusunun əksər hissəsini təşkil edən gənc prokurorluq işçilərinin prokurorluq orqanlarının inkişafında xidmətləri olmuş veteranların fəaliyyətləri barədə məlumatlandırılmasının və onların təcrübəsinin gənclərə ötürülməsinin bir vasitəsidir.

***Keçmiş sovetlər məkanının ən aparıcı ali təhsil ocaqlarından biri olan Lomonosov adına Moskva Dövlət Universitetində təhsil aldığınız illərdə qarşılaşdığınız hansısa maraqlı hadisəni bizimlə bölüşməyinizi istərdik.***

Qeyd etmək istəyirəm ki, həmin dövrün tədris proqramına uyğun olaraq təhsil müddəti hüquq fakültələrində 5 il olmaqla indiki təhsilin həm bakalavriat, həm də magistratura səviyyələrini əhatə edirdi. Həmin dövr tədris sentyabrın 1-dən başlayaraq həftədə 6 tədris günü və gündəlik əsasən 4 qoşa saat məşğələlər olurdu. Tədris edilən fənlərin sayı da indiki bakalavriat və magistratura səviyyələrində birlikdə keçilən fənlərdən daha çox olduğundan, tədrisə daha çox vaxt ayrılırdı. Məcburi tədris saatlarından başqa, həftədə iki dəfə könüllü əsaslarla hüququn özəyini təşkil edən fənlər üzrə xüsusi kurslar, seminarlar və məşğələlər də keçirilirdi.

Eyni zamanda qeyd etmək istəyirəm ki, Moskva Dövlət Universiteti sovetlər dövründə ən aparıcı ali təhsil ocaqlarından biri olmaqla, hər hansı ittifaq respublikaların müvafiq strukturuna daxil olmayaraq bir başa olaraq SSRİ-nin Ali və orta təhsil nazirliyinə tabe idi. Bu xüsusiyyət universitetin təhsil proqramlarına, onların daha geniş və tələbkar olmasına, tədrisin keyfiyyətinə xüsusi diqqət yetirilməsinə də təsir göstərirdi. Əsas



hüquq fənləri, bir qayda olaraq, 3-4 semestr tədris olunurdu, onlar üzrə çox ciddi imtahanlar keçirilirdi. İmtahanların keçirilməsində də onların verilməsini çətinləşdirən və daha mükəmməl hazırlıq səviyyəsini tələb edən cəhətlər var idi. Məsələn, "Mülki hüquq" fənnindən imtahan biletsiz keçirilirdi, müəllim (professor V.P.Qribanov) hər tələbəni 20-30 dəqiqə sual-cavab edib qiymət yazırdı, nəticədə qrupda yalnız bir neçə nəfər əla qiymət ala bilirdi.

V kursda üç aylıq diplomqabağı praktikadan sonra (həmin praktikanın bir hissəsini respublikamızın məhkəmə və prokurorluq orqanlarında keçdim ki, diplom işinin yazılışı zamanı Moskva təcrübəsi ilə yanaşı, respublikamızın təcrübəsindən də istifadə edim) mən "İbtidai istintaq üzərində prokuror nəzarəti" mövzusunda 100 vərəqdən ibarət diplom işimi fakültənin Dövlət İmtahan Komissiyasında müvəffəqiyyətlə müdafiə etdim. Müdafiə zamanı mənim diplom işim "Cinayət prosesi" kafedrasının ən yaxşı diplom işlərinin stendində saxlanılması üçün tövsiyə olundu. Sonradan, prokurorluqda işlədiyim ilk dövrdə Baş Prokurorluğun Kadrlar idarəsində ixtisasartırma kurslarına cəlb olunarkən, həmin diplom işindən istifadə edərək hazırladığım referat həmin vaxt Respublika Hərbi Prokurorunun müavini işləyən Əliş Əliyev (keçmiş Bakı şəhər prokuroru) tərəfindən çox yüksək bəyənilərək əla qiymətə layiq görüldü.




1983-cü ildə universiteti bitirərkən "Cinayət prosesi" kafedrasının təşəbbüsü ilə Fakültənin Elmi Şurası mənim aspiranturaya (hazırkı doktorantura) tövsiyə edilməyim barədə qərar qəbul etdi. 1984 – 1986-cı illərdə Moskva Dövlət Universitetinin Hüquq fakültəsinin tədqiqatçı-stajoru olmaqla cinayət hüququ fənnini tədris etmişəm. 1987-ci ildə "Azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların cinayət-hüquqi təminetmə vasitələri" mövzusunda dissertasiyanı yekunlaşdıraraq, 1988-ci ildə həmin Universitetin İxtisaslaşdırılmış Elmi Şurasında müdafiə etdim. Şuranın tərkibinə daxil olan alimlərdən biri erməni milliyyətinin nümayəndəsi idi və, təsadüfi olmayaraq, Şuranın 31 üzvündən yalnız biri səsvermə zamanı mənim əleyhimə, qalan üzvlərinin hamısı isə lehimə səs vermişdir. Müdafiədən sonra elmi rəhbərim (h.e.d., prof. Y.M.Tkaçevskiy) mənə dedi ki, bir nəfər əleyhinə səs verib, yəqin başa düşürsən kim və nəyə görə, ancaq, eybi yox, bu daha da işin xeyrinədir. Doğrudan da, müdafiədən heç iki ay keçməmiş onun nəticələri SSRİ Ali Attestasiya Komissiyasının qərarı ilə təsdiq olunaraq, mənə hüquq elmləri namizədi (indiki hüquq üzrə fəlsəfə doktoru) elmi dərəcəsi verilməsi barədə diplom təqdim olundu. Alimlik dərəcəsi diplomunu aldıqdan



Maraqlı məqamlar kimi Hüquq fakültəsinin tələbələrinin SSRİ Baş prokurorunun müavini, digər hüquq-mühafizə orqanlarının, məhkəmə orqanlarının rəhbərliyi ilə keçirilən görüşləri, bir neçə Avropa universitetlərinin rektorlarının, hüquq sahəsində görkəmli professorlarının oxuduqları mühazirələri, tanınmış mədəniyyət və incəsənət xadimləri ilə təşkil olunan görüşləri də qeyd etmək olar.

Lakin, tələbəçilik illərimizin ən önəmli və yadda qalan maraqlı hadisəsi 1981-ci ildə 3-cü kursda oxuyarkən olmuşdur. Yaxşı xatırlayıram, fakültənin dekanatlığından bizə məlumat verildi ki, Azərbaycandan olan tələbələr Universitetin böyük akt zalında toplaşsınlar, Azərbaycan Sovet Respublikasının rəhbərliyinin nümayəndələri ilə görüş olacaqdır. Həmin iclasda Moskva şəhərində təhsil alan azərbaycanlı tələbələr iştirak edirdilər. Həmin tədbir xalqımızın Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə təşkil olunmuşdur. Heydər Əliyevin tapşırığına əsasən bu məqsədlə Moskvaya Mərkəzi Komitənin ideologiya işləri üzrə katibi Həsən Həsənovun rəhbərliyi ilə böyük bir nümayəndə heyəti ezam olunmuşdur. Həmçinin iclasda universitetin prorektoru və Moskvanın Lenin rayonunun birinci katibi də iştirak edirdi. Həsən Həsənov çıxışında bildirdi ki, bizi Heydər Əliyev göndərib, sizinlə görüşüb vəziyyətinizi soruşaq, hər hansı çətinliyinizin olub-olmaması ilə maraqlanaq, lazım olan köməkliyi göstərək. İclasdan sonra tədbir iştirakçıları üçün çox əla bir konsert də verildi, respublikamızdan gəlmiş artist və solistlər tərəfindən çox gözəl ifalar, xalq mahnıları səsləndirildi, SSRİ xalq artistləri Rəşid Behbudov, Lütfiyar İmanov və digərləri oxudular, kompozisiya və tamaşalardan hissələr göstərildi. Azərbaycan Tibb İnstitutunun məşhur "Çinar" ansamblı rəqslər nümayiş etdirdi. Çox gözəl və əhəmiyyətli bir tədbir keçirildi, həmin tədbirdən sonra biz, azərbaycanlı tələbələr Moskvada özümüzü daha güvənli hiss etdik və daha yaxşı oxumağa həvəslənmiş olduq. Qeyd etməliyəm ki, həmin dövrdə Moskva şəhərində bütün ittifaq respublikalarından olan tələbələr təhsil alırdı, lakin belə bir tədbir yalnız Azərbaycandan olan tələbələr üçün təşkil olunmuşdu və biz Heydər Əliyevin üzəri-

sonra mənə Moskvada Ədliyyə Nazirliyində şöbə müdirinin müavini vəzifəsi təklif olunsa da, mən valideynlərimin tövsiyəsinə uyğun olaraq Bakıya qayıtdım və Azərbaycan Respublikası Elmlər Akademiyasının Fəlsəfə və hüquq institutunda işlədim.

Moskva Dövlət Universiteti ilə bağlı maraqlı hadisələr çərçivəsində 1980-ci ildə Universitetin yaranmasının 225 illiyinin qeyd olunmasını, həmin il Moskva şəhərində XXII Yay Olimpiya oyunlarının keçirilməsini, ilk elmi məqaləmin məhz «Вестник Московского Университета» jurnalında dərc edilməsini xatırlayıram.



Moskvada keçirilən Yay Olimpiya oyunları Şərqi Avropada keçirilən ilk Olimpiya oyunları olduğundan onun keçirilməsinin hazırlanmasına xüsusi diqqət yetirildi. Universitetin Hüquq fakültəsinin tələbələri sırasından xarici dili (ingilis, alman və sair) daha yaxşı bilən tələbələr seçilərək, onlardan Moskva Xarici Dillər İnstitutunun müəllimlərinin köməkliyi ilə tərcüməçilər hazırlanırdı. Həmin prosesə alman dili üzrə mən də cəlb olunmuşdum.

mizdə olan böyük qayğısını hər an hiss edirdik, bu isə bizim Azərbaycana yüksək peşəkar hazırlıqlı ali təhsilli mütəxəssis kimi qayıtmaq məsuliyyətimizi daha da artırırdı.

***Mahir müəllim, prokurorluqda işə başladığınız ilk günü necə xatırlayırsınız?***

Prokurorluğa işə başlamağımla bağlı sualınız da çox maraqlı olmaqla məni həmin dövrün təəssüratlarına qaytardı. Mən, Moskvada dissertasiyanın müdafiəsini yekunlaşdırdıqdan sonra Bakıya qayıdaraq AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunda işləyirdim. İşim cinayət hüququ və digər hüquq sahələrində elmi-tədqiqat işlərini yerinə yetirməkdən, kitablar və məqalələr yazıb dərc etdirməkdən, qanunvericiliyin təkmilləşdirilməsi üzrə əsaslandırılmış təkliflər hazırlayıb normayaradıcı fəaliyyətdə istifadə edilməsi üçün təqdim etməkdən, daxil olan qanunvericilik təşəbbüslərinə və layihələrinə rəy verməkdən ibarət idi. Məsələn, Cinayət Məcəlləsinin cəzalar sistemində azadlığın məhdudlaşdırılması növündə cəzanın nəzərdə tutulmasını təklif etmişdim. Elmi-tədqiqat işi ilə yanaşı, pedaqoji fəaliyyətlə məşğul olurdum, o cümlədən Ədliyyə Nazirliyinin Hüquqi kadrların təkmilləşdirilməsi institutunda, Leninqrad Maliyyə-kredit institutunun Bakı filialında (hazırkı İqtisad Universiteti) və digər təhsil ocaqlarında hüquqi fənləri tədris edirdim.



Fəlsəfə və Hüquq İnstitutunda mən çox nüfuzlu bir kollektivdə, tanınmış hüquqşünas alimlərlə birlikdə çalışırdım. Şöbə müdirimiz professor Tofiq Qafarov idi, o, sonradan Bakı Dövlət Universitetinin Hüquq fakültəsində Cinayət hüququ kafedrasının müdiri seçildi.

Bir neçə ali məktəbdən müəllim ştatına qəbul olunmaq barədə təklif alsam da, düşünürdüm ki, yüksək peşəkar hazırlıqlı hüquqşünas olmaq üçün praktiki hüquq fəaliyyətinin xüsusiyyətlərini də bilmək zəruridir. Buna görə də elmi-tədqiqat institutunda işləməyə davam edərək prokurorluğa işə qəbul olunmağa istəyim yaranmışdır.

Odur ki, 1990-cı illərdə prokurorluq orqanlarına köçürmə qaydasında işə qəbul olunan gənc hüquqşünas alimlər sırasında məndə oldum. Həmin vaxt mənim 29 yaşım var idi. Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi Fərrux Vəkilov mənim sənədlərim ilə tanış olduqdan sonra təəccüblü şəkildə “Kommunist Partiyasının üzvü deyilsiniz ki?” sualı ilə mənə müraciət etdi. Cavab verdim ki, xeyr, prokurorluğa işə qəbul olunmaq üçün mütləq üzvü olmalıyam? İdarə rəisi bir qədər pauzadan sonra “Hazırkı dövrdə bu mütləq deyil” dedi. Bundan sonra məni işə qəbul olunan digər alim hüquqşünaslarla birgə Baş prokuror İlyas İsmayılov qəbul edərək prokurorluğa işə qəbul olunmağımızla bağlı tövsiyələrini bildirdi və bizə təyinatlar elan olundu.

Mən, Bakı şəhər prokurorluğunun Sosial, iqtisadi və kənd təsərrüfatı sahələrində qanunların icrasına nəzarət şöbəsinin prokuroru vəzifəsinə təyin olundum. İlk iş günü daha çox təşkilati və tanışlıq məsələlərinə həsr olunmaqla, məni və digər işə yeni qəbul olunmuş şəxsləri Bakı şəhər prokuroru İsaxan Vəliyev qəbul edərək müvafiq tapşırıqlarını verdi, bizim iş otağımız müəyyən edildi, şöbə rəisi Eldar Balakişiyev ilə tanış olduq, o bizə işə aid olan tələblər, vəzifə bölgüsü, üzərimizə düşən vəzifələr barədə ətraflı məlumat verdi. Bundan sonra icrası mənə həvalə edilmiş sənədlər daxil olmağa başladı və mən onları icra etməyə başladım.

***Peşəkar işçi kimi formalaşmağınızda hansı həmkarlarınızın təsirini qeyd etmək istərdiniz?***

Bakı şəhər prokurorluğunun ümumi nəzarət işi çox əhatəli və geniş idi, ictimai-siyasi, sosial-iqtisadi sahələrdə, ekoloji və digər bütün sferalarda qanunların icrasına nəzarət məsələlərini əhatə edirdi. İş çox olduğundan gecə saat 9, 10-dək işdə olurdum. Bir qayda olaraq, şənbə və bazar günləri də işləyirdim. Qaçqın və məcburi köçkün düşmüş soydaşlarımızın mənzil və digər problemləri ilə bağlı çoxsaylı müraciətlərinə, hüquq pozuntuları ilə bağlı kollektiv və fərdi ərizələrə, qanun pozuntuları ilə əlaqədar müxtəlif qurumların məktublarına, aparılmış audit və yoxlamaların nəticələrinə dair materiallara baxırdıq, özümüz də ümumi nəzarət qaydasında yoxlamalar aparırdıq.



Görülən işin nəticəsində tərəfimdən bir ay ərzində təxminən 15-20 təqdimat, protest və digər prokuror təsiri tədbirləri, eləcə də cinayət işinin başlanması və yaxud başlanmasının rədd edilməsi barədə bir neçə qərar qəbul edilirdi, təbiətə vurulmuş ziyanın müvafiq vəzifəli şəxslərin maaşlarından tutulması barədə məhkəmələrə 10-a yaxın iddia ərizəsi göndərilirdi. Təbii ki, bu işlərin görülməsi yüksək peşəkarlıq tələb edirdi. Ümumiyyətlə, prokurorluqda fəaliyyətin istənilən bir sahəsi yüksək peşəkarlıq tələb edir. Yüksək peşəkarlıq isə mükəmməl baza təhsili ilə yanaşı, gündəlik zəhmət, daim öz üzərində işləmə, bu günün işini sabaha saxlamama, bilmədiyini öyrənmək və işə can yandırmaq nəticəsində tədricən yaranır. Qeyd etməliyəm ki, prokurorluqda əsasən ən yüksək peşəkarlıq səviyyəsinə malik olan hüquqşünaslar işləyib və işləyir, bu hal artıq bir ənənə xarakterini alıb. Prokurorluq orqanlarında bütövlükdə yüksək peşəkarlıq mühitinin və peşəkarlıq varisliyinin formalaşmasına optimal şərait mövcuddur. Mənim işlədiyim dövrdə prokurorluqda fəaliyyətə başlayan şəxsin peşəkar kimi formalaşması üçün bütün müvafiq şərait olmuşdur və bu gün də bunun üçün bütün lazımi işlər görülür. Lakin, işçinin yüksək peşəkarlıq səviyyəsinə çatması onun işə münasibətindən, öz üzərində işləməsindən və çalışqanlığından daha çox asılıdır.

Mənim bir peşəkar prokurorluq işçisi kimi formalaşmağımda yeni işlədiyim dövrdə mənimlə bir kollektivdə işləyən, həmin vaxt üçün artıq müəyyən təcrübəyə malik olan, sonrakı dövrlərdə isə fəaliyyətimizə rəhbərlik etmiş yüksək idarəçilik bacarıqlarına və peşəkarlıq keyfiyyətlərinə malik olan həmkarlarımın rolu önəmli olmuşdur.

***Mahir müəllim, Siz uzun müddət cinayət hüququ sahəsində elmi işçi kimi fəaliyyət göstərdikdən sonra prokurorluq orqanlarına qulluğa qəbul edilmisiniz. Elmi-nəzəri sahədə tədqiqat təcrübəsi Sizə prokuror kimi xidməti fəaliyyətinizdə hansı üstünlüklər vermişdir?***

Bu təcrübənin prokurorluqda xidmət zamanı üstünlüyü ondan ibarət oldu ki, həmin vaxt prokurorluğa ilk dəfə işə qəbul olunan şəxslərə kiçik hüquqşünas, köçürmə qaydasında isə alimlik dərəcəsi olan şəxslərə 1-ci dərəcə hüquqşünas rütbəsi verildiyi halda, mənə işə başladığım müddətdən bir il sonra SSRİ Baş Prokurorunun əmri ilə 2-ci dərəcə hüquqşünas rütbəsi verildi. Həmçinin, elmi-nəzəri sahədə təcrübəmin olması nəzərə alınaraq, mən prokurorluğa işə qəbul olunduğum ilk vaxtlardan Baş Prokurorluğun Elmi-Məsləhət Şurasının üzvü oldum və onun iclaslarında baxılan məsələlərin müzakirəsində fəal iştirak edirdim. Elmi-nəzəri təcrübənin olmasının prokurorluqda xidmətimlə bağlı digər üstünlük verməsini xatırlamıram, lakin faydası çox olmuşdur.

Prokurorluq orqanlarının fəaliyyətində elə məsələlər vardır ki, onların müvafiq səviyyədə icrası üçün elmi-nəzəri təcrübənin olmasına zərurət vardır. Bu məsələlərə prokurorluğun fəaliyyətinin müəyyən istiqamətləri üzrə metodik vəsaitlərin və metodiki tövsiyələrin hazırlanması, prokurorluğun əlamətdar hadisə və tarixləri ilə bağlı kitab və bukletlərin hazırlanması, prokurorluq işçilərinə yeni qanunvericiliyin tətbiqi ilə bağlı əsaslandırılmış izahların verilməsi, prokurorluğun fəaliyyətinin nəticələrinə və qanunvericiliyin icrası vəziyyətinə dair ümumiləşdirmələrin hazırlanması, kollegiyalarda və digər tədbirlərdə prokurorluğun fəaliyyətinə dair məruzə və çıxışların hazırlanması, işə yeni qəbul olunmuş prokurorluq işçilərinə və ya hakimliyə namizədlərə müvafiq hüquqi mövzularda mühazirələrin oxunması, prokurorluğa qulluğa qəbul üzrə test suallarının hazırlanması, Konstitusiyaya dəyişikliklərin edilməsi ilə bağlı keçirilən referendumların hüquqi əsaslarının və mahiyyətinin izahına dair məqalələrin hazırlanması, prokurorluğun fəaliyyətinə dair aktların hazırlanması üzrə normayaradıcı fəaliyyət, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı layihələrin hazırlanması, normativ hüquqi aktların layihələrinə rəy verilməsi, onların hüquqi ekspertizadan keçirilməsi və sair aiddir. Prokurorluqda işlədiyim dövrdə həmin məsələlərin həyata keçirilməsində yaxından iştirak etdiyimə görə elmi-nəzəri tədqiqat təcrübəsinə malik



olmağım onların daha yüksək səviyyədə və keyfiyyətdə icra edilməsinə imkan yaratmaqla, barəmdə həvəsləndirmə tədbirlərinin tətbiqinə əsas vermişdir.

Qeyd olunanlarla bağlı görülmüş işlərdən çox danışa bilərəm, lakin, vaxtınızı çox almamaq üçün onlardan yalnız birini qeyd etmək istərdim. 01.03.2016-cı il tarixdən qüvvəyə minmiş yeni İnzibati Xətalar Məcəlləsi inzibati xətalar haqqında işlər üzrə prokuror nəzarətini genişləndirməklə, qanunda çoxlu yeni norma və müddəalar nəzərdə tutmuşdur. Yeni Məcəllənin tətbiqi ilə bağlı bu sahədə yerlərdə prokuror nəzarətinin təşkili və həyata keçirilməsi ilə əlaqədar rayon və şəhər prokurorluğu əməkdaşlarından hər gün çoxsaylı suallar daxil olurdu. Bununla bağlı Baş prokurorun yanında keçirilmiş 31.07.2017-ci il tarixli əməliyyat müşavirəsində həmin sahədə geniş metodiki vəsaitin hazırlanması mənə tapşırıldı. Daxil olan sual və müraciətlər tərəfimdən öyrənilməklə, onların düzgün həlli yolları araşdırılaraq, yeni İXM-də və əlaqəli normativ hüquqi aktlarda təsbit edilmiş müvafiq normalar hərtərəfli təhlil edilərək, tərəfimdən xeyli sayda əsaslandırılmış izahlar, kommentarialar və tövsiyələr özündə əks etdirən Metodik vəsait hazırlanmışdır. Həmin vəsait üzrə müsbət rəy verilərək, istifadə olunması üçün prokurorluğun bütün struktur qurumlarına, habelə tabe prokurorluqlara göndərilmişdir.

Yeri gəlmişkən, Metodiki vəsaitin hazırlanması dövründə tərəfimdən inzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin həyata keçirilməsinə cavabdeh olan xüsusi qurumun yaradılması, eləcə də stimullaşdırıcı tədbir kimi prokuror tərəfindən icraatı başlanmış inzibati xətalar haqqında işlər üzrə tətbiq olunan cərimələrin müəyyən faizinin prokurorluğun hesabına keçirilməsi təklif edilmişdir. Həmin vaxt bu təkliflər qəbul olunmasa da, prokurorluğun hazırkı rəhbərinin təşəbbüsü ilə aparılan islahatlar çərçivəsində bu məsələlər öz həllini tapdı.

***Siz prokurorluqda xidmət etdiyiniz illərdə uğurla elmi-pedaqoji fəaliyyətlə də məşğul olmusuz. Tələbələrinizdən prokurorluqda işləyən varmı?***

Prokurorluğa işə qəbul olunduqdan sonra ilk dövrlər bütün vaxtım tam şəkildə, istirahət günləri də daxil olmaqla bu işə səfərbər olunduğundan, pedaqoji fəaliyyətlə məşğul ola bilməsəm də, sevimli məşğuliyyətim olan elmi yaradıcılıq fəaliyyəti ilə mütəmadi olaraq məşğul olmuşam. Xüsusən də kitablar, metodiki vəsaitlər, tədris proqramları, məqalələr və digər elmi əsərlər hazırlayıb nəşr etdirmişəm.

Yalnız 2002-ci ildən Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında dərs deməyə başladım. Mənə həvalə edilmiş fənlər sırasında respublikamızda ilk dəfə olaraq tədris olunan (magistratura pilləsində) fənlər də var idi. Bu fənlərdən biri kimi seçki hüququnu qeyd edə bilərəm. Bir sıra digər elmi əsərlərim ilə yanaşı, Təhsil Nazirliyi tərəfindən ali məktəbin hüquqşünaslıq ixtisası üçün metodiki vəsait kimi təsdiq olunmuş "Cinayət cəzası: cinayətkarlığa təsir məsələləri" adlı kitabım nəşr olundu. 2007-ci ildə mənə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi adı verildi. 2009-cu ildə isə Təhsil nazirinin əmrinə əsasən Dövlət İdarəçilik Akademiyasında hüquqşünaslıq ixtisası üzrə bakalavr pilləsində buraxılış üzrə Dövlət Attestasiya Komissiyasının sədri vəzifələrini həyata keçirdim.

Dərs dediyim ötən illər ərzində Akademiyanı bitirərək hüquqşünaslıq ixtisası üzrə ali təhsil diplomu almış tələbələrimiz çox olmuşdur. Akademiyanın məzunları yüksək ixtisaslı ali təhsilli hüquqşünaslar olaraq test imtahanları, digər işə qəbul prosedurlarından müvəffəqiyyətlə keçərək müxtəlif dövlət orqanlarında, məhkəmə sistemində, prokurorluqda, digər hüquqmühafizə orqanlarında, vəkillər kollegiyasında, ali idarəetmə orqanlarında işə qəbul olunaraq uğurla işləyərək xidməti fəaliyyətlərində irəli gedirlər. Tələbələrimizin uğurları biz müəllimləri sevindirir, biz onlarla daim maraqlanırıq. Sevindirici haldır ki, tələbələrimiz prokurorluqda da xeyli sayda təmsil olunublar, onlar müxtəlif vəzifələrdə işləyirlər və qulluqlarını uğurla davam etdirirlər, onlara göstərilən etimadı doğrultmağa çalışırlar.




*Mahir müəllim, təqaüdə çıxdıqdan sonra əmək və ya digər fəaliyyətlə məşğul olursunuzmu?*

Mən prokurorluqda qulluqda olmanın son yaş həddinə çatdığıma görə pensiyaya çıxdıqdan sonra da elmi-pedaqoji fəaliyyətlə məşğul olmaqda davam edirəm. Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının dosenti vəzifəsində işləyərək cinayət prosesi, inzibati hüquq, inzibati proses, cəza icra hüququ, hüquqi yazı və digər əsas hüquq fənlərini tədris edirəm. Hüquqi fənlərin tədrisi ilə yanaşı dissertasiya, kitab və elmi-tədqiqat işlərinin müzakirəsində, onlara rəy verilməsində, Akademiyanın Dövlət Attestasiya Komissiyasının üzvü kimi buraxılış işlərinin müdafiəsində iştirak edirəm. Eyni zamanda, tələbələrlə bağlı olan ictimai xarakterli işlərdə, onların hüquqi viktorinalara, yarışmalara cəlb olunmasında, praktika keçmələrinin təşkilində, Akademiyada təşkil edilən ictimai tədbirlərdə də fəal iştirak etməyə çalışıram.

*Son illər prokurorluğun veteranlarının təşkilatlanması, onların müxtəlif ictimai tədbirlərə cəlb edilməsi ilə bağlı ciddi addımlar atılmışdır. Bu qəbildən olan tədbirlərə qatılırsınızmı?*

Son illər prokurorluq orqanlarında baş verən təqdirəlayiq yeniliklər içərisində prokurorluğun veteranlarının təşkilatlanmasını, prokurorluğun ictimai və kütləvi-mədəni tədbirlərinə veteranların cəlb edilməsini, əvvəlki nəsil prokurorluq işçilərinin çox illər ərzində qazanılmaqla özünü doğrultmuş iş üslub və təcrübəsinin yeni nəsil prokurorluq işçilərinə ötürülməsinə şərait yaradılmasını, veteranlara əvvəlkindən daha çox diqqət göstərilməsini qeyd etməmək mümkün deyildir. Prokurorluq işi belə bir işdir ki, işinə can yandırmayan, bu peşəni sevməyən prokurorluq işçisi, bir qayda olaraq, prokurorluğun veteranı ola bilmir. İşinə can yandıran prokurorluq işçisi isə gününün, həyatının və ömrünün çox hissəsini prokurorluğa həsr edir. Yəni, prokurorluq onlar üçün yalnız iş yeri deyil, həm də doğma ev olur. Buna görə də prokurorluqda unudulmadığını hiss etmək veteran üçün çox vacib olur. Bu yalnız mənim deyil, bütün prokurorluq veteranlarının fikridir. Mən prokurorluq tərəfindən keçirilən, veteranlar dəvət olunan bütün tədbirlərdə bir qayda olaraq iştirak etməyə çalışıram. Həmin tədbirlər yüksək təşkilatçılıqla keçirilməklə biz veteranlar üçün də çox maraqlı, məzmunlu və əhəmiyyətli olur. Veteranlarımız son illərdə prokurorluğun rəhbərliyi tərəfindən onlara göstərilən yüksək diqqəti məmnunluqla qeyd edirlər.

*Prokurorluğun veteranı və təcrübəli prokuror kimi gənc həmkarlarınıza hansı tövsiyələri vermək istərdiniz?*

Gənc prokurorluq işçilərinə tövsiyələrim ondan ibarətdir ki, əvvəla bir an belə unutmasınlar ki, onlar güclü iradəyə, yenilməz qətiyyətə və yüksək sərkərdəlik məharətinə malik müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatları nəticəsində torpaqlarımızı işğaldan azad edərək ərazi bütövlüyünü təmin etmiş qalib ölkənin vətəndaşlarıdır və daim bundan qürur duysunlar, bununla fəxr etsinlər. Gənc prokurorluq işçiləri tarixi ədaləti bərpa edərək torpaqlarımızı öz qanı və canı hesabına işğaldan azad etmiş xalqın nümayəndələri olmalarından, özünün beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini beynəlxalq hüquqa və BMT-in Nizamnaməsinə uyğun olaraq tam bərpa etmiş, həyata keçirilən müdrik dövlət siyasəti nəticəsində davamlı olaraq hərtərəfli inkişaf edərək həyatın bütün sahələrində ildən ilə daha möhtəşəm uğurlar qazanan hüquqi dövlətin prokurorluq orqanlarında qulluq etmələrindən çox böyük qürur hissi keçirsinlər, buna yüksək dəyər versinlər, bunun yüksək məsuliyyətini dərk etsinlər, prokurorluq peşəsini, prokurorluq işçisi adını daim uca tutsunlar, şərəflə daşısınlar.

Gənc prokurorluq işçilərinə öz peşə fəaliyyətlərini qanunun tələblərinə müvafiq olaraq həyata keçirməyi, xidməti vəzifələrinə yüksək tələbkarlıqla yanaşmağı, çətinliklərdən qorxmamağı, bu günün işini sabaha saxlamamağı, prokurorluq işini sevməyi, ona ürəklərincə olan, arzuladıqları bir peşə və fəaliyyət kimi yanaş-



malarını, prokurorluğun ənənələrini qorumağı, yüksək peşəkarlığa nail olmaq üçün daim öz üzərlərində çalışmağı, gündəlik olaraq qanunvericilikdə baş verən yenilikləri izləməyi, bilmədiyini öyrənməkdən çəkinməməyi, xalqımızın maraqlarını öz şəxsi maraqlarından, dövlətçiliyimizi və qanunçuluğu isə hər şeydən üstün tutmağı, qərəzsiz və ədalətli olmağı tövsiyə edirəm.

***Ənənəvi sualımızı vermək istərdik. Həyatınızda ən yüksək nailiyyətiniz kimi nəyi qəbul edirsiniz?***

Nailiyyət dedikdə müəyyən edilmiş hədəflərə, qarşıya qoyulmuş məqsədlərə nail olunma, arzu olunan nəticəyə çatma, istəklərin yerinə yetirilməsi, gözləntilərin realizasiyası başa düşülür. Nailiyyətin dəyəri, konkret şəxs üçün əhəmiyyəti və daha yüksək qiymətləndirilməsi, fikrimcə, onun əldə edilməsi üçün fərdin hansı dərəcədə çalışmasından, bunun üçün nə qədər zəhmət çəkməsindən və əmək sərf etməsindən də asılıdır. Əgər şəxs böyük bir nailiyyət kimi qəbul oluna bilən istəyinə çatırsa, lakin o bunu zəhmət çəkmədən əldə edirsə, həmin nailiyyət bu şəxs tərəfindən yüksək nailiyyət kimi qəbul edilməyəcək və dəyərləndirilməyəcək. Mənim həyatda qazandığım nailiyyətlərin hamısı öz əməyimin və zəhmətimin nəticəsi olduğuna görə onların hamısı mənim üçün yüksək dəyərə malikdir və mən onların hər birini onların qazanıldıqları zaman üçün yüksək nailiyyət hesab edirəm. Bununla yanaşı, qeyd etməliyəm ki, bu nailiyyətlər bir-biri ilə bağlı olmaqla biri o birisinin davamı olduğundan, mən onları bir birindən ayırmayaraq hamısını yüksək dəyərləndirirəm. Həqiqətən də mən Moskva Dövlət Universitetinin Hüquq fakültəsinə qəbul olunmasaydım, həmin fakültəni müvəffəqiyyətlə bitirməzdim. Hər ikisi öz zamanı üçün yüksək nailiyyətdir. Fakültəni müvəffəqiyyətlə bitirib Elmi Şuranın qərarı ilə aspiranturaya tövsiyə olunmasaydım və orada tədqiqatçı stajoru işinə qəbul edilməsəydim, 26 yaşında hüquq elmləri namizədi olmazdım. Elmi dərəcəm olmasaydı, Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun baş elmi işçisi vəzifəsində işləməzdim və köçürmə qaydasında Azərbaycan Prokurorluğu orqanlarına işə qəbul edilməzdim. Nəticədə bu mühüm hüquq-mühafizə orqanının bütün növ həvəsləndirmə tədbirlərinə, o cümlədən "Prokurorluğun fəxri işçisi" döş nişanına layiq görülməzdim və 2021-ci ildə qulluğun son yaş həddinə çatdığıma görə pensiyaya çıxaraq "Prokurorluğun veteranı" adını qazanmazdım, prokurorluqdakı fəaliyyətim ilə bağlı digər nailiyyətlərim də olmazdı.

Prokurorluqda işləməklə yanaşı, elmi-pedaqoji fəaliyyətlə məşğul olmağı davam etdirməsəydim, 2007-ci ildə mənə Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi adı da verilməzdi. Ona görə də, nailiyyət əldə etmək – fərqlənmək, yüksək göstərici əldə etmək deməkdir. Deməli, bütün əmək sərf etməklə, zəhmət çəkməklə qazanılmış nailiyyətlər yüksəkdir.

***Mahir müəllim, bir daha bu maraqlı və geniş müsahibəyə görə jurnalın redaksiya heyəti adından Sizə təşəkkürümüzü bildiririk.***

Mən də müsahibə üçün dəvətinizə, bunun üçün vaxtınızı sərf etməyinizə, çox maraqlı suallar verməyinizə görə Sizə və jurnalın redaksiya heyətinə dərin təşəkkürümü bildirirəm, fəaliyyətiniz daim uğurlu olsun. Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; 2022, № 5, maddələr 434, 437, № 7, maddə 703, № 8, maddələr 821, 828, № 12, maddələr 1363, 1373; 2023, № 1, maddə 39, № 2, maddə 207, № 4, maddə 445, № 6, maddə 755) 234-cü maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndindən "qanunsuz kultivasiya edilən" sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 noyabr 2023-cü il
№ 1023-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 695; 2007, № 5, maddə 437, № 10, maddələr 932, 938; 2008, № 7, maddə 602; 2009, № 1, maddə 6; 2014, № 11, maddə 1374; 2015, № 11, maddə 1273; 2016, № 6, maddə 992; 2017, № 1, maddə 8, № 11, maddə 1982; 2018, № 5, maddə 884; 2019, № 11, maddə 1690; 2020, № 7, maddə 829; 2021, № 8, maddə 898; 2022, № 5, maddə 433; 2023, № 4, maddə 451) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1-ci maddə üzrə:

**1.1.** 1.0.1-ci maddəyə "bitkilərdir" sözündən sonra "(onların hissələridir)" sözləri əlavə edilsin;

**1.2.** 1.0.6-cı maddədə “, yetişdirilməsi və ya onların (onların hissələrinin) toplanmasıdır” sözləri “və ya yetişdirilməsidir” sözləri ilə əvəz edilsin.

**2.** 21-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 21. Narkotik vasitələrin (o cümlədən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) və psixotrop maddələrin, habelə onların prekursorlarının miqdarı**

**21.1.** Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının miqdarı təmiz və qarışıq vəziyyətində ayrılıqda müəyyənləşdirilir.

**21.2.** Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinə əsas verən narkotik vasitələrin (o cümlədən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) və psixotrop maddələrin, habelə onların prekursorlarının xeyli, külli və xüsusilə külli miqdarları müvafiq qanunlarla müəyyən olunur.

**21.3.** Narkotik vasitələrin (o cümlədən tərkibində narkotik maddələr olan bitkilərin (onların hissələrinin) və psixotrop maddələrin, habelə onların prekursorlarının müvafiq qanunlarla müəyyən edilmiş xeyli miqdarından aşağı olan miqdarı şəxsin inzibati məsuliyyətə cəlb edilməsinə əsas verən az miqdardır.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 noyabr 2023-cü il
№ 1024-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### “Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

*Çıxarış*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahılarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 697, № 12, maddə 1085; 2010, № 5, maddə 382; 2016, № 6, maddə 996; 2017, № 2, maddə 163, № 5, maddə 731, № 11, maddə 1981; 2021, № 4, maddə 304) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında və I maddədə “edilməsi üçün kifayət edən” sözləri “edilməsinə əsas verən” sözləri ilə, “miqdarına, habelə onların külli miqdarına” sözləri “xeyli, külli və xüsusilə külli miqdarlarına” sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qanunla təsdiq edilmiş “Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları” aşağıdakı redaksiyada verilsin:...

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 noyabr 2023-cü il
№ 1025-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### “Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

*Çıxarış*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Güclü təsir edən maddələr və onların külli miqdarının, habelə zəhərli maddələrin siyahılarının təsdiq edilməsi

haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 635; 2019, № 1, maddə 38) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında, preambulada və 1-ci maddədə "miqdarının" sözü "və xüsusilə külli miqdarlarının" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qanunla təsdiq edilmiş 1 nömrəli əlavə – "Güclü təsir edən maddələrin və onların külli miqdarının Siyahısı" aşağıdakı redaksiyada verilsin:..

**Qeyd:**

**1.** Bu Siyahıda göstərilən miqdarlar əsas təsiredici maddələrin təmiz çəkisidir.

**2.** Bu Siyahıda göstərilən bütün maddələrin duzları (belə duzların mövcudluğu mümkün olduğu halda), izomerləri (belə izomerlərin mövcudluğu mümkün olduğu halda), mürəkkəb və sadə efirləri güclü təsir edən maddələrə aiddir.

**3.** Bu Siyahıda sadalanan maddələrin daxil olduğu bütün dərman formaları (qarışıq və məhlullar) hansı firma (ticari) adına malik olmasından asılı olmayaraq güclü təsir edən maddələrə aiddir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 noyabr 2023-cü il
№ 1026-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 1980) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adında və ikinci abzasda "və külli miqdarının" sözləri ", külli və xüsusilə külli miqdarlarının" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qanunla təsdiq edilmiş "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı" aşağıdakı redaksiyada verilsin:

**"Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədi ilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli, külli və xüsusilə külli miqdarlarının**
**S İ Y A H I S I**

| Sıra №-si | Prekursorun adı | Xeyli miqdar (təmiz halda qram və litrlə) daxil olmaqla, aşağı hədləri | Külli miqdar (təmiz halda qram və litrlə) daxil olmaqla, aşağı hədləri | Xüsusilə külli miqdar (təmiz halda qram və litrlə) daxil olmaqla, aşağı hədləri |
|---|---|---|---|---|
| 1. | 1-Fenil-2-propanon | 10 qram | 2000 qram | 400000 qram |
| 2. | 3,4-metilendioksifenil-2-propanon | 10 qram | 2000 qram | 400000 qram |
| 3. | Antranil turşusu | 2500 qram | 25000 qram | 250000 qram |
| 4. | Aseton | 50 litr | 200 litr | 8000 litr |
| 5. | Efedrin (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır) | 25 qram | 5000 qram | 1000000 qram |
| 6. | Erqometrin (erqonovin) | 0,3 qram | 3 qram | 30 qram |
| 7. | Erqotamin | 0,3 qram | 3 qram | 30 qram |
| 8. | Etil efiri | 20 litr | 200 litr | 2000 litr |

| | | | | |
|---|---|---|---|---|
| 9. | Fenilsirkə turşusu | 1000 qram | 10000 qram | 100000 qram |
| 10. | Xlorid turşusu | 100 litr | 1000 litr | 10000 litr |
| 11. | İzosafrol | 500 qram | 5000 qram | 50000 qram |
| 12. | Kalium permanqanat | 500 qram | 3000 qram | 18000 qram |
| 13. | Lizergin turşusu | 0,1 qram | 1 qram | 10 qram |
| 14. | Metiletilketon (MEK) | 20 litr | 200 litr | 2000 litr |
| 15. | N-asetilantranil turşusu | 300 qram | 3000 qram | 30000 qram |
| 16. | Norefedrin | 25 qram | 5000 qram | 1000000 qram |
| 17. | Piperidin | 20 qram | 200 qram | 2000 qram |
| 18. | Piperonal | 20 qram | 200 qram | 2000 qram |
| 19. | Psevdoefedrin (başqa mürəkkəb tərkibli dərman preparatlarının tərkibində nəzarətdə saxlanılmır) | 25 qram | 5000 qram | 1000000 qram |
| 20. | Safrol | 500 qram | 5000 qram | 50000 qram |
| 21. | Sirkə turşusunun anhidridi | 100 qram | 5000 qram | 250000 qram |
| 22. | Sulfat turşusu | 100 litr | 1000 litr | 10000 litr |
| 23. | Toluol | 100 litr | 1000 litr | 10000 litr |

**Qeyd:** Bu Siyahıda göstərilən miqdarlar həmin prekursorların duzlarına (belə duzların mövcudluğu mümkün olduğu halda) da aiddir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 21 noyabr 2023-cü il
№ 1027-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Dövlət orqanlarında (qurumlarında) normayaratma fəaliyyətinin təkmilləşdirilməsi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dövlət orqanları (qurumları) tərəfindən normayaratma fəaliyyətinin təşkilində və həyata keçirilməsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə səmərəliliyin və operativliyin təmin olunması məqsədilə, habelə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 971-VIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** "Normativ hüquqi aktlar" informasiya sistemi yaradılsın.

**2.** "Normativ hüquqi aktlar" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**3.** "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**4.** Müəyyən edilsin ki:

**4.1.** "Normativ hüquqi aktlar" informasiya sistemi (bundan sonra — Sistem) Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra hakimiyyəti orqanları, digər dövlət orqanları, habelə nizamnamələrinə əsasən normativ hüquqi akt layihələrinin hazırlanmasında iştirak etmək səlahiyyəti olan Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər tərəfindən normativ hüquqi aktların layihələrinin hazırlanmasını, digər dövlət orqanları (qurumları) ilə razılaşdırılmasını və yuxarı orqanlara təqdim olunmasını elektron qaydada təmin edir;

**4.2.** Sistemin sahibi funksiyalarını Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, operatoru funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi həyata keçirir.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**5.1.** normativ hüquqi aktların bu Fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**5.2.** Sistemin aparılması və saxlanılması ilə əlaqədar xərclərin cari ildə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi üçün, növbəti illərdə isə dövlət büdcəsi layihələrində müvafiq vəsaitin nəzərdə tutulması üçün tədbirlər görsün;

**5.3.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**6.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

**6.1.** Sistemin formalaşdırılması və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün;

**6.2.** Sistemin "Hökumət buludu"nda yerləşdirilməsi üçün texnoloji mühiti təmin etsin;

**6.3.** "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, Sistemin digər dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini "Elektron Hökumət İnformasiya Sistemi" vasitəsilə təmin etsin.

**7.** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

**7.1.** Sistemi mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin və həmin Sistemin təhlükəsizlik meyarları üzrə monitorinqini həyata keçirsin;

**7.2.** Sistemin informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə sahib və operatorla birlikdə zəruri tədbirlər görsün.

**8.** "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 492; 2007, № 11, maddə 1103; 2011, № 7, maddə 645; 2014, № 3, maddə 243; 2018, № 5, maddə 948) 1-ci hissəsi ləğv edilsin.

**9.** Bu Fərmanın 3-cü hissəsi ilə təsdiq edilən Əsasnamənin 1.4-cü bəndi və 6-cı hissəsi 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 6 oktyabr 2023-cü il
№ 2328

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti peşəkar gizir heyətinin hazırlanması məqsədilə Bakı, Gəncə şəhərlərində və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində 3 xüsusi təyinatlı hərbi kolleci (bundan sonra – hərbi kollec) üç ay müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**2.** 2024–2025-ci tədris ilindən başlayaraq təhsil almaq üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki ali təhsil müəssisəsinin bakalavriat səviyyəsinə, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursuna (bundan sonra – ali təhsil müəssisəsi) və hərbi kollecləre qəbul olunmuş kursantlar üçün 500 (beş yüz) manat, hərbi liseylərə qəbul olunmuş kursantlar üçün 300 (üç yüz) manat məbləğində birdəfəlik ödəmə təsis edilsin.

**3.** 2024–2025-ci tədris ilindən başlayaraq bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan təhsil müəssisələrində təhsil alan kursantlar üçün təhsil müddətində aşağıdakı aylıq ödəmələr təsis edilsin:

**3.1.** ali təhsil müəssisəsi üzrə:

**3.1.1.** 150 (yüz əlli) manat məbləğində təqaüd;

**3.1.2.** 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

**3.1.3.** 200 (iki yüz) manat məbləğində hesabda yığılan ödəniş;

**3.2.** hərbi kolleclər üzrə:

**3.2.1.** 100 (yüz) manat məbləğində təqaüd;

**3.2.2.** 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

**3.2.3.** 150 (yüz əlli) manat məbləğində hesabda yığılan ödəniş;

**3.3.** hərbi liseylər üzrə:

**3.3.1.** 50 (əlli) manat məbləğində təqaüd;

**3.3.2.** 100 (yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

**3.3.3.** 100 (yüz) manat məbləğində hesabda yığılan ödəniş.

**4.** 2024–2025-ci tədris ilindən başlayaraq ali təhsil müəssisəsinə və hərbi kolleclərə daxil olan kursantlar həmin təhsil müəssisələrindən məzun olaraq Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir kimi həqiqi hərbi xidmət keçdikdən sonra yaşayış sahəsinin alınması üçün Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına güzəştli ipoteka kreditindən istifadə etdikdə müvafiq yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilsin.

**5.** Müəyyən edilsin ki:

**5.1.** bu Fərmanın 3.1.3-cü, 3.2.3-cü və 3.3.3-cü yarımbəndlərində göstərilən ödənişlər bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan kursantların hər biri üçün açılmış hesabda yığılır;

**5.2.** bu Fərmanın 5.1-ci bəndinə uyğun olaraq hesabda

yığılan vəsait və həmin vəsaitin idarə olunmasından əldə edilən gəlir aşağıdakı hallarda ödənilir:

**5.2.1**. ali təhsil müəssisəsini və hərbi kollecləri bitirmiş məzunlara – Azərbaycan Ordusunda müvafiq qaydada zabit və ya gizir kimi vəzifəyə təyin edilərək həmin vəzifənin icrasına başladıqda;

**5.2.2.** hərbi liseyləri bitirmiş məzunlara – ali təhsil müəssisəsinə qəbul olduqda;

**5.3.** bu Fərmanın 2-ci və 3-cü hissələrində nəzərdə tutulan ödəmələr (bundan sonra – ödəmələr) dövlət büdcəsinin vəsaiti hesabına Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən ödənilir;

**5.4.** bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulan şəxslər güzəştli ipoteka kreditindən istifadə etdikdə onlara "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 569 nömrəli Fərmanının müddəaları şamil olunmur.

**6.** Hərbi kolleclərin fəaliyyətinin təşkili və zəruri infrastrukturun yaradılması məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ilkin olaraq 2 (iki) milyon manat məbləğində vəsait ayrılsın.

**7.** Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

**7.1.** "Gənclərin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almalarına dair 2024–2033-cü illər üçün Tədbirlər Planı"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**7.2.** ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

**7.3.** bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq güzəştli ipoteka krediti üzrə yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsinin maliyyələşdirilməsi, habelə güzəştli ipoteka kreditinin bir hissəsinin ödənilməsinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**7.4.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**8.** Azərbaycan Respublikasının Müdafiə Nazirliyi:

**8.1.** bu Fərmanın 2–4-cü hissələrində nəzərdə tutulan ödəmələrin maliyyələşdirilməsi məqsədilə tələb olunan vəsaitə dair təkliflərini müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

**8.2.** bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**9.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 6-cı hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 dekabr 2023-cü il
№ 2381

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

### Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 dekabr 2023-cü il

# AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun

## Q Ə R A R I

*Çıxarış*

**Azərbaycan Respublikası Konstitusiyasının 26 və 61-ci maddələri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.16.3-cü maddəsində nəzərdə tutulan "müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar" müddəasının həmin Məcəllənin 19.6, 32, 92.10 və 114-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair**

9 oktyabr 2023-cü il Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 26 və 61-ci maddələri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.16.3-cü maddəsində nəzərdə tutulan "müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar" müddəasının həmin Məcəllənin 19.6, 32, 92.10 və 114-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Baş Prokurorluğunun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsi, Bakı Apellyasiya Məhkəməsi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının mütəxəssis mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının professoru, hüquq elmləri doktoru M.Qəfərovun və həmin kafedranın dosenti, hüquq üzrə fəlsəfə doktoru R.Rüstəmovun rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu verərək Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət- Prosessual Məcəlləsi) 92.16.3-cü maddəsində nəzərdə tutulan "müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar" müddəasının həmin Məcəllənin 19.6, 32, 92.10 və 114-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda qeyd edilir ki, Cinayət-Prosessual Məcəlləsinin 19.1-ci maddəsində qanunverici imperativ qaydada cinayət təqibi gedişində təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxslərin keyfiyyətli hüquqi yardım almaq hüququnun təmin edilməsi üçün tədbirlərin görülməsini müəyyən etmişdir.

Eyni zamanda, Cinayət-Prosessual Məcəlləsinin 19.6-cı maddəsi ilə cinayət prosesində şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçisinin və qanuni nümayəndəsinin iştirak etməsinin bu şübhəli və ya təqsirləndirilən şəxsin hüquqlarını məhdudlaşdıra bilməməsi təsbit edilmişdir.

Sorğuverənin qənaətinə görə, təcrübədə şübhəli və ya təqsirləndirilən şəxslərin müdafiə hüquqlarının təmin edilməsi sahəsində cinayət-prosessual qanunvericiliyinin tələblərinə əməl edilməməsi və bu məsələləri tənzimləyən normaların fərqli qaydada tətbiq edilməsi halları baş verir.

Belə ki, bəzi hallarda təqsirləndirilən şəxs ona qarşı irəli sürülmüş ittiham üzrə özünü təqsirli bilməsə də, müdafiəçi ittiham üzrə cinayət əməlinin daha yüngül maddə ilə tövsif edilməsi və ya yüngülləşdirici halların yekun ittihamda nəzərə alınması məqsədilə cinayət təqibi orqanlarına vəsatətlər təqdim edir. Həmin vəsatətlər əsasında icra edilən müvafiq istintaq və digər prosessual hərəkətlər onunla izah olunur ki, şübhəli və ya təqsirləndirilən şəxslər Cinayət-Prosessual Məcəlləsinin 19.4.4 və 92.12-ci maddələrində göstərilən "şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə müdafiə olunmaq" hüquqlarını həyata keçirir və həmin müdafiəçidən imtina etmir.

Cinayət mühakimə icraatının sonrakı mərhələlərində isə məhkəmələr tərəfindən bəzən müdafiəçinin göstərilən prosessual hərəkətləri Cinayət-Prosessual Məcəlləsinin 92.10-cu maddəsində sadalanan qadağan edilmiş hallarla əlaqələndirilərək və ya təqsirləndirilən şəxsin müdafiə hüququnun pozulması kimi qiymətləndirilərək, həmin Məcəllənin 303.3.1-ci maddəsinə əsasən cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə qərar qəbul edilir.

Belə ki, həmin maddəyə əsasən, cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə qərar təqsirləndirilən şəxsin müdafiə hüququnun kobud pozulmasına yol verildikdə çıxarılır.

Sorğuda göstərilib ki, Cinayət-Prosessual Məcəlləsinin 114.1-ci maddəsinə əsasən müdafiəçiyə, həmçinin zərər çəkmiş şəxsin (xüsusi ittihamçının), mülki iddiaçının, mülki cavabdehin və ya şahidin nümayəndəsinə etiraz onun cinayət prosesində sonrakı iştirakını istisna edən hallardan hər hansı biri olduqda əsaslı sayılmalı və şərtsiz təmin olunmalıdır. Həmin hallar Məcəllənin 114.1.1 -114.1.5-ci maddələrində sadalanmışdır.

Cinayət-Prosessual Məcəlləsinin 92.10-cu maddəsində isə müdafiəçiyə münasibətdə müəyyən qadağalar təsbit edilmişdir. Sorğuverən həmin qadağaların müdafiəçinin cinayət prosesindən kənarlaşdırılması üçün əsas qismində çıxış edib-etməməsi ilə bağlı hüquq tətbiqetmə təcrübəsindəki qeyri-müəyyənliyin aradan qaldırılması, vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması, cinayət və cinayət-prosessual qanunvericiliyi normalarının eyni qaydada tətbiqinin və bununla da hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədilə Konstitusiya Məhkəməsinə sorğu verilməsi qənaətinə gəlmişdir.

Prokurorluq Cinayət-Prosessual Məcəlləsinin 92.16.3-cü maddəsində nəzərdə tutulmuş "müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar" müddəasının aşağıdakı hüquqi məsələlər üzrə həmin Məcəllənin 19.6, 32, 92.10 və 114-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir:

– müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallara hansı halların aid edilməsini (ona etiraz edilməli olan hallarla yanaşı, müdafiəçiyə qadağan olunmuş hərəkətləri də əhatə edib-etməməsi), eyni zamanda təqsirləndirilən şəxsin özünü təqsirli bilmədiyi ittiham üzrə müdafiəçinin cinayət əməlinin daha yüngül maddəyə tövsif edilməsinə dair müraciət etməsinin belə halların sırasına aid olub-olmaması;

– təqsirləndirilən şəxsin özünü təqsirli bilmədiyi ittiham üzrə cinayət əməlinin daha yüngül maddəyə tövsif edilməsinə dair müraciət etmiş müdafiəçinin kənarlaşdırılmasına dair müdafiə olunan şəxsin müvafiq vəsatəti və ya razılığı olmadığı halda, həmin müdafiəçinin icraatın sonrakı mərhələsində iştirakının müdafiə hüququnun kobud pozuntusu hesab edilib-edilməməsi.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıların qeyd olunmasını vacib hesab edir...

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.16.3-cü maddəsinin "müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar" müddəası, yalnız həmin Məcəllənin 114.1-ci maddəsində göstərilən müdafiəçinin cinayət prosesində iştirakını istisna edən halları nəzərdə tutur və bu Məcəllənin 92.10-cu maddəsində sadalanan müdafiəçiyə qadağan olunmuş hərəkətləri ehtiva etmir.

**2.** Təqsirləndirilən şəxsin özünü təqsirli bilmədiyi ittiham üzrə müdafiəçinin cinayət əməlinin daha yüngül maddə ilə tövsif edilməsinə dair müraciətinə müdafiə olunan şəxsin etirazı olmadığı halda, müdafiəçinin icraatın sonrakı mərhələsində iştirak etməsi Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 303.3.1-ci maddəsi ilə nəzərdə tutulmuş müdafiə hüququnun kobud pozuntusu hesab edilə bilməz.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

### Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun

### Q Ə R A R I

*Çıxarış*

### Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin I və X hissələri baxımından Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 18.5, 18.6, 43.3-1, 54.2 və 103-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair

11 oktyabr 2023-cü il — Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov (məruzəçi-hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Şəki Rayon Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin I və X hissələri baxımından Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 18.5, 18.6, 43.3-1, 54.2 və 103-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlər Şəki Rayon Məhkəməsi və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsi, Azərbaycan Respublikası Baş Prokurorluğu və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının mütəxəssis mülahizələrini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Şəki Rayon Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 18.5, 18.6, 43.3-1 və 54.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Müraciətdən görünür ki, "İNVİTRO" Məhdud Məsuliyyətli Cəmiyyətinə (bundan sonra – "İNVİTRO" MMC) məxsus Qax şəhərində yerləşən "İNVİTRO" özəl tibb müəssisəsinin lisenziyasız fəaliyyət göstərməsi barədə Qax Rayon Prokurorluğunda toplanmış materiallar Azərbaycan Respublikasının Baş Prokurorluğu (bundan sonra – Baş Prokurorluq) tərəfindən araşdırma aparılması üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin İstintaq və təhqiqat idarəsinə göndərilmiş, sonuncunun 15 mart 2023-cü il tarixli qərarı ilə cinayət işinin başlanması rədd edilmiş, "İNVİTRO" MMC-nin vəzifəli şəxslərinin İnzibati Xətalar Məcəlləsinin 210.1-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilməsi məsələsinə baxılması üçün materiallar Baş Prokurorluğa qaytarılmışdır.

Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsi tərəfindən "İNVİTRO" MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 210.1-ci maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilmiş və iş üzrə materiallar Şəki Rayon Məhkəməsinə göndərilmişdir.

Müraciətdə göstərilmişdir ki, İnzibati Xətalar Məcəlləsinin 54.2-ci maddəsində sadalanmış inzibati xətaların dairəsinə aid olmayan, digər inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında prokuror tərəfindən qəbul edilmiş qərarın baxılması üçün birbaşa məhkəməyə göndərilməsinin mümkünlüyü ilə bağlı məhkəmə təcrübəsində fərqli yanaşmalar mövcud olduğundan, Konstitusiya Məhkəməsinə müraciət edilməsinə zərurət yaranmışdır.

Belə ki, məhkəmənin hazırkı müraciətinə səbəb olmuş analoji işlər üzrə qəbul etdiyi qərarlar bir qayda olaraq yuxarı instansiya məhkəmələri tərəfindən ləğv edilərək protokol tərtib edilməsi üçün müvafiq səlahiyyətli orqana göndərilməsi məqsədilə məhkəməyə və ya prokurorluğa qaytarılır. Məhkəmə tərəfindən qəbul edilmiş qərarların yuxarı instansiya məhkəmələri tərəfindən ləğv edilməsinin əsası isə ondan ibarətdir ki, prokuror tərəfindən qəbul edilən inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar birbaşa məhkəməyə deyil, İnzibati Xətalar Məcəlləsinin inzibati xəta tərkibinin təsbit olunduğu müvafiq maddəsi üzrə işlərə baxmaq səlahiyyəti olan səlahiyyətli orqanlara (vəzifəli şəxslərə) göndərilməli və məhz həmin orqanın (vəzifəli şəxsin) tərtib etdiyi protokol baxılması üçün məhkəməyə göndərilməlidir.

Müraciətedən isə hesab edir ki, hüquqi şəxslərə inzibati tənbeh tətbiq edilməsi səlahiyyəti yalnız məhkəmələrə aid olduğundan və prokuror tərəfindən qəbul edilən inzibati xətalar haqqında iş üzrə icraatın başlanması haqqında qərar İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə tövsif olunan əməllərə dair işlərə baxmaq səlahiyyəti olan müvafiq orqanın protokolunu əvəz etdiyindən, prokuror tərəfindən qəbul edilmiş qərarın müvafiq səlahiyyətli orqana (vəzifəli şəxsə) göndərilməsi qanunauyğun deyil. Belə ki, yuxarı instansiya məhkəmələri tərəfindən analoji qərarların ləğv edilərək məhz müvafiq inzibati xətaya baxılması səlahiyyəti olan orqan tərəfindən protokol tərtib edilməsi üçün qaytarılması inzibati xəta törətmiş şəxslərin müddətin keçməsi ilə bağlı inzibati məsuliyyətdən azad edilməsinə səbəb olur.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıların qeyd edilməsini zəruri hesab edir...

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin I və X hissələrinin hüquqi mahiyyətindən irəli gələrək, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.2-ci maddəsində sadalanan inzibati xətalarla yanaşı, digər inzibati xətalar haqqında iş üzrə icraatın başlanması barədə qərar qəbul etmiş prokuror həmin qərarı hüquqi şəxsin inzibati məsuliyyətə cəlb edilməsi üçün bu Məcəllənin 18.5 və 103-cü maddələrinə əsasən məhkəməyə göndərməkdə haqlıdır.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

*Çıxarış*

**Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin I və II hissələrinin və 71-ci maddəsinin X hissəsinin tələbləri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 156.2, 159.1, 159.3, 159.3-1, 159.8-1, 163.2 və 163.4-cü maddələrinin həmin Məcəllənin 84.5.11, 84.5.16, 151.2, 172.2, 290.5.2 və 290.5.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair**

4 noyabr 2023-cü il — Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 156.2, 159.1, 159.3, 159.3-1, 159.8-1, 163.2 və 163.4-cü maddələrinin həmin Məcəllənin 84.5.11, 84.5.16, 151.2, 172.2, 290.5.2 və 290.5.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikasının Baş Prokurorluğu və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Bakı Apellyasiya Məhkəməsinin mütəxəssis mülahizələrini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 156.2, 159.1, 159.3, 159.3-1, 159.8-1, 163.2 və 163.4-cü maddələrinin həmin Məcəllənin 84.5.11, 84.5.16, 151.2, 172.2, 290.5.2 və 290.5.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, cinayət-prosessual qanunvericiliyin müvafiq normalarının tələblərinə görə, cinayət işi üzrə məhkəməyədək icraat zamanı həbs və vəzifədən kənarlaşdırma prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi üçün müstəntiqin vəsatəti əsasında ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror məhkəməyə təqdimatla müraciət edir. Ev dustaqlığı qətimkan tədbirinə münasibətdə də eyni prosessual tələb nəzərdə tutulmuşdur.

Eyni zamanda, cinayət işi üzrə məhkəməyədək icraat zamanı təqsirləndirilən şəxsin həbsdə və ya ev dustaqlığında saxlanılması müddəti müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə tərəfindən uzadıla bilər.

Sorğuverənin qənaətinə görə, göstərilən məsələlərlə bağlı müstəntiqin vəsatəti olmadan ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən məhkəməyə təqdimat verilməsinin məhdudlaşdırılması prokurorun prosessual rəhbər funksiyaları ilə uzlaşmır.

Belə ki, qanunla ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora cinayət işi üzrə mümkün olan bütün qərarları qəbul etməklə cinayət işinin taleyini həll etmək səlahiyyəti verilmişdir. Həmçinin, məhkəmə tərəfindən prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi barədə qərarın müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında qəbul edilməsi göstərilsə də, Cinayət-Prosessual Məcəlləsinin 151.2, 157.7, 172.2 və 290.5-ci maddələri ilə prokuror tərəfindən müstəntiqin vəsatəti olmadan da təqdimat verilməsi müəyyən edilmişdir.

Göstərilənlərə əsasən, Prokurorluq prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi üçün müstəntiqin vəsatəti olmadan ibtidai araşdırmaya prosessual rəhbərliyi

həyata keçirən prokuror tərəfindən təqdimat verilməsinin mümkün olub-olmaması məsələsinə aydınlıq gətirilməsi və bununla da vahid təcrübənin formalaşdırılması məqsədi ilə Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə bağlı aşağıdakıları qeyd edir...

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin I və II hissələrinə və 71-ci maddəsinin X hissəsinə uyğun olaraq və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 85.2.1 və 85.2.5-ci maddələrinin mənasına görə, müstəntiqin icraatında olan cinayət işi üzrə qətimkan tədbirinin seçilməsi və uzadılması həmin Məcəllənin 156.2, 159.1, 159.3, 159.3-1, 159.8-1, 163.2 və 163.4-cü maddələrinin tələblərinə müvafiq olaraq müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə qərarı ilə həyata keçirilir.

**2.** Cinayət işi başlamış və bu halda müstəntiqin səlahiyyətlərindən istifadə edərək həmin işin ibtidai istintaqını aparan prokuror Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 156, 159 və 163-cü maddələrində göstərilən hallarda şübhəli və ya təqsirləndirilən şəxs haqqında qətimkan tədbirinin seçilməsi və uzadılması barədə təqdimatla məhkəməyə müraciət edə bilər.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsinin I və II hissələrinin və 71-ci maddəsinin X hissəsinin tələbləri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 156.2, 159.1, 159.3, 159.3-1, 159.8-1, 163.2 və 163.4-cü maddələrinin həmin Məcəllənin 84.5.11, 84.5.16, 151.2, 172.2, 290.5.2 və 290.5.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair 04 noyabr 2023-cü il tarixli Qərarından hakim İ.Nəcəfovun**

## XÜSUSİ RƏYİ

15 noyabr 2023-cü il Bakı şəhəri

Konstitusiya Məhkəməsi Plenumunun Qərarına hörmətlə yanaşaraq, aşağıdakı mövqeyimi bildirirəm.

Məhkəmənin qərarının təsviri və nəticəvi hissəsi ilə qismən razıyam. Qərar üzrə öz xüsusi rəyimi ədalət mühakiməsi nöqteyi-nəzərindən bildirməyi vacib hesab edirəm.

Azərbaycan Respublikasının Prokurorluğunun sorğusunda göstərilmişdir ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 156.2-ci maddəsinə əsasən həbs və vəzifədən kənarlaşdırma müstəntiqin vəsatəti əsasında və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı, habelə cinayət işinə baxan məhkəmənin təşəbbüsü ilə və yalnız məhkəmənin qərarına əsasən seçilə bilər. Ev dustaqlığı bu Məcəllənin 163-cü maddəsində nəzərdə tutulmuş qaydada məhkəmənin öz təşəbbüsü, müdafiə tərəfinin vəsatəti, habelə müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə tərəfindən seçilir.

Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 151.2-ci maddəsinə əsasən təqsirləndirilən şəxs barəsində ev dustaqlığı və ya girov qətimkan tədbiri hakim tərəfindən seçilmişsə, qətimkan tədbirinin şərtlərini pozduğuna görə prokuror həmin şəxsin tutulması barədə qərar çıxarmaqla yanaşı, onun həbsə alınmasına dair məhkəməyə təqdimat göndərir.

Bundan başqa, Cinayət-Prosessual Məcəlləsinin 290.5-ci maddəsinə əsasən ittiham aktı ilə daxil olmuş cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror öz qərarı ilə aşağıdakı hərəkətləri yerinə yetirmək hüququna malikdir:

**1.** müstəntiq tərəfindən seçilmiş qətimkan tədbirini ləğv etmək və ya dəyişdirmək;

**2.** zərurət olduqda müstəntiq tərəfindən qətimkan tədbirlərinin seçilmədiyi halda belə tədbirlərdən birini seçmək və ya təqsirləndirilən şəxs haqqında həbs, qətimkan tədbirinin seçilməsi barədə təqdimatla məhkəməyə müraciət etmək;

**3.** təqsirləndirilən şəxsin həbsdə və ya ev dustaqlığında saxlanılmasına bu Məcəllənin 155.1-155.3-cü maddələrində nəzərdə tutulan əsaslar mövcud olduqda, bu Məcəllənin 292.1- 1-ci maddəsində nəzərdə tutulmuş müddətin təmin edilməsi məqsədi ilə həmin qətimkan tədbirinin müddətinin uzadılması barədə bu Məcəllə ilə müəyyən edilmiş qaydada təqdimatla məhkəməyə və ya müvafiq təqdimatın verilməsi üçün yuxarı prokurora müraciət etmək.

Beləliklə, hüquq tətbiq etmə təcrübəsindəki ziddiyyətlərin aradan qaldırılması, vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması, cinayət-prosessual qanunvericiliyi normalarının eyni qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədi ilə prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi üçün müstəntiqin vəsatəti olmadan ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən məhkəməyə təqdimat verilməsinin mümkünlüyünün müəyyən edilməsi üçün həmin maddələrin şərh edilməsi zərurəti yaranmışdır.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 90.2-ci maddəsinin müddəasına əsasən normativ hüquqi akt şərh edildikdə onun normalarının məzmunu izah edilir və dəqiqləşdirilir, onun qanunvericilikdə yeri, habelə ictimai münasibətlərin eyni növünün müxtəlif aspektlərini tənzimləyən digər normalar ilə funksional və başqa əlaqələri müəyyən edilir.

Sorğuda qeyd olunmuş normaların şərhi üçün ilk növbədə, CPM-in 7.0.23-cü maddəsindəki prokuror - öz səlahiyyətləri daxilində bu Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət işləri üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən... şəxsdir müddəası izah olunmalıdır. Bu müddəada "prokuror prosessual rəhbərdir" hissəsinin izahı xüsusi əhəmiyyət kəsb edir. Çünki o, ibtidai araşdırmada mühüm rol oynayır. Digərlərindən fərqli olaraq, onun hüquq və vəzifələri daha geniş və çoxşaxəlidir.

İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror ibtidai araşdırma prosesində zərurət olduqda təhqiqatçıya, müstəntiqə göstərişlər vermək, ibtidai araşdırmanın gedişi ilə bağlı məlumatlar tələb etmək, işin materiallarını və sənədləri yoxlamaq, ibtidai araşdırmanın aparılması vəziyyəti ilə yerində tanış olmaq, ibtidai araşdırmanı aparan şəxslərin qanunsuz və əsassız qərarlarını ləğv etmək və s. hüquqlarına malikdir. Prokurorun eyni zamanda Məcəllənin 172, 443, 447-ci maddələrində nəzərdə tutulan hallarda təqdimatla məhkəməyə müraciət etmək və ya təqdimatla yuxarı prokurora müraciət etmək səlahiyyəti vardır. (CMP-in 84.5-ci mad.).

Prosessual rəhbərliyi həyata keçirən prokurorun CPM-in 84.5-ci maddəsində təsbit edilən hüquqları məsuliyyətlə yüklənən hüquqlardır. Yəni məhkəməyədək icraat zamanı bu Məcəllənin müddəalarının tətbiqi və icrası üçün ona verilmiş hüquqları həyata keçirərkən qəbul etdiyi qərarlara və bütün prosessual hərəkətlərə görə məsuliyyət daşıyır. (CPM 84.2-ci mad.).

Prokuror cinayət işi üzrə məhkəməyədək icraat zamanı zəruri hallarda təqsirləndirilən şəxs barəsində ev dustaqlığı qətimkan tədbiri seçilməsi ilə bağlı CPM-in 84.5.7-ci maddəsinə əsasən müstəntiqə göstəriş verdikdə, o həmin göstərişi CPM-in 85.2.7-ci maddəsinə əsasən icra etməyə borcludur. Əgər müstəntiq prokurorun bu göstərişi ilə razı olmasa belə, o, yenə də göstərişi icra etməlidir və eyni zamanda öz əsaslandırılmış etirazını yuxarı prokurora bildirə bilər. Prokurorun yazılı göstərişlərindən edilən etiraz bu göstərişlərin icrasını dayandırmır. (CPM 85.5-ci mad.).

Müstəntiqin prokurorun göstərişini icra etməsini təsdiq edən prosessual hərəkəti isə müstəntiqin qətimkan tədbiri barədə əsaslandırılmış vəsatətidir. (CPM-in 156.2-ci mad.).

Göründüyü kimi, CPM-in 84.5.7-ci, 85.2.7-ci və 85.5-ci maddələri bir-biri ilə funksional əlaqədədir. Yəni prokurorun 84.5.7-ci maddədə göstərilən hüququnun həyata keçirməsi ilə, müstəntiqin 85.2.7-ci maddədə qeyd edilən vəzifəsinin mütləq icrası üçün hüquqi fakt yaranır.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinə əsasən qətimkan tədbiri seçmək bir halda müstəntiqin vəzifəsi (CPM-in 85.2.5, 85.2.7-ci mad.), digər halda isə hüququdur. (CPM-in 85.4.12-ci mad.).

İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror, müstəntiq, təhqiqatçı və məhkəmə qətimkan tədbirlərinin tətbiqi üçün, cinayət təqibi üzrə toplanmış materiallarda şübhəli və ya təqsirləndirilən şəxsin hərəkətlərində kifayət qədər qanunda göstərilən əsaslar olduqda, onun barəsində qətimkan tədbiri seçir. (CPM-in 155-ci mad.).

Qətimkan tədbirinin seçilməsinin əsas məqsədi şübhəli və ya təqsirləndirilən şəxsin qanuna zidd davranışının qarşısını almaq və hökmün icrasını təmin etməkdir. (CPM-in 154-cü mad.).

Digər tərəfdən, sorğuda şərh olunması xahiş edilən CPM-in normaları ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun ibtidai araşdırmanın müxtəlif mərhələlərindəki təqsirləndirilən şəxslə bağlı qətimkan tədbirinin seçilməsi və dəyişdirilməsi ilə bağlı hüquqlarını özündə əks etdirir.

Ev dustaqlığının və girovun şərtlərinə nəzarət edən prokurordur. Müstəntiq bu prosesdən kənardadır. Ona görə də təqsirləndirilən şəxs barəsində seçilmiş qətimkan tədbirinin daha ağır qətimkan tədbiri ilə əvəz edilməsində vəsadət tələb olunmur. Çünki qətimkan tədbirinin seçilməsi üçün zəruri olan hüquqi əsaslar prokurorun ilkin təqdimatı və məhkəmənin qərarında öz əksini və təsdiqini tapmışdır.

Məhkəməyədək ibtidai araşdırma müxtəlif prosessual mərhələlərdən ibarətdir. Hər mərhələnin öz məqsədi və bu məqsədlərə xidmət edən prosessual şəxslər var. Onların isə prosessual hərəkətlərlə bağlı hüquq və vəzifələri var. Qanunverici bir mərhələdə olan hüquqları başqa mərhələyə aid etməmişdir.

Prokurorun CPM-in "Qətimkan tədbirinin şərtlərini pozduğuna görə təqsirləndirilən şəxsin tutulması"na dair 16-cı fəslinin 151.2-ci maddəsindəki, eləcə də həmin Məcəllənin 38-ci fəslinin 290.5-ci maddəsindəki hüquqlarının eyniliyini əsas götürüb, onların CPM-in 156.2-ci maddəsi ilə ziddiyyət təşkil etməsini iddia etmək düzgün deyildir.

Cinayət prosessual qanunvericiliyin müddəalarının tətbiqi prosesində "elmlərin açarı olan məntiqin" sillogizmlərlə əqli nəticə çıxartmaq qaydası bu halda tətbiq oluna bilməz.

**Hakim İsa Nəcəfov**

**AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU**

**Ə M R**

**№ 150/47**

**Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 26 dekabr 2023-cü il tarixli 04 nömrəli qərarının icrasının təmin edilməsi barədə**

Bakı şəhəri 29 dekabr 2023-cü il

Baş Prokurorluqda idarəçilik, icra və əmək intizamı, kadrlarla iş, sənəd dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili məsələlərini, həmçinin Baş Prokurorluğun struktur qurumları və prokurorluq sisteminə daxil olan digər qurumları arasında, o cümlədən tabe prokurorluqlar ilə münasibətləri, tabe prokurorluqda işin təşkili və iş bölgüsünün əsaslarını tənzimləyən Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları" Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmişdir.

Ötən müddət ərzində qanunvericiliyə edilmiş dəyişikliklər, o cümlədən Qaydaların tətbiqi prosesində ortaya çıxan çətinliklər daha da təkmilləşdirilməsi məqsədilə Qaydalara normayaratma fəaliyyətinin mütənasiblik, sistemlilik və digər prinsiplərinə uyğun olaraq dəyişikliklər edilməsini zəruri etmişdir.

Qeyd olunanlara əsasən, Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"na dəyişikliklər edilməsi ilə əlaqədar Baş Prokurorluğun bütün struktur qurumları və tabe prokurorluqlar tərəfindən irəli sürülmüş təkliflər geniş müzakirə edilərək təkmilləşdirilmiş və hazırlanmış layihə təsdiq edilməsi üçün Baş Prokurorluğun Kollegiyasının müzakirəsinə çıxarılmışdır.

Baş Prokurorluğun 26 dekabr 2023-cü il tarixli Kollegiya iclasında Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nda dəyişikliklər təsdiq edilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclasının qərarının icrasını təmin etmək məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10 və 11-ci maddələrini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 26 dekabr 2023-cü il tarixli 04 nömrəli qərarı ilə təsdiq edilmiş dəyişikliklər 01 yanvar 2024-cü il tarixdən qüvvəyə minsin və bütün prokurorluq orqanlarında tətbiq edilsin.

**2.** İşgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza tətbiq edilməsi barədə 01 yanvar 2024-cü il tarixədək Baş Prokurorluğun struktur qurumlarına və tabe prokurorluqlara daxil olmuş məlumatlar həmin qurumlar tərəfindən araşdırılsın və bu qəbildən olan araşdırmalar üzrə verilən şikayətlərə hazırki dəyişikliklər qüvvəyə minənədək mövcud olmuş qaydada baxılsın.

**3.** Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda təsdiq edilmiş dəyişikliklərə uyğun olaraq qısa müddət ərzində Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası prokurorluqları tərəfindən "İşin Təşkili Qaydaları"nda dəyişikliklərin hazırlanıb təsdiq olunması, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Bakı şəhər prokurorluğu tərəfindən isə müvafiq dəyişikliklərin hazırlanıb təsdiq üçün təqdim olunması təmin edilsin.

**4.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini və müavinlərinə, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**5.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**